NƏZAKƏT ƏLƏKBƏRQIZI

# ZİYALILIQ ZİRVƏSİ

Ar 2011/1670

*NƏZAKƏT ƏLƏKBƏRQIZI*

# ZİYALILIQ ZİRVƏSİ

91920

Hər söz bir ulduz, bir şəffaf almaz,
Mənalar dünyası qaranlıq deyil.
Bu böyük kitablar yaranır az, az,
Çünki ömürlükdür, bir anlıq deyil.

**Səməd Vurğun**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ARXİV

**Bayramoğlu**
**BAKI-2011**

92365

Т3(2А).Д + Ч216(2А)

Naşir: **Səbuhi Aslan**
*"Elm və Zəka" qəzetinin baş redaktoru*

Rəyçi: **Oqtay Salamzadə**
*Xalq yazıçısı*

Redaktorlar: **Elməddin Əlibəyzadə**
*Filologiya elmləri doktoru, professor*
**Mahirə Qarayeva**
*"İctimai fikir" qəzetinin baş redaktoru,*
*"Qızıl qələm" media mükafatı laureatı*

"Ziyalılıq zirvəsi" Bakı-2011. 246 səh.

В $\frac{\text{Н4802080154}}{\text{146-2011}}$

©"Bayramoğlu" nəşriyyatı-2011



***Azərbaycan Respublikasının Dövlət gerbi***



***Azərbaycan Respublikasının Dövlət bayrağı***



## Azərbaycan Respublikasının Dövlət Himni

***Musiqisi; Üzeyir Hacıbəyovun,***
***Sözləri; Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

# ÖN SÖZ

Bizim dünyamız Tanrı tərəfindən yaradılarkən, onun qismətinə kainatın ən gözəl neməti olan insanların onun torpağında yaşaması olub. Bu torpaq kainatın neməti olan hər bir canlını yetirə bilər. O canlıların tacı insandır. İnsan kainatın bəzəyidir. Bu bəzəyin içərisində öz qiyməti ilə seçilən nemətlər az olmur. Bu nemət milli dəyərdir. Bu milli dəyər məvhumu Azərbaycan xalqının adına yazılıb.

Azərbaycan xalqı dünya xalqları içərisində bəşəriyyətin ön cərgəsində dahi Nizami dövründən tutmuş bu günə qədər öz istedadlı övladları, ziyalıları ilə fəxr etmiş və etməkdədir. Bu Tanrının xalqımıza bəxş etdiyi ən böyük nemətdir.

"Ziyalılıq zirvəsində" kitabını oxucuya təqdim edərək, biz bu girişi müqəddəs bir qıfılın açarı hesab edirik.

Biz bu açarı oxucuya təqdim etdik. Qoy bu açar, onun hikməti bu kitabı vərəqləsin və bu Tanrının neməti hesab edilsin və bundan həvəslənsin.

Bakını bəzəyən bütün mərmər heykəllər, Azəri bədii dühasının rəmzi olan qələm sahibidir. Ona görə də mən xalqımıza belə bir kitabı bəxş edən müəllifləri, nasirləri və müdafiə edənlərin hamısını, o cümlədən kamil qələm sahibi, zəngin və yüksək mənəviyyatlı, ziyalı xanım Nəzakət Ələkbərqızını alqışlayıb təbrik edirəm.

***İnsanlığa böyük hörmət və məhəbbətlə***

**Oqtay Salamzadə**

***Yazıçı-ilahiyyatçi,***
***Azərbaycanın Əməkdar mədəniyyət xadimi,***
***Beynəlxalq mükafatlar laureatı***

***

Qədim tarixə malik olan Azərbaycan ədəbiyyatının inkişafında, onun dünya şöhrəti qazanmasında Xəqani, Nizami, Füzuli, S.Ə.Şirvani kimi qüdrətli qələm sahibləri ilə yanaşı Məhsəti xanım Gəncəvi, Xurşud Banu Natəvan, Fatimə xanım, Kəminə xanım, Heyran xanım və başqa dəyərli söz ustadı olan xanımlarımızın da əvəzsiz xidmətləri olmuşdur. Bu şərəfli ənənənin mahir ardıcılları hazırda müstəqil Azərbaycan Respublikasının parlaq gələcəyi naminə əzmlə çalışırlar. Ölkəmizin dinamik inkişafı yollarına nur saçan istedadlı, şərəfli yazıçı-jurnalistləri içərisində elmi ilə, yüksək mədəniyyəti, zəngin mənəviyyatlı insani xüsusiyyətləri ilə





və ən nəhayət qüdrətli qələminin, zehninin, istedadının bar-bəhəri olan dəyərli, mənalı söz gülüstanı ilə sayılıb, seçilən Nəzakət Ələkbər qızının növbəti kitabı işıq üzü gördü: "Ziyalılqı zirvəsi" adlanan bu kitabın müəllifi "Qızıl qələm"li Nəzakət xanımın həyat və fəaliyyəti, titulları, apardığı vəzifələr və mükafatlandırıldığı təltiflər haqda səh. 7-də qeyd olunmuşdur. Nəzakət Ələkbər qızı 4 kitabın müəllifi olmaqla növbəti "Ziyalılqı zirvəsi" kitabında yalnız seçilmiş - nadir incilərimiz haqda qısa məlumat vermişdir. Bir ildən artıq bir dövrdə kitabın hasil olub işıq üzü görməsi üçün, zehni-zəhmət, gözünün nuru, əlinin qələmi ilə çalışan müəllif, yazıçı-şairə ölkəmizin tanınmış-nüfuzlu mətbuat nümayəndəsi Nəzakət Ələkbər qızı kitabda təqdim etdiyi hər bir alim, ziyalı şəxslə söhbət apararaq, müsahibə almış dəfələrlə görüşüb aldığı məlumatları dəqiqləşdirmək üçün vaxt, zəhmət sərf etmişdir. Kitabın işıq üzü görməsi üçün Naşir Səbuhi Aslan, dizayner Sənan Bayramoğlu, operavtor Pərvin Ağdamlı və mətbəə işçilərnin də əməyi böyük olmuşdur.

"Ziyalılıq zirvəsi" adından əmlum olur ki, müəllif kitabın araya-ərsəyə gəlməsi üçün məsuliyyət hissi ilə seçim etmiş və bu yolu uğurla başa vurmuşdur. Bir salnaməyə bənzər ömür həsr etmişdir Vətənə-xalqa bu kitabda işıqlandırılan alimlərin, ziyalıların çəkdiyi zəhmət. Hər biri ziya adlı bir dünyada zirvə fəth etməyə qadir olan Vətən övladlarını bir daha tarixdə yaşatmağa çalışan Nəzakət xanım deyir:

- Gələcək nəsillər, bu günün gəncləri oxusun, incilərimiz haqqında və kamilliyə gedən yola öz dünyəvi baxışları ilə, haqq-ədalətə bağlı fikirləri ilə tam hazır olsunlar. Yazdım ki, bir daha gələ bilməyəcəyimiz bu dünyada qalsın-oxunsun və nəsildən-nəsilə ötürülərək, örnək olsun, dahilik məqamına yetən nüfuzlu ziyalılarımızın keçdiyi keşməkeşli-məsuliyyətli, zəhmət və uğurlarla zəngin şərəfli yollar.

Hörmətli oxucularımıza təqdim olunan "Ziyalılıq zirvəsi" kitabında haqqında söz açılan akademik, alim, professor, səhiyyə və təhsil sahəsində tanınmış ziyalıların həyat və fəaliyyətinin hər bir zərrəsi ölkəmizin tərəqqisinə, xalqımızın xoşbəxt gələcəyinə həsr olunmuşdur. Oxuyaq və alqışlayaq saf və ülvi sevgi ilə Vətənə bağlı, xalqa məhəbbət və ehtiramla xidmət edən, mətbuatımızın şərəfli, ləyaqətli nümayəndəsi, yazıçı-jurnalist, yazıçı-pedaqoq Nəzakət xanım Ələkbər qızının növbəti kitablarına uğur, yollarına nur diləyək İlahidən.

**Fərdə Ləman**

***filologiya elmləri doktoru,***
***"Məhsəti" jurnalının baş redaktoru,***
***"Məhsəti" şairlər cəmiyyətinin sədri***

# ZİYALI ZİRVƏSİ

*İnsanlığı xoş niyyətli,*
*Sözündə tam qətiyyətli,*
*Tanınırsa cəsarətli,*
*Bax, ziyalı beləsidir.*

*Halal nemət süfrəsində,*
*Xoş duyğular sinəsində,*
*Qüdrət varsa eləsində*
*Bax, ziyalı beləsidir.*

*Düzlüyə əməl edirsə,*
*Öz xalqını çox sevirsə,*
*Yaxşı işə sevinirsə,*
*Bax, ziyalı beləsidir.*

*Əgər elmə can atırsa,*
*Vətən üçün qocalırsa,*
*Daim qurub-yaradırsa,*
*Bax, ziyalı beləsidir.*

*Hər işində qalibdirsə,*
*Əməlləri salehdirsə,*
*Hamı ona valehdirsə,*
*Bax, ziyalı beləsidir.*

*Haram malda gözü yoxsa,*
*Yalan, qeybət sözü yoxsa,*
*Paxıllıqda izi yoxsa,*
*Bax, ziyalı beləsidir.*

*Haqq sözlərin hey deyirsə,*
*Ədalətdən don geyirsə,*
*Sadəliyə meyl edirsə,*
*Bax, ziyalı beləsidir.*

*Özü ləyaqətlidirsə,*
*Ömrü şərafətlidirsə,*
*Dosta sədaqətlidirsə,*
*Bax, ziyalı beləsidir.*

***Nəzakət ƏLƏKBƏRQIZI***







## REDAKTORDAN

Dünya ölkələri sırasında sərvətli, əlverişli, təbii şəraitə malik olan Azərbaycan məşhur xadimləri, alimləri, istedadlı sənət adamları ilə daha da şöhrətlənir. Tarixdə yaşamaq, kitablarda iz salmaq yurdun seçilmiş, nadir şəxsiyyətlərinə şamildir. "Ziyalılıq zirvəsi" kitabının müəllifi Nəzakət xanım Ələkbər qızı Azərbaycan mətbuatında kifayət qədər tanınmış yazıçı, "Qızıl qələm" Media Mükafatı laureatıdır. "İctimai fikir" jurnalının baş redaktoru Nəzakət Ələkbərqızının kamil qələminin bar-bəhəri olan 4 kitab artıq oxucuların ixtiyarındadır. Yaradıcı kitablarla yanaşı tərtibçi müəllif olaraq ensiklopedik toplular şəklində nəşr etdirdiyi "Azərbaycan ziyalıları və Ziyalılıq zirvəsi" kitablarında ölkəmizdə və dünyada tanınmış elm xadimləri, alimlər, ixtiraçı mühəndislər, həkimlər, qabaqcıl maarif işçilərinin həyat və fəaliyyəti barədə məlumat verilmişdir. Məqsəd öz xidmətləri ilə Vətənə töhfə verənlərin həyatını gələn nəsillərə örnək yolu olaraq təqdim etməkdir. Nəzakət xanım ali təhsilli mütəxəssis olaraq, Vətənə, xalqa göstərdiyi yüksək xidmətlərinə görə dəfələrlə dəyərli təltiflərə, mükafatlara layiq görülmüşdür. Vətənpərvər ziyalı Nəzakət Ələkbərqızı "Dünya Ana və Uşaq" İB-nin, "Dünya Azərbaycanlıları Konqresi"nin Qadınlar Şurasının sədr müavini, "Elm və zəka" redaksiyasının direktoru vəzifəsini uğurla icra edir. Onun qələmə aldığı yüzlərlə elmi-publisistik məqalələr və redaktor olduğu səviyyəli kitablar oxucular tərəfindən rəğbətlə qarşılanır. Bütün üstün xüsusiyyətlərinə, elminə, istedad və bacarığına rəğmən Nəzakət xanım möhtəşəm ziyalı bir ailənin davamçısı, yüksək mənəviyyatlı, mətin, iradəli, alicənab xanım, Respublikanın ictimai həyatında fəal rolu olan yazıçı, ictimaiyyətçi, məsul vəzifədə uğurla çalışan jurnalistdir. Onun haqqında çox ithaflar yazılmaqdadır və İnşaAllah yazılacaqdır. Biz də yazıçı-jurnalist Nəzakət xanıma iki ali təhsilli oğulları ilə, onu sevənlərlə birgə xoşbəxt həyat yolu, uğurlu yaradıcılıq fəaliyyəti arzulayırıq.

"Qızıl qələm" sahibi bu xanım Nəzakətin
Heyranıyam xalqına o böyük məhəbbətin.
Çox səylər göstəribdir qələm tutan əliylə,
Kitabını ərsəyə gətirib zəhmətiylə.

Bu kitabda qəhrəman alim ziyalılardır,
Azərbaycan xalqının fəxri övladlarıdır.
Minnətdar olmalıyıq, çün bu kitabı yazdı,
Qəlbində yaşatdığı ülvü arzuya çatdı.

**Mahirə Qarayeva**
***"Qızıl qələm" media mükafatı laureatı***
***"İctimai fikir" qəzetinin baş redaktoru***

## HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV

*Ümummilli lider*



Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da anadan olmuşdur. 1939-cu ildə Azərbaycan Dövlət Texniki Universitetinin memarlıq fakültəsinə daxil olub, 1941-1944-cü illərdə Naxçıvan Muxtar Respublikası Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində çalışıb. 1944-cü ildən başlayaraq təhlükəsizlik orqanlarında fəaliyyət göstərib.

1969-cı ildən Azərbaycan KP MK-nın birinci katibi təyin edilib. 1975-ci ildə Siyasi Büronun üzvlüyünə namizəd olub. 1990-cı il noyabr ayının 17-də Naxçıvanda onun rəhbərliyi ilə Azərbaycanın milli bayrağı qaldırılıb. 1993-cü ildə Azərbaycan parlamentinin sədri, 1993-1998-ci illərdə Azərbaycan Respublikasının Prezidenti seçilib. 1994-cü il may ayının 12-də işğalçı Ermənistanla müharibədə atəşkəsə nail olub. 1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin Müqaviləsi" neft kontraktının bağlanmasına nail olmaqla Azərbaycan iqtisadiyyatının inkişafında yeni mərhələ açıb. 1993-2003-cü illərdə prezidentlik fəaliyyəti dövründə Azərbaycanı dünya arenasında qüdrətli bir dövlət kimi tanıdıb.

Ümummilli liderimiz Heydər Əliyev bütün ömrünü, həyatının ən dəyərli anlarını respublikamızın çiçəkləklənməsinə sərf etmişdir. O, elə bir nadir tarixi şəxsiyyətdir ki, bəlkə onu vəsf etməyə sözün də qüdrəti çatmaz. Dünyanın ən xoş sözlərini onun ünvanına desək, yenə də az olar.

Müasir tariximizin ən parlaq şərəfli səhifəsi onun adı ilə bağlıdır. Heydər Əliyev təkcə tarixə düşən yox, həm də tarixi yazan, yaradan şəxsiyyətdir. Onun mənsub olduğu xüsusiyyətlərindən hər biri Tanrı vergisi idi. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi əməlləri ilə əbədi yaşamaq haqqı qazanan lideri var. Xalqını, millətini azadlığa, istiqlaliyyətə qovuşduran, öz müqəddəratını təyin etmək haqqına sahib çıxan Heydər Əliyev 1993-cü ilin iyun ayında yenidən hakimiyyətə qayıdanda Azərbaycanda vəziyyət son dərəcə ağır idi. Uzun illərin dövlətçilik təcrübəsi, yenilməzliyi, fədakarlığı, uzaqgörənliyi, xalqına olan məhəbbəti Heydər Əliyevə əlavə güc verirdi. O, ən böyük gücünü də öz xalqından alırdı. On il müstəqil dövlətimizə rəhbərlik edən Ümummilli liderimiz Azərbaycanı dünyanın ən nüfuzlu, dinamik inkişafda olan ölkələr sırasına yüksəltdi. Bu gün Heydər Əliyevin yolu, siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla xalqın maraqlarına, dövrün tələblərinə uyğun şəkildə davam və inkişaf etdirilir. Heydər Əliyev yolu ölkəmizin uzunmüddətli inkişafı, xalqımızın xoşbəxtlik simvoludur.





## ZƏRİFƏ ƏZİZ QIZI ƏLİYEVA

*AMEA-nın həqiqi üzvü,*
*əməkdar elm xadimi*



Zərifə Əziz qızı Əliyeva (1923-1985) 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirdikdən sonra Moskva şəhərində Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçmiş, öz əmək fəaliyyətinə 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda ordinator vəzifəsindən başlamışdır. 1959-cu ildə Z.Ə.Əliyeva namizədlik dissertasiyası, 1976 -cı ildə doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru, alimlik dərəcəsi adını almışdır.

1976-cı ildə Z.Ə.Əliyeva "Azərbaycanda kimya sənayesinin bəzi müəssisələrində işçilərin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1979-cu ildə keçmiş İttifaqda ilk dəfə olaraq akademik Zərifə xanım Əliyevanın şəxsi təşəbbüsü və iştirakı ilə istehsalatla elmin vəhdəti olan Bakı Məişət Kondisionerləri Zavodunda Respublika Elmlər Akademiyasının A.İ.Qarayev adına Fiziologiya İnstitutunun peşə patologiyası üzrə problem laboratoriyası yaradılmışdır. Z.Ə.Əliyeva uzun illər ona rəhbərlik göstərmişdir.

Peşə xəstəlikləri üzərində aparılmış bir sıra elmi axtarışlara görə Z.Əliyeva SSRİ Elmlər Akademiyası tərəfindən akademik M.İ.Averbax adına mükafatla təltif edilmişdir. "Gözün hidrodinamik sisteminin anatomik və fizioloji xüsusiyyətləri", "İridodiaqnostika", "Şəkərli diabed zamanı gözün patologiyası", "Oftalmologiyanın aktual problemləri", "Terapevtik oftalmologiya" və başqa monoqrafiyalar çap edilmişdir. Ümumiyyətlə onun 200-ə qədər elmi işləri, 14 monoqrafiyası və 12 səmərələşdirici təklifləri var idi. Akademik Z.Ə.Əliyeva böyük ictimai iş də aparırdı. O, keçmiş İttifaqın Sülhü Müdafiəsi Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiəsi Komitəsinin sədr müavini, "Bilik" ümumittifaq cəmiyyətinin idarə heyətinin üzvü, Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin rəyasət heyətinin üzvü, "Vestnik oftalmoloji" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Z.Ə.Əliyevanın əvəzsiz xidmətlərinin etirafı kimi 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi, orden və medallarla təltif edilməsi olmuşdur. Ona Azərbaycan Respublikası "Əməkdar elm xadimi" Fəxri adı verilmişdir, 2001-ci ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna Z.Ə.Əliyevanın adı verilmişdir.

# İLHAM HEYDƏR OĞLU ƏLİYEV

*Azərbaycan Respublikasının Prezidenti*



Azərbaycanın son illərdə əldə etdiyi sosial-iqtisadi, mədəni nailiyyətlər faktlarla təsdiqlənən tarixi reallıqlardır. Qazanılan uğurların tarixliyini şərtləndirən ən mühüm amil isə bundan ibarətdir ki, müstəqil dövlətiimz tərəqqi əldə etməklə hansısa ölkənin rekordunu təkrarlamır, əksinə, sosial-iqtisadi göstəriciləri ilə yeni nailiyyətlərini müəyyən edir. Başqa ölkələr üçün də məqbul tərəqqi modelini ortaya qoyur.

Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" və 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı(2004-2008-ci illər)"nın təsdiq edilməsi haqqında fərmanlarında ölkə iqtisadiyyatında müşahidə olunan pozitiv inkişaf meyllərinin sürətləndirilməsi, regionların tarazlıq, sabit və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, infrastrukturun yeniləşdirilməsi, yeni iş yerlərinin yaradılması kimi vacib məqamlar öz əksini tapmışdır. Dövlət Proqramı əsasında həyata keçirilən kompleks tədbirlər sistemi ölkə iqtisadiyyatının ən müxtəlif sahələrinin, o cümlədən, yerli və xarici investisiyalar, müasir idarəetmə texnologiyalarının cəlb olunması yolu ilə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, mövcud müəssisələrin, yeni iş yerlərinin açılması hesabına ölkədə işsizlik, buna müvafiq olaraq yoxsulluq probleminin aradan qaldırılmasına, vətəndaşlarımızın maddi rifah halının yüksəldilməsinə yönəldilmişdir.

Prezident İlham Əliyev fundamental əhəmiyyət kəsb edən bu dövlət proqramlarının icra vəziyyətini - onların yeni imkanlar və tələblər baxımından nəzərdən keçirilib təhlil olunmasını, qarşıya qoyulan vəzifələrin tam həcmdə və vaxtında yerinə yetirilməsini təmin etmək üçün sanaye və kənd təsərrüfatı istehsalının, sosial və istehsal infrastruktur sahələrinin dinamik inkişafının enerji tələbatını ödəmək üçün alternativ enerji mənbələrindən istifadə olunması, enerji istehsalı və təchizatının əhəmiyyətli dərəcədə artırılması, investisiya qoyuluşu üçün daha əlverişli şəraitin yaradılması, daxil və xarici sərmayənin stimullaşdırılması, investisiya qoyuluşunun başlıca istiqamətinin regionların, qeyri-neft sektorunun inkişafına yönəldilməsi, maddiləşən işgüzar fəallığın gücləndirilməsi üçün konkret tədbirlər görülməsi nəzərdə tutulmuşdur.





# MEHRİBAN ARİF QIZI ƏLİYEVA

*Ölkənin birinci xanımı, Millət vəkili*



Azərbaycan dövlətçiliyi tarixində tarixi yaddaşlarımıza yazılan böyük şəxsiyyətlər çox olub. Onların içərisində xüsusi şücaətləri, siyasətdə öz dövlətçilik prinsipi ilə fərqlənən igid, qorxmaz, mərd, diplomat qadınlarımız da olub. Dövlət idarəçiliyində Azərbaycan qadınlarının peşəkarlığından, intellektual qabiliyyətindən, səmərəli işgüzar fəaliyyətindən danışdıqda bu gün Heydər Əliyev siyasi kursunu davam etdirərək cəmiyyətin ayrı-ayrı sahələrinə öz diqqət və qayğısını əsirgəməyən ölkəmizin birinci xanımı Mehriban Əliyevanın adı XXI əsr tarixinə düşən ilk öncül qadın siyasətçimiz kimi həmişə iftixarla vurğulanır. Ölkənin birinci xanımı indi Azərbaycan qadınlarının və milli mədəni irsimizin əsl təəssübkeşi kimi tanınır. Bütün bunlar YUNESKO və İSESKO-nun Azərbaycandakı xoşməramlı səfiri adını alması Mehriban Əliyevanın türk qadınına xas olan keyfiyyətləri, bacarıq və qabiliyyətlərinin bariz nümunəsidir.

Mehriban xanım Əliyeva bu gün həyata keçirdiyi bəlli missiyasının öhdəsindən layiqincə gəlir. İstər Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, istər Heydər Əliyev Fondunun prezidenti, istərsə də millət vəkili kimi gördüyü işlər göz önündədir. Onun atdığı addımlar, həyata keçirdiyi mədəni-ictimai tədbirlər xalqımızın, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın Dünya Birliyində öz layiqli yerini tutmasına doğru istiqamətlənib. Hər hansı bir problemin həllinə çarə axtaran, hardasa haqqı tapdalanan Azərbaycan vətəndaşına Mehriban Əliyeva hər zaman kömək əlini uzadır.

Mehriban xanımın Azərbaycan dövləti, xalqı naminə gördüyü işlər bütün bunlarla məhdudlaşmır. O, ölkənin birinci xanımı statusu ilə yanaşı, Azərbaycan cəmiyyətinin novatorudur. Dünyanın əksər ölkələrində dövlət rəhbərlərinin xanımlarının mədəni-sosial sahədə həyata keçirdikləri tədbirlər əsasında yaranan bu ənənənin Azərbaycanda formalaşdırılması məhz Mehriban Əliyevanın taleyinə yazılıb. Bütün bunları dünyaya nə vaxtsa Türk Dünyasından yayılan və hansısa dönəmdə unutduğumuz qədim ənənələrin yenidən bərpası, qayıdışı hesab etmək nəmdə unutduğumuz qədim ənənələrin yenidən bərpası, qayıdışı hesab etmək bəlkə də daha doğru olardı. Dövlətçilik sistemində xaqan-xatun modelini, əslində, bütün dünya məhz türk ruhundan əxz edib. Mehriban Əliyevanın simasında bu qədim ənənə türk ruhuna sədaqət hissi ilə bağlıdır.

## İMANQULİYEVA AİDA NƏSİR QIZI

*Filologiya elmləri doktoru, professor*



Aida Nəsir qızı İmanquliyeva 1939 -cu ildə oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində doğulmuşdur. O, 1946 - cı ildə 132 saylı məktəbə daxil olmuş, orta məktəbi qızıl medalla bitirib, S. M. Kirov adına (indiki bakı Dövlət Universitetinə) ADU -nun şərqşünaslıq fakultəsinə ərəb filologiyası bölməsinə qəbul olmuşdur. 1962 - ci ildə ali məktəbi müvəffəqiyyətlə başa vurmuş, universitetin Yaxın Şərq xalqları ədəbiyyatı kafedrasının aspirantı olmuşdur. Aida imanquliyeva 1966 - cı ildə Moskva şərqşünaslıq İnstitutunun aspiranturasını bitirmiş namizədlik dissertasiyasını müdafiə etmişdir. Elə həmin vaxtdan kiçik elmi işçi, 1973 - cü ildə baş elmi işçi, filologiya elmləri doktoru, professor, 1976 - cı ildən ərəb filologiyası şöbəsinin müdiri, 1988 - ci ildən elmi işlər üzrə direktor müavini, 1991 - 1992 - ci ildən ömrünün son günlərinədək AMEA Şərqşünaslıq İnstitutunun Ümumittifaq Şərqşünaslıq Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Əlaqələndirmə Şurasının, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Moskvada və Bakıda nəşr olunmuş qiymətli elmi monoqrafiyaların müəllifi, tanınmış alim və tərcüməçi idi. Aida xanım İmanquliyeva 19 sentyabr 1992 - ci ildə dünyasını dəyişmişdir.

Aida İmanquluyeva ömrünün ən mənalı çağlarında əbədiyyətə qovuşmuşdur. Gözəl alim, nüfuzlu ziyalı xanım Aida İmanquluyeva xalqımızın qəlbində yaşayır və yaşayacaqdır.19 sentyabr 1992-ci ildə dünyasını dəyişən Aida xanımın 2009-cu il 10 oktyabr tarixdə anadan olmasının 70 illiyi ilə bağlı anım mərasimi keçirilmişdir.

Ölkəmizdə yüksək səviyyədə təşkil olunan bu mərasimdə dünyanın tanınmış alimlər i, xadimləri iştirak edərək öz ürək sözlərini söylədilər.Əbədiyaşar alim, xalqın hörmətli şərqşunas ziyalı xanımı Aida İmanquluyevaya əbədi cənnət diləyirik.





## ABDULLAYEV KAMAL MEHMAN OĞLU

*Əməkdar elm xadimi,*
*texnika elmləri doktoru, professor*



**Görkəmli şəxsiyyətlər, xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını, dünyaya nümayiş etdirirlər.**

*Heydər Əliyev*

Keçdiyi nurlu yollara nəzər salmaq və həyatın hər bir anından səmərəli istifadə etmək, ziyalı nəslin gənclərə tövsiyyəsidir. Xalqımız, vətənimiz həyatı örnək olan alimlərimizlə öyünür, fəxr edir. Uzun illər elm sahəsində çalışan, vətənimiz üçün neçə-neçə savadlı gənclər yetişdirən, yüksək mənəviyyata malik olan Azərbaycan Dövlət Neft Akademiyasının kafedra müdiri, Beynəlxalq və Gürcüstan Milli Energetika Akademiyalarının akademiki, əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Kamal Mehman oğlu Abdullayev 1936-cı ildə Azərbaycan Respublikasının Qusar rayonunun Əcəxur kəndində anadan olmuşdur.

1956-cı ildə Bakı Energetika texnikumunu, 1961-ci ildə isə Azərbaycan Neft və Kimya institutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) istilik energetikası mühəndisi ixtisasını bitirmişdir. İnstitutu bitirdikdən sonra Azərenerji baş idarəsində müxtəlif vəzifələrdə, 1963-cü ildən 1972-ci ilə kimi isə həmin baş idarənin şöbə müdiri vəzifəsində işləmişdir. Həmin dövrdə aspiranturada qiyabi oxumuş və 1966-cı ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

K.M.Abdullayev 1972-ci ildən indiyə kimi Azərbaycan Dövlət Neft Akademiyasında "İstilik energetikası" kafedrasının və kafedranın nəzdindəki "Sənayedə dəniz və çirkab suların istifadəsi" problem laboratoriyasının müdiri vəzifəsində işləyir. Eyni zamanda 1982-ci ildən 1997-ci ilə kimi akademiyanın Energetika fakultəsinin dekanı vəzifəsində çalışmışdır. Doktorluq dissertasiyasını 1978-ci ildə Moskva Energetika İnstitutunda müdafiə etmişdir.

Professor Kamal Abdullayev əksəriyyəti xarici dövlətlərdə nəşr olunmuş 280-dən artıq elmi əsərin, o cümlədən Moskvada (Enerqoatomizdat) və İngiltərədə (Ellis Horwood) nəşr olunmuş dörd monoqrafiyanın, ali texniki məktəblər üçün 10 dərsliyin və 20-dən artıq ixtiranın müəllifidir. Qeyd etdiyimiz kimi monoqrafiyalar, dərsliklər və ixtiralar istilik energetikası, təbiətin qorunması və su ehtiyatlarının səmərəli istifadəsi sahələrini əhatə edir. Bu sahələr üzrə onun rəhbərliyi ilə 50-dən artıq namizədlik və dörd elmlər doktoru dissertasiyaları müdafiə edilmiş-

dir. Daim elmi axtarışlara can atan, bu yolda yorulmaq bilməyən, ağlı, biliyi, zəkası ilə elmin zirvəsini fəth edən professor Abdullayev K.M. "Şəhər çirkab sularının istilik energetikasında istifadəsi", yeni elmi istiqamətinin əsasını qoymuş və bu sahədə nəinki keçmiş ittifaqda, hətta digər xarici dövlətlərdə də tanınmış elmi məktəb yetişdirmişdir. O, elmi nəticələrə görə M.Lomonosov adına qızıl medalla (Peterburq), keçmiş ittifaqın nailiyyətlər sərgisinin qızıl və gümüş medalları ilə və həmçinin Y.Məmmədəliyev adına medalla təltif olunmuşdur.

Professor K.M. Abdullayevin rəhbərlik etdiyi kafedra keçmiş ittifaqın elm və texnika komitəsinin qərarı ilə ittifaq üzrə şəhər çirkab suların emalı və sənayedə istifadəsi problemi üzrə aparıcı təşkilat təyin edilmişdir. Keçmiş ittifaqın Elmlər Akademiyasının rəyasət heyətinin qərarı ilə o, Elmlər Akademiyasının nəşr etdiyi "Kimya və suyun texnolgiyası" jurnalının redaksiyasına üzv seçilmişdir.

Hal-hazırda Ukrayna Elmlər Akademiyasında nəşr edilən həmin jurnalın redaksiya heyətinin üzvüdür. Onun rəhbərliyi altında aparılmış elmi işlərin nəticələri keçmiş ittifaqın Energetika Nazirliyi, respublika və ittifaqın rəhbər orqanları, digər nazirliklər tərəfindən bəyənilmişdir.

Əksər elmi işlərinin nəticələri sənaye miqyasında, (o, cümlədən "Şimal" və Sumqayıt 1nömrəli istilik stansiyalarında, Krım, Xarkov, Minsk, Donbas və s. Istilik stansiyalarında) öz tətbiqini tapmışdır.

Professor Abdullayev K.M. beynəlxalq və Gürcüstan Milli Energetika Akademiyalarının akademiki seçilməklə bərabər respublikamızın əməkdar elm xadimidir. O, uzun illər istilik energetikası üzrə ixtisaslaşdırılmış dissertasiya müdafiə şurasının sədri, Ali Attestasiya komissiyasının ekspert şurasının üzvü olmuş, hazırda doktorluq müdafiə şurasının üzvüdür.

Uzun illər o, keçmiş ittifaqın Təhsil Nazirliyinin elmi metodik şurasının rəyasət heyətinin üzvü olmuş, hal-hazırda isə respublika Təhsil Nazirliyi Energetika üzrə elmi-metodik şurasının sədri müxtəlif texniki və şuralarının üzvüdür.

Dəfələrlə beynəlxalq konqress və simpoizumların iştirakçısı və xarici dövlətlərdə texniki məsələlərlə əlaqədar məzuniyyətdə olmuşdur.

Görkəmli alim Abdullayev K.M. mühəndis və elmi kadrların hapırlaşmasına görə respublika Ali Sovetinin və Təhsil Nazirliyinin fəxri fərmanları ilə və keçmiş ittifaqın əlaçı energetik döş nişanı ilə təltif olunmuşdur.

Azərbaycan Dövlət Akademiyasının kafedra və problem laboratoriya müdiri, Beynəlxalq və Gürcüstan Milli Energetika Akademiyasının Akademiki, əməkdar elm xadimi, texniki elmlər doktoru, professor Kamal Mehman oğlu Abdullayev Amerikada nəşr olunmuş Ensiklopediyada XX əsrin aparıcı alimləri sırasına daxil olmaqla, məşğul olduğu elmi sahədə böyük nüfuza malik görkəmli və məhsuldar alim, istilik energetikası elm və texnikasına çox dəyərli töhvələr vermiş, böyük nüfuza malik pedaqoq və şəxsiyyət və eyni zamanda nümunəvi ailə başçısıdır.





## ABDİNOV ƏHMƏD ŞAHVƏLƏD OĞLU

*Fizika-Riyaziyyat Elmləri doktoru, professor*

**Qüvvət elmdədir, başqa cür heç kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca zirvədən bilinir fəqət,**
**Alimin zirvəsi ucadır əlbət.**
*N.Gəncəvi*



Əhməd Şahvələd oğlu Abdinov 1945 - ci ildə Azərbaycan Respublikasının Ordubad rayonunun Behrud kəndində anadan olmuşdur.

1963 - cü ildə Ordubad şəhərindəki 1 saylı M.T.Sidqi adına orta məktəbi əla qiymətlərlə başa vuraraq elə həmin il Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin fizika fakultəsinə əla qiymətlərlə qəbul olunmuşdur.

Ə.S.Abdinov Lenin adına təqaüdlə oxumuşdur. 1968 - ci ildə Belarusiya SSR EA Fizika İnstitutunda (Minsk şəhəri) yerinə yetirdiyi diplom işini uğurla müdafiə edərək fizika fakultəsini "fərqlənmə diplomu" ilə bitirmiş və "Fizik - fizika müəllimi" ixtisasına yiyələnmişdir.

İlk əmək fəaliyyətinə 1968 - ci ildə Az SSR EA - nın Fizika institutunda kiçik elmi işçi vəzifəsində işləməklə başlayıb. Ə.S.Abdinov 1969 - 71 - ci illərdə SSRİ EA - nın Leninqrad (indiki Sankt - Peterburq) şəhərindəki A.F.İoffe adına Fizika - Texnika İnstitutnun aspiranturasında təhsil almış, 1971 - ci ildə aspiranturanı başa vurmuşdur. 1972 - ci ildə ADU - də dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək fizika - riyaziyyat elmləri namizədi, alimlik dərəcəsi adını almışdır.

Ə.S.Abdinov 1979 - cu ildə M.H.Şaxtaxtinskinin elmi məsləhətçiliyi altında doktorluq dissertasiyasını müdafiə etmişdir. 1979 - cu ildə dosent, 1981 - ci ildə isə professor elmi adlarını almışdır. Öz elmi və halal zəhməti sayəsində pillə - pillə ucalan Ə.S.Abdinov AMEA - nı Fizika institutunda kiçik elmi işçi, BDU - da assisent, baş müəllim, dosent, professor, dekan olaraq məsuliyyətli vəzifələri layiqincə yerinə yetirmişdir. O, dünyanın bir çox ölkələrində elmi konfranslarda Azərbaycanı görkəmli alim kimi təmsil etmişdir.

1993 - cü ildən 2000 - ci ilə qədər professor Ə.S.Abdinov müstəqil Azərbaycan Respublikasının təhsil sisteminin ilk rəhbərlərindən biri - Azərbaycan Respublikası Təhsil Nazirliyinin müavini olmuş, müəyyən dövrlərdə isə həm də nazir vəzifəsini icra etmişdir. Bu dövrdə Azərbaycan təhsil sistemini YUNESKO - nun,

Avropa Şurasının, Yunisefin, MDB - nin Təhsil Nazirləri Şurasının tədbirlərində, Türkdilli dövlətlərin qurultaylarında layiqincə təmsil etmişdir.

Uzun müddət Təhsil Nazirliyinin Elmi Metodiki Şurasının Fizika bölməsinin sədri, həmin şuranın həmsədri və sədri olmuşdur. İşlədiyi dövrdə çoxlu sayda fənn proqramları, metodiki vəsait və göstərişlər, ümumtəhsil peşə, orta ixtisas və ali məktəblər üçün dərsliklər və dərs vəsaitləri hazırlanmışdır ki, bu işlərdə də onun bilavasitə böyük əməyi olmuşdur.

Ə.S.Abdinov təhsilin problemləri, uğurları, beynəlxalq əlaqələri mövzuları ətrafında iri həcmli və səmərəli təkliflərindən xalqın nüfuzuna layiq, şərəfli bir alim kimi tanınmışdır. 300-ə qədər elmi əsərin, ixtiraların və məruzələrin müəllifi, ixtisasçı kadrlar hazırlanmasında böyük xidmətləri olan alim hazırda artıq 20 ilə yaxın bir müddətdir ki, 1998-ci ildən BDU-nun Fizika elektronika kafedrasına rəhbərlik edir.

ADU - da elmi - pedaqoji fəaliyyətlə yanaşı Ə.S.Abdinov öz elmi tədqiqatlarını da intensiv olaraq davam etdirmişdir. Bu tədqiqatlardan professorun aldığı elmi nəticələr bərk cisimlərin xüsusi ilə də qeyri bircins yarımkeçiricilər və onlarda baş verən relaksasiyalı prosseslərin, elektrik dayanıqsızlıqlarının, fəzaca bircins olmayan yarımkeçiricilərdə injeksiya cərəyanlarının, yarımkeçiricilərdə elektron - defekt qarşılıqlı təsirinin fizikasına böyük töhfələr vermişdir. Müxtəlif ölkələrin alimləri bu elmi nəticələrə tez - tez istinad edir və bu nəticələrə yüksək qiymət verirlər.

Elm yolunda bir ömür həsr edərək təhsil yolunda yorulmadan çalışan görkəmli professor nailiyyətlərinə görə Azərbaycan Respublikasının Komsomol mükafatı laureatı (1976), Beynəlxalq SOROS fondu mükafatı laureatı (1993), Nyu - York Elmlər Akademiyasının həqiqi üzvü adlarına (1995), Azərbaycan Ali və Orta İxtisas Təhsili Nazirliyinin (1979) və Maarif Nazirliyinin (1981) "Fəxri fərman"larına layiq görülmüşdür.

Ə.S.Abdinov ali məktəblər üçün 5 dərsliyin və dərs vəsaitinin, 300 - ə qədər elmi əsərin, ixtiraların və məruzələrin müəllifidir. 30 namizədlik və 6 doktorluq dissertasiyasına elmi rəhbərlik, 15-ə qədər namizədlik və 10 - a qədər doktorluq dissertasiyasına rəsmi apponentlik etmişdir.

3 övladı və 5 nəvəsi var.



9/920



## ABBASBƏYLİ AĞALAR NƏRİMAN OĞLU

*Tarix elmləri doktoru, professor*



**Alimlərə hörmət edən şəxs elə bil mənə hörmət edir.**

*Məhəmməd Peyğəmbər (ə.s).*

"Beynəlxalq Münasibətlər" kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abbasbəyli Ağalar Nəriman oğlu 31 dekabr 1941 - ci ildə anadan olub. Orta təhsilini uğurla başa vurduqdan sonra tarixə olan həvəsi onu M.V.Lomonosov adına MDU - nə gətirib çıxarır. Yüksək qiymətlərlə bu universitetə qəbul olunan A.N.Abbasbəyli sonradan həmin ali təhsil ocağının aspirantı, stajoru və doktorantı olur. Tarix elmləri doktoru və iki istiqamət üzrə elmi adı var: tarix və beynəlxalq münasibətlər istiqamətləri üzrə professor.

1962 - ci ildən bu günə kimi elmi fəaliyyətlə məşğul olan professor A.N.Abbasbəyli zəngin yaradıcılıq yolu keçmişdir. Göstərilən dövr ərzində onun 500 - dək elmi əsəri işıq üzü görmüşdür ki, bunlardan 50 monoqrafiya və dərsliklərin müəllifidir.

Professor A.Abbasbəyli 30 elmlər namizədi və elmlər doktoru hazırlamış, o cümlədən Azərbaycan Respublikasında ilk dəfə siyasi elmlər istiqamətində 10 elmlər namizədi və 3 elmlər doktorunun elmi rəhbəri və məsləhətçisi olmuş, "Beynəlxalq münasibətlər" ixtisası üzrə 50 nəfər magistrin ərsəyə gəlməsində mühüm rol oynamışdır. 100 - dən yuxarı elmi - nəzəri konfransda iştirak etmiş, o cümlədən 30 xarici ölkədə elmi ezamiyyətlərdə olmuşdur. 1991 - ci ildən hal - hazıra qədər BDU - nun "Beynəlxalq münasibətlər" kafedrasına rəhbərlik edir.

Professorun elmi rəhbərliyi altında respublikada siyasi elmlər məktəbi yaranıb. Rus, ingilis, portuqal, serb və ispan dillərindən sərbəst istifadə edən professor A.Abbasbəylinin qələmindən çıxan "Heydər Əliyev və dünya siyasəti", "Azərbaycan mənim ürəyimdir", (Heydər Əliyevin siyasi tərcümeyi - halından səhifələr), "Azərbaycanın gələcəyi naminə", "Azərbaycan müasir dövrdə", "Azərbaycan beynəlxalq və regional təşkilatlar sistemində", "XXI - ci əsrin astanasında Rusiyanın Qafqaz siyasəti", "XXI əsrdə Rusiyanın xarici siyasəti", "XXI əsrin geostrategiyası", "Qloballaşma və müasir beynəlxalq münasibətlər sistemi", "Qafqaz müasir geostrategiyada", "Konfliktologiya", "Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar", "Beynəlxalq münasibətlərin proqnozlaşdırılması nəzəriyyəsinin bəzi problemləri", "Diplomatik protokol",

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

"Diplomatiya terminləri lüğəti", "Dünya siyasəti" və s. elmi əsərləri ictimayyət tərəfindən müsbət qarşılanmış və tədris prosesində istifadə olunur.

Professor A.Abbasbəylinin həyatı respublikamızın elm, təhsil sistemi və ictimai siyasi həyatı ilə sıx bağlıdır. O, müxtəlif illərdə Azərbaycan Dövlət Neft Akademiyasında Beynəlxalq əlaqələr kafedrasının yaradıcısı və uzun müddət müdiri olmuşdur, müxtəlif dövlət və partiya vəzifələrində çalışmış, xarici ölkələrdə Sovet səfirliyində müşavir, uzun müddət SSRİ - i Sülh Fondunun sədr müavini və AR Sülh Fondunun sədri olub, Azərbaycan KP Bakı şəhərinin Partiya Komitəsinin katibi, respublikamızın ali və orta ixtisas təhsili naziri olmuş, Azərbaycan KP Təşkilat Komitəsinin sədr müavini və sədri, MSK - nin (1998) üzvü olub. Uzun müddətdir ki, Azərbaycan Respublikası Prezidenti yanında AAK Dissertasiya Şurasının üzvüdür, dəfələrlə Birdəfəlik Elmi Şuranın sədri olmuş, üç elmi jurnalın redaksiya heyətinin, BDU - nun Elmi Şurasının üzvüdür. YAP yaradılandan onun üzvü, hal - hazırda isə BDU YAP Təşkilatının İdarə Heyətinin üzvüdür. professor A.Abbasbəyli üç dəfə BDU "İlin alimi" seçilib. Ailəlidir, 2 övladı, 3 nəvəsi var.







## ABBASOV ZÖHHAK YAQUB OĞLU

*AMEA müxbir üzvü, professor*



Savadlı, bacarıqlı, elm sahəsində bir çox uğurlar qazanmaq üçün böyük potensiala malik olan, həmişə elə bağlı olan, xalqı, torpağı ilə nəfəs alan, elmin zirvəsinə yüksəlmək üçün bilik və bacarığını sərf edən AMEA-nın müxbir üzvü, SSRİ ixtiraçısı, AMEA-nın Gİ-da "Neft qaz hasilatı texnikası" laboratoriyasının müdiri, professor Abbasov Zöhhak Yaqub oğlu 1939-cu ildə Azərbaycan Respublikasının Qasım İsmayılov ( indiki Goranboy) rayonunun Sarov kəndində anadan olmuşdur. 1961-ci ildən "dağ mühəndis-geoloqu" ixtisası üzrə Az. NKİ-nu geoloji-kəşfiyyat fakultəsini bitirərək, 1965-ci ilə qədər Xəzəryanı geoloji kəşfiyyat ekspedisiyasında (Qazaxıstan) operator, böyük geoloq, baş geoloq işləyib.

Z.Y.Abbasov 1965-1975-ci illərdə "Qaradağneft" NQÇİ nəzdində Elmi-tədqiqat istehsalat işləri sexinin elmi-tədqiqat laboratoriyasında mühəndisdən rəisə qədər müxtəlif vəzifələrdə işləmişdir. 1969-1973-cü illərdə AMEA-DNQYPİ-nu aspiranı olub. 1973-cü ildə "Su-neft emulsiyalarının yaranma mexanizminin və onların fiziki xassələrinin tətqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Z.H.Abbasov 1975-2003-cü illərdə Azərbaycan EA DNQYPİ-da böyük elmi işçi, "Neft-qaz hasilatı texnikası" laboratoriyasının rəhbəri, elmi işlər üzrə direktor müavini işləyib. 1989-cü ildə "Quyularda qaz-maye qarışıqlarının ayerozol strukturunun hərəkətinin qaz-hidrodinamik əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2001-ci ildə Z.Y.Abbasov AMEA müxbir üzvü seçilmişdir. 2003-cü ildən indiyə qədər AMEA Gİ-da "Neft-qaz hasilatı texnikası" laboratoriyasının müdiridir.

Z.Y.Abbasov neftin, qazın, qazkondensat qarışığının quyu üsulu ilə hasilatı problemləri üzrə tanınmış alimdir.

Z.Y.Abbasov 130-dan artıq elmi məqalənin, 3 monoqrafiyanın, 3 metodik vəsaitin müəllifidir. İxtiralara görə 5 müəlliflik şəhadətnaməsi, Azərbaycanın və Rusiya Federasiyasının 1 patentini alıb. Kadr hazırlığı ilə məşğul olur. "SSRİ İxtiraçısı" nişanı ilə mükafatlanıb.

## ABDULLAYEV SADİQ KƏRİM OĞLU

*Fizika -Riyaziyyat elmləri doktoru, professor*

***Hər bir insanın qiymәti onun etdiyi yaxşılıqla ölçülür.***

Həzrət Əli (Ə)



İnsanı ucaldan, müqəddəsləşdirən, yer üzündəki bütün yaranmışlardan şərəfli, şöhrətli edən əməkdir. İnsanı əmək ucaltmış, onu şəxsiyyət kimi formalaşmasında, inkişafında böyük rolu olmuşdur. Öz zəhməti, əməyi ilə, elmi axtarışlara daim can ataraq bu yolda irəliləyən Fizika -Riyaziyyat elmləri doktoru professor Abdullayev Sadiq Kərim oğlu 1943-cü ildə Azərbaycanın Ağdaş rayonunda anadan olub.

1965-ci ildə BDU-nın mexanika-riyaziyyat fakultəsini fərqlənmə diplomu ilə bitirib. Elə həmin ildə "Funksiyalar nəzəriyyəsi və funksional analiz" kafedrasının aspirantı olmuşdur.

Profeesor S.K.Abdullayev 1969-cu ildə BDU-da AMEA-nın müxbir üzvü A.Ə.-Babayevin rəhbərliyi altında "Cəmlənən sıxlıqlı məxsusi inteqral" (01.01.01) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə Tbilisi şəhərində "Çəkili Hölder fəzalarında çoxölçülü sinqulyar inteqral tənliklər" mövzusunda doktorluq dissertasiyası müdafiə etdərək fizika-riyaziyyat elmləri doktoru adını almışdır. Professor S.K.Abdullayevin iş fəaliyyəti BDU ilə bağlıdır. 1967-ci ildən assistent, baş müəllim, dosent, 1992-ci ildən BDU-nun professorudur. Ali insanı davranışları ilə daim özünə hörmət qazanan professor S.K.Abdullayev. 1994-1999-cu illərdə BDU-nun mexanika-riyaziyyat fakultəsinin dekanı olmuşdur. Elm sahəsində özünə məxsus xidmətləri olan S. Abdullayevin bilik və bacarığı Təhsil Nazirliyi tərəfindən qiymətləndirilərək 1994-cü ildə fəxri fərmanla mükafatlandırılmışdır.

Professor S.K.Abdullayev 70-dən çox elmi əsərin müəllifidir. 2009-cu ildə əməkdar müəllim fəxri adı almışdır.

Elm sahəsinin dəyərli xadimi kimi tanınmış və nüfuz sahibi olan alimin həyatının, fəaliyyətinin əsas məqsədi elmin zənginləşməsi və inkişafı olub.

Fizika riyaziyyat elmləri doktoru, professor Sadiq Kərim oğlu Abdullayev 2006-cı ildən "Riyazi analiz" kafedrasının müdiridir. Ən yüksək müdriklik xeyirxahlıqdır. Müdrikliyi və xeyirxahlığı ilə həm tələbə həm kollektiv və həm də onu tanıyanlar arasında böyük hörmət və nüfuz sahibi olmuş S. K. Abdullayevin daxili aləmini tamamlayan kamilliyini görməmək mümkün deyil.

Ailəlidir, 2 övladı var.





## ABUŞOV BABƏK MƏMMƏD OĞLU

***Səndən doymaq olarmı,***
***Həyat sən nə şirinsən!***
***Ancaq hamının deyil,***
***Sən həyatın qədrini,***
***Yalnız bilənlərinsən!***

*B.Vahabzadə.*



Əsl insani davranışlarının ən yaxşı əlamətləri: ədalət, səxavət, şücaət, hikmət və iffətdir. Hikmət insanı bilici edir, iffət başqa adamları məhrəminə çevirir, şücaət sədaqətə, qorxmazlığa, fədakarlığa yönəldir. Ədalət və səxavət isə xalqı insana cəlb edir, yaxınlaşdırır. Bütün bu müqəddəs əlamətləri özündə birləşdirən biologiya elmləri üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi Babək Məmməd oğlu Abuşov 1950 - ci ilin 20 sentyabrında Kürdəmir şəhərində müəllim ailəsində anadan olmuşdur. 1968 - ci ildə orta təhsilini başa vurduqdan sonra ordu sıralarında əsgəri borcunu yerinə yetirmişdir.

B.M.Abuşov 1977 - ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakultəsini bitirib. 1974 - cü ildən AMEA - nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunun "Funksional sitokimya" laboratoriyasında çalışır. AMEA - nın RH - nın qərarı ilə SSRİ Tibb Elmləri Akademiyasının Beyin İnstitutunda (Moskva şəhəri) ixtisasartırmaya göndərilib. Bir il ərzində elektron mikroskopiyası metodunu mükəmməl mənimsəyən Babək müəllim aspiranturaya daxil olub.

Akademik N.N.Boqolepovun rəhbərliyi altında işləyib yazdığı "Qida deprivasiyası zamanı və deprivasiyadan sonra siçovullarda hipotalamusun lateral sahəsinin neyron və sinapslarının ultraquruluşu" mövzusunda dissertasiya işini 1985 - ci ildə N.İ.Piroqov adına 2-ci Moskva Tibb İnstitutunda müvəffəqiyyətlə müdafiə edib.

B.M.Abuşov sübut edib ki, beynin hipotalamus adlanan törəməsinin latreal sahəsinin bayır - lateral hissəsində yerələşən və qan damarları ilə bilavasitə təmasda olan iri sinir hüceyrələri aclıq hissini ilkin qəbul edən reseptor rolunu oynayır.

Akademik N.N.Boqolepov, İ.Q. Akmayev, V.V.Kuprianov, V.N.Yarıgin və b. aspirantura dövründə Babək müəllimin görüş dairəsinin genişləndirilməsində və yüksək səviyyəli tədqiqatçı kimi formalaşmasında xüsusi səy göstərmişlər.

Daim elm sahəsində yeni - yeni axtarışlara can atması, bu sahəyə böyük marağı, ən nəhayət onun çox savadlı və mübariz olması elmi rəhbəri akademik

N.N.Boqolepovun diqqətindən yayınmır və onu öz laboratoriyasında saxlamağa çalışsa da, Babək Abuşov razılıq vermir, öz vətəninə qayıtmağı üstün tutur.

Bakı şəhərinə qayıdan Babək müəllim müəyyən çətinliklərlə üzləşir ancaq ruhdan düşmür. "Yuxu deprivasiyası zamanı mərkəzi sinir sistemində morfofunksional dəyişikliklər və onların qarşısının alınma yolları" mövzusunda doktorluq dissertasiyasını yazıb tamamlayır.

B.M.Abuşov 1998 - ci ildən qidanın tərkibində ayrı - ayrı komponentlərin (zülalların, vitaminlərin və s. çatışmaması şəraitində mərkəzi sinir sistemində əmələ gələn morfofunksional dəyişiklikləri öyrənir. Alınan faktlar yenidir, həm nəzəri, həm də təcrübi təbabət baxımından böyük əhəmiyyətə malikdir, məcburiyyət üzündən zülalsız və vitaminsiz qidalanmanın orqanizmə, o cümlədən mərkəzi sinir sisteminə ziyanın aradan qaldırılması zamanı, həmçinin zülalsız və vitaminsiz qidalanmanın səbəb olduğu xəstəliklərin kliniki formalarına qarşı mübarizədə tətbiq oluna bilər.

Elmi yaradıcılıq yolunda daim yeniliklərə can atan Babək Abuşov işlədiyi Fiziologiya institutnda dəfələrlə müdiriyyət tərəfindən fəxri fərman və pul mükafatlarına layiq görülmüşdür. 109 elmi, 20 elmi - kütləvi məqalənin müəllifi və həmmüəllifidir. Əsərləri nəinki Rusiya Federasiyası, Avropa, hətta Amerika jurnallarında nəşr olunmuş, Azərbaycan elmini dəfələrlə xarici ölkələrdə yüksək səviyyədə təmsil etmişdir.

B.M.Abuşov həm elmi işlə, həm də pedaqoji fəaliyyətlə də məşğul olur. Daim rəğbətlə qarşılanan Babək müəllim haqqında tələbələr xoş sözlər söyləyir və belə müəllimlər ilə fəxr etdiklərini qeyd edirlər.

Bütün insanlıq komplekslərini özündə cəm edərək onunla münasibətdə olan hər bir insanda ancaq xoş təssüratlar yaradan B.M.Abuşov eyni zamanda sözün əsl mənasında gözəl atadır. 4 övladı, 2 nəvəsi var.







## ATAKİŞİYEVA OFELİYA HƏSƏN QIZI

*Kimyaçı alim*



***Bəşəriyyətin rövnəqi olan insan və insan mənəviyyatının dəyəri olan elm. Bu iki varlıq və məvhum yaxınlaşdıqca nura qərq edir ətrafı.***

*M.Ş.Vazeh.*

Alimin ömür yolu elə bir tarixdir ki, o tarixə diqqət edən, onu bütün incəlikləri ilə dərk edən hər kəs bu fəaliyyətdən bir örnək götürür. Belə dəyərli, ölkəmizə gərəkli elm adamlarından biri Ofeliya xanım Atakişiyeva 24 iyun 1937-ci il tarixdə Bakı şəhərində ziyalılar ailəsində anadan olmuşdur. O, 190 saylı orta məktəbi əla qiymətlərlə başa vuraraq, Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) kimya fakultəsinə qəbul olunmuşdur. Universitetdə təhsil alarkən çalışqan tələbə olmaqla yanaşı ictimai işlərdə fəallığı ilə seçilən Ofeliya xanım Tələbə Elmi Cəmiyyətinin üzvü kimi səviyyəli çıxışları və səmərəli təklifləri ilə Professor-müəllim kollektivinin hörmətini qazanmış və uğurlara nail olmuşdur.

Ofeliya xanım ali məktəbi müvəfəqiyyətlə bitirərək, ilk əmək fəaliyyəitnə təyinat üzrə Elmlər Akademiyasının Akademik Yusif Məmmədəliyev adına Elmi-tədqiqat Neft-Kimya Prosesləri institutunda kiçik elmi işçi kimi başlamışdır. Elmi işlə məşğul olmaqla yanaşı təhsilini aspiranturada davam etdirən Ofeliya xanım çalışdığı və təhsil aldığı kollektivdə etimad və hörmətlə qarşılanaraq nailiyyətlərlə irəliyə doğru adıdmlamışdır. Aspiranturanı bitirdikdən sonra elmi iş üzərində çalışan Ofeliya Atakişiyeva 1982-ci ildə "Kimyəvi kinetika və kataliz ixtisası üzrə" "Seolit tərkibli maqni, silikat katalizatorunun sintezi və krekində tədqiqi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, kimya elmləri namizədi, alimlik dərəcəsi almışdır. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Akademik V.Axundov adına Milli Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun Elmi Şurasının müəyyənləşdirdiyi müsabiqə yolu ilə elmi işçi vəzifəsinə təyin olunan O. Atakişiyeva daima elmi axtarışlar aparan və pillə-pillə ucalan alimlər cərgəsində öz xüsusi yeri və hörməti olan ziyalılarımızdandır. O, Biokimya laboratoriyasında böyük elmi işçi, daha sonra baş elmi işçi vəzifələrini layiqincə yerinə yetirmiş və öz ixtisası üzrə püxtələşmiş bir mütəxəssis-alim kimi tanınmışdır. 2007-ci ildə Ofeliya Atakişiyevaya biokimya ixtisası üzrə dosent adı verilmişdir. Hal-hazırda Virusologiya şöbəsinin Biokimya laboratoriyasında "İnsan orqanizmində kataliz vəzifəsini daşıyan fermentlərin müqayisəli aktivliyi"

üzrə maraqlı və səmərəli elmi iş üzərində çalışan Ofeliya Atakişiyevanın bütün xidmətləri Vətən üçün, xalq üçündür. Alim Ofeliya xanım 2 metodik tövsiyyənin tərtibatçısı, bir müəlliflik şəhadətnaməsinin və 50-dən artıq elmi işin müəllifidir. Azərbaycanın nüfuzlu ziyalısı, gözəl insan dəfələrlə təltiflərə, mükafatlara layiq görülmüşdür. 25 Dekabr 2010-cu il tarixdə "Dünya, ana və uşaq" İB tərəfindən həmrəylik günü münasibəti ilə təltif olunduğu "Fəxri diplom" onun mükafatları içərisində seçilən və sevilən ənamdır. Həqiqətən də xalqımızın inkişafı yollarında öz töhfələri ilə uğurla addımlayan Ofeliya Atakişiyeva həmrəyliyə alim gözü ilə baxan ziyalıdır.

Müqəddəs ana adını şərəflə daşıyan Ofeliya xanım layiqli-ziyalı oğullar və nəvələr yetirmişdir Vətənə. Nəvələri Leyla Moskva Dövlət Prezidium nəzdindəki Xalq Təsərrüfat Akademiyasının tələbəsi, Cəmilə isə Moskva şəhərində, Gimnaziyada təhsil alır. Ziya və Kamilə qabaqcıl məktəblidirlər. İki yaşlı Sənan isə ailə sonbeşiyidir. Bu gözəl ailəyə nurlu gələcək və uğurlu yollar arzulayaraq deyirik: Ofeliya xanım, arzu edirik ki iki qoşa qanad olan oğullarınızla, xanımxatın gəlinlərinizlə, nəvələrinizlə birlikdə arzuların ən yüksək zirvəsinə çata biləsiniz.







## BAĞIR ƏLİ OĞLU BAĞIROV

*AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor*



***Alimlik, acı köklü ağacın, şirin bəhrəsidir.***
*Katon*

Yüksəklik yaşla deyil, elmlə, ağılla şərəflidir. Elmi, sadəliyi, mülayimliyi, gözəl insani keyfiyyətləri ilə seçilənlər insanlığın ən yüksək zirvəsinə ucalmağı bacaranlardır. Belə bir yüksəkliyi fəth edən Azərbaycan Elm Akademiyyasının Müxbir üzvü, əməkdar elm xadimi-professor Bağırov Bağır Əli oğlu 1936-cı ildə Azərbaycan Respublikasının Masallı rayonunda müəllim ailəsində anadan olmuşdur. 1953-cü ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1958-ci ildə təhsilini başa çatdırdıqdan sonra "Balaxanıneft" (keçmiş "Leninneft") NQÇİ-nə işə göndərilmişdir. Burada, 1969-cu ilədək mədənlərdə operator, geoloq və baş geoloq vəzifələrində çalışmışdır. 5 iyun 1969-cu ildən isə Azərbaycan Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda ardıcıl olaraq kiçik elmi işçi, baş elmi işçi, "Neft və qaz yataqlarının işlənilməsinin geoloji əsasları" şöbəsinin müdiri, direktorun elmi işlər üzrə müavini vəzifələrində çalışmışdır.

1989-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasının "Neft-qaz mədən geologiyası" kafedrasının müdiri seçilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Geologiyası İnstitutunun "Neft və qaz" yataqlarının işlənilməsinin geoloji əsasları şöbəsinin müdiridir.

1968-ci ildə namizədlik və 1984-cü ildə isə Moskvanın M.İ.Qubkin adına MİNXİ QP institutunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1990-cı ildə ona professor elmi adı verilmişdir. Professor Bağırov B.Ə.neft geologiyası sahəsində tanınmış mütəxəsisidir. Onun elmi tədqiqatlarının əsas istiqaməti neft və qaz yataqlarının effektli istismarını təmin edən etibarlı geoloji əsaslar yaratmaqla əlaqədardır. Geoloji məlumatların riyaziləşdirmə və kompyuterləşdirmə yolunu əsas götürən bu tədqiqatların nəticəsində neft-qaz elmində yeni bir istiqamət yaradılmışdır. Yataqların tektonik xüsusiyyətlərini öyrənmək üçün yaradılmış "Tekto" avtomatik sisteminə istinad edən üsul təklif olunmuş və onun əsasında layların strukturalarını dəqiqləşdirmək mümkün olur.

Yataqların həcmi üzrə lay parametrlərinin və flüidlərinin paylanması və onların istismar prosesində dəyişmələrini əyani izləmək üçün onların üç ölçülü modelləri yaradılmışdır.

Neft yataqlarının geoloji qeyri-bircinsliyini öyrənmək üçün trend analizi, splayn-

funksiyası, krayqinq və s. realizəsi əsasında müxtəlif xəritələr tərtib edilməsinə imkan verən çoxvariantlı üsul təklif edilmişdir.

Azərbaycan yataqlarında laylara müasir təsir üsullarının tətbiqini əsaslandırmaq üçün onların kompleks geoloji-mədən göstəriciləri əsasında təsnifat modelləri yaratmışdır. Respublikanın istismar olunan yataqlarında ehtiyatı çətin çıxarılabilən obyektlərin ayrılması üsulu təklif etmiş və onların işlənilməsinin rasional başa çatdırma yolları əsaslandırılmışdır.

Quruda və dənizdə uzun müddət istismar olunan yataqların qalıq neft ehtiyatını hesablamaq üçün statik və dinamik modellərə istinad edən yeni üsul işlənilmiş və onun realizəsi nəticəsində obyektlər xalq təsərrüfatı baxımından qiymətləndirilmişdir. İstismar prosesində neft və qaz yataqlarının parametrlərinin dəyişmə dərəcəsi müəyyən edilmiş və onların əsasında müxtəlif neftvermə modelləri yaradılmışdır.

Professor B. Ə. Bağırov ehtiyatı çətin çıxarılabilən obyektlərin ayrılması üçün üsul təklif etmişdur ki, bu da Azərbaycanın neft yataqlarında 169 belə obyektlərin təyin edilməsinə imkan vermiş, onların üç qrupda cəmləşdirilməsi və neftvermə modelləri ilə işləmələrinin effektli başa çatdırma yolları əsaslandırılmışdır. Ənənəvi, statik və dinamik modellərin kompleksləşməsi ilə neft yataqlarının qalıq ehtiyatlarının həcmini və sahəvi paylanmasını etibarlı qiymətləndirən yeni üsul təklif irəli sürmüşdür ki, bu da işlənmənin son mərhələsində istismarın səmərəliliyini artırmağa imkan verir.

B.Ə.Bağırovun elmi nəticələrinin böyük hissəsi respublikamızın neft yataqlarında tətbiq olunmuş və bir sıra elmi-tədqiqat (MNTK "Nefteodaça", Moskva şəh, VNİQRİ, Sankt-Peterburq şəh, Azərbaycan EA-nın DNQYPİ və s.) istifadə edilmişdir. B.Ə.Bağırovun fundamental və tətbiqi xarakterli tədqiqatları çap olunmuş 164 elmi işlərdə öz əksini tapmışdır. Bunlardan 4 monoqrafiya (o cümlədən, 1 ingilis dilində), 12 metodik və tədris vəsaitləridir. O, 10-dan artıq beynəlxalq konqress və simpoziumlarda elmi məruzələr etmişdir. Görkəmli alimin tədqiqatlarının nəticələri dəfələrlə keçmiş SSRİ və Azərbaycan Elmlər Akademiyalarının ən mühüm nəticələri sırasına daxil edilmişdir. Bağırov B.Ə.mühəndis və yüksək ixtisaslı kadrlar hazırlamaq üçün böyük əmək sərf edir. O indiyədək yüzlərlə mühəndis, bakalavr və magistr, 11 elmlər namizədi yetirmiş, hazırda isə 5 aspirant və dissertanta rəhbərlik edir. Bağırov B.Ə.iki beynəlxalq elmi təşkilatın (Amerika Neftçi-Geoloqlar cəmiyyəti-ASPG və Avropa geoloqlar və mühəndislər birliyi-EAGE) üzvüdür.

AMEA-nın Geologiya İnstitutunda fəaliyyət göstərən ixtisaslaşdırılmış Elmi Şuranın nəzdində seminarın sədri, "Azərbaycan Geoloqu" jurnalının baş redaktoru və "Azərbaycan Elmlər Akdemiyasının xəbərləri," jurnalının redaksiya heyətinin üzvüdür.

2000-ci ildə Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adı alan V.Ə.Bağırov 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Gözəl ailə başçısıdır-2 övlad və 3 nəvə sahibidir.





## BÜNYADOV ZİYA MUSA OĞLU

*Akademik*



***Ömrünü elmə həsr edən adam, heç vaxt ölmür***

*Məhəmməd Peyğəmbər (ə.s)*

Sovet İttifaqı Qəhrəmanı, Dövlət Mükafatı Laureatı, Azərbaycan Şərqşünaslıq elminin korifeylərindən biri olan akademik Ziya Musa oğlu Bünyadov 1923-cü il, dekabr ayının 21-də Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olmuşdur.

16 yaşında ikən Göyçay şəhərində orta məktəbi bitirmiş və Bakı Hərbi Piyadalar məktəbinə daxil olmaq üçün, yaşını 2 il artırmışdır. Hərbi məktəbi bitirdikdən sonra, 1941-ci ildə leytenant Ziya Bünyadov Böyük Vətən Müharibəsinə gedərək, sərhəd bölgələrində vuruşmuş, Ukrayna, Moldaviya, Qafqaz, Belorusiya, Polşa və həmçinin Berlin uğrunda döyüşlərdə fəal iştirak etmişdir. Hərbi tapşırığı yerinə yetirərkən göstərdiyi şücaətə, qəhrəmanlığa və igidliyə görə 27 fevral 1945-ci ildə Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir. 1945-1946-cı illərdə Berlin şəhərinin Pankov rayonunun komendant köməkçisi olan gənc zabit Ziya Bünyadovun əməyini keçmiş ADR hökuməti yüksək qiymətləndirərək onu "Vaflen brudersaft" və "Artur Bekker" qızıl medalları ilə və Fəxri Çekist adı ilə təltif etmişdir.

1946-cı ildə Z.M.Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna, 1950-ci ildə həmin institutun aspiranturasına daxil olmuşdur. 1954-cü ildə Y.A.Belyayevin rəhbərlik etdiyi kafedrada Ziya Bünyadov ilk tədqiqat işi olan "Afrikada İtaliya imperializmi" adlı namizədlik dissertasiyasını uğurla müdafiə etmiş, həmin ili də Vətənə qayıtmış, Azərbaycan EA Tarix İnstitutunda böyük elmi işçi vəzifəsinə qəbul edilmişdir. 1958-1959-cu illərdə ADU-nun Şərqşünaslıq fakültəsində müəllim kimi fəaliyyət göstərmişdir. 1964-1981-ci illərdə Yaxın və Orta Şərq Xalqları İnstitutunun Şərqin Orta Əsrlər Tarixi Şöbəsinə rəhbərlik etmiş, 1981-1986-cı illərdə Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

1964-cü ildə Ziya Bünyadov " Azərbaycan VII-IX əsrlərdə" mözusunda doktorluq dissertasiyası müdafiə etmiş, Tarix Elmləri Doktoru fəxri adını almışdır. 1965-ci ildə SSRİ Ali və Orta Təhsil Nazirliyi nəzdində Ali Attestasiya Komissiyası ona professor adı vermişdir.1967-ci ildə Z.M.Bünyadov Azərbaycan Elmlər Akademiyasının müxbir üxvü seçilmiş, 1970-ci ildə "Azərbaycan SSR Elmlər

Akademiyasının xəbərləri" jurnalının baş redaktoru təyin olunmuşdur. 1978-ci ildə Z.M.Bünyadov "Azərbaycan Atabəylər Dövləti (1136-1225-ci illər)" adlı monoqrafiyasını nəşr etdirmişdir. 1994-cü ildən sonra onun 70 məqaləsi, 4 tərcümə işi nəşr olunmuş, "Dinlər, təriqətlər,məzhəblər" adlı məlumat kitabı, "Polis məmuru dombul bəyin məcarası" adlı roman-pamfleyi elmi redaktə ilə 7 kitabı işıq üzü görmüşdür. Görkəmli akademikin 540 əsərini-monoqrafiya, məqalə, tərcümə və s. işləri təşkil edir. Ziya Bünyadov ixtisaslı şərqşünasların hazırlanmasınada da çox böyük xidmət göstərmişdir. O. Azərbaycanda mediyevist tarixçi ərəbşünaslar məktəbinin banisi və rəhbəri olmuşdur. 27 namizədlik işinin rəhbəri və məsləhətçisi, 12 doktorluq dissertasiyasının opponenti olmuşdur.

Sovet İttifaqı Qəhrəmanı, Milli Məclisin deputatı, akademik Ziya Musa oğlu Bünyadov 21 fevral 1997-ci ildə faciəli şəkildə düyasını dəyişmişdir. Vəfatından sonra, 1998-ci ildə Z.M.Bünyadov Azərbaycan Respublikasının ən yüksək mükafatına-"İstiqlal" ordeninə layiq görülmüşdür.







## BABAYEV ADİL MƏHƏMMƏD OĞLU

*Filologiya elmləri doktoru, professor*

***Pis-yaxşı nəyin var demək malındır.***
***Lakin sənə vacib olan öz kamalındır.***

*N.Gəncəvi*



Özünə məxsus iş prinsipi olan, gənc nəslin hərtərəfli ahəngdar inkişafı üçün onların bacarıq və vərdişlərə yiyələnməsində xüsusi xidmətləri olan, elmin sirrlərini bilən, son dərəcə təvazökar, filologiya elmləri doktoru, professor Adil Məhəmməd oğlu Babayev 1938 - ci ildə Naxçıvan MR Ordubad rayonunun Dırnış kəndində anadan olmuşdur. 1956 - cı ildə Dırnış kənd orta məktəbini bitirmişdir.

1957 - ci ildə ADU - nun (indiki BDU) filologiya fakultəsinə daxil olmuş, 1962 - ci ildə həmin fakultəni fərqlənmə diplomu ilə bitirmişdir. İlk əmək fəaliyyətinə M. F. Axundov adına APDi (indiki ADU) - da başlamış və bu günə qədər mənalı, zəhmətlə dolu yaradıcı bir yol keçmişdir. Belə ki, baş laborantlıqdan, kafedra müdiri, professor vəzifəsinə qədər yüksəlmiş, böyük hörmət və nüfuz sahibi olmuşdur.

BDU nəzdində yaradılmış Qara Dəniz Ölkələri Universitetləri Şəbəkəsinin B. Çobanzadə adına Beynəlxalq Türkoloji Elmi Araşdırmalar Mərkəzinin müdiridir.

Adil Babayev ali məktəblər üçün 6 dərslik, 4 dərs vəsaiti, 5 elmi monoqrafiya, 2 bədii kitab, 10 proqram və bir çox elmi məqalə yazmışdır. Son 8 ildə 10 nəfər elmlər namizədinin elmi rəhbəri, 20 nəfər elmlər namizədinin, 5 nəfər elmlər doktorunun rəsmi opponenti olmuşdur.

Filologiya elmləri doktoru, professor Adil Babayev Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvüdür. Onun ədəbiyyat sahəsində bir sıra elmi məqalələri ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, B. Çobanzadənin ədəbi görüşlərini yüksək səviyyədə təhlil etdiyi üçün 1992 - ci ildə Krım Mədəniyyət Fondunun mükafatına layiq görülmüşdür.

Bədii yaradıcılıqla məşğul olan Adil müəllimin 3 pyesi səhnədə oynanılmış və televiziyada göstərilmiş, hekayə və şerləri mətbuatda və dərsliklərdə çap olunmuşdur. Onun müəllifi olduğu 4 dərslik Respublika ali məktəblərində yeganə elmi metodik mənbədir. Ulu öndərimiz Heydər Əliyevin ilk səhnə obrazını məhz Adil müəllim yaratmışdır. Əsər Naxçıvan Teatrında 2008-ci ildə uğurla tamaşaya qoyulmuşdur. Adil Babayev Respublika Prezidenti yanında Dövlət Dil Komissiyasının AMEA Terminologiya və Orfoqrafiya Komissiyasının, habelə AMEA nəzdində dilçilik üzrə Problemlər Şurasının və Naxçıvan Dövlət Universitetinin Dis-

sertasiya Şurasının üzvüdür.

Görkəmli Azərbaycan dilçisi, filologiya elmləri doktoru, professor, Respublika Yazıçılar və Jurnalistlər Birliyinin üzvü Adil Məhəmməd oğlu Babayevlə ünsiyyətdə olan hər bir insanın beyni şer və sənətin gözəl nümunələri ilə sanki istirahət edir. Bu gün təhsilin, elmi - metodik biliklərin zənginləşdirilməsi istiqamətində yorumadan çalışan Adil müəllimin qəlbi gənclik eşqi ilə döyünür.

Adil müəllim ailəlidir, 2 oğlu, 3 qızı və 11 nəvəsi var.

## PEYĞƏMBƏRLƏRİN NƏSİHƏTİ

Biri Peyğəmbərə söylədi ki, mən
Cihad etmək üçün nəzir etmişəm
Buna gücüm çatmır ey Ulu Rəsul
Neyləyim axırda olmayım məsul
Peyğəmbər söylədi varmıdır anan?
Dedi ki, yaşadır Ulu Yaradan!
Dedi : Evə qayıt anana sarı
Onu əl içində qaldır yuxarı
"Cənnət ki, ananın ayağındadır"
Hamı o cənnətin sorağındadır
Ananla bərabər sən cənnətdəsən
Daha lazım deyil cihad edəsən.
Oğlan ordan birbaş evinə gəldi
Anası gözündə dörd qat yüksəldi
Dedi : əziz anam, ey nurlu qadın
Allahın yanında ucadır adın
Peyğəmbər söylədi: "Cənnət səndədir
Kim ki, səninlədir o, cənnətdədir"
Göylərə qaldıram gərək səni mən
Vədimə mən xilaf çıxa bilmərəm
Ana həzin səslə dedi ki, balam
Sənin bu işindən mən çox xoşhalam
Peyğəmbər söylədi: unutdun niyə?
Ananın hörmətin sən qaldır göyə
Tutaq ki, sən məni çiyninə aldın
Sonra da yorulub çiynindən saldın.
Sən həmişə uca tutmusan məni
Mən də Allahıma tapşırdım səni
Onun nəzərləri üstündə olsun
Allahın eşqiylə qoy qəlbin dolsun.

**Adil Babayev**
*Filologiya elmləri doktoru*





## BABAYEV ƏLƏKBƏR MUSTAFA OĞLU

***Hərbi Komissar, nüfuzlu ziyalı***



***"İnsanlar içərisində ən dəyərliləri dünyaya gözəl övladlar bəxş edən kəslərdir. Övladlar hər bir addımında ətrafdakı insanları razı salıb, savab qazandıqca valideynlərə rəhmətlər oxunur: Allah atan-anana rəhmət eləsin - deyir hər kəs.***

*Müdirk kəlamlardan.*

Azərbaycan gözəl və əlverişli təbii şəraitə, yeraltı sərvətlərə malik olduğu kimi yüksək mənəviyyatlı əsil insanları, dahi şəxsiyyətləri, mübariz, mərd, vətənpərvər oğul və qızları - vətəndaşları ilə tanınan ölkələr sırasındadır. Yurdumuzun qəhrəmanlıq təcəssümü olaraq, müharibə alovlarından orden və medallarla, igidliklə çıxan, fəaliyyətini və elmini xalqa, Vətənimiz Azərbaycana fədakarcasına həsr edən: Bir Şəkinin deyil, bir bölgənin-zonanın deyil, bütöv Azərbaycanın fəxri olmağa layiq bir insan olan Ələkbər Babayev 1914-cü ildə Şəki şəhərində xalqın ehtiram bəslədiyi mötəbər bir ailədə dünyaya gəlmişdir. Orta təhsili 1932-ci ildə başa vuraraq, Kursk vilayətində hərbi xidməti borcunu yerinə yetirərkən, 3 il müddətində hərbin sirlərinə mükəmməl yiyələnir və hərbçi olmaq arzusu ilə bu sahədə ali təhsil alır. 1941-45 Böyük Vətən müharibəsinin başlandığı ilk gündən Ələkbər Babayev ön cəbhədə şücaətlə döyüşür və müharibənin ən şiddətli anlarında - 1943-cü ilin sonunda ağır yaralanır. Baş leytenant rütbəli hərbçi qospitalda müalicə olunduqdan sonra SSRİ Hərbi Komissarlığının bir başa Sərəncamı ilə Sovet Dövlətinin sərhəddi olan Astara rayonuna hərbi komissar vəzifəsinə təyin olunur. Müharibədə göstərdiyi şücaətə görə Ələkbər Babayev orden-medallarla təltif olunmuş Böyük Vətən müharibəsi veteranı idi. O, ölkəmizin müxtəlif bölgələrnidə hərbi komissar vəzifəsində çalışmış və (xidməti dövrü başa çatdıqdan sonra) fəaliyyətini mülki sahədə davam etdirmişdir. Ali Partiya Məktəbində Dövlət qulluqçuluğu və sosial idarəetmə biliklərinə yiyələnən Ələkbər Babayev var qüvvəsi ilə Respublikamızın inkişafı yollarında çalışmış, rəhbər vəzifələri uğurla icra edərək, xalq məhəbbəti, Dövlət etimadı qazanmışdır. Yüngül sənayenin inkişafı yollarında əvəzsiz xidmətləri olan Ələkbər Babayevin təşəbbüsü və təşkilatçılığı ilə keyfiyyətli ət və süd məhsullarını ölkəmizin əhalisini təmin etmək məqsədi ilə Ət və süd kombinatını böyük bir müəssisə olaraq, Şəki şəhərnidə yerləşirdi. Bütün varlığı ilə Vətənimizə, xalqımıza ləyaqətlə xidmət edən Ələkbər Babayev sözün və amalın

əsil-həqiqi mənasında ziyalı, məsul vəzifələrdə şərəflə çalışan yüksək mənəviyyatlı şəxsiyyət idi. Bu kitabı oxuyan və onun haqqında yazılan hər bir mətbu orqanını nəzərdən keçirən insanlar içərisində hədsiz sayda çoxdur onu tanıyanlar və: Allah ona rəhmət eləsin, həqiqətən gözəl insan, böyük şəxsiyyət idi Ələkbər müəllim -deyir hamı.

Ələkbər Babayev vəzifəsindən, böyüklüyündən asılı olmayaraq, nəcib, sadə, təvazökar ata, qardaş, oğul və Vətənini sevən hərbçi, dövlət qulluqçusu, yüksək mənəviyyatlı şəxs idi.

Əlbət ki, yaxşı adı qazanmaq üçün insan 1 il deyil, 10 il deyil, bütün ömrünü haqq ədalətlə yaşayır. Beş ali təhsilli, yüksək mənəviyyatlı övladlar bəxş etdi dünyaya o insan.

Övladları:

- Babayev Ələsgər Ələkbər oğlu orta məktəbi gümüş medalla, Universiteti fərqlənmə diplomu ilə başa vuran, Neft Kəşfiyyatı İdarəsində rəhbər vəzifədə işləyən 35 yaşlı neftçi Neft yataqlarına baxış keçirmək üçün vertolyotla gedərkən qəzaya uğrayaraq Vətən yolunda, iş başında faciəli surətdə həlak olmuşdur. "Fəxri xiyaban" son mənzili olan igid Vətən aliminə Tanrıdan rəhmət diləyirik.
- Babayev Əlövsət Bakı Şəhər Baş Qaz İdarəsində baş mühəndis idi. Gənc ikən hörmət, etimad qazanmışdı. Qəlbində böyük arzularla, toy-büsatlı günlər ərəfəsində, nişanlı ikən 30 yaşında qəflətən dünyasını dəyişib. Allah rəhmət eləsin.
- Babayev Vasif Ələkbər oğlu Şəki şəhərində yaşayır, ziyalı, mötəbər şəxs kimi ata-ananın, hörmətli nəslin adına layiq nüfuza malikdir. 4 övlad, 2 nəvə sahibi olan Vasif Babayev Şəki Şəhər Qaz İdarəsində sahə rəisi vəzifəsində çalışır.
- Babayev Seyran Ələkbər oğlu bir çox məsul vəzifələrdə çalışmış, hal-hazırda müstəqil iş adamı kimi fəaliyyət göstərir.

2 övladı, 4 nəvəsi var.

- Nəzakət Ələkbər qızı Mustafayeva (Babayeva) publisist-jurnalist, "Elm və zəka" qəzetinin direktoru, "Qızıl qələm" media mükafatı laureatı, 2 oğul anası.

Vətənimizin, xalqımızın xoşbəxt gələcəyi naminə gözəl övladlar bəxş edən Ələkbər Babayev həyat yoldaşı Babayeva Subiyə xanımla birgə qız və oğulların təhsil alması və nəcib, əsil insan kimi yetişməsi üçün bir ömür həsr etmişlər.

Budur insanlığın mənası, hər kəsə örnək olacaq ömür yolu. Ələkbər Babayev 9 nəvə, 7 nəticə sahibi olacaqdı yaşasaydı, 1977-ci ildə əbədiyyətə qovuşdu, məkanı əbədi cənnət olsun.





## BAYRAMOV ELDOST ƏLÖVSƏT OĞLU

*Azərbaycanın Əməkdar artisti, ali dərəcəli diktor*



***"Bu dünyada yaşayan və xalq tərəfindən hörmətlə qarşılanan şəxs bilməlidir ki, həyatda ən qiymətli xəzinə olan nüfuzu əldə edə bilibsə, deməli böyük xidmət sahibidir".***

*"Hikmətli sözlər"dən*

Azərbaycan xalqına tanış bir səs okeanının sahibi, hörmətli ziyalımız, ali dərəcəli diktor, "Tərəqqi" medalı ilə təltif olunmuş Eldost Bayramov 1947-ci il 25 Yanvar tarixdə Kürdəmir rayonunun Çöl-Ərəb kəndində zəhmətkeş, xeyirxah və alicənab bir ailədə dünyaya gəlmişdir. Hələ məktəbə getməzdən əvvəl uşaq yaşlarından eşitdiyi nəsihətlər, öyüdlər və tövsiyyələr qəlbində kök salmış və o, haqqa bağlı, həqiqəti sevən, mərd və mübariz bir gənc kimi formalaşmışdır. Orta təhsili Kürdəmir rayon 1 saylı orta məkitəbdə uğurla başa vuraraq, V.İ.Lenin adına APİ-nin (Pedaqoji Universitetin) tarix fakultəsinə qəbul olunmuşdur.

1969-cu ildə ali təhsilli tarix müəllimi ixtisası ilə Ağsu rayonunun İlxıçı kəndində ilk pedaqoji fəaliyyətə başlayır. Hərbi xidməti Moskva şəhərində başa vuran Eldost Bayramov əmək fəaliyyətini Bakıda davam etdirir. Yuri Qaqarin (Tofiq İsmayılov) adına Uşaq və Gənclər sarayında Metodist vəzifəsində müvəffəqiyyətlə çalışan Eldost Bayramov 1972-ci il 1 Aprel tarixindən etibarən Azərbaycan Dövlət radiosunda (indiki Azərbaycan Teleradio verilişləri QSC-də) diktor vəzifəsində işləməyə başlayır.

Artıq 40 ilə yaxın bir müddətdir ki, Eldost Bayramov eyni məhəbbət, eyni maraq və daha da artıq bir qüdrətlə öz işini uğurla davam edir. Onu xalqımız sevir. Bu sevgini Eldost Bayramov öz halal zəhməti, dərin bilikləri, bacarığı və Allahın ona bəxş etdiyi qeyri-adi ecazkar səsi-istedadı və insanlara olan qarşılıqlı hörməti, qayğı və diqqəti müqabilində qazanmışdır. Onu Vətənimiz, rəhbərlik yüksək qiymətləndirir. Bu dəyər Eldost Bayramovun uzun illər ərzində layiq görüldüyü mükafatlar və təltiflərdir. Fəxri diplomlar, təşəkkürnamələr, fəxri adlar bəzəyir onun yaradıcılıq tarixini əks etdirən keçdiyi ömür yollarını. Ali dərəcəli diktor - adını ləyaqətlə daşıyan Eldost Bayramov 2006-cı ildə "Azərbaycan Respublikasının əməkdar artisti" fəxri adına layiq görülmüş, 2008-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əiyev cənabları tərəfindən "Tərəqqi" medalı ilə təltif

olunmuşdur. Onun keçdiyi yollara nəzər salarkən bir cığır, bir iz görürük. Bu iz dağın ətəyindən yamaca, daha sonra isə zirvəyə gedən bir yoldur. O həqiqət, ədalət yolu ilə elimizin, yurdumuzun, xalqımızın və Vətənimizin bir şərəfli ziyalı şəxsi addımlayır: Eldost Bayramov.

Eldost Bayramovun Azərbaycan Teleradio Verlişləri QSC-in 40 illik diktorluq fəaliyyəti haqqında film çəkilib.

Hər zaman səsində, sözündə və ruhunda Vətən sevgisi, xalq məhəbbəti gurlayaraq, aşıb-daşan nəcib, sadə olduğu qədər də şöhrətli, nüfuzlu, "Tərəqqi" medallı, Ali dərəcəli diktorumuz Eldost Bayramova dünyanın ən gözəl illəri ilə dolu uzun və sağlam ömür yolları arzulayaraq, deyirik:

- Oğul və qız övladlarınız, dörd şirin-şəkər nəvəniz çıraq kimi nur saçsın. Həyat yoldaşınızla, ailənizlə, sizə böyük hörmət bəsləyən kollektiviniz və Eldost Bayramov - adına böyük məhəbbət bəsləyən xalqımızla bərabər xoş müjdəli gələcək arzulayırıq. Vətənimizin ləyaqətli, şərəfli ziyalısı Elodst Bayramovun qəlbində ən böyük arzusu yalnız işğalda inləyən torpaqlarımızın tezliklə azad olunacağı qalibiyyət günüdür. Biz də vətənimizin mərd, elmli, şərəfli şəxsiyyəti olan Eldost Bayramova bütün arzularınızı Tanrı çin etsin, müdrik ömrünüzün iəğrur divarları heç vaxt əyilməsin deyirik!







## BAĞIROV ŞADİMAN

*Kimyaçı alim*

**Mən həyat yollarından ayaqlarımla deyil, əqidəmlə keçirəm.**

*B.Vahabzadə*



Elm insanın dünya görüntüsüdür. İnsanı yüksəldən, ucaldan mənəvi ucalıqdır.

Apardığı elmi tədqiqatlar və əldə etdiyi nailiyyətlər ucaltmışdır o şəxsi. Söhbət açdığımız vətən ziyalısı Azərbaycan Milli Elmlər Akademiyası, Akademiya şəhərciyinin direktoru Şadiman Bağırov bu məsul vəzifəyə, yüksək səviyyəli elmlər və çəkdiyi zəhmətlərlə nail olmuşdur.

1950-ci ildə Bakı Şəhərində anadan olmuşdur. Erkən yaşlarından valideynləri əbədiyyətə qovuşan Şadiman Bağırov orta təhsilə Ordubad şəhərində yiyələnərək, 1967-ci ildə Əzizbəyov adına Neft-Kimya İnstitutuna (indiki ADNA) daxil olmuşdur. Kimya-texnologiya fakultəsini 1974-cü ildə "Fərqlənmə" diplomu ilə başa vurmuş və Azərbaycan Milli Elmlər Akademiyasında ilk əmək fəaliyyətinə başlamışdır.

Ş.Ə.Bağırov 1974-cü ilə qədər qeyri-üzvü və fiziki kimya institutunda çalışmış və 1974-1976-cı illərdə Moskva İ.S.Kumanov adına ümumi və qeyri üzvi kimya institutunda təkmilləşdirmə kursu keçərək, aldığı elmləri bir daha zənginləşdirmişdir. Ş.Ə.Bağırov 1980-ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edərək, elmlər namizədi adına layiq görülür. Onun elmli və bacarıqlı bir ziyalı olduğu daima dəyərləndirilmiş və Ş.Bağırov rəhbər vəzifələrə təyin olunmuşdur. 1979-cu ildən institutun nəzdində yaradılmış Materialşünaslıq xüsusi Konstruktor Texnoloji Bürosunda Laboratoriya müdiri vəzifəsində çalışan Ş.Bağırovun rəhbərlik etdiyi kollektivin apardığı bir sıra səmərəli elmi-tədqiqat işləri ölkəmizin sənaye sahəsinin inkişafında tətbiq olunmuş, və müsbət nəticə vermişdir. O, dörd müəlliflik şəhadətnamsinin və 16 elmi əsərin müəllifidir. Rəhbərlik Şadiman Bağırovun nailiyyətlərini, onun öz vəzifəsində məsuliyyətlə çalışdığını nəzərə alaraq, Materialşünaslıq xüsusi konstruktor Bürosuna direktor vəzifəsinə təyin edir. Qarşıya qoyulan tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi yolunda səylə çalışan bacarıqlı təşkilatçı Şadiman Bağırov 2004-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının şəhərciyinə direktor vəzifəsinə təyin olunmuşdur. O, çalışdığı vəzifəni layiqincə yerinə yetirən ziyalıdır.

Ş.Ə.Bağırov hal-hazırda Akademiya şəhərciyinin direktoru vəzifəsində çalışır və şəhərciyin gün-gündən çiçəklənməsi naminə bütün qüvvələrini səfərbər edərək çalışır. Sözün əsl mənasında ziyalı bir insan olan Şadiman Bağırova həyatda uğurlar və fəaliyyətində nurlu yollar arzulayırıq.

## BABAYEV SEYRAN ƏLƏKBƏR OĞLU



***Arxalıya arxa olma, deməsinlər yamaqsan,***
***Arxasıza arxa ol ki, desinlər ki, dayaqsan.***

Zənginlik! Müasir dövrümüzdə formalaşan yeni nəs-lə - gəncliyimizə bu mövzuda ən incə məqamı izah et-məyə ehtiyac duyulur. Maddiyyatla mənəvi zənginlik arasında olan kəskin fərqi bilən ziyalılar mütləq yeniyet-mələrə, gənclərə və orta yaş təbəqəsindən olan bir sıra insanlara aydınlaşdırmalıdır; Mənəviyyatca yüksək mə-qam sahibi olan elmli-savadlı, bacarıqlı-istedadlı, yaradı-cı və ən nəhayət əsil insanlar - zənginlərdir. Azərbayca-nın zəngin şəxslərindən biri Seyran Babayevi oxuculara təqdim edirik. Bəli, həqiqətən də öz halal zəhməti ilə, al-dığı elmlərlə, insaniyyətliyi ilə, layiq olduğu məqama yetərək uzun bir dövr ərzində yüksək vəzifələrdə çalışmaqla, nümunəvi həyat və fəaliyyəti ilə hər kəsə örnək olacaq bir ömür yolu yaşayan Seyran Babayevin keçdiyi enişli-yoxuşlu cığırlara nəzər salmağa dəyər. Bu cığırlar yüksək mənəviyyatlı ziyalını elə bir zirvəyə aparmışdır ki, onun adı əbədi olaraq o ucalıqdan boylanır.

Babayev Şəki Rayon Sovetinin deputatı (1989-cu ildən) olduğu dövrdə də, Bakı Şəhər İctimai İaşə İdarəsi rəisinin I müavini vəzifəsində çalışdığı (1992-1993-cü) illərdə də, Azərittifaq Konserv İstehsalat İdarəsinin rəis müavini vəzifəsində (1993-1995-ci illər) məsuliyyətlə və uğurla çalışdığı dövrdə də hər zaman sadə, təvazökar, insanlara qayğı və hörmətlə yanaşan, qəbuluna gələn ən sadə zəhmət adamının qarşısında belə səmimiyyət və hörmət nümayiş etdirən bir şəxsiyyət olmuş və olmaqdadır. Yəqin ki, artıq oxucularımız biz yazarların nə demək istədiyini anladı və yaxşı olar ki, tutduğu yüksək vəzifədən və sahib olduğu maddiyatdan asılı olmayaraq, hər kəs bu alicənablıq mücəssiməsindən bir örnək alaydı, nümunə götürəydi. O zaman əsil insanların sayı çoxalar, günahlar azalar da. Beləliklə, keçək əsas mətləbə: Seyran Babayevin dünyaya gəldiyi ailənin başçısı Ələkbər Babayev Şəki şəhərində tanınmış xeyriyyəçi, yüksək vəzifələrdə çalışmış, Böyük Vətən müharibəsində "İgidliyə görə" medalı ilə təltif olunmuş nüfuzlu şəxsiyyət idi. Ailədə təlim-tərbiyə alan 4 oğul və 1 qız övladı ali təhsilli, tanınmış ziyalılardır. Seyran Babayev Şəki şəhərində 19 Mart 1954-cü ildə anadan olmuş, orta təhsili Şəki şəhəri 10 saylı orta məktəbdə başa vurmuşdur. Ali təhsilə Moskva Dövlət Kooperativ İnstitutunda yiyələnərək iqtisadçı-əmtəəşünas ixtisası almışdır. İlk əmək fəaliyyətinə Şəki Sovxoz Kooperativi Ticarət İdarəsində əmtəəşünas vəzifəsi ilə başlamış və qısa müddət ərzində etimada layiq olaraq, Həmkarlar İttifaqının sədri vəzifəsinə təyin olunmuşdur. Babayev Seyran pillə-pillə ucalmaqla, tanınmış, nüfuz





sahibi olmuşdur.

1984-cü ildə Şəki rayon Qışlaq Kənd İstehlak Cəmiyyəti İdarə Heyətinin sədri, 1985-86-cı illərdə Şəki Rayon Cəfərabad Fəhlə Kooperativi İdarə Heyətinin sədri, daha sonra 1992-ci ilə qədər Şəki Rayon İstehlak Cəmiyyəti idarə Heyətinin sədri vəzifələrində əzmlə çalışmışdır. Onun mükafat və təltifləri, "Fəxri fərmanları" dövlətə, xalqa xidmətlərinə görə verilən ən yüksək dəyərdir. "Kommunist əməyi zərbəçisi" adını almaq o dövrün ən ali məqam sahiblərinə nəsib olurdu ki, bu mükafat Seyran müəllimə verilmişdir. "SSRİ kooperasiya əlaçısı" müasir zəmanəmizin "Şərəf nişanı" ordeninə bərabər bir təltif idi ki, bu mükafatı da S.Babayev öz yüksək səviyyəli mütəxəssisliyi və məsul vəzifələri layiqincə yerinə yetirməsi ilə əldə etməyə nail olmuşdur. 1995-ci ildən müstəqil iş adamı kimi fəaliyyətini davam etdirən xeyriyyəçi şəxs Seyran Babayevin saysız mükafatları, "Fəxri fərman"ları, "Fəxri ad"ları və təltiflərinin ən dəyərlisi İlahinin ona bəxş etdiyi layiqli övladlar və şirin-şəkər nəvələrdir. Ehtiyatda olan zabitimiz, ixtisasının alimi, məsul vəzifələri şərəflə yerinə yetirmiş və bu gün də Vətənə, xalqa əzmlə xidmət edən ziyalımıza uğurlar və səadət arzulayırıq, deyirik: Ömrün ən mənalı çağlarını yaşayan, ən yüksək məqamlara layiq Vətən ziyalısı sizə Tanrıdan nura doğru müvəffəqiyyətlərlə zəngin, gözəl ömür yolları diləyirik.

Seyran Babayevə bir çox tanınmış şairlər şerlər həsr etmişlər. Onlardan birini sənətşünaslıq namizədi şair dramaturq Ramiz Heydərin şeirini təqdim edirik:

***Şəkili dostum Seyran***
***Bu gün sənədir sözüm.***
***Yaxşılıq timsalısan,***
***Sənsən ürəiym, gözüm.***

***Şəkinin dadı, duzu***
***Qardaş elə səndədir.***
***Dünyanın min bir sözü,***
***Əsrarı səndədir.***

***Dostluqda sədaqətli,***
***Qeyrətli, dəyanətli.***
***Ürəyin coşqun ümman,***
***Sevgili, məhəbbətli.***

***Könlü anaya bağlı,***
***Gözəl sonaya bağlı,***
***Ürəyin min bir telə,***
***Bütün dünyaya bağlı.***

***Bu yurddan güc alarsan,***
***İş, gücdən yorularsan,***
***Bir anaya oğul yox,***
***Yüz anaya oğulsan.***

***Qayğısına qalırsan,***
***Qaçqın, köçkünlərin sən.***
***Vətəni yüksəldirsən***
***Özün də yüksəlirsən.***

***Şirin sözlü, söhbətli,***
***Şair təbiətlisən.***
***Qəlbin oxuyur sənin,***
***Nəğmə, şeriyyətlisən.***

***Bu dünya, aləm sənə***
***Necə də heyran qardaş.***
***Yaşa-yaşa, min yaşa***
***Şəkili Seyran qardaş.***

## BAĞIROVA SARIQIZ ABBAS QIZI

*Kimyaçı alim*



**İnsan dünyaya gələrkən onun ruhiyyəsi və zəkası bəyaz lövhənin əksinə bənzəyir. Böyüyüb, yetkinləşərək, kamala çatdıqca aldığı elmlər onun mənəviyyatına ziya saçır. Ziyalılır üstün təbəqənin nümayəndələridir.**

*Müdrik Kəlam*

Zaman keçdikcə həyat dəyişir, insan şüuru sürətlə yüksəlişə-zirvələrə yol alır. Yurdumuz-Vətənimiz yetirdiyi gözəl alimlərin nurunda inkişafa doğru irəlilədikcə yazıçılar ilham alaraq, onların fəaliyyətinin vəsf etmək arzusunu həyatda reallığa çevirməyə çalışır. Oxucularımıza təqdim etdiyimiz qısa tarixcə bir dəyərli ziyalı ömrünün həyat və fəaliyyət aynasıdır.

Bir qızılı payız günü - 2 oktyabr 1962-ci ildə mötəbər ailədə dünyaya göz açmışdır Sarıqız Xanım Bağırova. Orta təhsili Türkmənistan Respublikası Nebit-Dağ (keçmiş Balkanabad) şəhərnidə əla qiymətlərlə başa vuraraq, Bakıya gəlmişdir. O, Azərbaycan Dövlət Universitetinin Kimya fakultəsinə qəbul olunmaq üçün imtahanlardan uğurla çıxmış və tələbə adına layiq görülmüşdür. Universitetdə təhsil aldığı illərdə tələbə və müəllim kollektivinin hörmət və etimadını qazanmış və fəal, çalışqan gənc ziyalı kimi seçilmişdir. ADİ- (Bakı Dövlət Universitetinin)nu bitirdikdən sonra Tətbiqi Fizika İnstitutunda mühəndis-texnoloq vəzifəsi ilə ilk əmək fəaliyyətinə başlayan S.Bağırova işdə məsuliyyətli və öz ixtisasını dərindən bilən bir mütəxəssis kimi etimada layiq olmuşdur. 1992-ci ildən hal-hazırkı dövrə qədər Tibbi reablitasiya Elmi-Tədqiqat İnstitutunun İmmunoloji-kliniki laboratroyisında çalışan S.Bağırova 2004-cü ildən həmin müəssisənin rəhbəri vəzifəsini uğurla icra edir. Sarıqız Xanım üzərində çalışdığı namizədlik dissertasiyasını 2009-cu ildə müvəffəqiyyətlə müdafiə etmiş və elmlər namizədi, alimlik adına layiq görülmüşdür. Alim xanım S.Bağırova 44 elmi məqalənin müəllifi olmaqla fəaliyyəti dövründə daima elmi axtarışlarda olaraq, inkişafa doğru uğurla addımlayan Azərbaycan ziyalısıdır. Rəhbərlik etdiyi və çalışdığı elmi-tibbi müəssisənin adını yüksək səviyyədə təmsil edən alim öz fəaliyyəti, səyi və bacarığı ilə Azəri ziyalısı adını ləyaqətlə daşıyır. Vətən, xalq yolunda şərəflə çalışan alim S.Bağırova ailəli olaraq, iki övlad yetirmişdir yurdumuzun gələcəyi naminə. "Ot öz kökü üstə bitər" - demişdir atalar. Yəqin olsun ki, Azərbaycanda elmin inkişafı yollarını öz ziyası ilə nurlandıran alimlərimizin, ləyaqətli şəxsiyyətlərin yetirdiyi övladlar da yurdumuzun xoşbəxt gələcəyinə dəyərli töhvələr bəxş etməyə layiq insanlar olaraq, Vətənə fəxarət bəxş edəcəkdir.





## BƏHMƏNLİ ZEYNƏB USUB QIZI

*AYB-nin və AJB-nin üzvü, "Qızıl Qələm" mükafatı laureatı*

***Şair xalqın səsi, əsrin səsidir,***
***Vətənin ağ saçlı sərkədəsidir,***
***Hökmüylə ordular ayağa qalxar,***
***Şerinin nehrində daşlar da axar.***

*M.Şəhriyar*



Deyirlər alimlər və şairlər Allaha yaxın olurlar. Onlar qeyri-adi istedadı ilə fərqlənirlər. Sənətə bağlı bir ömür yaşamaq, cəmiyyətdə özünə layiq yer tutmaq, əsil xanım fədakarlığı ilə ali məqsəd uğrunda mübarizə aparmaq və fəal jurnalist olmaq hər bir qadına nəsib olmur. Bütün varlığı ilə Ulu Tanrısına bağlı olan, xeyirxahlıqla dolu bir ömür yaşayan, tale səhifələrində müdrikcəsinə iz salan, istedadlı qələm sahibi, "Qızıl qələm" media mükafatı laureatı Zeynəb Bəhmənli Usub qızı Əliyeva 1951-ci il martın 25-də Füzuli rayonunun Bəhmənli kəndində anadan olub. Kənd orta məktəbini, şəhər 7 illik musiqi məktəbini bitirib. APİ-na qəbul olan Zeynəb xanım Mədəni-Maarif Texnikumunun Xor-drijoru fakultəsini, Az. Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib.

Onun musiqiyə olan həvəsi 31 il (1973-2004) Azərbaycan musiqi mədəniyyətinə xidmət etməsinə səbəb olub. Uzun illər Füzuli şəhər musiqi məktəbində müəllim və direktor işləyən Zeynəb xanım hər zaman ictimai işlərdə də fəal olmaqla, müsabiqələrdə, festivallarda iştirak etmiş və fəxri fərmanlarla mükafatlandırılmışdır.

Son dərəcə istedadlı olan Zeynəb Bəhmənli musiqişünas olmaqla bərabər eyni zamanda bədii yaradıcılıqla (şeir, publisistika) məşğul olub.

Mənfur erməni daşnaklarının füsunkar Qarabağ torpaqlarına qarşı müharibəsi Zeynəb xanımın da taleyindən yan keçməmiş, məcburi köçkün kimi Bakıya gələrək, Səbail RİH-də, Avrasiya Mətbuat Fondunda, Tehran Televiziyasında (Bakıda), həmçinin müxtəlif jurnal və qəzetlərdə şöbə müdiri, redaktor, baş redaktor, parlament müxbiri və s. işləmişdir. Uzun illərdir ki, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü olan Zeynəb Bəhmənli 6 kitabın müəllifi, çoxlu sayda kitabın redaktorudur. Onun 60-dan çox şerinə tanınmış bəstəkarlar mahnı bəstələyib. Hal-hazırda prezident seçkilərində, dövlət tədbirlərində onun "Vətənim Azərbaycan" şerinə yazılan mahnı ilə açılış olur.

Ulu Öndər Heydər Əliyevə həsr etdiyi şerə gözəl mahnı bəsdələnib və həmin mahnılar Az.TV-də və radioda səslənir. Zeynəb Bəhmənlinin yazdığı "Cəddini çağırırıq", "Vətənsizəm, yuvam yox", "Musiqidə yaşanan ömür". "Qapım döyülür", "Mir Mövsüm Ağa", "Könül incilərindən seçmələr" kitabları oxucular tərəfindən

rəğbətlə qarşılanmışdır.

Tələbə qəbulu test imtahanlarında 3 il nümayəndə olan Zeynəb xanım Azərbaycan musiqisi və muğam ustalarının I, Qadınların I, Yazıçıların XI qurultaylarında və başqalarında nümayəndə olub.

1998-ci ildə Dövrü mətbuatdakı dəyərli yazılarına görə bir çox mükafatların laureatı olub. Bir neçə tarixi ensiklopediyalarda, 25-ə yaxın almanaxda çap olunub.

Dərin və məzmunlu şerləri ilə oxucuların yaddaşlarında iz salan şairə Zeynəb xanım "Dirili Qurbani", "Vahid", "Pərvanə", "Söz", "Ocaq", "Sözün sorağında", "Məhsəti", "Məcmuəs-Şüəra" və s. əbədi poeziya məclislərinin üzvüdür. Musiqişünas və şairə publisist kimi Respublikanın bir çox bölgələrində, hərbi hissələrdə, çadır şəhərciyində, qocalar evində, internat məktəblərində, həbsxanalarda canlı xeyriyyə konsertlərinin ssenaristi və aparıcısı olub. Musiqi incə hissləri təlatümə gətirən bir sehrdir. Musiqi fikirlərimizi, duyğularımızı əsir edən İlahi bir qüvvədir, analarımızın layla səsidir. Musiqini duyan bu sənətə meyl edərək çalışanlar incə hisslərlə yaşayan insanlardır. Şair qəlbli, xoş duyğularla yaşayan, həyatını həm şerə, həm musiqiyə bağlayan və bir çox uğurlar qazanan Zeynəb Bəhmənli hal-hazırda ansambllarda işini davam etdirir. Respublikamızda ilk yaranan 90 yaşlı Azərbaycan Qadınlar Cəmiyyətinin orqanı olan "Mübariz Qadın" qəzetinin redaktorudur. Dərin və məzmunlu çıxışları ilə diqqəti cəlb edən Zeynəb xanım Bəhmənli tez-tez televiziya verilişlərinə dəvət olunmaqla vaxtaşırı çıxışlar edir. Onu tez-tez görkəmli şəxsiyyətlərin anım və yaradıcılıq günlərində, tədbirlərdə görmək olar.

Dünya Azərbaycanlıları Konqresi Ağsaqqallar Şurasının fəal üzvüdür.

Zeynəb Bəhmənli fədakar, təmiz qəlbli, əsil Azərbaycan qadınına xas olan xanım, xatın, sadə və təvazökar bir insan olmaqla bir sıra qələm sahiblərinin diqqətindən yayınmamış, ona şeirlər həsr olunmuşdur.

Gözəl ailəsində 4 övlada qayğıkeş ana, nəvələrinə mehriban nənə olan Zeynəb xanıma həsr olunmuş şerlərdən birini təqdim edirik:

Allahdan yaranıb çöhrəsi nurlu,
Xanım-xatın xanım Zeynəb Bəhmənli.
Duruşu vüqarlı, qəlbi qürurlu,
Xanım-xatın Zeynəb Bəhmənli.

Muradı Allahdan hasil olubdu,
İslamın dininə qail olubdu.
Allahın izniylə aqil olubdu,
Xanım-xatın Zeynəb Bəhmənli.

Fazilə, bu varlıq müqəddəs, əziz,
Sıx ala gözləri coşqun bir dəniz.
Mübarək xilqətdir, ürəyi təmiz,
Xanım-xatın Zeynəb Bəhmənli.





## BABANLI MƏHƏMMƏD BABA OĞLU

*Kimya elmləri doktoru, professor*



***Əmək və bilik "ikinci təbiəti" yaradır, bu isə sözün dəqiq və əsil mənasında mədəniyyətdir.***

*M. Qorki.*

Azərbaycan ölkəsinin nurlu gələcəyi naminə əzmlə çalışan alim ömrü xalqımızın şərəfli tarix kitabının ən dəyərli səhifələridir. Kimya elmləri doktoru, professor, "Tərəqqi" medallı vətən ziyalısı Məhəmməd Babanlının elmi - pedaqoji fəaliyyəti haqda məlumat verərək, söyləmək istəyirik: Elə yaşayaq, elə çalışaq ki, həyatımızın hər anı bir tarix, fəaliyyətimizin hər zərrəsi bir nur olub şəfəq saçsın vətənin gələcəyinə. 1952 - ci ildə Saatlı rayonunun Əliabad kəndində ziyalı - müəllim ailəsində bir oğul gəldi dünyaya - Məhəmməd Babanlı. Orta təhsili Ağstafa şəhərində medalla bitirərək ADU (BDU) - nun kimya fakultəsinə qəbul olundu. Ali təhsili "Fərqlənmə" diplomu ilə başa vuran M.Babanlı aspiranturada saxlanılaraq namizədlik dissertasiyasını uğurla müdafiə edərək, elmlər namizədi, alimlik dərəcəsinə layiq görülmüşdür. O, əvvəl kiçik elmi işçi, sonra böyük elmi işçi olmaqla 1983 - cü ildən müəllimlik fəaliyyətinə başlayır. M.Babanlı 1986 - cı ildə dosent vəzifəsinə seçilmiş və 1986 - 1991 - ci illərdə kimya fakultəsində elmi işlər üzrə dekan müavini vəzifəsində çalışmışdır. Doktorluq dissertasiyasını 1988-ci ildə Moskva Dövlət Universitetinin İxtisaslaşdırılmış Şurasında müdafiə edən M.Babanlı elmlər doktoru olaraq fəaliyyətini davam etdirmiş və 1989 - cu ildən professor vəzifəsinə seçilmişdir. 1990- cı ildən professor elmi adına layiq görülən M.Babanlı 1992 - 1994 - cü illərdə BDU - nun prorektoru vəzifəsində çalışmışdır. Hazırda Ümumi və Qeyri Üzvi Kimya Kafedrasının professoru və qeyri - üzvi materialşünaslıq ETZ - in elmi rəhbəri olan Məhəmməd Babanlı 1994 - 2005 - ci illər ərzində həmin kafedranın müdiri vəzifəsində çalışmışdır. Onun əməyi dövlətimiz və rəhbərlik tərəfindən yüksək dəyərləndirilmiş və alim həyatda layiq olduğu məqamı fəth edə bilmişdir.

Azərbaycan Respublikası prezidenti yanında Ali Attestasiya Komissiyasının kimya üzrə Ekspert Şurasının sədr müavini və həmin şuranın sədri (1993-2000) vəzifələrində ləyaqətlə işləyən M.Babanlı apardığı vəzifələrdə daim məsul və

nüfuzlu şəxsiyyət kimi seçilmiş ziyalılar cərgəsində olmuşdur. O, "Faza Diaqramları üzrə Beynəlxalq Komissiya" Cəmiyyətinin üzvü və Cənubi Qafqaz üzrə kordinatoru (2001) seçilmiş və 2000 - ci ildə "İlin adamı" adına layiq görülmüşdür (Amerika Biblioqrafiya İnstitutu). M.Babanlı Azərbaycan Respublikası prezidentinin fərmanı ilə "Tərəqqi" medalına layiq görülmüşdür. O, 9 dərslik və dərs vəsaitinin, 2 monoqrafiyanın və 600 - dən çox elmi əsərin müəllifidir. Bu əsərlərin böyük hissəsi yüksək impakt faktorlu beynəlxalq jurnallarda çap olunmuşdur. M.Babanlı uzun illər ÜQÜK kafedrasında keçirilən konfranslarının təşkilatçısı və çap edilən konfrans materialları toplularının elmi redaktorudur.

Professor M.Babanlının rəhbərliyi ilə 1 doktorluq, 28 namizədlik, 20 magistr dissetasiyaları yerinə yetirilərək uğurla müdafiə edilmişdir. Vətənimizin görkəmli alimi hal - hazırda elmi və pedaqoji fəaliyyətin davam etdirir. Gləcək nurlu yollarda elmi nailiyyətlər və səadət dolu həyat arzulayırıq xalqımızın vətənpərvər alimi, professor Məhəmməd Babanlıya.

Ailəlidir. 3 ali təhsilli övladı olan Məhəmməd Babanlının oğlu İlham Babanlı və kiçik qızı Dünya Babanlı kimya elmləri namizədidirlər. Böyük qızı İlhamə Babanlı filoloqdur.







## BABAYEV ƏLƏSGƏR ƏLƏKBƏR OĞLU

*Neftçi- alim*



***Ömrün qısa oldu sənin dünyada,***
***Lakin bir salnamə oldu həyatın.***
***Gəzir yurdumuzda, eldə, obada***
***Şəhidlik zirvəsi fəth edən adın.***

...Həqiqətən də vətənimizin inkişafı naminə uğurlarla çalışaraq, iş başında, öz məsul vəzifəsini yerinə yetirərkən faciəli surətdə həlak olan igid şəhid hesab olunur. 22 Mart 1973-cü ildə qədim ezonans neftinin yeni kəşfi ilə əlaqədar Neft daşlarına baxış keçirmək üçün bir qrup rəhbər işçilərlə birlikdə gedərkən vertolyotda qəzaya uğrayan Ələsgər Babayevin qısa və mənalı, dəyərli ömür yolu haqqındadır oxucuları tanış edəcəyimiz məlumat. 16 iyun 1938-ci ildə Şəki şəhərində tanınmış, mötəbər, nüfuzlu bir ailədə dünyaya gəlmişdi Ələsgər Babayev. Məktəbi "Gümüş medal"la, Universiteti "Fərqlənmə" diplomu ilə bitirmişdi. Neft sahəsində çalışdığı ilk gündən etibarən işinin bilikli mütəxəssisi kimi hörmət qazanan Ələsgər Babayev neft texnologiyasına, onun tərkib hissəsinə o qədər dərindən bələd idi ki, onu kollektivdə "Neftin doktoru" adlandırırdılar. Respublika Neft Kəşfiyyatı İdarəsində baş texnoloq vəzifəsində çalışan Ələsgər Babayev ictimaiyyətdə çox hörmətlə qarşılanan zəngin mənəviyyatlı ziyalı idi. O, idman sahəsində də qalibiyyətlər əldə edən mərd və mübariz, vətənpərvər bir igiddi. Ələsgər Babayev Dövlətimiz və rəhbərlik tərəfindən dəfələrlə təltif və mükafatlara layiq görülmüşdü. Cəmi 35 il yaşadı Ələsgər Babayev, lakin hələ əsrlər boyu Bakı şəhərində Azərbaycanın nadir incilərinin uyuduğu "Fəxri Xiyaban"da onu ziyarət edəcəkdir xalqımız, millətimiz və xarici qonaqlarımız. Onun nurlu siması, qəhrəmanlıq mücəssiməsi olan qısa və mənalı ömrü bir yadigar qoymuşdur vətənimizə.

Atası həlak olarkən qızı Zülləccə xanımın cəmi 6 yaşı vardı. Zülləccə xanım ali təhsilli ziyalı olaraq, xüsusi hörmət və nüfuz sahibi olan həyat yoldaşı Faiq bəylə birlikdə Vətənimizə layiqli davamçılar yetirmişdirlər. Ələsgər Babayev yaşasaydı, Cəmil, Nicat və Cəfər kimi nəvələrlə fəxr edəcəydi.

Hər il 22 Mart Novruzun ilk günü, baharın yurdumuza qədəm qoyduğu səhər, Ələsgər Babayevin xatirəsini əziz tutan yeganə övladı, nəvələri, kollektivi, dostları, qohum-əqrabaları Fəxri Xiyabana yollanır...

Allah torpağını nur, məkanını cənnət eləsin, böyük nəslin dəyərli davamçısı, ölkə sənayesinin inkişafı yolunda iş başında həlak olan Ələsgər Babayev. Allah rəhmət eləsin! Özü həyatda olmasa da Xalqın fəxri olan xiyabanda uyuyan Ələsgər Ələkbər oğlunun ruhu yaşayır və yaşayacaqdır. Çünki, onun xeyirxah, saf, haqsevər əməllərini yaşadan övladı, nəvələri, əzizləri vardır həyatda. İlahi qorusun həqiqət aşiqlərini.

## CƏLİLOV QURBAN NİZAMƏDDİN OĞLU

*AMEA - nın həqiqi üzvü,*
*texnika elmləri doktoru, professor*



***Ağıllı adam həmişə sənət və hünər əldə edib, yaxşı ad qoymağa çalışır***

**Atalar sözü**

İnsan həyatda yaşadığı bir ömür çərçivəsində çalışmalıdır ki, ətraf üçün, cəmiyyət üçün, toplum üçün lazımlı, faydalı olsun.

Yüksəklik yaşla deyil, elmlə, ağılla şərəflidir. Elmi, sadəliyi, mülayimliyi, gözəl insani keyfiyyətləri ilə hamıdan seçilənlər - insanlığın ən yüksək zirvəsinə ucalmağı bacaranlardır. Əsil böyük insanlar sadə olurlar.

Mənəviyyatca təmiz, təmkinli, saf vicdanlı, elmi ilə elmin zirvəsini, mənəvi ucalığı fəth edən tanınmış alim Qurban Nizaməddin oğlu 1927 - ci ildə Şəki şəhərində anadan olmuşdur. Orta təhsilini 1945 - ci ildə başa vurmuşdur. Elə həmin il Azərbaycan Dövlət Universitetinin fizika - riyaziyyat fakultəsinə qəbul edilmiş və 1950 - ci ildə bitirərək Azərbaycan EA Fizika və Riyaziyyat İnstitutu nəzdindəki aspiranturaya daxil olmuşdur.

Q. N. Cəlilov 1954 - cü ildə "Neftlilik konturunun hərəkəti və quyunun sulaşması ilə əlaqədar bəzi məsələlərin hidrodinamik tətqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və fizika - riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adını almışdır. 1962 - ci ildə texnika elmləri doktoru, alimlik dərəcəsi almaq üçün "Neftlilik konturunun hərəkəti və quyunun sulaşması və süzülmənin fəza məsələləri" mövzusunda dissertasiya müdafiə etmişdir. 1966 - cı ildə professor adı almışdır.

Görkəmli alim 1972 - ci ildə "Neft, qaz və kondensat yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə Azərbaycan EA - nın müxbir üzvi seçilmişdir.

1974 - 88 - ci illərdə DNQYP institutunda elmi işlər üzrə direktor müavini, 1980 - cı ildən Azərbaycan EA - nın Yer elmləri bölməsinin akademik katibinin müavini vəzifəsində çalışmışdır. 1989 - cü ildə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə Azərbaycan EA - nın həqiqi üzvü seçilmişdir.

Çatlı kollektora malik neft və qaz yataqlarının işlənməsinin texnoloji göstəricilərini təyin etmək üçün əlverişli hesabat sxemləri də onun tərəfindən yaradılmışdır.

Akademik Q. N. Cəliliov dərinlikdə yerləşən mürəkkəb geoloji xüsusiyyətlərə malik yataqların geoloji xassələrini nəzərə almaqla maye və qazların süzülməsi və sıxışdırılmasına aid bir sıra məsələlərin həllini vermişdir. Lay parametrlərinin, tektonik





pozuntuların və laylararası axınların yerinin təyini kimi müxtəlif məsələlərin həllini almışdır. Q. N. Cəliliov 220 - dən çox elmi əsərin, 4 monoqrafiyanın və iki müəllif-lik şəhadətnaməsinin müəllifidir. Yüksək səviyyəli kadrların hazırlanmasında fəal iştirak edən Qurban müəllimin rəhbərliyi altında 3 elmlər doktoru və 25 elmlər namizədi hazırlanmışdır.

Q. N. Cəliliov yeraltı hidroqazadinamikanın müxtəlif məsələləri üzrə Moskva, Kazan, Bakı və s. şəhərlərdə keçirilən qrultay, konfrans və digər toplantıların iştirakçısı olmuşdur. Q. N. Cəliliov keçmiş SSRİ EA - da neft - qaz yataqlarının işlənməsi üzrə Elmi Şuranın, Azərbaycan Neft Ensklopediyasının redaksiya heyətinin, Azərbaycan EADNQYPİ - də və ADNA - da ixtisaslaşdırılmış Elmi Şuraların üzvü olmuşdur.

Qurban müəllimin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş və O, İ.M. Qubkin adına mükafata layiq görülmüş, "Xalqlar dostluğu" ordeni, "Şanlı əməyə görə", "V. İ. Leninin 100 illik medalları" Azərbaycan SSRİ Ali Sovetinin və Azərbaycan EA Rəyasət Heyətinin fəxri fərmanları və "Neft sənayesi əlaçısı" nişanı ilə təltif edilmişdir.

4 övladı, 7 nəvəsi, 1 nəticəsi var.

Texnika elmləri doktoru, professor, Azərbaycan MEA-nın həqiqi üzvü Cəlilov Qurban Nizaməddin oğlu 2000-ci ildə vəfat etmişdir.

Tanrıdan böyük alimə rəhmət diləyirik.



## CƏLİLOV TACƏDDİN NİZAMƏDDİN OĞLU

*Respublikanın əməkdar ixtiraçısı və səmərəşdiricisi,*
*kimyaçı alim*



***Qəhrəman olmaq üçün bir an lazımdır, lakin layiqli insan olmaq üçün bütöv bir ömür lazımdır.***

Elm, savad Tanrının insana bəxş etdiyi ən böyük nemətdir. Tanrı tərəfindən sevib seçilən insanlar həmişə elmli, bacarıqlı, qabiliyyətli və istedadlı olurlar. Belə insanların kəşfləri, ixtiraları zaman-zaman xalqa xidmət edərək, tarixin əbədi yaşar səhifələrində kök salmış, nəsildən-nəsilə ötürülmüşdür. Öz əməli ilə ürəklərdə yaşayan, xeyirxahlığı ilə qəlblərdə özünə məxsus izlər qoyan sözün əsil mənasında böyük insan, Respublikanın əməkdar ixtiraçısı və səmərəlşdiricsi, gözəl alim Cəlilov Tacəddin Nizaməddin oğlu 1929 - cu ildə Şəki şəhərində anadan olmuşdur. 1947 - ci ildə orta məktəbi bitirmiş və həmin ili də Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. O, təhsildə yüksək göstəricilər əldə etdiyinə görə dördüncü kursdan etibarən təhsilini Qorki Dövlət Universitetində davam etdirmişdir. 1952 - ci ildə orada təhsilini başa vuraraq "analitik kimyası" və "tədqiqatçı kimyaçı" ixtisasına yiyələnmişdir.

T. N. Cəlilov ali təhsilli mütəxəsis kimi 1953 - cü ildə SSRİ Müdafiyə Nazirliyinin xətti ilə Tomsk şəhərinə müvafiq işə göndərilmişdir.

Cəlilov öz elmi pedaqoji fəaliyyətini 1954 - cü ildən etibarən Bakıda davam etdirmişdir. O, Elmi - Tədqiqat Neftçıxarma İnstitutunda mühəndis və laboratoriya müdiri vəzifəsində çalışmışdır.

1957 - ci ildə Respublika Elmlər Akademiyasının Neft və Kimya İnstitutunda "Üzvü kimya" ixtisası üzrə aspiranturaya daxil olmuşdur. Sonradan həmin institutda o, baş mühəndis və elmi işçi vəzifələrində işləmişdir.

Tanınmış alim 1966 - cı ildə "Fizioloji aktiv maddələrin sintezi və tətbiqi" mövzusunda dissertasiya müdafiə edib, kimya elmləri namizədi alimlik dərəcəsi almışdır. O, 1967 - ci ildən etibarən Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) "Kimya" kafedrasında əvvəlcə baş müəllim, sonra isə dosent vəzifəsində çalışmışdır.

Tacəddin müəllimin elmi - tədqiqat araşdırmaları özünün yeniliyi və çoxcə-





hətliliyi ilə fərqlənir. Onun sintez etdiyi yeni maddələr xalq təsərrüfatının müxtəlif sahələrində: bitkiçilikdə boy, zəhərləyici və dərman maddələri kimi geniş praktik əhəmiyyətə malikdir. Ekoloji tarazlığın pozulmasının qarşısını almaq üçün yüzlərlə kükürdlü, azotlu, halogenli birləşmələr sintez edərək, onlardan inkibitor, baktersid, kompozisiya materialları kimi geniş tətbiq olunur.

T. N. Cəlilov 250 elmi əsərin müəllifidir. Bu əsərlər kimya və fizika elminin aktual problemlərini əhatə edən çox geniş coğrafi dairədə nəşr olunan jurnallarda çap olunmuşdur. Tacəddin müəllimin müəllifi olduğu elmi əsərlərdən 100 - dən çoxu ixtira kimi qeydə alınmış, onlara müəlliflik şəhadətnaməsi verilmişdir. Bu ixtiralar yüksək iqtisadi səmərə ilə praktik tətbiqə çatdırıldığına görə ona "SSRİ ixtiraçısı" adı və döş nişanı verilmişdir. Onun apardığı çoxcəhətli elmi axtarışlar Azərbaycan EA - nın Aqrokimya, Zoologiya, Elmi - Tədqiqat Olefinlər, Dəniz Neft Layihə, Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutları və uyğun istehsalat müəssisələri ilə koordinasiya olunur. Tacəddin müəllim universitetin bütün fakultələrində ümumi kimya kursu ilə yanaşı, kimya elminin müasir və perspektivli sahələri üzrə xüsusi kurslar tədris etmişdir.

Onun "Dielektriklər kimyası", "Dielektriklər kimyasına aid laboratoriya işləri" dərslikləri və bir sıra metodik göstərişləri kimya ictimayyəti üçün xüsusi əhəmiyyət kəsb edir. O, əldə etdiyi nailiyyətlərə görə 1990 - cı ildə "Respublikanını əməkdar ixtiraçısı və səmərələşdiricisi" fəxri adına layiq görülmüşdür.

Görkəmli almin 3 övladı, 5 nəvəsi, 2 nəticəsi var.

Cəlilov Tacəddin Nizaməddin oğlu 2009-cu ildə vəfat etmişdir. Bu gözəl insana Tanrıdan rəhmət diləyirik.



## BƏDİRCAHAN ƏMRULLAH QIZI

*AMEA-nın aparıcı elmi işçisi*



***"Ən yüksək əxlaqi xeyirxah adam, yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsil vətənpərvərliklə uyğunlaşdırsın".***

***M.F.Axundov.***

Zəngin mənəvi dəyərlərə, humanist əməllərə, saf düşüncələrə, niyyətlərə malik olan, sadəliyi ilə mənəvi gözəlliyini hiss etdirən, uzun illər elm sahəsində çalışan, yüksək intellektual səviyyəyə malik xanım, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun "Antik dövr arxeologiyası" şöbəsinin elmi işçisi Bədircahan Əmrullah qızı 5 iyul 1957-ci ildə Qax rayonunun İlisu kəndində anadan olmuşdur. 1965-1975-ci illərdə İlisu kənd orta məktəbində təhsil almışdır. 1975-ci ildə S.M.Kirov adına Bakı Dövlət Universitetinin (indiki BDU) "geoloji coğrafiya" fakultəsinə qəbul olunub.

1980-cı ildə "coğrafiyaşünas, coğrafiya müəlliməsi" ixtisası üzrə müvəffəqiyyətlə tam kursu bitirən Bədircahan Əmrullah qızı 1980-1986 -cı illərdə Bakı-Abşeron məktəblərində pedoqoji fəaliyyət göstərmişdir. Son dərəcə ziyalı bir xanım olan Bədircahan Əmrullah qızı 1980-1986-cı illərdə Bakı-Abşeron məktəblərində petoqoji fəaliyyət göstərmişdir.

1986-cı ildə Azərbaycan Dövlət Pedoqoji Universitetinin"Tarix" fənni üzrə təkmilləşmə kursunu, 1991-ci ildə Azərbaycan Xalq Biliciləri İttifaqının"Para psixologiya" kursunu bitirmişdir. Ali insani keyfiyyətlərinə, əsil Azərbaycan xanımlarına xas olan xüsusiyyətlərinə görə daim hörmət qazanan Bədircahan xanım 1986-1997-ci illərdə Azərbaycan Respublikası Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və İstifadəsi Komitəsində "mühafizəçi" vəzifəsində çalışmışdır. 1997-ci ildə Qax, Zaqatala, Balakən rayonlararası Tarix və Mədəniyyət Abidələrinin Mühafizəçisi və istifadəsi Müfəttişliyinin rəisi təyin edilmişdir.

Tanrıya yaxın, daim xeyirxahlığa can atan Bədircahan xanım 2000 -ci ildən Azərbaycan Milli Elmlər AkademiyasınınArxiologiya və Etnoqrafiya İnstitutunun"Antik dövr arxeologiyası" şöbəsinin elmi işçisidir. Bir sıra arxeoloji abidələrin tətqiqinə həsr edilmiş məqalələrin müəllifidir. Bədircahan Əmrullah qızı Çexoslovakiya, Orta Asiya, Rusiya və Gürcüstanda elmi məzuniyyətdə olmuşdur. İslam dünyasına böyük ehtiramla bağlanaraq, islam fəlsəfəsini həyatda və qəlbində yaşadan Bədircahan xanımın ailəsində tərbiyə alıb böyüyən yüksək mənəviyyatlı ziyalı övladları Aygün və Aynurə xanımlar dünya ölkələri içərisində seçilən nadir incilərimizdən Hafizi-Quran olaraq islam ölkələri arasında qalibiyyət əldə etmiş islamşünas alimlərdir. Bədircahan xanımın iki nəvəsi var. Dünya sərvətlərindən gözü-könlü tox olan əsil nəcabətli ziyalı xanım Bədircahan xanımın ən böyük arzusu vətənimizin inkişafını, xalqımızın firavan həyat sürməsini və torpaqlarımızın işğaldan azad olunmasını görməkdir.





## ƏZİZƏ XANIM CƏFƏRZADƏ

*Filologiya elmləri doktoru, professor*



***Elm öyrənən rəhmət tələb edəndir. Elm oyrənən islamın dayağıdır. Onun mükafatı Peyğəmbərlərdən gəlir.***

*Məhəmməd Peyğəmbər (əs)*

Məşhur yazıçı, nasir, görkəmli alim-ədəbiyyatşünas, ictimai xadim və xalqın sevimlisi, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadə 1921-ci ildə dekabrın 29-da Bakı şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini 25 №-li məktəbdə almış, sonra teatr texnikomu və iki illik müəllimlər institutunda oxumuşdur. 1942-44-cü illərdə Ağsu rayonundakı Çaparlı kəndində müəllim işləmişdir. 1946-47-ci illərdə, o ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsini bitirmişdir.

Əzizə xanım, 1944-46-cı illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin rəisi, 1947-49-cu illərdə teatr texnikomunun müdiri, 1950-55-ci illərdə qiyabi pedaqoji institutda dosent, kafedra müdiri, 1956-cı ildə Kamçatka pedaqoji institutunda dosent, 1957-74-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda baş elmi işçi, şöbə müdiri, 1974-cü ildən isə Bakı Dövlət Universitetinin professoru vəzifələrində çalışmışdır.

O, hər şeydən əvvəl tədris etdiyi predmentini dərin bildiyinə, həyatiliyinə, patriorizminə və sərbəst-azad düşüncəsinə görə Universitetin tələbə-müəllim kollektivinin sevimlisi olmuşdur. Əzizə xanım Cəfərzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin bilicisi kimi tanınırdı və bu sahədə 1950-ci ildə "XIX əsr Azərbaycan ədəbiyyatında maarifçi-ziyalı surətləri" mövzusunda namizədlik, 1970-ci ildə "XIX əsr Azərbaycan poeziyasında xalq şeiri üslubu" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Əzizə Cəfərzadənin yaradacılığının XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yeri vardır. O, xalqımızın əsrlər boyu adət-ənənələrinin yaşadılması naminə altımış ildən artıq bir dövr ərzində yorulmadan yazıb yaratmış, səmərəli ədəbi fəaliyyətin məhsulu olan çoxsaylı əsərləri ilə nəsrimizin inkişafına qiymətli töhvələr vermişdir. Azərbaycan tarixinin ayrı-ayrı dövrlərində baş vermiş hadisələr, keçmişimizdə böyük iz qoymuş şəxsiyyətlərin parlaq simaları, Əzizə xanımın həmişə diqqət mərəkzəində dayanmışdır.

Tariximizin müxtəlif mərhələlərinin bədii mənzərələrini yaradan bu əsərlərlə

yanaşı, yazıçının müasir gəncliyin həyatından bəhs edən roman, povest və hekayələri də oxucular tərəfindən daim rəğbətlə qarşılanmışdır. O,ədəbi fəaliyyətə çox gənc ikən 16 yaşında başlamış və "Əzrayıl" adlı ilk hekayəsini 1937-ci ildə "Ədəbiyyat" qəzetində çap etdirmişdir. Ə.Cəfərzadə 1946-cı ildən yazıçılar birliyinin üzvü olmuşdur.

Əzizə xanım bir sıra xarici müəlliflərin əsərlərini öz ana dilinə tərcümə etmiş, bir sıra kitabın redaktoru olmuşdur. Onun əsərləri də bir sıra xarici dillərə, o cümlədən rus, fars, tacik, ərəb, qazax və sair tərcümə edilib, xaricdə nəşr edilmişdir. Əzizə xanım, fasiləsiz olaraq televiziya və radio verilişlərində müxalif mövzularda çıxışlar etmiş, televiziyada "Klassik irsimizdən", "Aşıq Pəri" və s... çoxsaylı proqramların müəllifi və aparıcısı olmuşdur. Bu verilişlər vasitəsilə, o xalqa Azərbaycan klassik və müasir ədəbi irsini təbliğ etmişdir. Bununla yanaşı, o radioda Cənubi (İran) Azərbaycanı üçün verilən proqramların və "Ana" radio jurnalının uzun illər daimi iştirakçısı olmuşdur.

Əzizə xanım Cəfərzadə 1981-89-cu illərdə Respublika Qadınlar (cəmiyyəti) Şurasının sədri vəzifəsində şərəflə çalışmışdır. O, Azərbaycan qadın və uşaqlarının hüquqlarının qorunması sahəsində fəal fəaliyyət göstərmiş, respublikanın ən ucqar rayon-kəndlərində belə dəfələrlə getmiş və millətin tarixi, taleyi ilə bağlı problemlərlə tanış olmuş, problemlərin həll edilməsində yaxından iştirak etmişdir.

O, həyatı boyu xeyriyyəçiliklə məşğul olmuş, 1979-cu ildə indiki Hacıqabul rayonunun Tağılı kəndində öz vəsaiti hesabına orta məktəb və klub binası tikdirmişdir. Azərbaycanın müstəqilliyi və erməni təcavüzünə qarşı hərəkatında daim öndə və fəal iştirak edən bir vətəndaş olmuşdur. O, əsl Azərbaycanlı kimi həmişə xalqın xeyir və şərində onunla birgə olmuşdur. Onu bütün xalq bir Ana kimi sevir və hörmət edirdi. "Mənim partiyam - mənim millətimdir" sözlərini tez-tez təkrarlayar və Azərbaycan xalqını milli birliyə çağırardı.







## CARULLAZADƏ ÇİNGİZ CARULLA OĞLU

*Amerika Oftalmoloqlar Akademiyasının üzvü,*
*tibb elmləri doktoru, professor*



***Ölməz o adamdır ki, ondan sonra vətən üçün böyük və faydalı yadigarlar qalır.***

*L.Vovenarq*

Hər bir insanı sevdirən, şöhrət gətirən amillərdən ən başlıcası onun peşəsini kamil bilməsidir. Nə qədər işləsə də, yorulsa da, işindən zövq alan və çöhrəsindən təbəssümü əsirgəməyən, sakit təbiəti və özünə məxsus təmkinliyi ilə seçilən, bu səbəbdəndir ki, həm yanına problemləri götürüb gələn insanların və həm də öz işgüzar kollektivinin sevimlisi olan xalqımızın fəxri, fəxarət ünvanlı görkəmli oftalmo-cərrah dünya şöhrətli alim, Rusiya Oftamoloqlar Cəmiyyətinin, Avropa Oftalmoloqlar Assosiasiyasının, Amerika Oftalmoloqlar Akademiyasının üzvü, tibb elmləri doktoru, professor Çingiz Carulla oğlu Carullazadə Azərbaycan Respublikasının Ağdaş şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıda 6 saylı məktəbdə almışdır. 1965-ci ildə Azərbaycan Tibb Universitetinə daxil olmuşdur. Oxuduğu müddətdə 1969-cu ildə elmi məqalələr üzrə Tələbə Elmi Cəmiyyətinin ən fəal üzvü seçilmişdir. 1971-ci ildə Ali məktəbi müvəffəqiyyətlə başa vurmuşdur.

Professor Ç.C.Carullazadə 1971-1973-cü illərdə ADR-də Tank olayında hərbi xidmətdə olmuşdur. 1973-cü ildə Oder çayı üzərində keçirilən hərbi təlim zamanı əsgərin həyatını xilas etdiyinə görə mükafatlandırılmışdır.

1973-cü ildə Azərbaycan Elmi Tətqiqat Göz xəstəlikləri İnstitutunda (ETGXİ) prezidentliyə qəbul olunmuşdur. Professor Ç.C.Carullazadə 1974-1975-ci illərdə Moskva şəhər Fyodorov adına Elmi Mərkəzdə internatura keçmişdir. Daim elmi axtarışlara can atan Ç.Carullazadə 1975-ci ildə Moskvada Ümumittifaq Cöz Xəstəlikləri İnstitutunda (ÜGXİ) aspiranturaya daxil olmuş və 1978-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

Tibb sahəsində əldə etdiyi nailiyyətlərə, etdiyi kəşflərə görə bir çox medallara layiq görülmüşdür. Belə ki, 1976-cı ildə Ümumittifaq Tibbi kəşflər sərgisində bürünc, 1977-ci ildə Moskvada keçirilən Beynəlxalq sərgidə gümüş, 1978-ci ildə SSRİ Oftalmoloqlar Cəmiyyətində yeni növ cərrahiyyə əməliyyatı kəşfinə görə qızıl medallarla təltif olunmuşdur.

1979-1982-ci illərdə Bakıda ETGXİ-da rekonstruktiv oftalmologiya şöbəsində

şöbə müdiri vəzifəsini icra etmişdir. Professor Ç.C.Carullazadə 1982-1988-ci illərdə Moskvada ÜGXİ-də doktorluq dissertasiyası üzərində işləmiş və tibb elmləri doktoru adına layiq görülmüşdür.

1992-1996-cı illərdə oftalmologiya kafedrasında professor, 1996-2000-ci illərdə həmin kafedranın müdiri vəzifəsində çalışmışdır.

Professor Ç.C.Carullazadə 2000-2006-cı ildə Bakıda Oftalmaloji xeyriyyə klinikasını yaratmış və ona başçılıq etmişdir. 2000-2010-cu illərdə Mərkəzi Nefçilər xəstəxanasının Göz Mərkəzinin yaradıcısı və rəhbəri olmuşdur.

Görkəmli alim 2000-ci ildən bu günə kimi "OFKO" Özəl göz klinikasının yaradıcısı və rəhbəridir.

Professor Ç.C.Carullazadə 1997-2000-ci ilə qədər Oftalmologiyada cərrahi və terapevtlik müalicəyə aid 19 kəşfin, 100-dən artıq elmi məqalənin müəllifidir.

Yüksək mənəvi keyfiyyətlərə malik olan Ç.Carullazadə həm də xeyriyyəçiliklə də tanınır. 1995-ci ildə Qaçqın düşərgəsinə yardım etdiyinə görə Z.Tağıyev adına medalla təltif olunub.

2001-ci ildə Veteranlar Cəmiyyətində apardığı humanitar fəaliyyətinə görə Böyük Vətən Müharibəsi veteranlarının "dairəvi" medalı ilə təltif olunub. Elə həmin ildə Azərbaycanın ucqar rayonlarının əhalisinə cərrahi yardım göstərmək üçün yaradılan "Mobil briqadalar" layihəsinin müəllifidir.

Professor Ç.C.Carullazadə Rusiya Oftalmoloqlar Cəmiyyətinin, Avropa Oftalmoloqlar Assosiasiyasının, Amerika Oftalmoloqlar Akademiyasının üzvüdür. İdman sahəsinə böyük maraq göstərən Ç.Carullazadə asudə vaxtlarını böyük tennis, atçılıq və dağturizmi ilə məşğul olmaqla keçirir.

Ailəlidir, 3 övladı var.







## DÜNYAMİN NURQƏLƏM OĞLU

*Filologiya elmləri doktoru, professor*



**Tarixi proses olan, əsl ümumxalq maarifi sistemində əsas sima müəllimdir. Təhsil osaqlarımızın bütün yetirmələrinə həyata vəsiqəni müəllim vermişdir.**

***Heydər Əliyev.***

İnsan yaşa dolduqca yalnız öz bacarığı və səyi nəticəsində formalaşaraq kamilləşir və o, bacarığını əhalinin inkişafına yönəldə bilirsə o zaman müdriklik və kamillik zirvəsinə yüksəlir. Xoş əməllər sahibi olan, insanlara məhəbbəti, səmimiyyəti, əxlaqi keyfiyyətlərilə kamillik zirvəsinə ucalaraq onu tanıyanların qəlbində xüsusi yer tutan Yunusov Dünyamin Nurəddin oğlu 1951-ci il yanvarın 10-da Azərbaycan Respublikasının Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuşdur.1957-1967 - ci illərdə həmin kənddə orta məktəbi əla qiymətlərlə başa vurmuş və 1968 -1973 - cü illərdə Azərbaycan Pedoqoji Xarici Dillər İnstitutunda təhsil almışdır.

Ali məktəbi 1973-cü ildə fərqlənmə diplomu ilə bitirərək, Elmi Şuranın qərarı ilə İngilis dilinin qrammatikası kafedrasında müəllim saxlanılmışdır. 1973-cü ilin noyabrından 1974-cü ilin noyabr ayına qədər ordu sıralarında xidmət etmiş və 1975-ci ilin yanvar ayından İngilis dilinin qrammatikası kafedrasında müəllimlik fəaliyyətini davam etdirmişdir.

D.N. Yunusov müəllimlik fəaliyyəti ilə yanaşı elmi fəaliyyətini də uğurla davam etdirmiş, müəllimlikdən professorluğadək, şərəfli bir yol qət etmişdir. İşlədiyi müddətdə dəfələrlə universitet rəhbərliyinin Fəxri -fərmanlarına və "Təşəkkür"namələrə layiq görülmüşdür. 1981-ci ildə işlərindəki müvəffəqiyyətinə, elmi və ictimai həyatdakı fəal iştirakına görə "Sosializm yarışı"nın qalibi olmuş və "Döş nişanı" ilə təltif edilmişdir.

1985-ci ildə Tbilisi şəhərində "Müasir ingilis dilində "that" bağlayıcılı və onsuz tamalıq budaq cümləli tabeli mürəkkəb cümlələrin intonasiya variativliyi"adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və qısa müddətdə filologiya elmləri namizədi alimlik dərəcəsi elmi adını almışdır. 1988 - ci ildə dosent vəzifəsinə seçilən D.N. Yunusov 2007 - ci ildə "Müxtəlifsistemli dillərdə mürəkkəb sintaktik vahidlərin variativliyi" adlı doktorluq dissertasiyası müdafiə etmiş və elə həmin ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK - nın qərarı ilə filologiya elmləri doktoru alimlik dərəcəsi adına layiq görülmüşdür. 2008 - ci ili aprel ayından işlədiyi İngilis dili qrammatikası kafedrasının professorudur.

Dünyamin müəllim işlədiyi müddətdə bir çox xarici ölkələrdə, o cümlədən

Fransada, Belçikada, Qazaxstanda, Ukraynada, Gürcüstanda, Belorusiyada simpozium, konfrans və konqreslərdə iştirak və çıxış etmişdir.

Tanınmış alim 10 kitabın və 200-ə yaxın elmi məqalənin müəllifidir. Elmi əsərləri ölkəmizdən çox uzaqlarda da tanınınr. Dünyamin müəllimin kitabları Türkiyə Respublikası və İran İslam Respublikasında da nəşr olunmuş və hazırda həmin ölkələrin bir neçə ali məktəblərində tədris olunur. Məqalələri ABŞ - da, Rusiya Federasiyasında, Ukraynada, Qazaxstanda, Belorusda, Gürcüstanda və digər ölkələrdə çap olunmuşdur.

Professor Dünyamin Yunusov Azərbaycan Dillər Universitetində Elmi işlər üzrə prorektor kimi məsul bir vəzifənin də öhdəsindən layiqincə gəlir

Müxtəlif vaxtlarda o, ADU -da dekan müavini, kafedra müdiri, TEC-in sədri, "Təhsil və elm komissiyası sədrinin müavini vəzifələrində də çalışmışdır.

Dünyamin müəllim Respuplikada nəşr edilən "Təhsil ,mədəniyyət və incəsənət jurnallarının,"Azərbaycanda xarici dillər" redaksiya heyətinin üzvü və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki Şurasının Avropa dilləri vəədəbiyyatı" bölməsinin sədri, ADU-da fəaliyyət ğöstərən D.02.081 Dissertasiya Şurasının sədr müavini, "Dil və Ədəbiyyat" jurnalının baş redaktoru kimi də məsul vəzifələrin öhdəsindən bacarıqla gəlir.

Onun birbaşa rəhbərliyi və elmi məsləhətçiliyi ilə beş nəfər tədqiqatçı namizədlik dissertasiyası nı müvəffəqiyyətlə müdafiə etmişlər.D.Yunusov ilk dəfə Azərbaycanda "İngilis və Azərbaycan dillərinin müqayisəli tipologiyası" adlı dərslik nəşr etdirmiş və bu dərslikdən Respublikamızın filologiya fakultətələrinin deməк olar ki, böyük əksəriyyəti istifadə edirlər.

Görkəmli alim dərsliyin ən çətin sahəsi olan "mürəkkəb cümlə" problemi ilə ciddi məşğul olur. O, ADU- da "İngilis dilinin nəzəri qrammatikası" və Xarici və ana dillərinin tipologiyası" adlı çətin fənləri tədris edir.

Həyatını elmə həsr edən, bu sahədə özünə məxsus xidmətləri olan, həm alim kimi həm də ali insanlıq zirvəsini fəth edən bir ziyalı kimi böyük hörmətə malik olan Dünyamin Yunusov gözəl ailə başçısıdır. İki övladı var.







## ELDAROV ÖMƏR HƏSƏN OĞLU

*AMEA nın həqiqi üzvü, SSRİ Əməkdar İncəsənət Xadimi*
*Azərbaycan SSR xalq rəssamı*



***İlahi bəxş etmiş böyük istedad***
***Əbədi tanınmış o, şərəfli ad.***

Həqiqətən də Vətənimizdə və ölkə hududlarından uzaqlarda öz istedadı, elmi, bacarığı ilə şərəf və ləyaqətlə adı çəkilən Ömər Eldarovun xalqımıza bəxş etdiyi töhfələrin, etdiyi xidmətlərin əvəzi yalnız xalqın məhəbbəti, dövlətimizin ona verdiyi yüksək dəyərdir ki, ölkəmizin Ömər Eldarov kimi heykəltaraşı vardır.

Ömər Həsən oğlu Eldarov 1927-ci ildə dünyaya göz açmışdır. O, ixtisas təhsilinə Bakı Rəssamlıq Texnikomunda yiyələnmiş və Sankt- Peterburqda Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda ali təhsil almışdır. Onun yaratdığı portretlər, kompozisiyalar, ucaltdığı abidələr Ömər Eldarovu, sözün əsl mənasında böyük insan olduğunu sübuta yetirmişdir. 1960-cı ildə ucaldılan X.B. Natəvan abidəsi onun yaradıcılığının bariz nümunəsidir. Ömər Eldarovun monimental duyumunun aynası olan lirik-psixoloji biçimli memorial abidələr xalqımıza bəxş olunan bir xəzinəsidir: Heydər Əliyev, Şıxali Qurbanov, Zərifə Əliyeva, Müslüm Maqomayev,Vaqif Mustafazadə, Fikrət Əmirov, Rəşid Behbudov, Ziya Bünyadzadə-bu abidələr onun canlı əsərləridir. Böyük sənətkarın xarici ölkələrdə; Sədrəddin Ayni (Tacikistan), İbn Sina (Düşənbə) yaratdığı memarlıq abidələri, Bakıda Əzim Əzimzadənin, Naxçıvanda Heydər Əliyevin, Hüseyn Cavidin abidələri Ömər Eldarovun əməyinin bəhəridir. Müxtəlif sahələrdə ucaldılan Məhəmməd Fizulinin abidəsi (Tokay Məmmədovla birlikdə ) onu bütün dünyada tanıdan bir əsərdir. Ömər Eldarov "Azərbaycan SSR xalq rəssamı", "SSRİ Əməkdar İncəsənət Xadimi" kimi yüksək fəxri adlarına layiq görülmüş,"İstiqlal" ordeni ilə təltif olunmuşdur və Heydər Əliyev adına Dövlət Mükafatı laureatıdır.

SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü olmuş və müstəqllik illərində AMEA nın həqiqi üzvü seçilmişdir.

Olduqca zəngin yaradıcılıq yolu keçərək, Azərbaycan adlı diyarın, böyük nüfuza malik olan şəxsiyyəti Ömər Həsən oğlu Eldarovun xidmətləri, dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək, dəfələrlə mükafalara layiq görülmüşdür. Yurdumuzun görkəmli sənətkarı, təsviri sənətin heykəltaraşlıq sahəsində uğurlu fəaliyyəti və əldə etdiyi nailiyyətləri ilə, Ömər Eldarov adlı əbədi bir abidə yaratmışdır. O, canlı Ömər Eldarov şəxsiyyətidir ki, onu yaşından, səviyyəsindən, kimliyindən asılı olmayaraq bütün xalqımız tanıyır, sevir, hörmət edir və Vətənimiz onun adını ucadan-uca tutur.

## ƏKBƏROV CANƏLİ XANƏLİ OĞLU

*Respublikanın xalq artisti, professor*



**"Muğamat keçmiş dövrlərdən bəri şərqin xüsusi ilə Azərbaycan klassik musiqi yaradıcılığı nümunəsi kimi tanınmışdır. Muğamat qədim Şərq pərdələri üzrə qurularaq yüksək melodiyaya malikdir.**

*Üzeyir Hacıbəyov*

İnsan yalnız yaxşılıq etmək üçün doğulur deyərək, bu hikməti öz həyat amalına çevirən və həmişə buna çalışan, dərin daxili mədəniyyətə və yüksək mənəvi keyfiyyətə malik ADMİU - nun professoru, "Muğam sənəti" kafedrasının müdiri, Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət orden"li və "Şərəf orden" li, pezident və Heydər Əliyev adına fondun təqaüdçüsü Əkbərov Canəli Xanəli oğlu 1940 - cı il mart ayının 10 - da Lənkəran rayonunun Tükəvilə kəndində musiqiçi ailəsində anadan olmuşdur. Orta məktəbi 1956 - cı ildə Separadi kəndində başa vurub. Elə həmin il Lənkəran Tibb Texnikumuna daxil olub. 1958 - ci ildə fərqlənmə diplomu ilə oranı bitirdikdən sonra müxtəlif tibb ocaqlarında çalışıb.

C.X.Əkbərov 1961 - ci ildə III Respublika Gənclər Festivalının iştirakçısı və laureatı olmuş və qızıl medala layiq görülmüşdür. İlk muğam təhsilini atası Xanəli Əkbərovdan alan Canəli müəllim 1963- cü ildə A.Zeynallı adına Bakı Dövlət musiqi texnikumuna indiki(Bakı Dövlət musiqi kolleci) daxil olub. Seyid Şuşinski və Xan Şuşinskidən dərs alıb. 1963 - cü ilin avqust ayında böyük müsabiqə yolu ilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında solist kimi fəaliyyətə başlayıb. 1968 - ci ildə texnikumu müvəffəqiyyətlə bitirib. Təsirli, mənalı, bənzərsiz ifa tərzləri ilə seçilən C.X.Əkbərov 1975 - ci ildən Filarmoniyanın səhnəsindən operanın səhnəsinə köçürülüb. 1976 - cı ildən Ə.Hüseynzadə adına Teatr İnstitutuna, indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə daxil olub və 1981 - ci ildə başa vurub.

Opera və Balet Teatrında 30 il fəaliyyət göstərməklə bütün mili operaların baş qəhrəmanı olan Canəli Əkbərov Ü.Hacıbəylinin "Leyli və Məcnun"da - Məcnun, M.Maqamayevin "Şah İsmayıl" operasında Şah İsmayıl, Z.Hacıbəyovun "Aşıq Qərib" operasında- Qərib, Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasında - Kərəm, Ş.Axundovanın "Gəlin qayası" operasında Camal, M.Quliyevin "Aldanmış ulduzlar"da Axund və b. rolları yüksək məharətlə ifa edib.

Canəli Əkbərov bir çox xarici ölkələrdə, o cümlədən Almaniya, Avstriya, Fransa, Polşa, İrak, İran, Türkiyə və s. qastrol səfərlərində ümumdünya Muğam simpoziumunun qalibi olub. 1978 - ci ilin noyabrın 23 - də "Muzıkalnaə jiznğ" və "Sovetskaə muzıka" jurnalları





Canəli Əkbərovun muğam ifaçılığını ağlasığmaz möcüzə adlandırmışdılar.

1989 -cu ildə İsveçin Falun şəhərində keçirilən beynəlxalq folklor festifalının qalibi olan Canəli Əkbərovun oxuduğu musiqi əsərləri əksər halda təfsirin dərinliyi ilə, bədii cəhətdən bütövlüyü və mükəmməlliyi ilə fərqlənir. Zəngin yaradıcılıq fantaziyası, formanı, tempi, ritmi, mövzunun dramaturgiyasını incəliklərinə qədər duyması, gözəl musiqi hafizəsi daim onu dinləyənlərin rəğbətini qazandırıb. Canəli Əkbərov 1989 - cu ildə respublikanın əməkdar artisti, 1992 - ci ildə xalq artisti kimi şərəfli adlara layiq görülüb. İfa etdiyi bütün monimental muğam dəstgahları, xalq mahnı və təsniflər, eləcə də bəstəkar mahnıları Azərbaycan Dövlət TV - nin fonateka və filmotekasında qorunur.

1999 - cu ildə yazıçı - publisist Cümşüd İsgəndər Canəli Əkbərov haqqında "Yandı canım hicr ilə..." adlı kitab yazmış, Həqiqət Kərimova "Bir səsin möcüzəsi" adlı kitab, professor Nəriman Xəlil "Muğam aşiqi" adlı poema həsr etmişdir. 1999 - cu ildə Az. televiziyası həyat və yaradıcılığını əks etdirən "Canəli Əkbərov" adlı sənədli telefilm çəkmişdir.

Muğam insanların həyatında çox mühüm rol oynayır. Yeni cəmiyyət qurucularının ideya - mənəvi və estetik tərbiyəsində, şəxsiyyətin hərtərəfli inkişafının formalaşdırılmasında muğam əvəzsiz əhəmiyyət kəsb edir. Canəli Əkbərov bir sənətkar kimi özünün ən dəyərli potensial yaradıcılıq imkanlarından məharətlə istifadə edərək xalq sevgisi qazanmış və dövlət tərəfindən daima qiymətləndirilmişdir. 2000 - ci ildə Ulu öndərimizin fərmanı ilə "Şöhrət ordeni" ilə və 2010-cu ildə isə Prezident İlham Əliyevin sərəncamı ilə "Şərəf" ordeni ilə təltif olunmuşdur. Elə həmin ildə Opera və Balet Teatrında dövlət səviyyəsində 60 illik yubileyi keçirilib. 2002 - ci ildə prezident, 2005 - ci ildə Heydər Əliyev adına fondun təqaüdünə layiq görülüb. Heydər Əliyev adına sarayda və M.Maqomayev adına Az.Dövlət flarmoniyasında solo konsertləri çox böyük uğurla keçmişdir. Hal - hazırda əzmlə çalışaraq muğamlarımızın və xalq musiqimizin tədrisi və ifası ilə ciddi məşğul olan Canəli Əkbərov ADMİU - nun professoru və "Muğam sənəti" kafedrasının müdiri vəzifəsində çalışır. Bu dövrdə Muğam sənəti kafedrası üçün yeni proqram və bir neçə metodiki dərs vəsaiti yazıb.

Yeni Azərbaycan Partiyasının, Respublika Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü olan Canəli Əkbərov bir çox fərmanlarla, təşəkkürnamələrlə, eyni zamanda "Qızıl səs" diplomu ilə təltif olunmuşdur. Canəli Əkbərovun yetişdirdiyi tələbələr hamısı bu sahədə öz yerini tutmuş, əməkdar, xalq artistləri adına və prezident təqaüdünə layiq görülmüşlər.

Məşhur rus sovet şairi Mixail Svetlov deyib: "Adamların nə arzuladıqlarını, necə yaşadıqlarını, nə ilə aşılandıqlarını onların oxuduqları mahnılardan da aydın hiss etmək mümkündür".

Muğama bütün varlığı ilə bağlanan Canəli Əkbərov Azərbaycan xanəndəlik sənətinin vokal ifaçılığının ən qüdrətli nümayəndələrindən biridir.

Heydər Əliyev ideyalarının gənclər arasında təbliğinə və muğam sənətinin inkişafında əvəzsiz xidmətlərinə görə Canəli Əkbərov akademik Budaq Budaqovun baş redaktoru olduğu "Mərhəmət elçisi" jurnalının təsis etdiyi "Qızıl səs" diplomu ilə təltif olunub. Ailəlidir, 4 övladı , 13 nəvəsi, 7 nəticəsi var.

# ƏLİYEV ƏDALƏT BAYRAMƏLİ OĞLU

*Texnika elmləri doktoru, professor*



***Söz, bilik zəkaya əsaslanarsa, inci kimi hamı onu qulağına taxar.***

*Atalar sözü*

Qədim və Ulu Oğuz diyarı Azərbaycanın ermənilər tərəfindən işğal olunan qərb hissəsi - Qərbi Azərbaycanın Zəngibasar Mahalının Zəngilər kəndində məşhur Soltanəli bəyin nəticəsi Ədalət Əliyev haqdadır açacağımız söhbət. Soltanəli bəy əslən Türkiyənin Qaraqoyunlular obasından olan minbaşı kimi böyük nüfuza mənsub mərd, mübariz, el - obaya arxa duran şəxsiyyət olmuşdur. Soltanbəyin oğlu Abbas bəy (Ədalət Əliyevin babası) türk ordu sıralarından tərxis olunaraq, Dərələyəz Mahalına gəlmiş və öz atasının yolunu davam etdirmişdir. Ədalət Əliyevin atası Bayraməli Əliyev Böyük Vətən Müharibəsində qələbə gününə qədər döyüşmüş və 1952 - ci ilə qədər yaşayıb ömrün mənalı çağında vəfat etmişdir.

Ədalət Əliyevin həyatından söz açmazdan əvvəl onun soy kökü haqda məlumat verməyimiz səbəbsiz deyil. Yəni, "Ot kökü üstə bitər" müdrik kəlamının hər zaman öz təsdiqini tapmasının zəruri olduğunu diqqətə çatdırmaqdır. 1948 - ci ildə Yevlax rayonunun Vadili kəndində anadan olmuşdur Ədalət Əliyev. Təyyarəçi olmaq arzusu ilə yaşayan Ədalət Əliyev orta məktəbi bitirərək Saratov Təyyarəçilik məktəbinə qəbul olunur.

O, təhsili başa vuraraq vətənə dönür və əmək fəaliyyətinə başlayır. Ədalət Əliyev sıravi pilotdan Gəncə və Bakı Birləşmiş Aviasiya Dəstəsinin komandiri - aeroport rəisi vəzifəsinədək yüksəlmişdir. Ömrünün on bir min saatını uçuşda olmuş və onun əməyi hər zaman dəyərləndirilmişdir.

Ədalət Əliyev "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmiş və onun milli kadrlar hazırlanması istiqamətindəki xidmətləri mükafata layiq görülmüşdür. Leninqrad (Sankt - Peterburq) Aviasiya Akademiyasında ali təhsilə yiyələnən Ədalət Əliyev namizədlik dissertasiyası müdafiə edərək, elmlər namizədi, alimlik dərəcəsi almışdır.

1988 - ci ildən Bakı aeroportuna rəis vəzifəsinə təyin olunan alim Ədalət Əliyev vətənpərvər və əzmkar bir məsul şəxsiyyət olaraq çox böyük şücaətliklərlə Azərbaycanın qanlı - qadalı illərində amansız düşmənlərə qarşı ədalətlə döyüşən ordumuza, işğalda olan ərazilərin azad olunması yolunda igidliklə çarpışan əsgərlərimizə arxa - dayaq olmuş və bir sıra çətinliklərin qarşısını almağa nail olmuşdur. 1992 - ci ildən Ədalət Əliyev Azərbaycan Hava Yolları Dövlət Konserninə baş direktor təyin olunmuşdur. Onun səyi, təşkilatçılığı və səriştəliliyi ilə 1992 - 1996 - cı illər ərzində 37 ölkə ilə hava nəqliyyatı əlaqələri qurulması haqda Beynəlxalq müqavilələr bağlanmışdır.





Azərbaycan Respublikası Beynəlxalq Mülki Aviasiya Təşkilatının üzvü olaraq, 1998 - 2000 - ci illərdə Rusiya Aviasiya Sənayesi Nazirliyinin "Konvers - Avia" Elm İstehsalat Birliyində baş direktor müavini işləmişdir. Nəqliyyat üzrə doktorluq dissertasiyası müdafiə edən ilk azərbaycanlı Ədalət Əliyev olmuş və o, nəqliyyat elmləri doktoru adını ləyaqətlə daşıyır.

Yüksək dərəcəli mütəxəssis olan Ədalət Əliyev Beynəlxalq Nəqliyyat Akademiyasının, Beynəlxalq Enerqoinformasiya Akademiyasının akademiki, Rusiya qanunvericilik, Müdafiə və Təhlükəsizlik Akademiyasının akademiki və professorudur. O, Azərbaycan Milli Aviasiya Akademiyasının və Mülki Aviasiya Elmi Tədqiqat İnstitutunun yaradıcı alimidir. Görkəmli alim Ədalət Əliyev Təfəkkür Universitetinin "Nəqliyyat və yol təsərrüfatı" kafedrasında müdir vəzifəsini uğurla icra edir. 2001 - ci ildən texnika elmləri doktoru adını şərəflə daşıyan Ədalət Əliyev bir çox kitabların, vəsaitlərin, 70 - dən artıq elmi əsərin müəllifidir.

2004 - cü ildən magistr dissertasiyaları müdafiəsində DAK sədri təyin olunan Ədalət Əliyevin rəhbərliyi ilə bakalavr və magistr pilləsində tələbələrin təqdim etdiyi dissertasiyalar və buraxılış işləri əla qiymətləndirilir ki, bu da professor, akademik Ədalət Əliyevin xidmətləridir. Azərbaycanın layiqli - şərəfli akademikinə uğurlarla, nailiyyətlərlə zəngin yollar və xoşbəxtlik arzulayaraq deyirik: Görkəmli şəxsiyyətlərimizin fəaliyyətlərinin nuru, işıqlandırsın gələcəyin qurucusu olan gənc nəsillərin həyat yolunu. Sizin kimi, sözün əsl mənasında ali insani keyfiyyətlərə malik olan alimin kamil ömrünün məğrur divarları heç vaxt əyilməsin.



## ƏLİYEV ƏLİHEYDƏR MƏHƏMMƏD OĞLU

*Qabaqcıl maarif işçisi, nüfuzlu ziyalı*



***Çalışın alim ilə cahil arasında fərq qoyasınız. Alimlər həyatın yol göstərənləridir.***

*Zərdüşt*

Böyük Vətən Müharibəsi iştirakçısı, sinəsini "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı", "Lenin ordeni"ləri bəzəyən, sənətinə dərin məhəbbət bəsləyərək xalq yolunda ömür fəda edən şəxsiyyət haqdadır açacığımız söhbət. Əliheydər Kərbəlayi Məhəmməd oğlu Əliyev 1903 - cü ildə dünyaya göz açmışdır. Ömrünün 45 ilini pedaqoji fəaliyyətə həsr edən Əliheydər müəllim dil - ədəbiyyat üzrə ali təhsilli pedaqoq olmuşdur. Onun ictimai xadim Nəriman Nərimanovla bağlı xatirələrindən aydın olur ki, Əliheydər müəllim zəngin bir ziyalı kimi vətən tarixində öz izi olan bir şəxsiyyətdir. O, Ucar rayonunun Qarabörk kəndində müəllim, məktəb direktoru işləməklə yanaşı həm də Kolxoz Partiya Təşkilatı katibi vəzifəsində çalışmışdır. Rayon Sovetinə dəfələrlə deputat seçilən Ə.Əliyev yuxarıda qeyd olunduğu kimi ordenlərlə və Böyük Vətən Müharibəsində göstərdiyi rəşadətə görə medallarla təltif olunmuşdur.

**Onun xatirələri:**

"Soy - kökümüz əslən Şamaxı rayonundan olan el - obanın məhəbətini, hörmətini qazanan xeyirxah bir nəsil kimi tanınmışdır. Zəlzələ zamanı yurdundan didərgin düşən ailəmiz Ucar rayonunun Qarabörk kəndində məskunlaşmış və biz orta təhsilə bu kənddə yiyələnib, boya - başa çatmışıq.

Mən ali təhsil alaraq, müəllim olmaq arzusunu lap kiçik yaşlarımdan düşünür və anama deyirdim. Həyatda nail olduğum bütün uğurlara görə, çatdığım mövqeyə, qazandığım hörmətə və insanlarla qurduğum qarşılıqlı məhəbbət bünövrəli münasibətlərə görə ən əvvəl Allah - Təalaya və sonra mənə tərbiyə verib böyüdən valideynlərimə, müəllimlərə minnətdaram. Hər gün, hər saat və hər an bizi görən, eşidən və duyan Uca Allaha şükürlər olsun". Bu düşüncələr xalqın maariflənməsi yolunda, azərbaycanlı övladların təlim - tərbiyə alaraq, təhsilə, elmə yiyələnməsi yolunda bütöv bir ömür həsr edərək, çalışan Əliheydər Əliyevin zəkasının kəlamlarıdır.

Ömrünün 45 ilini təhsilin inkişafı və zənginləşməsi yolunda fədakarlıqdla çalışan qabaqcıl maarif işçisi Əliheydər müəllim Ucar rayonunda və





Respublikamızda tanınmış bir pedaqoq kimi yad olunur.

37 il Qarabörk kənd orta məktəbinin direktoru vəzifəsini layiqincə aparan Əliheydər Əliyev 11 övlad atası olaraq, bütün 6 oğul və 5 qızına ali təhsil vermişdir. Bu övladların ali təhsilli müəllim kimi yetişməsində bir müəllim - ata olaraq Əliheydər Əliyevin və həyat yoldaşı Badam xanım Hacı Ağa qızının zəhməti böyük olmuşdur. Əliheydər müəllim ana şərəfini, ana müqəddəsliyini uca tutaraq deyirdi: "Mən anam Məşədi Leyli xanımın yuxusuz gecələrini, mənə və bütün anaların övlada çəkdiyi zəhmətə görə onların qarşısında səcdə edirəm". Ailənin sonbeşiyi Leyli xanım nənəsi Məşədi Leyli ananın adının layiqli davamçısı olaraq, vətənimizi İrakda, Hindistanda, Rusiyada təmsil edən elmli bir ziyalıdır. Leyli Əliheydər qızı Əliyeva AMEA Nizami adına Ədəbiyyat İnstitutunda Qədim Dövr Azərbaycan Ədəbiyyatı Şöbəsinin aparıcı elmi işçisi vəzifəsində çalışır.

O, namizədlik dissertasiyasını (1984) uğurla müdafiə etmiş, elmlər namizədi - alim xanım olaraq 50 - dən artıq elmi məqalənin, monoqrafiyaların müəllifidir. Leyli xanımın şeirləri artıq 1973 - cü ildən bəri oxuculara təqdim olunur. Onun kitabları dərc olunmaqla oxucuda vətənpərvərlik hisslərinin qüvvətlənməsi daha da artır. Leyli Əliyevanın ingilis dilindən azərbaycan dilinə tərcümə etdiyi poetik nümunələr və hekayələri də oxuculara təqdim olunmuşdur.

Bütün bunları qeyd etməklə məqsədimiz budur ki, belə alimlər əsasən kökdən qaynaqlanır. Yəni əlbət ki, ömrünü xalqa həsr edən valideynin övladı Leyli xanım kimi bir ziyalıdırsa və xalqımız da onunla fəxr edib, qürur duyursa bu bizim qələbəmizdir. Zəngin və ziyalı Əliyevlər ailəsinə və bu ailənin bütün davamçılarına nailiyyətlər arzu edərək deyirik: Allah Əliheydər Əliyevi rəhmət etsin. Məkanı cənnət olsun.



## ƏLİYEVA LEYLİ ƏLİHEYDƏR QIZI

*Filologiya elmləri doktoru,*
*AMEA-nınaparıcı elmi işçisi*



***İnsanın kamala yetməsi gözəl əxlaqla mümkündür.***
*Məhəmməd Peyğəmbər (s.ə.v.s.)*

Əsrə bərabər ömür var ki, heç bir iz qoymadan ötüb keçir, ömür də var ki, izi, sorağı aylarla, illərlə qalır, xalqın tarixinə düşür. Elmi, əməli, xeyirxahlığı, ən gözəl insani keyfiyyətləri ilə onu tanıyanların arasında hörmət qazanan, üzü nurlu, özünəməxsus nailiyyətləri ilə seçilən, həyatını elmə həsr edən AMEA-nın aparıcı elmi işçisi, filologiya elmləri doktoru Leyli Əliheydər qızı Əliyeva Azərbaycan Respublikasının Ucar rayonunun Qarabörk kəndində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini müvəffəqiyyətlə bitirdikdən sonra M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakultəsinə daxil olmuş və həmin fakultəni başa vurmuşdur. L.Ə.Əliyeva AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda 1978-ci ildən fəaliyyət göstərir. Daim elmi axtarışlara can atan Leyli xanım 1984-cü ildə "Füzuli ingilis dili qaynaqlarında" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1980-cı ildə 2 illik fars dili kursunu, 1984-cü ildə isə 2 illik ərəb dili kursunu bitirmiş, dəfələrlə "Quran" müsabiqəsində iştirak etmişdir.

L.Ə.Əliyeva 1984-cü ildə Marksizm-Leninizm İnstitutunun fəlsəfə şöbəsini bitrimişdir. Onun ingilis dilindən azərbaycan dilinə etdiyi poetik tərcümələr və nəsr əsərləri dövrü mətbuatda, müxtəlif yönlü məcmuələrdə dərc edilmişdir.

Xanım-xatınlığı ilə seçilən alim Leyli Əliyeva incə qəlbli, sözü duyan və sözə məhəbbətlə yanaşan şair təbiətli bir ziyalı xanımdır. Şeirləri 1972-ci ildən qəzet və jurnallarda "Rəngbərəngdir ləçəkləri güllərin", "Nağıl kimi şibşirindir bu dünya", "Şuşada ağlayan çiçək" və sair şeir toplusunda çap edilmişdir. Hindistanda uzunmüddətli elmi ezamiyyətdə olan Leyli Əliheydər qızı, İraqda səfərdə olmuş, dəfələrlə İran İslam Respublikasında keçirilən elmi konfranslarda iştirak etmişdir. Alimin elmi rəhbərliyi altında 8 nəfər uğurla namizədlik dissertasiyasını müdafiə etmişdir. Filologiya elmləri doktoru, AMEA-nın aparıcı elmi işçisi olan Leyli Əliyeva "Füzuli və ingilis şərqşünaslığı" adlı monoqrafiyanın, 50-dən çox elmi məqalənin müəllifidir.

Xalq qarşısında dəyərli xidmətləri və səmərəli fəaliyyəti ilə hörmətə, məhəbbətə, etimada laiq olan Leyli xanım Əliyevanın gözəl ailəsi var. Həyat yoldaşı Sadiq Məsimov ali təhsilli iqtisadçıdır. Birlikdə boya-başa çatdırdıqları övladları Kərim Sadiq oğlu Bakı İslam Universitetinin məzunudur. Hazırda o, Suriyada Əl-Qaim Universitetində təhsilini davam etdirir.

Ziyalılar ailəsinə Tanrıdan gözəl nəvələr, səadət dolu günlər arzu edirik!





## ƏSGƏROV MƏMMƏDƏLİ SƏLİMXAN OĞLU

*Azərbaycan Yazıçılar İttifaqının üzvü, tanınmış alim*



***Ölməz o insandır ki, ondan sonra vətən üçün böyük və faydalı yadigarlar qalır.***
*H.Vovenarq*

Həyatın öz qanunları vardır. Bu qanunlara əsasən hər kəs öz mənəviyyatına, elminə və insaniyyətliyinə görə tanınır və öz adına, hörmətinə layiq məqama çatır. Uzun illər Azərbaycan Dövlət İncəsənət İnstitutunda səhnə nitqi kafedrasının müdiri, professor əvəzi, baş müəllimi, səhnə nitqi kafedrasının dosseni vəzifələrində çalışan ziyalı Əsgərov Məmmədəli Səlimxan oğlu ömrünün 45 ilini vətənə, xalqa həsr etmişdir.

Böyük sənətkarlar incəsənət sahəsində tanınmış səhnə ustaları olan görkəmli aktyorların yetişməsində əvəzsiz xidmətləri olan ziyalı pedaqoq Məmmədəli Əsgərov Bakının Suraxanı qəsəbəsində 18 dekabr 1921 - ci ildə anadan olmuşdur. Atası Səlimxan Əsgərov tanınmış buruq ustası olaraq bütün fəaliyyəti ilə Suraxanı Neft Mədənlərinə bağlı hörmətli şəxs, mötəbər insan olmuşdur. M.Əsgərov orta təhsili Suraxanı kənd orta məktəbində alaraq M.F.Axundov alına Müəllimlər İnstitutuna qəbul olunmuş və ədəbiyyat fakultəsini uğurla bitirmişdir. M.Əsgərov təhsilini qiyabi yolla (eyni zamanda) ADU - da (Bakı Dövlət Universitetində) davam etdirmiş və ikinci ali təhsilə yiyələnərək filoloq ixtisası almışdır. İkinci dünya müharibəsində fəal iştirak edərək yaralanmış və ordudan tərxis olunduqdan sonra Bakıya qayıdaraq 101 saylı məktəbdə pedaqoq kimi çalışaraq ədəbiyyat dərsini tədris etmişdir. M.Əsgərov 1944 - 64 - cü illərdə "Azərbaycan Gəncləri" qəzetinin ədəbiyyat və incəsənət şöbəsində müdir vəzifəsində çalışmışdır. Məmmədəli müəllimin elmi - təcrübi fəaliyyəti yüksək qiymətləndirilmiş, o, bir çox təltiflərə, mükafatlara layiq görülərək pillə - pillə ucalmış, irəliləmişdir. 1964 - 69 - cu illərdə Azərbaycan Müəllimlərinin Təkmilləşdirilməsi İnstitutunda Azərbaycan dili və ədəbiyyat kabinetinin metodisti vəzifəsində çalışmışdır. O, uzun illər Azərbaycan Dövlət İncəsənət institutunda səhnə nitqi kafedrasının dosenti olmuş və elmi pedaqoji fəaliyyəti ilə xalqımıza, vətənimizə elmli, savadlı kadrlar yetirmişdir.

M.S.Əsgərov Azərbaycan Yazıçılar İttifaqının üzvü, xalqın hörmət bəslədiyi ziyalısı olaraq vətəndə tanınmış şəxsiyyət idi. Onun qələmə aldığı şeirlər əruz vəzni ilə yazılmışdır.

M.Əsgərovun bu mövzuda- əruz vəzni haqqında yazıb oxuculara təqdim etdiyi bir sıra səmərəli tövsiyələrlə, məlumatlarla zəngin kitabı da yüksək əhəmiyyət kəsb edir. Onun şeirlərində vətənə məhəbbət, torpağa bağlılıq mövzuları üstünlük təşkil edir. Oxunarkən, dinlənərkən bu şeirlər insanda insanlığa, mənəviyyatda bir məhəbbət, hörmət hissi oyanır.

M.Əsgərovun müəllifliyi ilə nəşr olunan bir çox əsərlər içərisindən bəzisini qeyd edirik.

Cəlil Məmmədquluzadənin tədrisi.

Fizulini məktəbdə necə tədris etməli.

Bədii qiraət.

Səhnə nitqi.

Natiqlik sənətinin əsasları.

Bu əsərlər M.Əsgərovun xalqımıza ən dəyərli töhfəsidir. M.Əsgərovun həyat və fəaliyəti haqda çox yazılıb, deyilmiş: "Azərbaycan yazıçılarının ensklopedik məlumat" kitabında ətraflı məlumat verilmişdir.

Məmmədəli Əsgərovun şəxsi kitabxanası son dərəcə zəngindir. Onun şəxsi kitabxanasında minlərlə bədii və elmi ədəbiyyat qorunur. Şərq ədəbiyyatı və poetikasına aid əhəmiyyətli mənbələr bu kitabxananın əsas hissəsini təşkil edir. “Molla Nəsrəddin” və “Fyuzat” jurnalının, “ədəbiyyat və incəsənət” qəzetinin tam komplekti, Cavid əsərlərinin ilk nəşrləri bu kitabxananın ən qiymətli nümunələri sırasına daxildir. Hal hazırda da mövcud olan bu kitabxana haqqında ilk dəfə “Mir” dövlətlərarası teleradio şirkətinin Azərbaycan nümayəndəliyi tərəfindən çəkiliş aparılmış və dəfələrlə 1997-1998-ci illərdə MDB məkanında televiziya ilə yayımlanmışdır.

Azərbaycanın parlaq ziyalılarından olan Məmmədəli Əsgərov 1991 - ci ildə əbədiyyətə qovuşaraq dünyasını dəyişmişdir. Onun əməlləri, yazdığı əsərlər daim yaşayacaqdır. Gözəl insan, şərəfli ziyalı, Məmədəli Səlimxan oğlu Əsgərova Tanrıdan rəhmət diləyirik. Məkanı cənnət olsun.





## ƏSGƏROV CAVİD SƏLİMXAN OĞLU

*"Əmək veteranı" dosent*



***Bir rəngi yox göylərin,***
***Min rəngini sevirəm.***
***Bir gülü yox güllərin,***
***Çələngini sevirəm.***
***Mən təpə yox, bir uca,***
***Dağ olmaq istəyirəm.***
***Həyatı həyat kimi,***
***Yaşamaq istəyirəm.***

Azərbaycan alimləri səmərəli fəaliyyəti, əldə etdiyi nailiyyətlər və elmə bəxş etdiyi ixtiralar, yeniliklərlə yurdumuzu dünyaya tanıdır.

Həyatını, elmini və qüvvəsini elmin inkişafı və zənginləşməsi yollarına həsr edən alim, Azərbaycan Dövlət Neft Akademiyasının energetika fakültəsinə uzun müddət rəhbərlik edərək, dekan vəzifəsində çalışmış və hazırda Elektrotexnika və elektrik təchizatı kafedrasının dosenti C.Əsgərov 1940-cı ildə Bakı şəhərinin dünyada neft kimi qara qızılı ilə dəyərli, sərvətə malik olan Suraxanı qəsəbəsində dünyaya gəlmişdir.

Orta təhsili Suraxanı rayonu 101 saylı məktəbdə müvəffəqiyyətlə başa vuraraq, ADPİ-yə (Pedaqoji Universitetə) qəbul olunmuşdur.

Fizika və istehsalat əsasları ixtisası üzrə ali təhsil aldıqdan sonra 1963-66-cı illərdə M.Əzizbəyov adına Neft və Kimya (hazırkı ADNA) İnstitutunun aspiranturasında "Elektrotexnikanın nəzəri əsasları" kafedrasında əməkdar elm xadimi, t.e.d. professor Zəki Kazımzadənin rəhbərliyi ilə təhsilini davam etdirmişdir.

1967-ci ildə Cavid Əsgərov "Kiçik güclü torodial transformatorların tədqiqi və hesabı" mövzusunda dissertasiya müdafiə edərək, elmlər namizədi, alimlik dərəcəsi almışdır. Onun apardığı elmi araşdırmalar və elmin zənginləşməsi yolunda çəkdiyi zəhmətlər həqiqətən tədqirəlayiqdir.

1968-ci ildə "Elektrotexnika və neft sənayesinin energetikası" kafedrası üzrə dosent elmi adı təsdiq olunan C.Əsgərov 1970-85-ci illərdə ADNAilə Moskva Radiokomponentlər Elmi-Tədqiqat İnstitutu arasındakı mövcud Elmi-tədqiqat müqavilələrinin elmi rəhbəri olmuşdur.

Onun apardığı və rəhbərlik etdiyi elmi işlərin nəticələri sənayenin müxtəlif sahələrində tətbiq olunmuşdur.

ADNA-nın Energetika fakültəsində dekan vəzifəsində çalışan C.Əsgərovun elmli-bacarıqlı, səviyyəli ixtisasçı kadrların hazırlanmasında əməyi böyük olmuş-

dur. (1997-2000-ci illər) O, altmışa yaxın elmi-metodik məqalənin, on beşə qədər dərs vəsaitinin, beş metodik vəsaitin, bir dərslik və monoqrafiyanın müəllifidir. 2001-ci ildən Əmək veteranı adı daşıyan alimin əməyi Dövlətimiz tərəfindən yüksək dəyərləndirilmiş və o, "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

C.Əsgərov ömrünün 47 ilini ölkəmizdə elmin inkişafı yollarına həsr etmiş və bu yolda uğurla çalışaraq xalqımıza əvəzsiz xidmətləri ilə töhfələr bəxş etmişdir. 1998-ci ildən YAP-ın üzvüdür.

Cavid Əsgərov ailəlidir, 4 (dörd)ali təhsilli-ziyalı övladlar yetirmişdir vətənə. 9 nəvə, 2 nəticə sahibi olan alimin davamçıları da yəqinlər olsun ki, onun öz elmindən, ziyasından nur çilədiyi yollarla addımlayaraq, vətənimizin, xalqımızın fəxri, fəxarət ünvanlı yaradıcı-elmli insanları olacaqdır. Çünki, məsəl var: "Ot kökü üstə bitər".

Çalışdığı məsul vəzifədə uğurlar, apardığı elmin inkişafı yollarında nailiyyətlər arzulayaraq, deyirik: Qələminiz qüdrətli, yolunuz nurlu olsun xalqımızın gərəkli ziyalısı, alimi Cavid Əsgərov.







## ƏHMƏDOV TOFİQ RƏŞİD OĞLU

*Geologiya - minerologiya elmləri doktoru, professor*



**Dünyada hər şeyə elmi qalxan et, çünki elmdən möhkəm qalxan ola bilməz, hər kəs elmi özünə qalxan etsə, dünya zərbələrindən zərər görməz.**

*Nasir Xosrov*

Elm nurdur, ziyadır. Elmlərlə zənginləşib əməyi, səyi və bacarığı ilə pillə - pillə ucalan şəxsiyyətlər yetirmişdir odlar yurdu Azərbaycan. Onların zəhmətinin pöhrələnən budaqlarıdır ölkəmizdə və respublika hüdudlarından uzaqlarda ixtisasının kamil mütəxəssisi olan alimlər, mühəndislər. Oxucularımıza təqdim etdiyimiz məlumat tanınmış alim, geologiya - minerologiya elmləri doktoru, professor Tofiq Əhmədovun həyat və fəaliyyəti haqqındadır.

1947 - ci il 23 aprel tarixində Dəvəçi rayonunda (hazırki Şabran) anadan olmuşdur. Orta təhsili gümüş medalla başa vuraraq M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Geoloji kəşfiyyat fakultəsinin faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları ixtisası üzrə uğurla imtahan vermiş və ali məktəbə qəbul olunmuşdur. Azərbaycan NKİ - nu (ADNA-nı) fərqlənmə diplomu ilə bitirən Tofiq Əhmədov təyinatla institutda saxlanılmış və əmək fəaliyyətinə geofiziki kəşfiyyat üsulları kafedrasında başlamışdır.

1970 - ci ildən aspiranturaya daxil olaraq dissertasiya üzərində çalışmışdır.

Tofiq Əhmədov 1975 - ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edərək, geologiya - minerologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. O dövrdə dissertasiya müdafiəsi 2 saatdan artıq vaxt aparmadığı halda, iki erməninin müdaxiləsi müdafiəni 5 saata yaxın bir vaxt əhatə etmiş və nəhayət azəri oğlu Tofiq Əhmədov bütün sınaqlardın uğurla çıxmışdır.

O savadsız daşnak ermənilər isə pərt halda zaldan uzaqlaşmışdırlar. Tofiq Əhmədovun elmi rəhbəri professor R.Abdullayev xeyriyyəçi, milyonçu Hacı Zeynalabdin Tağıyevin nəvəsi (kiçik qızı Süreyya xanımın oğlu) olmuşdur. Tofiq Əhmədov kafedrada böyük mühəndis, baş elmi işçi kimi çalışmaqla yanaşı həm də dərs demişdir. O, Moskva, Fransa və digər ölkələrdə elmi ezamiyyətlərdə olmuş və Azərbaycanı layiqincə təmsil etmişdir.

Tofiq Əhmədov öz ixtisasını bütün incəlikləri ilə bilən, öyrənməyi və öyrətməyi bacaran bir alim olmaqla yanaşı Monpelyedə və Moskvada fransız dilini öyrənərək Əlcazairə, Bumerdes şəhərinə ezam olunmuşdur. 1978 - 82 - ci illərdə Bu-

merdes şəhərində, Karbohidrogenlərin Milli institutunda geofizika kafedrasında müəllim və kafedra müdiri vəzifəsində çalışmışdır.

Tofiq Əhmədov dərs deməklə, məsul vəzifədə çalışmaqla yanaşı fransız dilində dərsliklər və dərs vəsaitləri hazırlayaraq çap etdirmişdir.

1982 - ci ildən etibarən Azərbaycana qayıdan Tofiq Əhmədov çalışdığı kafedrada fəaliyyətini davam etdirməyə başlayır. ADNA - nın geofiziki kəşfiyyat üsulları kafedrasının dosenti seçilən alim çalışmaqla yanaşı elmi tədqiqatlarla, seysmik kəşfiyyatın aktual problemləri ilə məşğul olmuşdur.

Xalqın, vətənin görkəmli alimi Tofiq Əhmədov 2007 - ci ildə doktorluq dissertasiyasını uğurla müdafiə etmiş və geologiya - minerologiya elmləri doktoru, alimlik dərəcəsinə layiq görülmüşdür. Tofiq Əhmədov 2008 - ci ildə müsabiqədən uğurla keçərək Geofiziki kəşfiyyat üsulları kafedrasının professoru təyin edilmişdir və hazırda fəaliyyətini davam etdirir.

Alim ömrünü Tanrı tərəfindən seçilən bir ömür kimi qəbul etmək olar. Eyni zamanda bu ömrü saf sulu, şəffaf axar bulağa da bənzətmək olar. Bu bulaqdan bəhrələnənlər isə el, oba, insanlar, vətəndir.

Bir alim kimi işlədiyi məkanda, xalq arasında böyük hörmət qazanan, böyük nüfuz sahibi olan Azərbaycanın tanınmış alimi, geologiya və minerologiya elmləri doktoru, professor Tofiq Əhmədova həyatda uğurlar və fəaliyyətdə yüksək nailiyyətlər arzulayırıq.







## ƏLİYEVA LƏTİFƏ AĞAQASIM QIZI

*Elm xadimi, nüfuzlu ziyalı*



**Vətənin inkişafa doğru sürətlə tərəqqi etməsində xalqın ziyalı təbəqəsinin, xüsusən də yaradıcı-qurucu alimlərin rolu olduqca böyükdür. Onların fəaliyyət dairəsinin genişləndirilməsi üçün hər cür şərait və imkan yaradılmışdır.**

*Aristotel*

Azərbaycan dünyada zəngin sərvətləri, əlverişli iqlim şəraiti, məhsuldar torpaqları, kurort əhəmiyyətli abu-havası, rəngarəng təbiəti, mavi Xəzəri, başı qarlı dağları ilə fərqlənən bir ölkə kimi tanınır və ölkəmizin zaman-zaman dünyaya bəxş etdiyi məşhur şəxsiyyətləri, gözəl alimləri də həqiqətən bu diyarın dəyərli bir xalq yetirdiyini sübut edir.

Tarix elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi-Sənədlər Arxivinin elmi işlər üzrə direktor müavini Lətifə xanım Əliyevanın həyat və fəaliyyəti haqdadır açacağımız söhbət. 1947-ci il 29 iyul tarixində Sabirabad rayonunda hərbçi ailəsində anadan olmuşdur Lətifə Əliyeva. 1954-1964-cü illərdə Sabirabad şəhər orta məktəbinin rus bölməsini "Qızıl medal"la bitirərək, ADU-nun (Bakı Dövlət Universitetinin) tarix fakultəsinə qəbul olunmuşdur.

Ali təhsilini 1969-cu ildə fərqlənən, çalışqan, fəal ictimaiyyətçi gənc olaraq, başa vurub ilk əmək fəaliyyətinə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda başlamışdır.

Lətifə xanım Partiya Tarix İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi vəzifəsində çalışımış, 1989-cu ildən Bakı Dövlət Universitetinin siyasi tarix kafedrasında əmək fəaliyyətini uğurla davam etdirmişdir. Kafedrada kabinet müdiri, müəllim olaraq, çalışmaqla yanaşı 1986-1991-ci illər ərzində üzərində çalışdığı namizədlik dissertasiyasını 1993-cü ildə müdafiə etmişdir.

Lətifə Əliyeva: "Bu uğurum yalnız 1993-cü ildə Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra həyata keçdi" - söyləyir. Doktorluq dissertasiyası üzərində çalışan alim Lətifə Əliyeva bu mövzunu da uğurla başa çatdırmış və müdafiəyə tam hazırdır. 1998-ci ildən 2007-ci ilə qədər Azərbaycan tarixi kafedrasında müəllim vəzifəsində çalışan Lətifə xanımın mütəmadi olaraq, məzmunlu və yüksək səviyyəli məqalələri mətbuat səhifələrində dərc olunmuş və onun çoxsahəli fəaliyyəti uğurla davam edir;

Alim, müəllim, elmi axtarışlar-tədqiqatlar aparan ziyalı, məsul vəzifə sahibi olan azəri xanımı Lətifə Əliyeva şərəfli ana olaraq vətənimizə, xalqımıza ləyaqətli, ali təhsilli-ziyalı övladlar yetirmişdir həyat yoldaşı hörmətli şəxsiyyət olan Sabir Əhmədovla birlikdə.

2007-ci ildən etibarən Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində çalışan Lətifə xanım hal-hazırda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. Uzun illər vətən yolunda, xalq yolunda elmin inkişafı, kadrlar hazırlanması, təhsil sahəsində əzmlə çalışan ziyalı xanım dörd övlad, dörd nəvə yetirmişdir xoşbəxt gələcəyimiz naminə. Vətənimizin zənginləşməsi və inkişafı yollarında yüksək mənəviyyatlı, fədakar alim anadan elm və insaniyyətlik dərsi alaraq, kamilləşən övladların yoluna nur çiləsin, səadətə qovuşdursun Uca Yaradan.

Həyatın ən mənalı çağlarını sabaha inamla, gözəl arzularla yaşayan alim Lətifə Əliyevanın həyat və fəaliyyətinə, ömür tarixinin dəyərli səhifələrinə nəzər salarkən Milimizin-Muğanımızın, Şirvanımızın və bütün Azərbaycanın sözün əsl mənasında Həcər qeyrətli, Nigar ürəkli, Nüşabə şücaətli əzm və ədalətlə çalışan analarına, qızlarına baş əymək, qibtə-səcdə etmək keçir hər kəsin qəlbindən.

Yazdıq qısa məqamları bir dəryadan qopan bir zərrə kimi, sonsuz səmalardan nur-bərəkət gətirən bircə kiçik şeh damlası kimi. Çünki, Lətifə Əliyevanın aldığı elmlərə çəkdiyi zəhmətlər, çalışdığı məsul vəzifələrə, yetirdiyi yüksək səviyyəli kadrlara sərf etdiyi bir igid ömrünə bərabər uzun illər, bütün bunlarla yanaşı yaradıcılıq işləri, alimlik adı və müqəddəs ana vəzifəsini layiqincə yerinə yetirməsi - bunlar hər biri bir kitabdır. Yazdıq ki, oxusun gənc qızlarımız - gənc analarımız. Vətənpərvər, mübariz, ziyalı qadınlarımızın səmərəli fəaliyyət yolu, kamilik zirvəsi fəth edən xanımlarımızın həyatı örnək olsun gələcək nəsillərə. Bir də, ən böyük arzusu vardır alim Lətifə xanımın: "Tezliklə azad olsun torpaqlarımız işğaldan" - deyən ziyalımızın səsinə bütün xalqımızın səsini də qataraq: "Amin!" - deyirik. Görkəmli ziyalımız Lətifə Əliyevaya səadət və uğurlar diləyirik Tanrıdan.





## ƏHMƏDOV SABİR MUSTAFA OĞLU

***Kimyaçı alim, AMEA-nın OADKUS-nin rəhbəri***



XIII əsrdə yaşamış mütəfəkkir Nəsrəddin Tusi "Əxlaqi Nasiri" əsərində elmə, elm adamlarına sevgini, məhəbbəti, istəyi, ən ülvi əxlaqi keyfiyyət hesab edir və göstərir ki, elmi sevən, ona qovuşan həqiqi mənada onu mənimsəyən və sidq ürəkdən onu öyrədənin bütün əxlaqi keyfiyyətləri nümunəvidir.

Həmişə elmə bağlı, sözün əsl mənasında davranışı. Sadəliyi, insani və əxlaqi keyfiyyətləri ilə nümunəvi olmuş Əhmədov Sabir Mustafa oğlu 5 sentyabr 1930 - cu ildə Azərbaycan Respublikasının Oğuz rayonunun Bayan kəndində anadan olmuşdur. 1938 - ci ildə elə bu kənddə 1 - ci sinfə daxil olmuş, 1949 - cu ildə Oğuz rayonunda orta məktəbi bitirmişdir.Sabir Əhmədov 1950 - ci ildə AzDU nin kimya fakultəsinə daxil olmuş və 1955 - ci ildə oranı bitirmişdir. İlk əmək fəaliyyətinə Oğuz rayonunda məktəb müəllimi kimi başlamışdır. Daha sonra 1 il müddətində qeyri - üzvi kimya kafedrasında çalışmışdır.1957 - ci ildən S. Əhmədov AMEA Neft - Kimya Prosesləri İnstitutunda fəaliyyətə başlamış, 1958 - 62 - ci illərdə AMEA - nın aspiranturasında oxumuşdur. 1964 - cü ildə namizədlik dissertasiyasını müdafiə edərək kimya elmləri namizədi, alimlik dərəcəsi almışdır. Sabir Əhmədov əvvəlcə kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışmışdır. Onun bir çox elmi tədqiqatları böyük əhəmiyyətə malik olub və öz tətbiqini tapıb.Alim S. M. Əhmədov bir çox beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmişdir. Onun 80 - dan çox əsəri, məqalələri, tezisləri elmi mətbuat səhifələrində öz əksini tapmışdır.AMEA yarandığı zamandan etibarən Azərbaycan elminin aparıcı qüvvəsi olan ziyalılardan biri də Sabir Əhmədovdur deyən professor Yaqub Məmmədov qeyd edir ki, o həyatını bütünlüklə elmə bağlamış, insanı əxlaqi keyfiyyətləri ilə daim örnək olmuşdur. Sabir müəllim sağ ikən əvəzsiz alim və insan olduğunu sübut etmiş, sonsuz və tükənməyən enerjisi, zəngin və dəyərli həyatı və əmək fəaliyyəti ilə diqqət mərkəzində olmuşdur.

Gənc yaşlarından elmin enişli - yoxuşlu yollarında inamla addımlayan, çətinliklərə sinə gərməyi bacaran Sabir müəllim özünü dərin elmi və praktiki qabiliyyəti, işinə yaradıcı münasibəti, elmi tədqiqatları çox yüksək səviyyədə təşkil etmək və ümumiləşdirmək bacarığı ilə fərqlənən bir işçi kimi tanıtmış, elmi tədqiqat proqramlarının yerinə yetirilməsində əməyini əsirgəməmişdir.

S. M. Əhmədov AMEA - nın və akademik Y. H. Məmmədəliyev adına Neft - Kimya Prossesləri institutunun ictimai işlərində də fəallıq göstərmişdir. O, əmək fəaliyyəti dövründə Azərbaycan EA - nın OADKUC - nın rəhbəri, institutun Xalq Nəzarəti Komitəsinin sədri, sovet dövründə institut partiya təşkilatı katibinin müavini və partiya bürosunun üzvü, EA üzrə Baş Nəzarət Komitəsinin ərizə və şikayətlər şöbəsinin müdiri, Respublika "Bilik" Cəmiyyətinin mühazirəçisi kimi ictimai vəzifələrdə çalışmışdır.

Sabir müəllimin 2 oğlu, 1 qızı və 2 nəvəsi var. O, 2003 - cü ildə vəfat etmişdir.

## ƏHMƏDOV QƏDİR RAMAZAN OĞLU

*Əməkdar maarif işçisi, nüfuzlu ziyalı*



***Tarixi proses olan əsl ümumxalq maarifi sistemində əsas sima müəllimdir. Məktəblərimizin bütün yetirmələrinə həyata vəsiqəni müəllim vermişdir.***

*Heydər Əliyev.*

Daima adı fəxrlə çəkilən, gördüyü işləmidən ürəklə danışılan insan əbədi xoşbəxtdir. Bu isə halal zəhmətlə keçən bir ömrün payına düşür. Hər kəs həyatını xalqına xidmət etməklə keçirirsə, xalqı da onu sevir və daima onu hörmətlə yad edir. Onu tanıyanların qəlbində məhəbbətlə yer tutan "gözəl insan" deyərək xatırlanan Əhmədov Qədir Ramazan oğlu 1906-cı ildə Azərbaycanın tarixi abidələrlə zəngin olan Şəki şəhərində anadan olmuşdur. Ailə vəziyyəti ilə əlaqədar hələ kiçik yaşlarından işləmək məcburiyyətində qalmış və ilk əmək fəaliyyətinə 1917-ci ildən sahibkarın fabrikində baramadöyən kimi başlamışdır.

Qədir Əhəmdovun zəhmətsevər və çalışqan olması 1931-ci ildə Ali Pedaqoji Məktəbi bitirməsinə səbəb olmuş və 1933-cü ildən Şəki Pedaqoji Məktəbində müəllim işləmişdir. Sonrakı illərdə Kənd Təsərrüfatı Texnikumunun müəllimi, fəhlə tibb fakultəsinin dərs hissə müdiri Toxuculuq Texnikumunun direktoru kimi vəzifələrdə çalışmışdır. Q.R.Əhmədov 1937-ci ildə Şəki şəhər Siyasi Maarif Evinin müdiri təyin olunmuş, Şəhər Soveti İcraiyyə Komitəsinin sədri, Rayon İcraiyyə Komitəsinin sədri, şəhər sovetinin sədr müavini vəzifələrində işləmişdir.

Qədir Ramazan oğlu 1941-1947-ci ilələrdə Sovet ordusu sıralarında xidmət etmiş, Berlinə qədər döyüş yolu keçmişdir. Ordudan tərxis olunduqdan sonra Şəki şəhər Partiya Komitəsinin kadrlar üzrə katibi, az sonra ikinci katib təyin olunmuş və 1951-ci ilə qədər bu vəzifədə çalışmışdır.

Pedaqoji sahədə 1951-ci ildən fəaliyyətini davam etdirən Q.R.Əhmədov 10№li məktəbin tədris hissə müdiri, həmin məktəbin direktoru, şəhər Xalq Maarif Şöbəsinin müdiri kimi vəzifələrdə işləmişdir.

Yüksək ali insani keyfiyyətlər, zəngin iş təcrübəsi, daim diqqət mərkəzində olmuş və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. Qədir müəllim şəhər partiya komitəsinin üzvü kimi Şəki rayonunun mədəni və iqtisadi həyatında fəal iştirak etmişdir. O, "Lenin" ordeni, iki dəfə "Qırmızı ulduz" nişanı, "Qırmızı Bayraq", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif olunmuşdur. Qədir müəllim gözəl insan olduğu kimi, mehriban, səmimi bir ailənin başçısı idi. Dəyərli övladları və nəvələri var.

Qədir Ramazan oğlu Əhmədov 1968-ci ildə vəfat etmişdir.





## ƏHMƏDOVA MƏLAHƏT QƏDİR QIZI

*Qabaqcıl maarif işçisi*



***Mən bu gün Azərbaycan müəlliminə öz adımdan və bütün xalqımızın adından təşəkkürümü və minnətdarlığımı bildirirəm. Çünki, biz hamımız - mən də, sən də Azərbaycan müəlliminə borcluyuq.***

*Heydər Əliyev.*

Müqəddəs peşə sahibləri olmaq, öz həyatını seçdiyi peşəyə həsr etmək və bu sahədə hörmət qazanmaq doğrudan da böyük səadətdir. Gənclərin elmi dünya görüşünün formalaşması qayğısına qalaraq, gələcək nəslin savadlı və mədəni, tərbiyəli kimi yetişmələrinə hörmətlə yanaşan, tale yollarını mətin adıdmlarla addımlayan, Əhmədova Məlahət Qədir qızı 1938-ci ildə Azərbaycanın dilbər guşələrindən biri olan Şəki şəhərində gözəl, nümunəvi ziyalı ailəsində anadan olub. Orta təhsilini elə bu şəhərdə başa vuraraq, M.F.Axundov adına Dillər İnstitutuna daxil olmuş 1963-cü ildə müvəffəqiyyətlə başa vurmuşdur.

M.Q.Əhmədova təyinatla Şəki şəhərnidə ilk əmək fəaliyyətinə başlamış və bir il burada işlədikdən sonra ailə vəziyyəti ilə əlaqədar Bakı şəhərinə köçmüşdür.

1965-ci ildən Çingiz İldırım adına Politexnik İnstitutunun tədris hissəsinə işə qəbul olunmuş və müxtəlif işlərdə: baş laborant, inspektor, baş inspektor, baş metodist və s. işləmişdir. Alicənablığı, nəcibliyi, əsl ziyalılığı, mədəni rəftarı, xeyirxahlığı, bütün insani keyfiyyətləri ilə fərqlənən Məlahət xanım Qədir qızı "Rus dili və pedaqogika" kafedrasında müəllimə kimi fəaliyyət göstərmişdir. Savadlı, çalışqan, saf mənəvi dəyərlərə malik olmasının nəticəsidiri ki. institut rəhbərliyi tərəfindən dəfələrlə səmərəli və keyfiyyətli əmək fəaliyyətinə görə "Diplomlar", "Fəxri fərmanlar" və təşəkkürnamələr almışdır.

M.Q.Əhmədova 2001-ci ildən Azərbaycan Texniki Universitetində "Rus dili və pedaqogika" kafedrasında baş müəllim işləyir. Əsil Azərbaycan ziyalısı olan, xanım-xatınlığı ilə seçilən, qəlbi nəcib duyğularla dolu olan Məlahət xanım bir sıra metodik məqalələrin müəllifidir və bu məqalələr "Dil və ədəbiyyat" nəzəri-elmi-metodik jurnalda və s. çap olunmuşdur. Bunlardan bir neçəsini misal gətirmək olar:

1. "Обучение письменной речи студентов технического виза на ураках русского йазыков". Баку-2011.
2. Тексти по аудированийу (начальний етап обучения) методразработка, Аз.ТУ. Баку-2011.
3. О некоторых приемах работы над текстами по спесиальности при развитии писменой речи студентов технического виза. Баку-2011.
4. некоторие особенности обучения студентов грамматике особенности обучения студентов грамматике на уроках русского языка. Баку-2011. və s.

Məlahət xanım 2011-ci ildə vəfat etmişdir.

## ƏHMƏDLİ SALATIN ALI QIZI

*Filologiya üzrə fəlsəfə doktoru*



**"Kitablar ölməzlik qabiliyyətinə malikdir. Onlar insan fəaliyyətinin ən uzun ömürlü meyvələridir."**

*S.Smayls.*

XVIII əsrdə yaşamış mütəfəkkir Nəsrəddin Tusi "Əxlaqi Nasiri" əsərində elmə, elm adamlarına sevgini, məhəbbəti, istəyi, ən ülvi əxlaqi keyfiyyət hesab edir və göstərir ki, elmi sevən, ona qovuşan həqiqi mənada onu mənimsəyən və sidq ürəkdən onu öyrədənin bütün əxlaqi keyfiyyətləri nümunəvidir.

Sadəliyi, davranışı, insani və əxlaqi keyfiyyətləri ilə nümunəvi olan Salatın Alı qızı Əhmədli 18 oktyabr 1956-cı ildə Qazax rayonunun Poylu qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetini 1980-ci ildə bitirib.

Alim tədqiqatçı S.Əhmədli hal-hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetində dil və ədəbiyyat müəlliməsi işləyir. Eyni zamanda "Məhsəti" şairlər Məclisinin "Məhsəti" jurnalında baş redaktorun müavinidir.

Dünyanın 30-dan çox ölkəsində olan Salatın xanım "Turan" Qadınlar Mərkəzinin "Bura vətəndir" və DAMM-ın Qadın Şurasında idarə heyətinin üzvüdür.

S.A.Əhmədli 2007-ci ildə Hüseyn Cavidin 125 illiyi ilə əlaqədar "Turan" Qadınlar mərkəzinin xətti və "Kazım Qara Bəkir Paşa" vəqfinin başqanı Timsal xanımın dəvəti ilə Türkiyə Cumhuriyyətində olmuşdur.

Salatın xanım Əhmədlinin 2008-ci ildə "Xalq Şairi Nəriman Həsənzadəyə Poylu beşiyimdən məktub" (ı-ıı nəşr), "Səfərnamə", "Ömrünü Qazaxda yaşayan şair", "Həcc ziyarəti", "Hüseyn Cavidin ev muzeyi", "Sənsiz" (tərtibçi), "Azərbaycan poeziya çələngi" (iki müəlliflə), "Məhsəti" Ensiklopedik toplu. (iki müəlliflə) "XIX əsr Azərbaycan ədəbiyyatı" I cild poeziya. (iki müəlliflə) kitabları, "Şərəfli ömür yolu" (iki müəlliflə), "Şairlər Vətəni bizim tərəflər" (iki müəlliflə), "Hər kim yüz il unutmasa..." „Şerimizin Nərimanı" (iki müəlliflə) və "Heydər Əliyevin dil siyasəti" monoqrafiyası, "Heydər Əliyevin dil siyasəti" (rəsmi sənədlər) işıq üzü görmüşdü. "Heydər Əliyevin dil siyasəti" türkcəyə çevrilərək Türkiyədə çap olunmuşdur.

S.A.Əhmədlinin xeyli sayda elmi və publisistik məqalələri xaricdə və respublikanın dövrü mətbuatında çap edilmişdir. Eyni zamanda xalq şairi N.Həsənzadənin "Poylu beşiyim mənim" poemasını və F. Ləmanın ümumilli liderimiz Heydər





Əliyevə həsr olunmuş "Onu zaman seçib" poemasını Salatın Əhmədli bədii qiraətlə diskə yazdırmışdır.

2010-cu ildə "Heydər Əliyevin dil siyasəti" mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru adını almışdı.

S.A.Əhmədli yaradıcılıq xidmətlərinə görə "Qızıl Qələm", "Cəfər Cabbarlı" mükafatlarına və bir sıra İB-nin fəxri diplomlarına və təşəkkürnamələrinə layiq görülmüşdür. AYB-nin və AJB-nin üzvüdür. "Kitab evi", İctimai Birliyinin sədridir.

Çayın mənbəyi bulaq, ailənin mənbəyi anadır. Bəşər xəlq olunandan bizlərdə qadına-anaya ən müqəddəs bir varlıq kimi hörmət edilir.Zamanın heç bir gərdişi, o müqəddəs varlığı gərəksizləşdirə bilməyib.

Ana məhəbbəti, ana öyüdü həyatın dolanbaclarında yol yoldaşımız, ömür sirdaşımız olub.

Mənalı ömür yaşayaraq istər çalışdığı kollektivin, istər onu tanıyanların, istərsə də ailəsinin qarşısında xüsusi hörmət və nüfuza malik, xanım xatınlığı ilə seçilən Salatın xanım həm gözəl ana, həm də mehriban nənədir. 2 övladı, 6 nəvəsi var. Tanrıdan Salatın xanıma övlad və nəvə xoşbəxtliyi arzu edirik.



## ƏLİYEVA DÜNYAXANIM YUNUS QIZI

*"DAK" qadınlar şurasının,*
*"Dünya Ana və Uşaq" ictimai birliyinin sədri*



**Dağın yaraşığı daşdır.**
**İnsanın yaraşığı ağıllı başdır.**

*Tatar atalar sözü*

Həyat ən böyük və əvəzsiz sınaqdır. Gərək bu həyatı elə yaşayasan ki, gərəkli ömrünlə insanlara xeyirxahlıq duyğuları bəxş edib, hər yerdə xoş sorağınla yadda qalasan. Üzündən heç vaxt təbəssümü əskik etməyən incə qəlbli, dərin düşüncəli, vətəninə, xalqına bağlı, sözün əsl mənasında ziyalı xanım olan Dünyaxanım Əliyeva Azərbaycan Respublikasının Lerik rayonunda anadan olub. Orta təhsilini Bakı şəhərində başa vurduqdan sonra ali təhsilini Daşkənd İqtisadiyyat Universitetində alıb.

D.Əliyeva ilk əmək fəaliyyətinə Gəmi Təmiri Zavodunda maliyyəçi kimi başlayıb, Daşkənd İqtisadiyyat Universitetini başa vurduqdan sonra 2-ci ali təhsilini Prezident Yanında İdarəçilik Akademiyasında alıb. Ali məktəblərdə aldığı bilik və təcrübə işlədiyi hər bir sahədə onun uğur qazanmağına səbəb olub. Zəhmətsevərliyi ilə daim yeniliklərə can atan D.Əliyeva 1993-cü ildən "Amay" kommersiya istehsalat firmasında vitse prezident vəzifəsində işləyib.

Ölkədə baş verən siyasi və iqtisadi proseslər, müharibə şəraiti və bunun nəticəsində bir milyona yaxın qaçqın və məcburi köçkünün maddi və sosial problemləri yaranan çətinliklərdən ilk növbədə əziyyət çəkən qadınlar və uşaqlar oldu.

Zaman keçdikcə vəziyyət sabitləşdi, müəyyən nailiyyətlər əldə olundu. Bununla yanaşı qadınların məşğulluğu, uşaqların təhsil və sağlamlığı sahəsində ciddi problemlərin olmasını nəzərə alaraq Dünyaxanım Əliyeva "Dünya" Ana və Uşaq İctimai Birliyini təsis edir. Onun fikrincə hər kəs bacardığı sahədə öz imkanından istifadə edib dövlətə dayaq olmalıdır. Yaratdığı təşkilatın məqsədi ana və uşaqlarla bağlı problemlərin həllinə kömək olmaqdır. Bu birliyin fəaliyyəti çox şaxəlidir, müxtəlif istiqamətlərdə maarifləndirmə və xeyriyyəçilik işini əhatə edir. D.Əliyeva daha çox yurduna ehtiyacı olanların dərdinə şərik olmaq üçün qaçqın düşərgələrinə gedərək onların şəraitləri ilə tanış olub və ehtiyaclarını təmin edib. Ümumilikdə 1200 ailəyə maddi yardımlar edib. Həkim briqadası təşkil edib çadır şəhərciyi sakinlərinin tibbi müayinəsini təşkil edib. Çadırlarda yaşayan işsiz qadınlar üçün iş yeri açmaq məqsədi ilə toxuculuq sexi yaradıb.





Dünyaxanım Əliyeva son dərəcə təvazökar, ali insani keyfiyyətlərə malik qəlbi ancaq xeyirxah niyyətlə döyünən bir alicənab xanımdır. O, Azərbaycanın 9 rayonunda məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinə yardım göstərib. Xeyirxah işlərinə görə Hacı Züynalabdin Tağıyev adına fəxri mükafata layiq görülmüşdür. "Hansısa bir qəlbi sevindirib ona maddi və ya mənəvi dayaq ola bilərəmsə, deməli həmin günü mən rahat yaşayıram"- deyən Dünyaxanım Əliyeva Bakıda fəaliyyət göstərən Beynəlxalq Qadın Klubunun üzvüdür. Bakı özəl muğam məktəbini və Qara Qarayev adına uçaq xəstəxanasının təmirini öz vəsaiti hesabına həyata keçirib. Tez-tez hərbi hissələrə baş çəkərək, onlara göstərdiyi qayğıya görə Füzuli bölgəsində yerləşən "N" hərbi hissənin "fəxri əsgəri" seçilmişdir. "Qarlıçay xeyriyyə fondunun Bəhlul Məmmədov adına fəxri mükafatına layiq görülmüş, Füzuli rayonunun Fəxri Vətəndaşı seçilmişdir".

Dünyaxanım Əliyeva 2003-cü ildə "VEKTOR" Beynəlxalq Elmi Mərkəzinin Mükafat Komissiyasının qərarı ilə "Azərbaycanın tanınmış xanımları , beynəlxalq layihəsinin qalibi olmuş, "21-ci əsrin tanınmış xanımı" Beynəlxalq diplomuna, "Avropa" Nəşr Mətbu evinin müəyyənləşdirdiyi 2005-ci ilin Ən Yaxşı vətənpərvər və xeyriyyəçi diplomuna, 2007-ci ildə ana və uşaqların müdafiəsinə görə Press Post İnformatika Agentliyinin təsis etdiyi diploma layiq görülmüşdür.

Dünyaxanım Əliyeva Dünya Azərbaycanlıları Konqresinin (DAK) Qadınlar Şurasının və "Dünya Ana və Uşaq" ictimai birliyinin sədridir. Dövlətçiliyin inkişafı, qüdrətləndirilməsi və dünya azərbaycanlılarının həmrəyliyini təşkili sahəsində göstərdiyi xidmətlərə görə Dünya Azərbaycanlılarının Həmrəyliyi Cəmiyyətinin fəxri fərmanı, milli dövlətçiliyin, ümummilli liderimiz Heydər Əliyevin ideyalarının təbliğində və gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində səmərəli fəaliyyətinə görə Akademik Budaq Budaqovun baş redaktoru olduğu "Mərhəmət elçisi" jurnalının redaksiya heyətinin qərarına əsasən "Vətənə Sədaqət" diplomu ilə təltif edilmişdir.

Saf və incə duyğulu, geniş ürəkli, gözəlliyinə nur verən incə təbəssümlü, zəngin mənəviyyatlı, xeyirxah əməlləri ilə öz insanlıq borcunu yerinə yetirməkdən xüsusi zövq alan, Dünyaxanım Əliyeva həm də gözəl anadır. İki övladı və nəvələri var. Tanrıdan bu gözəl ailəyə səadət dolu günlər arzu edirik!

## GÖYÇAYLI ŞÖVQÜ YUSİFZİYA OĞLU

*Coğrafiya elmləri doktoru, professor*
*Azərbaycanın "Əməkdar müəllimi"*



***Coğrafiyaçı kimi,biz yaradıcı və inqilabi əməyimizlə xüsusi rol oynayırıq: cəmiyyətin ərazi təşkilini layihələşdirərkən ziddiyyətləri, adalətsizlikləri üzə çıxarmaqla, öz töhfəmizi veririk ki, insanlar inkişaflarında özlərini rahat hiss etsinlər.***

*D. Smit.*

Mükəmməl təfəkkür sahibi, elm - zəka nurunu daim inkişaf etdirən, ömrünü elmə və təhsilə həsr edən coğrafiya elmləri doktoru, Azərbaycanın əməkdar müəllimi, "Şöhrət ordenli" professor Göyçaylı Şövqü Yusifziya oğlu 1935 - ci ildə anadan olmuşdur. 1953 - cü ildə orta məktəbi bitirmişdir. Elə həmin ildə BDU - nə daxil olmuş və 1958 - ci ildə iqtisadçı - coğrafiyaçı ixtisasına yiyələnmişdir. Bir müddət ixtisası üzrə istehsalatda çalışaraq 1961 - 1963 - cü illərdə aspiranturada təhsilini davam etdirmiş və 1965 - ci ildə "Azərbaycan Respublikasının kənd əhalisinin məskunlaşmasının coğrafiyası" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək coğrafiya elmləri namizədi, alimlik dərəcəsi almışdır. 1964 - cü ildən iqtisadi sosial coğrafiya kafedrasında metodist, baş müəllim, 1967 - ci ildən dosent vəzifəsində çalışmışdır.

Ş.Y.Göyçaylı 1981 - ci ildə "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrasına müdir seçilmişdir. 1987 - ci ildə Sankt Peterburq Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir. Ş.Y.Göyçaylı 1988 - ci ildə işlədiyi kafedranın professoru seçilən Ş. Göyçaylı rəhbərlik etdiyi kafedranı yenidən təşkil etmiş və coğrafiyaçı - ekoloq ixtisası hazırlayan kafedranın formalaşmasına səy göstərmişdir.

170 - dən çox elmi əsərin müəllifi olan görkəmli alimin elmi əsərləri əhali coğrafiyasına, coğrafiyanın nəzəri - metodoloji və ekoloji problemlərinə həsr edilmişdir. Bir çox kitabların, dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların müəllifidir. "Sovetskiy Azerbaydjan" monoqrafiyasının yazılmasında iştirak etmişdir (M. 1971), daha sonra Əhali coğrafiyası (B, 1979), Kənd əhali məskunlaşmasının yenidən qurulması (B, 1987), Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə (B.1996, həmmüəlliflə), Coğrafiya və coğrafi ekologiyanın problemləri (B. 2004), Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları (V. 2006), Ətraf mühüti mühafizə (B. 2008, həmmüəlliflə) "Coğrafi ekologiyanın əsasları 2010" və s. bir neçə elmi məqaləsi və elmi konfranslardakı məruzəsi ingilis dilində nəşr edilmiş, professor Şövqü Yusifziya oğlunun coğrafiya və coğrafi ekologiyanın problemləri monoqrafiyası ingilis dilinə nəşr





edilmişdir.

Azərbaycanın iqtisadi xəritəsi 1:200 00 miq. (B.1976), Azərbaycan əhalisinin məskunlaşması 1:300 00 miq. (M.1978), Azərbaycanın təbii şəraiti və təbii ehtiyatlarının qiymətləndirilməsi 1:300 00 miq. (B.2002), SSSR - nin əhalisi (M.1978, həmmüəlliflə) və s. orjinal xəritələrin müəllifi, rəhbəri və həmmüəlliflərindəndir.

Ş.Y. Göyçaylı bir neçə dövlət və təsərrüfat əhəmiyyətli elmi tədqiqat işlərinin proqramının yerinə yetirilməsinin həmmüəllifi, rəhbəri olmuşdur. Filizçay geokimyəvi qovşağın fiziki və iqtisadi - coğrafi şəraitinin qiymətləndirilməsi (BDU, 1967), Azərbaycanda təbiəti mühafizənin kompleks sxemi (B, 1987), Azərbaycan SSR - in təbii ehtiyatlardan istifadənin kompleks proqramı (ADPK, B. 1985), Şahdağ Milli Parkının yaradılması ilə əlaqədar qiymətləndirmə aparılması (Milli bank, 2002) və s. Moskva Dövlət Universiteti coğrafiya və iqtisadiyyat fakultəsinin problem laboratoriyaları ilə birlikdə SSRİ - nin və Azərbaycan Respublikasının xəritələrinin tərtibi (M. 1986), Əhalinin vahid məskunlaşma sisteminin problemləri (M, 1987) və s. mövzularda tədqiqat işləri aparmışdır.

Professor Ş.Y.Göyçaylı 1980 - cı ildən kafedrada müxtəlif mövzularda aparılan elmi tədqiqat işlərinin rəhbəri və icraçısı olmuşdur. Azərbaycanda məhsuldar qüvvələrin inkişafının iqtisadi - sosial coğrafi əsasları (1975 - 1980), Abşeronda antropogen təsirlərin qiymətləndirilməsi və inkişafın optimallaşdırma yolları (1981 - 1985), Gəncə Sənaye Qovşağının ətraf mühitinin çirklənməsinin tədqiqi və mühafizəsi yolları (1986 - 1990), Quba - Xaçmac iqtisadi rayonunun kənd təsərrüfatına yararlı torpaqların məhsuldarlığının optimallaşdırılması və mühafizəsi yolları (1991 - 1995) və s.

Ətraf mühiti mühafizənin coğrafi aspektlərinə dair akademik Həsən Əliyev tərəfindən əsası qoyulan elmi məktəbi inkişaf etdirmiş, onun müasirləşməsinə səy göstərmişdir. Rəhbərlik etdiyi aspirant və disertantlardan, doktorantlardan 3 nəfəri doktorluq, 8 nəfər namizədlik dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmişlər. Professor Ş.Y.Göyçaylı ekologiya və ətraf mühiti mühafizəyə dair elmi və elmi metodik konfransların (1990, 1997, 2002, 2007) keçirilməsinə rəhbərlik etmiş və məruzələrlə çıxışlar etmişdir. Bir neçə elmi şuraların üzvü, Müdafiə Şurasının həmsədri olmuş, hazırda Azərbaycan prezidenti yanında AAK - da Yer Elmləri Bölməsinin ekspertidir. Bakı Universiteti Xəbərlərinin Təbiət Elmləri Seriyası üzrə redaksiya heyətinin üzvüdür. Beynəlxalq Elmi İnkişaf və Beynəlxalq Ekologiya Akademiyalarının həqiqi üzvüdür. Aəzərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycanda Elmin və Təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycanın Əməkdar Müəllimi fəxri adına layiq görülən Şövqü Yusifziya oğlu Göyçaylı Amerikanın Bioqrafiya İnstitutu tərəfindən "2008 - ci ilin adamı" seçilmişdir. 2010 - cu ildə "Şöhrət ordeni" ilə təltif edilmişdir.

Mükəmməl təfəkkür sahibi, elm - zəka nurunu daim inkişaf etdirən, ömrünü elmə həsr edən, xoş əməllər sahibi olan, səmimiyyəti və əxlaqi keyfiyyətləri ilə özünə hörmət qazanan Ş.Göyçaylıya səadət və can sağlığı arzu edirik. Ailəlidir. İki övladı və üç nəvəsi var.

## ƏLƏKBƏROV VAHİD YUSİFOVİÇ

*Texnika elmləri doktoru, professor, "Dövlət" mükafatı laureatı, şöhrət ordenli*



Ələkbərov Vahid Yusifoviç 1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1972-ci ildən "Xəzərdənizneft" İB-də qazmaçı işldəmişdir. 1974-cü ildə "Neft və qaz yataqlarının işlənilməsinin texnologiyası və kompleks mexanikləşdirlməsi" ixtisası üzrə AzNKİ-nun neft-mədən fakultəsini bitirmişdir. 1974-1979-cü illərdə "Xəzərdənizneft" İB-də neft və qaz çıxarılması üzrə usta, mühəndis-texnoloq, növbə rəisi, usta, böyük mühəndis, neft mədəni rəhbərinin müavini işləmişdir. 1979-1985-ci ilə qədər "Surqutneftqaz" və "Başneft" İB-də rəhbər vəzifələrdə işləmişdir. 1985-1987-ci illərə qədər Qərbi Sibir üzrə "Başneft" İB-nin Baş direktorunun birinci müavini olmuşdur. 1987-1990-cı ilə qədər "Koqalimneftqaz" İB Baş direktoru işləmişdir. 1990-1991-ci illərdə SSRİ neft və qaz sənayesi Nazirinn müavini, birinci müavini olmuşdur. 1991-ci ildən - "LanqepasUrayKoqalimneft" neft konserninin prezidentidir. 1993-cü ildən bu günə qədər "Lukoyl" neft konserni aksioner cəmiyyətinin prezidentidir. Ələkbərov V.Y. 1998-ci ildə "Şaquli inteqrasiya olunmuş neft şirkətlərinin şəraitlərinin formalaşması və dayanıqlı inkişafının təmin edilməsi ("Lukoyl" neft konserni aksioner cəmiyyətinin timsalında") mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Dissertasiyanın mahiyyəti - neft hasilatında, onun emalında və son məhsulun satışında: yataq-zavod-satışda iştirak edən bütün müəssisələr zəncirinin vahid holdinqə birləşdirilməsidir. Onun adı dünya neft sənayesi tarixinə yazılıb. 1995-1996-cı illərdə "İmperial" bankının Müşahidə şurasının sədri idi. 1995-2000-ci illərdə "Petrokommers" bankının direktorlar şurasının sədri, "Lukoyl" neft konserni aksioner cəmiyyətiinn direktorlar şurasının sədridir. 1997-1998-ci illərdə Ələkbərov V.Y. MDB məsələləri üzrə Hökumət komissiyasının tərkibinə daxil edilmişdir.

Ələkbərov V.Y. neft və qaz sənayesinin iqtisadiyyatı sahəsində tanınmış alimdir. Onun tərəfindən neft şirkətlərinin şaquli inteqrasiyası sxemi işlənilmişdir.

Ələkbərov V.Y. təbiət elmləri akademiyasının və dağ elmləri akademiyasının həqiqi üzvüdür. Dövlət mükafatı oaureatı adına, "RF Fəxri neftçisi", "Şirkətin əməkdar işçisi" adlarına layiq görülüb. Ahzərbaycan Respublikasının "Şöhrət" ordeni, həmçinin "Şərəf Nişanı", "Dostluq", "Vətən qarşısında xidmətlərinə görə IV dərəcəli" ordenləri, "Madar atlısı" I dərəcəli Bolqar ordeni və medallarla mükafatlandırılmışdır.





## ƏLİYEV BƏXTİYAR LÜTFƏLİ OĞLU

*Şərəfli müəllim, nüfuzlu ziyalı.*



***Xəlq ilə titrəyən, xəlq ilə gülən, vətənçün yaşayan, vətənçün ölən səmimi bin insan nə bəxtiyardır.***

*M.Müşfiq.*

Hər bir insanın qiyməti onun vətənə, xalqa göstərdiyi xidmətlə ölçülür. Bu xidməti kimi əl əməyi, kimi də zehni əməli ilə göstərir. Bununla da xalqının gələcək həyatının qurulmasında öz töhfəsini vermiş olur. Öz zehni əməyini gələcək nəsilə sərf etməklə tanınmış və yaddaşlarda əbədi iz qoymuş Bəxtiyar Lütfəli oğlu Əliyev 1919-cu ildə Şəki şəhərində anadan olmuşdur. Şəhər 5№-li səkkizilik məktəbini bitirmiş və Şəki Pedaqoji Məktəbində açılan işçi fakultəsində təhsilini davam etdirmişdir. İşçi fakultəsini bitirdikdən sonra Bakıda Ali Pedaqoji İnstituta daxil olmuş və 1941-ci ildə pedaqoji fakultənin dil-ədəbiyyat bölməsini başa vurmuşdur.

B.L.Əliyev Böyük Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq cəbhəyə getmiş, bir sıra döyüşlərdə iştirak etmişdir. 1945-1946-cı illərdə zabit kimi Sovet qoşunları tərkibində İranda xidmət etmişdir. "İkinci dərəcəli Vətən müharibəsi ordeni", "Qələbə", medalı ilə təltif edilmişdir. O, 1946-cı ildə Şəkiyə qayıtmış və əmək fəaliyyətini davam etdirmişdir.

Bəxtiyar Əliyev yarım əsrə qədər bir müddət də pedaqoji işlə məşğul olmuşdur. Onun həyatının əsas dövrü məhz Şəki Pedaqoji Texnikumu ilə bağlıdır. O, burada müəllim, dərs hissə müdiri, direktor vəzifəsində işləmiş, məktəbin şərəfli tarixini yaşada bilmişdir. Bir vaxtlar onun şagirdləri olmuş yüzlərlə həkimin, müəllimin, alimin və s. onların hər birinin bu günündə Bəxtiyar müəllimin gözünün nuru, əlinin zəhməti vardır. İndi onların soraqları respublikamızın müxtəlif guşələrindən gəlir.

1974-cü ildə Şəki şəhər 12 №-li orta məktəbdə əmək fəaliyyətini davam etdirmişdir. B.Əliyev həm də fəal ictimaiyyətçi idi. Şəki "Bilik" Cəmiyyətinin "Ədəbiyyat və İncəsənət" bölməsinin rəhbəri olmuşdur. Onun fəal maarifçilik fəaliyyəti dəfələrlə fəxri fərman, döş nişanı və maddi həvəsləndirmə ilə qiymətləndirilmişdir.

Qayğıkeş ailə başçsı B.Əliyev iki oğul və iki qız atası idi. Övladlarının hamısı mükəməl ali təhsilə malik geniş dünyagörüşlü insanlardır.

B.Əliyev elmi yaradıcılıqla da məşğul olmuş, onlarca sanballı elmi və populyar məqalələrin çapına nail olmuşdur. Bir tərbiyəçi, el ağsaqqalı kimi öz həyat təcrübəsini dahi klassiklərin fikirləri ilə uyğunlaşdırmağa səy göstərmişdir. "Nizami gənc nəslin tərbiyəsi haqqında", "Füzuli lirik şairdir", M.F.Axundov Azərbaycan dramaturgiyasının banisi" kimi məqalələri diqqəti cəlb edən yaradıcılıq nümunələridir. Bəxtiyar Lütfəli oğlu Əliyev 1995-ci ildə dünyasını dəyişmişdir. Allah rəhmət eləsin!

# ƏLİYEV LÜTFƏLİ BƏXTİYAR OĞLU

*Dövlət qulluqçusu*



***Ağılla idarə olunan insan həyatı, ən xoşbəxt ən yüksək əxlaqi həyatdır.***

*M.T.Sidqi.*

Savadlı bacarıqlı potensial imkanlara malik, intellektual səviyyəli, çətin işlərin öhdəsindən məharətlə gəlməyi bacaran, dəyərli xidmətləri və səmərəli fəaliyyəti ilə hörmətə, etimada məhəbbətə layiq olan Lütfəli Bəxtiyar oğlu Əliyev 1950-ci ildə Şəki şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1967-ci ildə Şəki şəhər 10 №-li orta məktəbi başa vurmuş və elə həmin il Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. Ali məktəbi müvəffəqiyyətlə başa vurub ali təhsilli iqtisadçı ixtisasına yiyələnmişdir. Ali siyasi təhsillidir.

L.B.Əliyev 1972-1974-cü illərdə Alma-Ata şəhərində həqiqi hərbi xidmətdə olmuşdur. 1975-1979-cu illərdə Bakı məişət kondiosenerləri zavodunda iqtisadçı, əmtəəşünas, 1979-1981-ci illərdə Şəki rayon Kənd Təsərrüfatı İdarəsində iqtisadçı, iqtisadçı hüquqşünas, 1981-1983-cü illərdə Partiya təşkilatı katibi işləmişdir.

L.B.Əliyev 1983-1985-ci illərdə Bakı Ali partiya məktəbində təhsil almışdır.

1985-1987-ci illərdə Şəki şəhər Xalq Nəzarəti Komitəsində inspektor, Şəki şəhər Partiya Komitəsində təlimatçı kimi fəliyyət göstərmişdir.

L.B.Əliyev 1987-1989-cu illərdə Şəki şəhər Xalq Nəzarəti Komitəsinin sədri, 1989-1991-ci illərdə Şəki Aqrokombinatının Baş Direktoru vəzifələrində çalışmışdır. İşlədiyi hər hansı bir vəzifədə çalışdığı müddətdə daim nümunəvi olmuş, işlədiyi kollektivin hörmətini qazanmışdır.

1991-ci ildən Şəki şəhər statistika idarəsinin rəisidir.

O, uzun illərdir Dövlət qulluğunda çalışmaqla rəhbərlik etdiyi kollektivin və rayonun ictimai siyasi həyatında fəal iştirak edir.

Fəaliyyəti dəfələrlə fəxri fərman və müxtəlif təltiflərlə qeyd olunmuşdur.

Son dərəcə ziyalı bir insan olan Lütfəli Bəxtiyar oğlu Əliyev 2007-ci ildə ilin Dövlət qulluqçusu elan olunmuşdur.

LB.Əliyev gözəl ailə başçısıdır. 3 qızı, 1 oğlu, 3 nəvəsi var. Övladlarının hamısı ali təhsillidir.

Vətənini çox sevən, xalqını xoşbəxt görmək və işğal olunan torpaqlarımızı azad olunması arzusu ilə yaşayan Lütvəli Bəxtiyar oğlu Əliyevə həyatda daha böyük nəaliyyətlər arzu edirik.





# ƏLİYEVA SƏDAQƏT TƏLƏT QIZI

*Kimyaçı alim*

***Hər kəs haqq yolu ilə addımlayarsa haqq sahibi ona kömək olar. İnsan öz düşüncə tərzi, insanlarla qurduğu münasibət və bütün məllərində haqqa-ədalətə arxalanmalı və Uca Tanrının varlığına, yardımına bel bağlamalıdır.***

***Müdrik kəlam***



Azərbaycan qadını hər zamanda olduğu kimi müasir dövrümüzdə də öz müdrikliyi, elmi nailiyyətləri, xalq-vətən yolundakı əvəzsiz xidmətləri ilə şərəfin, ləyaqətin bariz nümunəsi olaraq, tarix səhifələrində iz salaraq inkişaf yolarnıda uğurla adıdmlayır. Haqqında söz açacağımız Sədaqət xanım da məhz belə səviyyəli xanımlardandır.

1950-ci il 7 iyul tarixində Bakı şəhərinin Nardaran kəndində anadan olmuş Sədaqət Əliyeva, ziyalı ailədə təhsilə yiyələnib boya-başa çatmışdır. Anası Xeyriyyə xanım müəllimə, atası Tələt müəllim məsul vəzifələrdə çalışan şəxs olduğundan ailədə elmə-maarifə böyük həqiqət olmuşdur. Sədaqət Əliyeva ilk təhsili Nardaran qəsəbəsi 130 saylı səkkiz illik məktəbdə almış və C.Cabbarlı adına 189 saylı orta məktəbi əla qiymətlərlə başa vurmuşdur.

Ali təhsilə Azərbaycan Neft-Kimya İnstitutunda yiyələnən Sədaqət xanım Kimya-Texnologiya fakultəsini müvəffəqiyyətlə bitirərək, mühəndis-kimyaçı texnoloq ixtisasına yiyələnir. İlk əmək fəaliyyətinə AMEA-nın Aqrokimya və Torpaqşünaslıq İnstitutunda (1972-ci il) başlayan Sədaqət Əliyeva qısa bir müddətdə yüksək mənəviyyatlı ziyalı xanım, öz ixtisası üzrə elmli mütəxəssis kimi hörmətə malik olaraq tanınır. 1974-cü ildən Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunuda əmək fəaliyyətini davam etdirən S.Əliyeva aspiranturaya qəbul olunur.

Üzərində çalışdığı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi alır. S.Əliyeva artıq 40 ilə yaxın bir zamandır ki, öz ixtisasının bilikli alimi, savadlı mütəxəssisi kimi hörmət, nüfuz sahibi olan öncül xanımlarımızdandır.

O, hal-hazırda "tsiklodelfinlər" laboratoriyasında böyük elmi işçi vəzifəsində çalışmaqla yanaşı mühərrik yanacaqlarında sınaqdan keçirmək üçün yüksək sıxlıqlı və yüksək enerji tutumlu karkas quruluşlu karbohidrogenlərin eksperimental nümunələrinin hazırlanmasının bir hissəsinə rəhbərlik edir. Dəfələrlə Beynəlxalq,

elmi konfransların fəal iştirakçısı olan Sədaqət xanım Əliyeva bir neçə müəlliflik şəhadətnaməsinin və patentlərin müəllifidir. Azərbaycan mətbuatında və qəzetlərində alim S.Əliyevanın mütəmadi olaraq, elmi məqalələri çap olunaraq, oxuculara təqdim olunur. Bütün kollektiv və rəhbərlik yüksək fikir söyləyərək, deyir: "Sədaqət Əliyeva elmi yenilikləri araşdıran, aparılan elmi işlərin əlverişli texnologiyasını işləyib hazırlamaq qabiliyyətinə malik olan, məsuliyyətli, elmi cəhətdən hazırlıqlı, yüksək ixtisaslı elmi işçidir".

Çalışdığı uzun illər ərzində əsil və nəcib insani xüsusiyyətləri, yüksək mədəniyyəti ilə mənəviyyatca zəngin bir alim xanım olduğunu təsdiqləmişdir. Onun əvəzsiz xidmətləri mükafat və təltivlərə layiq görülmüşdür. 25 dekabr 2010-cu ildə Dünya Azərbaycanlıları Konqrensi Qadınlar şurası tərəfindən təltif olunduğu "Fəxri Diplom" onun əməyinə verilən və seçilən ənamdır.

Ailəlidir S.Əliyeva. Həyat yoldaşı Mahmud müəllimlə birgə böyütdüyü oğullar Şərəf və Rəcəb hər ikisi ali təhsillidirlər. Sədaqət Əliyevanın ən böyük arzusu Müqəddəs Məkkəni zəyarət etməkdir ki, İlahi hər birimzə bir böyük səadəti nəsib etsin. - Allah bu yolda və hər zaman sizə kömək olsun, müqəddəs ana adını fədakarlıqla yerinə yetirən ziyalı xanım Sədaqət Əliyeva.

Üç nəvə böyüyür ziyalılar ailəsində; oğul balalar: Cəfər, İmam Əli və Qulam Əli. Müqəddəs Əhli-Beytdən ad alan nəvələr, adlarınız sizin ömrünüzə səadət nuru tək şəfəqlər saçsın. Yollarınız işıqlı, həyatınız firavan olsun. Alim nənəniz, ziyalı babanız, ali təhsilli valideynləriniz sizin toylu-büsatlı günlərinizə baxıb xoşbəxt olsunlar. Hörmətli alim Sədaqət xanıma uğurlar və səadət arzulayırıq.







## HACIYEV FƏZLİ ƏMRULLAH OĞLU

*Coğrafiya elmləri doktoru, professor*

***Düşüncələrin nəhəngləri yox, əməllərin nəhəngliyi insanı tarixə salır.***

*Atalar sözü*



"Bir kimsə elm əldə etmək arzusuyla bu yola çıxsa, Allah o adamı cənnətin yollarından birinə sövq edər. Mələklər əməlindən məmnun olduqları üçün elm öyrənmək istəyən kimsənin üzərinə qanadlarını gərərlər.Göylərdə və yerdə olan hər şey, hətta sudakı balıqlar da alim üçün Allaha istiğvar edərlər.

Alimin abidə olan üstünlüyü bütöv ayın digər ulduzlara olan üstünlüyü kimidir. Alimlər peyğəmbərlərin vərəsələridir. Peyğəmbərlər miras olaraq qızıl və gümüş qoyub getməzlər, onlar elmi miras qoyarlar. Kim bu mirasa sahib olarsa, böyük bir qismətə sahib olar."-deyən Allahın Rəsulu Məhəmməd Peyğəmbərimiz sanki Fəzli Əmrullah oğlu Hacıyev kimi alimləri nəzərdə tutmuşdur.

Zəhmətlə yaşanan tale səhifələrinə müdrikcəsinə iz salan mənalı alim ömrü yaşamış, sənəti, əməli, insani keyfiyyətləri ilə müqəddəsliyi qazanmış, dəyərli bir insan coğrafiya elmləri doktoru, professor Fəzli Əmrullah oğlu Hacıyev 1934-cü ildə Azərbaycanın Qax rayonunun İlisu kəndində anadan olmuşdur.

F.Ə.Hacıyev Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun Meşəçilik fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1962-ci ildə namizədlik dissertasiyası müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Professor F.Ə.Hacıyev 1964-1969-cu illərdə Azərbaycan Elmi Tədqiqat Eroziya bölməsində katib işləmişdir. 1977-ci ildə Fəzli müəllim doktorluq dissertasiyası müdafiə edərək coğrafiya elmləri doktoru adına layiq görülmüşdür.

Professor F.Ə. Hacıyev 1969 - 1984-cü illərdə Azərbaycan Dövlət Universitetində dosent. professor, kafedra müdiri, eyni zamanda 1982 - 1984-cü illərdə Azərbaycan EA Coğrafiya İnstitutunda elmi işlər üzrə direktor müavini

işləmişdir. 1986 - 1989-cu illərdə Elmi Tədqiqat Tərəvəzçilk İnstitutunun direktoru, 1989 - 1997-ci illərdə Aqrotexniki Elmi Mərkəzinin direktoru olmuşdur.

Professor F.Ə. Hacıyev Təbiəti mühafizə cəmiyyətinin sədr müavini, Ekologiya assosiasiyasının vitse-prezidenti, Dünya bankının eksperti olmuşdur. Bolqarıstan, Macarıstan, Yəmən Ərəb Respublikası, Həştərxan, Moskva, Türkiyə və s. ölkə və şəhərlərdə elmi konfranslarda, simpoziumlarda iştirak etmiş, müxtəlif mövzularda məruzələrlə çıxış etmişdir.

Coğrafiya elmləri doktoru, professor F.Ə.Hacıyev 1983-cü ildə Respublika Dövlət Meyvə Tərəvəz Təsərrüfatı Komitəsinin müavini işləmişdir. 1992 - 1993-cü illərdə SSRİ Nazirlər Kabineti yanında Xalq Təsərrüfatı İdarəetmə Akademiyasında təhsil almışdır. Müxtəlif ölkələrdən olan 20-dən çox aspirant və doktorantın elmi rəhbəri olmuşdur.

Professor Fəzli Əmrullah oğlu Hacıyev 1999-cu ildə vəfat etmişdir.

Vətənimizə, xalqımıza ləyaqətlə xidmət edən elm sahəsində xüsusi xidmətləri olan yüksək mənəviyyatlı şəxsiyyət Hacıyev Fəzli Əmrullah oğluna Tanrıdan rəhmət diləyirik. Yeri cənnət olsun.







## HƏSƏNOV TAPDIQ GÜLƏHMƏD OĞLU

*Azərbaycanın əməkdar müəllimi,*
*Coğrafiya elmləri doktoru, professor*



**Mən bu gün Azərbaycan müəlliminə öz adımdan və bütün xalqımızın adından təşəkkürümü və minnətdarlığımı bildirirəm. Çünki, biz hamımız, mən də, sən də Azərbaycan müəlliminə borcluyuq.**

*Heydər Əliyev.*

Söz zəmanənin dalğaları qoynunda üzən və ən qiymətli yükünü ehtiyatla nəsillərə çatdıran xəzinədir. Nəsillərə bu xəzinəni çatdıranlardan biri və ən birincisi isə müəllimdir. Bu gün gəncliyin təhsili, elmi - metodik biliklərin zənginləşdirilməsi istiqamətində yorulmadan çalışan, savadlı, bacarıqlı, elm sahəsində bir çox xidmətləri olan, mənali bir ömür yaşayaraq insani və əxlaqi keyfiyyətləri ilə nümunəvi olan Bakı Dövlət Universitetinin coğrafiya fakultəsinin iqtisadi və sosial coğrafiya kafedrasının müdiri, Azərbaycanın əməkdar müəllimi, coğrafiya elmləri doktoru, professor Həsənov Tapdıq Güləhməd oğlu 1937 - ci ilin 23 martında Gürcüstan Respublikasının Qardabani rayonunun Təzəkənd kəndində zəhmətkeş ailədə anadan olmuşdur. 1956 - cı ildə Qardabani Azərbaycan orta məktəbini bitirərək, elə həmin ildə ADU - nun geologiya - coğrafiya fakultəsinin coğrafiya şöbəsinə daxil olmuş, 1961 - ci illərdə fərqlənmə diplomu ilə oranı bitirmişdir.

1961 - 62 - ci illərdə Balakən rayonu Sarıbulaq orta məktəbində coğrafiya müəllimi işləmişdir. 1963 - cü ildə AMEA- nın İqtisadiyyat İnstitutunun akademik A.A. Nadirovun rəhbərlik etdiyi "Məhsuldar qüvvələrin yerləşdirilməsi" şöbəsinə kiçik elmi işçi kimi fəaliyyət göstərmişdir.

1965-67 - ci illərdə göndərişlə Moskva şəhərində olan Yanacaq Qazıntıları Elmi Tədqiqat İnstitutunun aspiranturasında oxumuş və "Zaqafqaziya iqtisadi rayonunda mineral kübrələr sənayesinin inkişafı və yerləşdirilməsi məsələləri" mövzusunda namizədlik dissertasiyasını başa çatdıraraq onu 1968 - ci ildə müdafiə etmiş və iqtisad edmləri namizədi adını almışdı. O zamanlar ölkənin nüfuzlu jurnalı sayılan "Плановое хозяство"da və digər elmi nəşriyyatlarda məqalələri çap olunmuşdur.

T.G.Həsənov 1967 - 68 - ci illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsi nəzdindəki İqtisadiyyat Elmi Tədqiqat İnstitutunda şöbə müdiri vəzifəsin-

də çalışmışdır.

1969 - cü ildən BDU - nun İqtisadi və Sosial Coğrafiya Kafedrasına müəllim ştatına keçmişdir. 1991 - ci ildən indiyədək həmin kafedranın müdiri vəzifəsində çalışır.



Coğrafiya elminin dərinliklərinə yiyələnə rək, daim bu sahədə axtarışlarını davam etdi rən T.G.Həsənov 2007 - ci ildə "Azərbayca Respublikası Təsərrüfatının ərazi təşkilini təkmilləşdirilməsinin iqtisadi coğrafiya isti qamətləri" mövzusunda doktorluq dissertasi yası müdafiə etmiş, 2008 - ci ildə coğrafiy elmləri doktoru alimlik dərəcəsi, 2009 - cu il dən kafedranın professoru adını almışdır.

Professor T.G.Həsənov sosial - iqtisadi v siyasi coğrafiyasının müxtəlif istiqamətlərin və tədrisə həsr olunmuş 130 - dan çox əsəri müəllifidir. Onlardan: "Coğrafiyanın tədqiqa metodları" (1990, dərslik), "Coğrafiya tarixi (2001, dərslik, həmmüəlliflə), "Azərbayca iqtisadi və sosial coğrafiyası dərsliyinin həm müəllifi və b. göstərmək olar.

İqtisadi coğrafiyanın tədqiqat metodlarına və coğrafiya tarixinə dair Azərbaycanda yığcam halında yazılmış ilk dərsliklərin müəllifi professor T.G.Həsənovdur.

Onun təşəbbüsü və yaxından iştirakı ilə 1995 - ci ildə respublikanın bir qrup görkəmli alimlərinin - akademiklərdən A.A.Nadirov və B.Ə.Ələsgərov, professor M.A.Müseyibovun iştirakı ilə Azərbaycan Respublikasının yeni iqtisadi-coğrafi rayonları şəbəkəsi hazırlanmışdır. Onların təklif etdikləri 10 rayondan ibarət şəbəkə sonralar Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı dövlət proqramlarının (2004-2008, 2009-2013-cü illər) hazırlanmasında ilkin baza kimi istifadə olundu.

Professor T.G.Həsənovun coğrafiyanın əhəmiyyətli bir qolu olan iqtisadı xəritəçilik sahəsində də təqdirə layiq işləri vardır. O, yeni şəraitdə mühüm əhəmiyyət kəsb edən "Azərbaycan Respublikasının sənaye xəritəsi", "Azərbaycanın iqtisadi coğrafi rayonlarının inkişaf səviyyəsi və ixtisaslaşmış təsərrüfat sahələri"nə aid xəritələr tərtib edilmişdir. Həmin xəritələr AMEA - nın Yer Elmləri Bölməsi tərəfindən ilin (2006-2010) ən yaxşı elmi - tədqiqat işlərinin nəticələri kimi qəbul olunmuşdur.

Professor T.G.Həsənov "Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalının ağır sosal - iqtisadi nəticələri" kitabını rus və qazax dillərində nəşr etdirərək respublikanın daxilində və xaricində yayılmağına nail olmuşdur. İqtisadi və sosial





coğrafiya kafedrasında yüksək ixtisaslı kadr hazırlığında magistr və doktorantlara rəhbərliyi sayəsində artıq müdafiə etmiş və işi üzərində çalışan bir neçə doktorant və çox sayda magistrlər hazırda isə Tehrandan, Ərdəbildən, Urmiyadan, Təbrizdən gəlmiş doktorantlar vardır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən metodiki şuranın, fakultə elmi şurasının üzvü olan Tapdıq Güləhməd oğlu Beynəlxalq (Moskva, Berlin, Kazan, Barnau, Vladiqafqaz və b.) regional və respublika miqyaslı konfranslarda, coğrafiya cəmiyyətinin qurultaylarında iştirak etmiş, bir çoxlarında məruzələrlə çıxışları olmuşdur. O, həmçinin AMEA - nın akademiki, Həsən Əliyev adına Coğrafiya İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür.

Keçdiyi həyat yolunda professor T.G.Həsənov xidmətlərinə görə dövlət və təşkilatlar tərəfindən mükafatla təltif olunmuş, Azərbaycan Respublikasının əməkdar müəllimi, Təhsil Nazirliyinin qabaqcıl təhsil işçisi, Bakı Dövlət Universitetinin bir sıra mükafatlarına layiq görülmüşdür.

Tapdıq müəllim eyni zamanda gözəl ailə başçısıdır. Həyat yoldaşı ziyalı bir xanım, şərəfin ləyaqətin bariz nümunəsi Həsənova Tamara xanım uzun illərdir orta məktəbdə coğrafiya müəllimi işləyir.

İki övladı var - oğlu S.T.Həsənov Kiyev şəhərindəki T.Şevçenko adına Dövlət Universitetini bitirmiş - fəlsəfə üzrə fəlsəfə doktoru, qızı - Ü.T.Həsənova coğrafiya üzrə fəlsəfə elmi dərəcələri almışlar, tədris və istehsalat sahələrində çalışırlar. Ziyalılar ailəsinə uzun ömr və həyatın bütün sahələində uğurlar arzu edirik.



## HÜSEYNOV HÜSEYN MƏHƏRRƏM OĞLU

*Giologiya elmləri doktoru, professor.*



***Bilik öyrənənlə, bilik öyrədənin ittifaqı ilahi ittifaqdır.***

*Atalar sözü*

Ali hissəlirn işığında inamla addımlayan insan, dünyaya göz açanda onun alın yazısı həkk olunur. Elm yolunda inamla addımlayan, həyatda öz layiqli yerini tutan, dərin biliyi və bacarığı ilə xalqına, millətinə sədaqətlə xidmət edən ülvi əxlaqi keyfiyyətlərə malik olan geologiya elmləri doktoru, professor Hüseynov Hüseyn Məhərrəm oğlu 1937 - ci il sentyabrın 15 - də Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. Orta məktəbi həmin kənddə başa vuraraq 1955 - ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji - kəşfiyyat fakultəsinə daxil olmuşdur. 1960 - cı ildə həmin institutu bitirmiş və neftçi - geoloq ixtisasına nail olmuşdur.

Professor H.M.Hüseynov ilk əmək fəaliyyətinə 1960 - 1967 - ci illərdə neft sənayesində başlamışdır. Burada korrektor vəzifəsindən böyük geoloq vəzifəsinə kimi yüksəlmişdir. Bu müddət ərzində H.M.Hüseynov axtarış kəşfiyyat işlərində özünü kamil bir mütəxəssis kimi göstərmiş, həmkarlarının hörmət və etimadını qazanmışdır. Onun istehsalat dövrü maraqlı keçmiş və nəzəri biliklərin istehsalata tətbiqi ona elmdə istiqamətlərini müəyyənləşdirməyə xeyli köməklik etmişdir.

Həyatda yeni mərhələnin başlanmasını hiss edən H.M.Hüseynov1967 - ci ildə aspiranturaya daxil olaraq doğma "Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrasına qayıtmışdır. Burada assisent, baş müəllim və dosent vəzifələrində çalışmışdır.

Daim elmi axtarışlarda olan H.M.Hüseynov 1971 - ci ildə "Qərbi Abşeronun Miosen - Oliqosen çöküntülərinin litofasial xüsusiyyətləri və geologiyası" mövzusunda namizədlik, 1992 - ci ildə isə "Qafqaz - Xəzər əyalətinin sedimentasiya hövzələri və onların neftlilik - qazlılığı" mövzusu üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1993 - cü ildən kafedranın professoru vəzifəsini tutmuş və professor elmi adına layiq görülmüşdür.

1995 - 1999 - cu illərdə "Geoloji - kəşfiyyat" fakultəsinin dekanı vəzifəsini icra edən H.M.Hüseynov 2004 - cü ildən "Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrasına rəhbərlik edir. Professor H.M.Hüseynov neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı sahəsində aparıcı tədqiqatçılardan biridir. Bu





sahənin bir çox problem məsələlərinin həlli, alınan elmi nəticələr və onların istehsalatda tətbiqi onun elmi fəaliyyətinin əsasını təşkil edir. Neft - qazlılığın proqnozlaşdırılmasının nəzəri əsaslarını tədbiq edən H.M.Hüseynovun apardığı elmi tədqiqatlar bir neçə istiqamətə ayrılır:

- Regional və lokal qırışıqların statik və dinamik şəraitlərinin öyrənilməsi;
- Axtarış və kəşfiyyat işlərində sistemli təhlil nəzəriyyəsinin tətbiqi;
- Cənubi Xəzər meqaçökəkliyinin geodinamik modelinin yaradılması;
- Qafqaz sisteminin Maykop əsri üçün paleocoğrafi sxeminin qurulması;
- Neftin mənşəyinin, əmələgəlmə şəraitinin tədqiq və s.

Birinci istiqamətdə professor H.M.Hüseynov tərəfindən geodinamik prinsiplər əsasında regional və lokal qırışıqların statik vəziyyəti müəyyən edilmiş və onların yeni təsnifat sxemi verilmişdir. Təsnifat sxeminə görə qırışıqlar şovvari və valvari quruluşa malikdir. Qırışıqların dinamik vəziyyəti isə paleotektonik analiz nəticəsində tədqiq olunmuş və göstərilmişdir ki, ayrı - ayrı neftli - qazlı rayonda qırışıqların inkişafı müxtəlif geoloji zamanda baş vermiş və onların əmələ gəlmə mexanizmi müxtəlifdir. Müəyyən olunmuşdur ki, Abşeron rayonunda qırışıqların inkişafı Miosenin sonunda başlamışdır. Onların əksəriyyətinin konsedimetsion və diapir tipli olmaları əsaslandırılmışdır. Yevlax -Ağcabədi çökəkliyindəki qırışıqların Təbaşirin sonunda inkişaf etməsini və üst Təbaşir yaşlı maqmatizmin inkişafını müəyyən etmişdir. Beləliklə, professor H.M.Hüseynov qırışıqların dinamik inkişafını nəzərə alaraq onların əmələ gəlmə mexanizminin çox variantlı olması fikrini irəli sürmüşdür.

1985- ci ildə ilk dəfə olaraq professor H.M.Hüseynov sistemli təhlil nəzəriyyəsi əsasında Kür Cənubi Xəzər meqaçökəkliyiynyn modelini vermişdir. O, həmçinin paleocoğrafi və paleotektonik tədqiqat əsasında Qafqaz sisteminin Maykop əsrində paleocoğrafi sistemini də tərtib etmişdir.

Professor H.M.Hüseynov ömrünün 40 ilini elmi tədqiqat işlərinə sərf etmişdir. Onun tərəfindən 150 - ə qədər elmi məqalə, 7 dərslik və 20 dərs vəsaiti hazırlanıb nəşr olunmuşdur.

Otuz ildən artıq bir dövrdə Azərbaycan Dövlət Neft Akademiyasında kadrların yetişdirilməsində aktiv iştirak edən Hüseyn Məhərrəm oğlu minlərlə mühəndis, onlarla magistrant və aspirantlar hazırlamışdır. 10 nəfər aspirantın dissertasiyasına və bakalavr işlərinə rəhbərlik etmişdir.

Çox ciddi, təvazökar və yoldaşlarına qarşı həssas və səmimi olan H.M.Hüseynov ADNA - nın Elmi Şurasının üzvüdür. Azərbaycan Respublikası Prezidenti yanında Ali Atesstasiya Komissiyasının "Yer elmləri" üzrə Ekspert Şurasının iki seçki üzvü olmuşdur.

ADNA-nın 90 iliylə əlaqədar olaraq Hüseyn Məhərrəm oğlu "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Ailəlidir, 4 övladı, 6 nəvəsi var.

## HÜSEYNOV RAFİQ QURBAN OĞLU
*Texnika elmləri doktoru, professor*



***"İnsan öz səadətini arzularında yox, potensialında axtarmalıdır".***

**Yunan filosofu Aristotel**

Azərbaycanın tarixində öz sözünü deyə bilən, fədakar elm xadimlərimiz olub və olacaqdır. Elm yolunda inamla addımlayan, həyatda öz layiqli yerini tutan, dərin biliyi və bacarığı ilə xalqına, millətinə sədaqətlə xidmət edən, mükəmməl təfəkkür sahibi, texnika elmləri doktoru Hüseynov Rafiq Qurban oğlu 1946-cı ildə Şəki şəhərində anadan olmuşdur. Elə bu şəhərdə 6 saylı orta məktəbdə 6-cı sinifə qədər oxumuş və Bakı şəhərindəki 201 saylı məktəbdə orta təhsilini başa vurmuşdur. 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunun "Metallurgiya" fakultəsini əla qiymətlərlə bitirmişdir.

İlk əmək fəaliyyətinə 1968-69-cu illərdə RF-nın Novokuznetsk Metallurgiya zavodunda mühəndis-metallurq vəzifəsində işləməklə başlamışdı. Orada işlədikdən sonra Azərbaycan Politexnik İnstitutunun "Metalların texnologiyası və metalşünaslıq" kafedrasında (1969-1971) laborant, assisent vəzifələrində çalışmışdır.

R.Hüseynovun elmə olan marağı onu Moskva Kimya Maşınqayırma Akademiyasına gətirib çıxarmış və o, 1971-1974-cü illərdə burada əyani aspiranturada oxumuşdur. Moskva şəhərində 1975-ci ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və texnika elmləri namizədi adını almışdır.

Hüseynov Rafiq Qurban oğlu 1980-1981-ci illərdə T.Şevçenko adına Kiyev Dövlət Universitetinin fransız dili kurslarını bitirmişdir.

1985-1988-ci illərdə Əlcəzair Yüngül Sənaye Universitetində "Metalların texnologiyası və metalşünaslıq" kafedrasının müdiri vəzifəsində işləyən Rafiq müəllim elm sahəsində axtarışlarını davam etdirmiş və 1992-ci ildə Moskvada doktorluq dissertasiyası müdafiə edərək, texnika elmləri doktoru adını almışdır. 1981-ci ildən dosent, 1995-ci ildən isə professordur.

Görkəmli alim 1996-cı ilin yanvar ayından indiyədək "Konstuksya və kompozisiya materiallarının texnologiyası" kafedrasının müdiridir. Həyat eşqi, yaradıcılıq həvəsi tükənməyən Rafiq müəllimin təltifləri çoxdur. "Lenin komsomolu" və "Z.Tağıyev adına Respublika " mükafatı laureatı və "SSRİ ixtiraçısı" fəxri adlarına, iki dəfə "Rəşadətli əməyə görə" nişanlarına, "SSRİ Elmlər Akademiyasının xatirə medalına layiq görülmüşdür. İki dəfə Yasamal (Oktyabr) rayon sovetinin





deputatı olan Rafiq Hüseynov 1976-1981-ci illərdə RKMK-nin üzvü və Respublika Gənc Alimlər Şurasının sədri olmuşdur.

Elm sahəsində özünə məxsus xidmətləri olan, öz yaradıcılığı, alimliyi və yüksək səvviyyəli fəaliyyəti ilə yetişən gənc nəslə örnək olacaq mənalı bir ömür yaşayan Rafiq müəllimin xarici, Respublika elmi-texniki toplum və jurnallarda 140-dək elmi məqalələri çap olunmuş, elmi əsərlərinin təxminən 90%-i (125-i) Rusiya Federasiyası, ABŞ, Misir Ər, Ukrayna, Əlcəzair, Almaniya, Türkiyə, Özbəkistan və s. ölkələrdə nüfuzlu elmi jurnal və toplumlarda nəşr olunmuşdur.

Respublika Təhsil Nazirliyinin qrifi ilə 5 dərsliyin, çoxsaylı dərs proqramlarının və Fransız dilində buraxılmış 3 dərsliyin müəllifi olan Rafiq Hüseynov 4 aspirantın elmi rəhbəri olmuş, 4 doktorluq dissertasiyalarına məsləhətçi olmuşdur. 12 müəlliflik şəhadətnamələrinin və 5 patentin müəllifidir. (hamısı SSRİ və Rusiya Federasiyası).

Rafiq müəllim özü bir həyat dərsidir. Onun həyat fəaliyyəti başı qarlı uca zirvəyə bənzəyir. O zirvədən 65 illik zəngin yaradıcılıq yollarının xatirələrlə dolu tarixi boylanır. Rafiq Hüseynov ömrü boyu çəkdiyi zəhmətin müqabilində aldığı təltif və mükafatlardan ən qiymətlisini yalnız bir təltifi hesab edir. O təltif Rafiq müəllimin ömrü boyu çəkdiyi zəhmətin müqabilində Tanrının ona bəxş etdiyi böyük bir mükafatdır. Bu mükafat onu sevən ailəsi, həyat yoldaşı, qoşa qanad oğul övladları, xanım-xatın gəlinləri, nəvələri və yetirmələridir.



## HƏŞİMOV HACI HƏSƏN OĞLU

*Əməkdar elm xadimi,*
*kimya elmləri doktoru, professor*



***Nehrəni çalxamadan,***
***Süd çevrilib yağ olmur.***
***Nəyisə itirmədən,***
***Nəyisə tapmaq olmur.***

*B.Vahabzadə*

Azərbaycan Respublikası dünyada nefti ilə məşhur bir ölkədir və yurdumuzun şöhrətlənməsində neft sənayesinin inkişaf yollarını elmi və zəhməti ilə zirvələrə ucaldan alim - neftçilərimizin əməyi əvəzsizdir. XX əsrin əvvəllərində hələ elmin, texnikanın lazımi səviyyədə tərəqqi etmədiyi bir dövrdə Azərbaycanın, Bakının doğma övladları bu sahədə geniş elmi biliklərə yiyələnərək, Abşeronun qara qızılının kəşf edilərək, istismara verilməsində, istehsalında və mübadiləsində varlığı ilə çalışmışlar.

Hacı Həşimov məhz belə alimlərdən biri və üstün olanı seçilmişdir. 1907 - ci il 12 mart tarixində Bakının Saray kəndində dünyaya gəlmişdir H.Həşimov. Bu ulu məkan çox alimlər, çox igidlər, çox nəcib və ləyaqətli, şərəfli şəxsiyyətlər bəxş etmişdir ölkəmizə. Hacı Həşimov orta təhsili başa vuraraq Qafqaz Hərbi Məktəbinə qəbul olunur.

1928 - ci ildə hərbiçi kimi təhsili uğurla bitirdikdən sonra Binəqədi neft buruqlarında çalışaraq neftçi kimi püxtələşmişdir. Zaqafqaziya Kommunist Universitetində (və Fəhlə Gənclər kursunda?) təhsili başa vurduqdan sonra Moskva Qubkin adına Neft İnstitutuna göndərilir. Hacı Həşimov kimya - texnologiya fakultəsində təhsil alır və Moskva Ağır Sənayesinə aid Baş İdarədə mühəndis işləyir. Moskvada aspiranturanı bitirərək namizədlik dissertasiyasını müdafiə edir və kimya elmləri namizədi, alimlik dərəcəsi adını alır.

Hacı Həşimov bir alim kimi vətən yolunda bir ömür, həm də dəyərli bir ömür həsr edərək çalışmışdır. 1942 - 45 - ci illərdə Azerneftyağ zavodunda Partiya Təşkilatı katibi vəzifəsində çalışmışdır. O, daima yüksək vəzifələrdə dəyanətlə çalışmışdır. AMEA - nın ET Neft Emalı İnstitutunda direktor, Bakı Neft Emalı zavodunun direktoru, AMEA Neft - Kimya Prosesləri İnstitutunda laboratoriyanın rəhbəri vəzifələrini uğurla icra edən Hacı Həşimov 1959 - cu ildə doktorluq dissertasiyasını müdafiə edərək elmlər doktoru, professor adına layiq görülür.

180 - dan artıq elmi əsərin və 6 monoqrafiyanın müəllifi olan professor Hacı





Həşimova 1979 - cu ildə Azərbaycanın Əməkdar Elm Xadimi adı verilmişdir. Dövlətimiz alimin, xadimin fəaliyyətini yüksək dəyərləndirmiş və Hacı Həşimov dəfələrlə Azərbaycan (SSR) Ali Sovetinin "Fəxri Fərman"ları ilə, bir çox medallarla təltif olunmuşdur. Onun xatirə guşəsinin günəşi əməyinə, elminə verilən dəyərlərdən biri də keçmiş SSRİ Ali Sovetinin fərmanı ilə təltif olunduğu "Qırmızı Əmək Bayrağı" ordenidir.

Hacı Həşimovun müəllifi olduğu monoqrafiyalar Azərbaycan neftinin fərqli - üstün xüsusiyyətlərini sübuta yetirimşdir. Bu gün neft - kimya sənayesində çalışan yüksək ixtisaslı mütəxəssislərin yetirilməsində, elmlərə yiyələnməsində, bir kadr kimi formalaşmasında professor Hacı Həşimovun və onun yazaraq geniş oxucu kütləsinə təqdim etdiyi elmi əsərlərin, monoqrafiyaların əhəmiyyəti böyük olmuşdur və hal - hazırda da bu mühüm əhəmiyyət kəsb etməkdədir. Yəqinlər olsun ki, onun yazdığı əsərlər gələcəkdə daha böyük tirajla çap olunaraq gələn nəsillərə çatdırılacaqdır.

Hacı Həşimov dünyanın inkişaf etmiş ölkələrində keçirilən Beynəlxalq simpozium və konfranslarda ölkəmizin ləyaqətli təmsilçisi olaraq, səmərəli təklifləri, çıxışları ilə Azərbaycan elmini yüksəklərə ucaltmışdır. Onun elmi və zəhməti sayəsində Balaxanı, Suraxanı, Bibiheybət, Qala, Ramana və digər ərazilərin nefti dərindən öyrənilmiş, köklü tədqiqatlar aparılmışdır. Hacı Həşimov 1954 - cü ildən son nəfəsinə qədər var qüvvəsi ilə çalışmaqla ölkəmizə misilsiz töhvələr bəxş etmiş bir alim idi. Azərbaycana öz yüksək xidmətləri ilə şərəfli alim, pedaqoq, professor olan Hacı Həsən oğlu Həşimov əbədiyyətə qovuşmuşdur. Onun böyük amalı, elmi tövsiyyələri, məsləhət və təcrübələri gələn nəsillərin əməlində yaşayır və hələ zaman - zaman yaşayacaqdır. Böyük alim, ləyaqətli, şərəfli insan Azərbaycanın görkəmli xadimi, professor Hacı Həşimova İlahidən cənnət diləyərək deyirik: Şükürlər olsun ki, yurdumuzun sizin kimi əbədiyaşar alimləri vardır.



## HACIYEV FƏRMAN MUSTAFA OĞLU

*Texnika elmləri doktoru, professor*



*Ölüm sevinməsin qoy!*
*Ömrünü vermir bada,*
*Ey qədrini canından*
*Daha əziz bilənlər,*
*Şirin bir xatirə tək,*
*Qalacaqdır dünyada.*
*Sevərək yaşayanlar,*
*Sevilərək ölənlər.*
*S. Vurğun*

Xalqa, vətənə mənalı, mübariz xidmətləriylə bir ömür həsr edərək uğurlu nəticələrlə dolu ixtiraları, elmi nailiyyətləri ilə dövlətimizin şərafət qalasına çevrilən ziyalı şəxsiyyət Fərman Hacıyev haqqındadır söhbətimiz, təqdim edəcəyimiz qısa məlumat. Ona görə, qısa deyirik ki, onun xidmətləri haqda çox yazılmış, yazılır və hələ də yazılacaq, dərc olunacaqdır. Çünki, nə qədər yazılıb, deyilsə də dəyər, onun ən böyük mükafatı xalqa, vətənə xidmətlərinin cavabı olan, insanların onun ruhuna olan səcdəsi, duasıdır. Ləyaqətlə yaşayıb bu dünyada ikən cənnət adlı guşədə ruhən rahatlıq taparaq əbədiyyətə qovuşmaq hər kəsə nəsib olmur.

Ziyalı şəxsiyyət kimi yurdumuzda tanınan professor Fərman Hacıyev Şəki şəhərində, mötəbər bir ailədə 1929 - cu ildə dünyaya gəlmişdir. Ömrünün yarım əsrdən artıq bir hissəsini mühəndisliyə, yüksək vəzifələri ləyaqətlə yerinə yetirməyə, elmi - tədqiqat işlərinə həsr edən alim Fərman Hacıyev, həyatın enişli - yoxuşlu yollarını məğrurluqla keçmiş və elmin yüksək zirvələrini fəth etmişdir. Bütün elmi, ictimai fəaliyyəti ilə yanaşı yüksək səviyyəli ixtisasçı kadrların həyata vəsiqə almasında onun əməyi və xidməti böyük olmuşdur.

Azərbaycan İnşaat və Memarlıq Universitetində professor olaraq çalışmaqla yanaşı, Fərman Hacıyev ADNA - da (Neft Akademiyasında) mühazirələr oxuyaraq gənc nəslin dərin elmlərə yiyələnməsi yollarında yorulmadan çalışırdı. Texnika elmləri doktoru adını layiqincə daşıyan Fərman müəllim, tədqiqatçı alimin elmi axtarışlarının müsbət nəticələri ölkəmizdə və Respublika hüdudlarından kənarda sınaqlardan uğurla çıxmışdır. Onun təklifi ilə hazırlanmış nümunələr Xəzər, Azov, Qara dəniz, Baltik və Cənubi Çin dənizinin, Hind okeanının neft - qaz yataqlarının istismarında istifadə olunmuş və hələ də bu





böyük və səmərəli kəşf həyatda öz bəhrəsini verməkdədir.

Fərman Hacıyev uzun illər Dənizneftqazlayihə DETLİ - nin direktoru vəzifəsində çalışmışdır. 200 - dən çox elmi - tədqiqat işlərinin, səmərələşdirici təkliflərin və ixtiraların müəllifi idi professor Fərman Hacıyev. Onun yazıb yadigar qoyduğu kitablar və monoqrafiyalar bu gün də bir sərvət olaraq istifadə olunur, qorunub saxlanılmaqdadır.

Professorun səyi və əməyinin bar - bəhəri yüzlərlə savadlı kadr olmaqla yanaşı neçə - neçə alimlərimizdir. Onun rəhbərliyi ilə onlarla gənc mütəxəssis dissertasiya müdafiə edərək elmlər namizədi, alimlik dərəcəsi almışlar. Rəhbərlik etdiyi nəhəng müəssisədə də, professor kimi çalışdığı universitetdə də mühazirələri ilə gənc nəslin elmlərə yiyələnməsində uğurla çalışdığı Neft Akademiyasında da tədqiqatçı - alim daima hörmət və nüfuz sahibi olmuş və bu gün də ehtiramla yad olunmaqdadır.

Texnika elmləri doktoru, professor Fərman Hacıyev elmlə, pedaqoji fəaliyyətlə məşğul olaraq, idarə rəhbəri vəzifəsində çalışmaqla yanaşı Respublikanın ictimai həyatında fəal iştirak edən el ağsaqqalı, tanınmış ziyalı və görkəmli şəxsiyyət idi. Onun çəkdiyi zəhmətlərin, yuxusuz gecələrin, sonsuz səma kimi aydın zəkasının nuru hələ də yaşanır və zaman keçdikcə yaşanacaqdır.

Onu sevən qəlblərdə yetirdiyi alimlərin, mühəndislərin əməllərində və xeyirxah amallarında yaşayır Fərman Hacıyev. O, həyatının hər bir dəqiqəsini belə dövlətimizin, elmin, texnikanını zənginləşməsi və inkişafı yollarına həsr etmişdir. Yaşayır və yaşayacaqdır o, xeyirxah nurlu insan.

Xalqımızın gözəl alimi, dövlətimizin layiqli professoru, texnika elmləri doktoru, görkəmli xadim və tədqiqatçı alim, mərhum Fərman Hacıyevə İlahidən əbədi cənnət diləyərək deyirik: Baxin ey insanlar, biz bu yazıda onun okeana bənzər fəaliyyətinin bircə zərrəsini sizlərə təqdim etdik. Bu müvəqqəti həyatda ömrün hər anından səmərəli istifadə edək.

Yazaq, yaradaq, çalışaq, xeyirxah insanlar olaq. Əbədiyyətə qovuşarkən bizi də ansınlar, yada salıb rəhmət desinlər. Əbədiyyətə qovuşaraq, ruhən insanlarla olub yaşanmaq, unudulmamaq əsil insanlara xasdır.

Fərman Hacıyev də əsil insan idi və bu gün ruhən sağ olaraq aramızda, xatirələrimizdə, amalımızdadır. Əsil olub xeyirxah, zəhmətsevər, əbədiyaşar insanların həyat və fəaliyyətinə nəzər yetirərək nümunə götürməyə çalışaq.

# HÜSEYNOV ƏYYAM İXTİYAR OĞLU



**"Elm öyrənmək və elmi öyrətmək özü də bir ibadətdir."**

*Hz. Məhəmməd (ə.s)*

Həyatının, ömrünün böyük bir hissəsini elmin inkişafı yollarına həsr edən, ixtisasçı kadrlar hazırlanmasında xüsusi xidmətləri olan bir alimin səmərəli fəaliyyətindən söz açırıq:

Əyyam İxtiyar oğlu Hüseynov- mühəndis olmaq, ölkəmizin quruculuq işlərində yaxından iştirak etmək onun ən böyük arzusu olmuş və hələ orta məktəbdə əla qiymətlərlə təhsil aldığı illərdən, o, İnşaat Mühəndisləri İnsititutunda təhsilini davam etdirməyi qərara almışdır. Əyyam Hüseynov 1981 - ci ildə (əvvəlki İnşaat Mühəndisləri İnsititutu) indiki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin hazırlıq kursuna qəbul olmuş və elə ilk gündən müəllim heyətinin hörmətini qazanmışdır. O, hələ Memarlıq və İnşaat Universitetində təhsil alarkən qabaqcıl, ictimai işlərdə fəal, çalışqan bir tələbə olaraq seçilirdi. 1982 - ci ildə universitetin hazırlıq kursunu bitirərək "Sənaye və mülki tikinti üzrə inşaat" fakültəsinə qəbul olunmuşdur.

Əyyam Hüseynov inşaat fakültəsinin ideologiya işləri üzrə komsomol katibinin müavini vəzifəsində çalışmaqla yanaşı Tələbə Elmi cəmiyyətində fəal iştirak etmiş və Tələbə inşaat dəstəsində komandir, komissar və master kimi fəaliyyət göstərmişdir. Onun TİD - lə bağlı fəaliyyətindən olan xatirələri dinlədikcə gənclərin apardığı səmərəli işlərin tələbə adına gətirdiyi ucalıq özünü biruzə verir: "Mənim komissar olduğum TİD Tümendə Geologiya İdarəsinin baş direktoru məşhur neftçi, mərhum Fərman Salmanovun rəhbərliyi ilə çox faydalı işlər görmüş; orada ehtiyaclı ailələrin yaşayış sahələrinin abadlaşdırılması, yeni tikililərin istifadəyə verilməsi və s. bu kimi səmərəli planlar həyata keçirilməsində əsas rol oynamışdır.

Biz keçmiş ittifaqın bir sıra şəhərlərində gördüyümüz təmannasız işlərlə ölkəmizə, xalqımıza xidmət etmiş oluruq. Azərbaycan artamentinə uyğyn olan bir şəhərin - Ulikan şəhərinin yaradılmasında Azərbaycan TİD - in böyük əhəmiyyəti var idi. Ümummilli lider, Ulu öndər, mərhum prezidentimiz Heydər Əliyevin hami iş kimi götürdüyü Anqoya qəsəbəsində yeni tikintilərin aparılması, bərpası və yenidən qurulması işlərində mənim rəhbərlik etdiyim TİD - in əməyi böyük olmuşdur. Bu yaxın zamanlarda Ulu öndərimiz Heydər Əliyevin adı verilən Anqoya dəmir yol stansiyasının tikintisi demək olar ki, bizim TİD - in fəaliyyəti ilə ərsəyə gəlmişdir. Komandir kimi çalışdığım TİD Anqoya DYS - nın istifadəyə verildiyi dövrdən illər keçdikdən sonra bizə bəlli olmuşdur ki, həmin möhtəşəm tikilinin memarı da məhz azərbaycanlı olmuşdur və o alim hazırda bizim çalışdığımız təhsil müəssisəsində çalışan memarlıq namizədi, hörmətli müəllim, dosent Əzimxan Həsənovdur. Əyyam Hüseynov həqiqətən də hələ lap gənc yaşlarından bu günə qədər vətənə, xalqa xidmət edən bir ziyalı ömrü yaşayır. 1987-ci ildə AMİU-nu bitirdikdən sonra, o ali təhsilli mütəxəssis kimi Azərnefttikintilayihə Birliyinin Dəmir Beton Zavodunda məsul vəzifədə çalışmışdır. 1994 - cü ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tədrisində Tərsimi həndəsə mühəndisi qrafikası kafedrasında çalışmışdır. Artıq 23 illik əmək fəaliyyətinin 16 ilini təhsil aldığı universitetə həsr edən Əyyam Hüseynov yüzlərlə savadlı, elmli məzunlar yetirmişdir vətənə. Alim - müəllim şərəfli məzunlarla, yüksək ixtisasçı gənc kadrlarımızla fəxr edərək deyir: "Onlar bizim zəhmətimizin barı - bəhəridir". Hal - hazırda Memarlıq fakültəsinin dekan müavini vəzifəsində çalışan, Əyyam Hüseynovun hələ ən mənalı ömür yolu, nailiyyətləri öndədir. Onun həyat tarixinin ən şərəfli guşəsi tələbəlik illərindən bu günə qədər təltif olunduğu "Fəxri fərman"lar, "Təşəkkürnamə"lər və "Tərifnamə"lər, "Fəxri diplom"lardır. Ən dəyərli təltif isə bütün tələbələrin, məzunların, çalışdığı kollektivin ona olan hörməti və məhəbbətidir.





Ailəlidir, iki oğul övladı, və bir nəvəsi var. Böyük oğlu Hüseynov Qəzənfər Əyyam oğlu memardır. Heydər Əliyev mərkəzində, "Dia holding" şirkətində çalışır. Kiçik oğlu Hüseynli Rüfət isə Rusiyada ali təhsil alır.

Biz də öz növbəmizdə deyirik: Hörmətli alim, sizə yeni - yeni nəaliyyətlər və səadət diləyirik, həyatda... Ziyalılar ailəsinə uğurlar diləyirik!



## HƏSƏNOV AYDIN RƏHİM OĞLU

*Rusiya Pedaqoji və*
*Sosial Elmlər Akademiyasının həqiqi üzvü*



***Faydalı vətəndaş olmaq üçün əvvəlcə insan olmağı öyrənməli.***

*Pifaqor.*

Danışığı, sakit təbiəti, xoş münasibəti, savadı və ən nəhayət insani davranışları ilə özünə hörmət qazanan Aydın Rəhim oğlu Həsənov 1942 - ci il yanvar ayının 29 - da Naxçıvan Muxtar Sovet Respublikasının Culfa şəhərində anadan olub. Yeddinci sinfi bitirdikdən sonra sənət məktəbinə daxil olmuş, 1961 - 1964 - cü illərdə Sovet ordusu sıralarında xidmət etmişdir. O, 1966 - cı ildə Bakı Rabitə Texnikumunu, 1971 - ci ildə isə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsini bitirmişdir.

A.R.Həsənov universiteti bitirdikdən sonra o, Azərbaycan Ali Soveti adına hərbi məktəbdə kabinet müdiri, 1973 - cü ildən 1977 - ci ilə qədər isə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutnda tədris şöbəsinin rəisi vəzifəsində çalışmışdır. 1979 - cu ildə aspiranturanı bitirərək "Tələbə kollektivində şəxsiyyətin tərbiyəsinin pedaqoji əsasları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və pedaqoji elmlər namizədi adına layiq görülmüşdür.

A.R.Həsənov 100 - ə yaxın elmi və publisistik əsərin müəllifidir. Onların içərisində məqalələr, proqramlar, metodik tövsiyələr, dərs vəsaitləri və s. də vardır. Bir sıra inteqrasiya xarakterli dərs vəsaitlərinin müəllifidir. Bunlardan "İdarəetmənin pedaqoqikası və psixologiyası" (2003), "Управленическая педагогика и психология" (2004), "Педагогическая логика" (2005), "Pedaqoji məntiq" (2009) və s. misal göstərmək olar.

A.R.Həsənov 1992 - ci ildə professor adına layiq görülmüşdür. 1993 - cü ildə Pedaqoji və Sosial Elmlər Akademiyasının (Rusiya) həqiqi üzvüdür. 1995 - ci ildən Beynəlxalq Pedaqoqika Akademiyasının tərkibinə seçilmişdir (Rusiya, Moskva şəhəri). 1995 - ci ildən 2000 - ci ilədək Akademiyanın Prezidiyumunun tərkibində idi və "Pedaqoqika" şöbəsinin rəisinin müavinidir. Onu da qeyd etmək lazımdır ki, bir alim və vətəndaş kimi Aydın Həsənov öz mövqeyini respublikanın ağır illərində SSRİ - nin dağılmağı və Dağlıq Qrabağda erməni separatizminin başlanğıcı dövründə göstərmişdi. Sovet İttifaqı dövründə Qarabağ Muxtar





Respublikasındakı problemləri əks etdirən məqalələrin müəllifidir: "По следам передачи", "Позиция и ты" (1987), "Пятый крестовый" (1988), "Платон мне друг, но истина дороже" (1989), "Кому мешает решение проблемы НКАО", "Azərbaycan" qəz. 1990 - cı il, "Azərbaycan kommunisti" Nur. 1991 - ci il, N 6, və s. Bu məqalələr Sovet İttifaqının kütləvi informasiya vasitələrində Mərkəzin fəndgir siyasətini və Azərbaycanın ərazi bütövlüyünü pozub, onun torpaqlarını ələ keçirməyə yönəlmiş erməni daşnak hərəkatını ifşa edən ilk məqalələr idi. Aydın Həsənov 1990 - 1996 - cı illərdə respublikamıza qarşı sürülən informasiya blokadası illərində konferensiyalarda məqalələri və məlumatları ilə iştirak edib, o günlərdə Dağlıq Qarabağda baş verən və Qanlı Yansar (1991) hadisələri haqda məruzə etmişdir.

Aydın Rəhim oğlu Həsənov Bakı Slavyan Universitetinin pedaqoqika və psixologiya kafedrasının dosenti və həmçinin Azərbaycan Beynəlxalq Universitetinin "Təhsili idarəetmə" kafedrasının professorudur.

Ailəlidir, 3 övladı və 3 nəvəsi var.

Aydın Həsənov dərs tədris etdiyi universitetlərdə kollektivin və tələbə heyətinin ən sevimli müəlliminə, professoruna çevrilmişdir. O, hər zaman təhsildə keyfiyyətə, tərbiyədə təlimə fikir vermiş və hər bir tələbəsinə bunları aşılamağa çalışmışdır.

Biz də Aydın müəllimə pedaqoji fəaliyyətində yeni - yeni uğurlar arzu edirik.



## HACIYEVA LALƏ OSMAN QIZI

*Filoloq-alim, kamil qələm sahibi*



***"Ulu nəsillərin layiqli övladları öz soy-kökünə bağlı olan insani keyfiyyətlərini yetirmələrinə bəxş etməklə dünyanın ən savab işini yerinə yetirmiş olurlar".***

*Müdrik kəlam.*

Azərbaycanın vətənpərvər, mübariz, vətən torpaqları uğrunda hər an canından keçməyə hazır olan və bunu öz şücaəti ilə yerinə yetirən mərhum ziyalı - şəhidlik zirvəsini fəth edən, Ana yurdun fədakar övladları, Allah sizə rəhmət eləsin! Siz ölümünüzlə ölümsüzlüyə qovuşaraq, xalqımıza ləyaqətli davamçılar yadigar etdiniz. Bizim borcumuz o yadigarları, o inciləri qorumaq, hörmət bəsləmək və qədir-qiymətini uca tutmaqdır. Azərbaycanın əməkdar jurnalisti mərhum Osman Mirzəyevin qızı Lalə xanım Hacıyeva filologiya elmləri namizədi, alim, elmi və pedaqoji fəaliyyətlə məşğul olan ziyalı və məsuliyyətli vəzifə sahibidir.

1961-ci ildə Bakı şəhərində bütün xalqımızın ehtiramla yad edərək, xatirəsi önündə baş əydiyimiz Osman Mirzəyevin ailəsində anadan olmuşdur. Lalə Hacıyeva orta təhsili Bakı şəhəri 189 saylı məktəbdə əla qiymətlərlə başa vuraraq, Bakı Dövlət Universitetinin Jurnalistika fakultəsinə daxil olmuş və ali təhsil illərini uğurla başa vuraraq, ixtisası üzrə əmək fəaliyyətinə başlamışdır. O, "Molodyoj Azerbaydjana", "Mədəniyyət", "Bakiniskiy raboçiy" qəzetlərində çalışmış və jurnalistika sahəsinəd ixtisasçı kadr kimi püxtələşəmişdir. Britaniya yayım korporasiyası - BBS-nin Azərbaycan xidmətinin əməkdaşı olaraq, çalışan Lalə xanım Respublikanın ictimai həyatında fəal ziyalı kimi nüfuza malikdir. Kamil qələmi ilə zəngin jurnalist təcrübəsinə malik olan Lalə Hacıyeva Azərbaycan Jurnalistlər İttifaqının "Zərdabi" adına və "İlin ən yaxşı jurnalisti" adına layiq görülmüşdür.

Lalə xanım ictimai işlərdə, jurnalistika sahsində uğurla çalışmaqla yanaşı pedaqoji fəaliyyətini də davam etdirməkdədir. Bakı Dövlət Universitetinin "Jurnalistikanın Nəzəriyyəsi və Təcrübəsi" kafedrasında müəllim, baş müəllim (əvəzçiliklə) vəzifəsində çalışan Lalə Hacıyevanın ölkəmizdə savadlı kadrlar hazırlanmasında zəhməti böyük, xidmətləri əvəzolunmaz, təqdirəlayiqdir. Bütün fəaliyyəti ilə yanaşı elmi tədqiqatlar aparan Lalə xanım 2006-cı ildə üzərində çalışdığı "Əhməd bəy Ağayevin publisistikası" ("Kaspi" qəzetinin materialları əsasında) mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Hal-hazırda Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində "Arxiv Fondunun istifadəsi" şöbəsinin müdiri vəzifəsində çalışır. Gözəl alim, təcrübəli jurnalist, zəngin və yüksək mənəviyyatlı ziyalı xanım Lalə Hacıyevanın çalışdığı vəzifələr, apardığı səmərəli pedaqoji və jurnalistik fəaliyyəti bütövlükdə dövlətimizin və xalqımızın mənafeyi naminədir. Alimin qələmə aldığı elmi və publisistik məqalələri müntəzəm olaraq, respublikamızın aparıcı orqanları olan qəzet və jurnallarda çap olunaraq, oxucularımıza təqdim olunur. Onun qələmə aldığı mövzular həqiqi haqqı özündə əks etdirərək, oxucu qəlbində elmə, bugünkü zəngin quruculuq inkişaf-tərəqqi dövrümüzə düzgun mövqe aşılayır. Lalə Hacıyevanın amalı Günəş kimi parlaq, əməli-zəhməti onu uca zirvələrə doğru aparan haqq yolu, düşüncəsinin-elminin bar-bəhrəsi olan yazılar, məqalələr xoşbəxt gələcəyimizə doğru istiqamətlənən yollara nuri-ziyadır.

Gözəl ailəsi olan Lalə Hacıyevanın həyat yoldaşı Rasim Vahid oğlu Hacıyev tibb elmləri doktoru, professor, həkim-oftalmoloqdur.

Üç övladı var. Qızı Nərminə Hacıyeva həkim, böyük oğlu Vahid Hacıyev BB-də məsul vəzifədə çalışır, kiçik oğlu Osman Hacıyev məktəblidir. Alim, müəllim, qayğıkeş ana, məsul vəzifəli ziyalı xanım Lalə Hacıyevaya səvadət və uğurlar arzulayırıq!



## HÜSEYNOVA RƏNA HÜSEYNAĞA QIZI

*Filoloq-alim*



***Kim özünə özü qədər inana biləcək bir dost tapa bilsə, o özünü dünyanın bütün xəzinələrinin sahibi hesab edə bilər.***

*Sokrat*

İşləmək naminə deyil, sənət naminə çalışan, elm sahəsinə bağlı bir ömür yaşayan, həyat səhifələrinə layiqli iz salan, təhsilə, müəllimlik sənətinə möhkəm tellərlə bağlı olan Hüseynova Rəna Hüseynağa qızı 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı şəhər Yasamal rayon 161 saylı məktəbdə almış, M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər institutunu (ADU) İngilis və Azərbaycan dilləri fakultəsini bitirmişdir.

R.H.Hüseynova ilk əmək fəaliyyətinə 1971-1979-cu illərdə Bakı şəhəri Xətai rayonundakı 70 nömrəli məktəbdə ingilis dili müəllimi kimi başlamışdır.

1979-cu ildə əyani aspiranturaya daxil olan Rəna xanım 1982-ci ildə müvəffəqiyyətlə bitirmiş, 1983-1984-cü illərdə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin Xarici dillər kafedrasının saat hesabı müəllimi kimi fəaliyyət göstərmişdir.

R.H.Hüseynova 1986-89-cu illərdə ailə vəziyyəti ilə əlaqədar pedaqoji fəaliyyətinə fasilə verərərk 3 il Kuba Respublikasında yaşamış, qayıtdıqdan sonra, 1989-1990-cı illərdə Bakı Dövlət Universitetinin Humanitar fakultələr üçün Qərbi Avropa dilləri kafedrasında baş laborant, 1993-2001-ci illərdə müəllim vəzifəsində işləmişdir. Elm sahəsinə daim marağını artıran və bu yolda elmi axtarışlara can atan Rəna Hüseynova 2004-cü ildə "İngilis və Azərbaycan dillərində real və fon" sözləri adlı elmi iş müdafiə etmiş, 2005-ci ildə filologiya elmləri namizədi, alimlik dərəcəsi adını almışdır.

2008-ci ildən kafedranın dosenti vəzifəsində çalışır.

Əsil Azərbaycan qadınına xas olan bütün əxlaqi, insani keyfiyyətləri özündə cəmləşdirən R.H.Hüseynova 22 elmi məqalənin, 3 metodik vəsaitin, ingilis dili üzrə proqramın və monoqrafiyanın müəllifidir. Universitetin ictimai işlrində də fəal iştirak edən son dərəcə təvəzökarlığı, xanım-xatınlığı, təmkinliyi və mehribanlığı ilə hörmət qazanan Rəna xanım Hüseynova 2007-ci ildən kafedranın Həmkarlar Təşkilatının sədri vəzifəsini icra edir.

Rəna xanımın gözəl ailəsi var. O, üç övlada qayğıkeş ana, 6 nəvəyə mehriban nənədir.





## XUDİYEVA ŞURA MƏHƏMMƏD QIZI

*Şərəfli müəllim, nüfuzlu ziyalı*



***Hər bir insanın qiyməti onun elmi, biliyi qədərdir.***

*Məhəmməd Peyğəmbər (ə.s)*

Təhsil insan həyatında mühüm rol oynayır. Bilik, savad əsas meyar kimi ön plana çəkilir. Gənc nəslə bilik verən müəllimlərdən biri olan Xudiyeva Şura Məhəmməd qızı 1938-ci il Yanvar ayının 21-də Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olub. 1946-cı ildə Şuşa şəhər 1 saylı orta məktəbinə daxil olub 1956-cı ildə bitirib.

Orta ixtisas təhsilini Şuşa Pedaqoji Texnikumunda almış və bir il (1971-72-ci tədris ili) sinif müəllimi işləyib. Ədəbiyyata olan həvəsi onu bu sahəyə gətirmişdir. Ş.M.Xudiyeva 1966-cı ildə APİ-nin dil ədəbiyyat fakultəsinə daxil olub 1971-ci ildə başa vurub.

1980-1990-cı illər arası əvvəlcə metodist, daha sonra DQMVXMS-də müdir müavini vəzifələrində çalışıb. Məlum hadisələrlə bağlı 1990-cı ildən Bakı şəhərinə gəlmiş elə həmin ildən də Bakı şəhəri Nərimanov RXT şöbəsində 1998-ci ilə kimi metodist işləyib. Öz sənətini sevməsi, ona ürəkdən bağlanması, işgüzarlığı, savadı ona baş ucalığı gətirmiş və hər zaman kollektivin hörmətini qazanıb.

1961-1982-ci illərdə azərbaycan bölməsi üzrə direktorluq edib və Azərbaycanın 50 illik yubileyində "Fəxri" fərmanla təltif olunub.

Son dərəcə ziyalı, xanım xatınlığı ilə seçilən sənətini çox sevən, saçlarını bu yolda ağardan Ş.M.Xudiyeva işlədiyi illərdə "Diferensiallaşdırma və fərdiləşdirmə", "Mədəniyyət inqilabçılığı sevmir", "Tərbiyə də bir silahdır", "Müəllim şagird münasibətləri", "Bir daha ifadəli oxu haqqında", "Qeyri adi açıq dərs" və bir çox məqalələrlə çıxışlar edib.

Şura xanım Xudiyeva iş təcrübəsini artırmaq məqsədi ilə 1985-1987-ci illərdə Moskva MTİ-da aylıq kurslarda olub. 1998-ci ildə Bakı şəhəri BTİ-nin "Təhsilin humanikəşdirilməsi baxımından təlim tərbiyə prosesinin diferensiallaşdırılması və fərdiləşdirilməsi ili" çərçivəsində keçirilmiş "İlin ən yaxşı metodisti" ilə təltif olunub. Həm rayon, həm də şəhər üzrə Fəxri fərmanlarla təltif olunub. Şura xanım peşakar müəllim olmaqla əsl pedaqoq olduğunu özünün əməli işi ilə göstərmiş və tək şagirdlərin deyil, bütün kollektivin hörmətini qazanmışdır.

Ş.M.Xudiyeva müəllimlərin 1978 VI, 1984 VII qurultaylarında iştirak edib.

Ailəlidir, 3 övladı var. Hər biri ali təhsillidir.

## İMANZADƏ SƏİDƏ ƏHMƏDNƏBİ QIZI

*Əməkdar müəllim, şərəf ordenli, professor*




***Yoxsa bu dünyanın ucu, bucağı,***
***Hər yerdən istidir ana qucağı.***
*S.Vurğun.*

Tarix xeyirlə şərin əbədi mübarizəsindən ibarətdir. Məhz xeyir qüvvələrə, xeyirxah işlərə, ideyalara xidmət edən insanlar milləti, xalqı, bütövlükdə bəşəriyyəti tərəqqiyə doğru irəli, işıqlı gələcəyə aparır. Belə insanlar millətin yaddaşını təşkil etməklə tarixdə yaşamaq haqqı qazanırlar. XX əsr tariximizdə qadın azadlığı, onun fəal ictimai həyata cəlb olunması, cəhalətdən qurtulmaq naminə xalqın övladlarına savad vermək, onların maariflənməsi uğrunda qarşısına çıxan çətinliklərə mətinliklə sinə gərərək kişi kimi mübarizə aparmış, elmin inkişafı sahəsində misilsiz işlər görmüş, saçlarını məktəb, maarif, təhsil işində, xalqımızın tərəqqisi yolunda ağartmış alim, pedaqoq, ictimai xadim, qadın azadlığı uğrunda yenilməz mübariz Səidə İmanzadə də məhz xeyir ideyalara xidmət etməklə, xalqın qan yaddaşında əbədi yaşamaq haqqı qazanmış nurlu şəxsiyyətlərdən biridir.

Səidə Əhmədnəbi qızı İmanzadə 1910-cu il dekabrın 29-da qədim, ziyalı və mədəniyyət ocaqlarından biri olan Şəkidə ziyalı ailəsində anadan olmuşdur. "Əfəndilər nəsli" kimi tanınan bu nəslin nümayəndələri Şəkidə ilk kitabxana, mədrəsə, məktəbin əsasını qoymuş, ilk dərsliklərin müəllifi olmuş, bir çox alimləri, pedaqoqları, ziyalıları, din xadimləri ilə məşhurdur.

İlk təhsilini atasının yanında alandan sonra mədrəsədə təhsilini davam etdirmişdir. 1924-cü ildə ailəsi ilə Bakıya köçən Səidə xanımın qarşısında tale yeni yollar açmış, 1925-ci ildə "Qadın nümayəndələri iclası" adlanan təşkilatın fəal üzvlərindən biri olmuşdur. Burada Azərbaycan qadınlarının savadlanması üçün ardıcıl iş aparmışdır.

S.İmanzadə 1926-cı ildə Bakıda fəaliyyət göstərən "Türk sənaye məktəbi"nə daxil olmuş. 1928-ci ildən fəaliyyətə başlayan gənc Səidə xanım bütün təqib, təzyiq, təhqir, hədələrə baxmayaraq, cəmiyyətimizin fəal qurucularına çevrilməsi uğrunda geri çəkilməmişdir.

1930-cu ildə Sənaye məktəbini başa vuran S.İmanzadə ADİ-nin tarix və ictimaiyyət fakultəsinə qəbul olunur. 1934-cü ildə ali məktəbi bitirdikdən sonra 98, 21 saylı məktəblərdə müəllim, Bakı Qızlar İnternatının müdiri, 1943-cü ildən 132





saylı məktəbdə direktor işləmiş, eyni zamanda kadr çatışmazlığına görə ADU-nun tarix fakultəsində dərs demişdir.

S.İmanzadə 1942-ci ildə görkəmli sənətkarlarımız S.Vurğun və M.İbrahimovla birlikdə Tiflisdə keçirilən Zaqafqaziya ziyalılarının antifaşist mitinqində iştirak etmiş və nitqlər söyləmişdir.

1946-cı ildən taleyini BDU-ya bağlayan tarix fakultəsinin dosenti, kafedra müdiri, dekanı, Elmi Müdafiə Şurasının sədri vəzifələrində çalışaraq özünü ali təhsilli kadrların hazırlanmasına və elmi işə həsr edir. Onun tələbələri arasında Ümummilli Liderimiz Heydər Əliyev, B.Vahabzadə, Qabil, Balaş Azəroğlu, Akademiklər Fuad Qasımzadə, Aslan Aslanov, Yaqub Mahmudov, xalq rəssamı Mikayıl Abdullayev və onlarla, yüzlərlə akademik, professor, dövlət və ictimai xadimlər var.

S.İmanzadə 1954-cü ildə "Azərbaycanda qadın azadlığı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. O, bu mövzuda 75-dən çox kitabça buraxmış, məqalələr çap etdirmiş, "Azərbaycanda qadın azadlığı", "Qadınlar sülh uğrunda mübarizədə", "Qadının cəmiyyətdə rolu" və s. yazdığı əsərlər böyük maraq doğurmuşdur.

S.İmanzadə 1943-cü ildə "Əməkdar müəllim", "Şərəf ordeni", "Qafqazın müdafiəsi", "Qələbə medalı", "Arxa cəbhədə rəşadətli əməyə görə" medalları ilə, 1946-cı ildə isə o dövrün ən ali mükafatı - Lenin ordeni ilə təltif olunmuşdur. Uzun müddət Azərbaycn Qadınlar Şurası Rəyasət Heyətinin üzvü, Bakı Qadınlar Şurasının sədri olmuşdur.

Yüksək iqtisadi kadr hazırlanmasında fəal iştirakına görə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin Fəxri Fərmanına, habelə Ümumittifaq "Bilik" cəmiyyətinin Fəxri Fərmanına, 11 dəfə Azərbaycan Ali Sovetinin Fəxri Fərmanına layiq görülmüş, 16 dəfə Bakı Şəhər Sovetinin deputatı seçilmişdir.

Səidə xanım İmanzadə 1992-ci ilin may ayında dünyasını dəyişmişdir. Mənalı ömür sürmüş işıqlı insan el anası - Səidə xanımın nurlu siması qəlbimizdə əbədi yaşayacaqdır.

# İSMAYILOV FİKRƏT İSMAYIL OĞLU

*Fizika-riyaziyyat elmləri doktoru, professor*



***Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır.***

*Heydər Əliyev.*

Çin filosofu ha Tszi yazırdı: mənim üstündə əsdiyim üç xəzinəm var: 1-cisi insanpərvərliyimdir, 2-cisi vətənpərvərliyimdir, 3-cüsü isə odur ki, mən dostluqda sadiqəm. Bu qiymətli xəzinə sahiblərindən biri olan mükəmməl təfəkkür sahibi Fikrət İsmayıl oğlu İsmayılov 03 yanvar 1935-ci ildə Naxçıvan MR-nın Naxçıvan şəhərində anadan olmuşdur.

1942-ci ildə Üzeyir Hacıbəyov adına Naxçıvan şəhər 1№-li oğlan orta məktəbinin 1-ci sinfinə daxil olmuş və 1953-cü ildə həmin məktəbi bitirib.

F.İsmayılov 1955-ci ildə Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika-riyaziyyat fakultəsinə qəbul olmuşdur. 1960-cı ildə həmin Universiteti "Fizika və istehsalat əsasları" ixtisası üzrə bitirərək, təyinatla Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutuna göndərilmişdir, 1960-cı il noyabr ayından Fizika İnstitutunda yarımkeçirici birləşmələrin alınması və fiziki xassələrinin tədqiqi ilə elmi fəaliyyətə başlamışdır.

Elm sahəsində axtarışlarını davam etdirən F.İsmayılov 1969-cu ildə Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutu nəzdində aspiranturaya daxil olmuş və vaxtından əvvəl 1971-ci ildə "Gasx Se1-x (o x 1) monokristallarında köçürmə hadisələrinin tədqiqi mövzusunda fizika-riyaziyyat elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

F.İ.İsmayılov 1973-cü ildə SSRİ Hərbi Sənaye Nazirliyinin Moskva "Elmi Tədqiqat Tətbiqi Fizika İnstitutu" Bakı filialının yaradılması ilə əlaqədar olaraq Azərbaycan MEA Rəyasət Heyətinin qərarı ilə Fizika İnstitutundan həmin instituta keçirilərək, əvvəlcə baş elmi işçi, 1974-cü ilin may ayından şöbə rəisi vəzifəsinə seçilmişdir. Onun "Elmi-Tədqiqat Tətbiqi Fizika İnstitutunda" işlədiyi 1973-1992-ci illər ərzində rəhbərliyi altında nazirlik və baş idarənin tapşırığı ilə otuzdan artıq xüsusi təyinatlı (məxvi) elmi-tədqiqat və mühəndis-konstruktor işi yerinə yetirilmişdir.

Görkəmli alim SSRİ Hərbi Sənaye Nazirliyinin göndərişi ilə 1979-80-ci illərdə M.V.Lomonosov adına Moskva "İncə Kimya Texnologiya İnstitutunun" xüsusi fakultəsini:-"Kosmik materialşünaslıq və texnologiya" ixtisası üzrə başa vurub.





Keçmiş Sovetlər ittifaqında ilk dəfə çəkisizlik (kosmik) şəraitində mürəkkəb tərkibli yarımkeçirici birləşmələrin kristallarının alınma texnologiyasının işlənməsi və kosmosda texnoloji təcrübələrin keçirilməsinin təşkilatçısı və elmi məsləhətçilərindən biri olub.

F.İsmayılovun elmli və bacarıqlı bir ziyalı olması daima dəyərləndirilmiş, 1982-ci ildə Azərbaycan Respublikasında yeni elmi və sənaye sahəsinin yaradılması və inkişafına görə elmi-texnika sahəsində Azərbaycan Respublikası Dövlət mükafatı laureatı adına, 2009-cu il 29 dekabr tarixdə "Şöhrət" ordeninə layiq görülmüşdür.

10-dan artıq namizədlik dissertasiyasının elmi rəhbəri və elmi məsləhətçisi olmuş, beynəlxalq və respublika elmi jurnallarda çap olunmuş 150-dən artıq elmi, elmi-publisistik əsərin, o cümlədən 20 elmi ixtiranın, 10-dan artıq səmərələşdirici təklifin müəllifidir (alınan nəticələr məxfi xarakter daşıdığından elmi-tədqiqat işlərinin bir çoxu çap edilməmişdir.

F.İ.İsmayılov uzun illər apardığı araşdırmaları ümumiləşdirərək, 1995-ci ildə "A" B" yarımkeçiriciləri və $C_{dx}\,Hg_{1-x}\,Te_{(0,30<x<0,65)}$ bərk məhsullarında taraz və qeyri taraz elektron prosesləri" mövzusunda fizika-riyaziyyat elmləri üzrə doktorluq dissertasiyası müdafiə edib.

1988-ci ildə ölkədə baş verən ictimai-siyasi proseslərlə əlaqədar olaraq siyasi hərəkata qoşulmuş Yeni Azərbaycan Partiyası yaradılmasının ilk təşəbbüskarlarından və təşkilatçılarından;- "91-lərdən" biri olmaqla 21 noyabr 1992-ci il; Yeni Azərbaycan Partiyası yarandığı gündən bu partiyanın üzvüdür, 20 fevral 1993-cü ildən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının 1-ci təsis konfransında və indiyə qədər keçirilən 6 konfransda fasitəsiz YAP Yasamal rayon partiya təşkilatının sədri kimi fəaliyyət göstərir. YAP -nın I, II, III, IV, Qurultaylarının nümayəndəsi və YAP Siyasi Şurasının üzvü seçilibdir.

I çağırış 12 noyabr 1995-ci il tarixdə Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərdə Milli Məclisə Deputat seçilmiş, Parlament fəaliyyəti dövründə "Təbii ehtiyatlar, energetik və ekologiya" məsələləri üzrə komitəsinin sədr müavini vəzifəsində fəaliyyət göstərib.

Fizika-riyaziyyat elmləri doktoru, professor Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, Şöhrət ordenli Yusif Məmmədəliyv adına "Qızıl" medalla təltif olunmuş Fikrət İsmayıl oğlu İsmayılov hal-hazırda Azərbaycan MEA akademik N.M.Abdullayev adına Fizika İnstitutunda laboratoriya rəhbəri vəzifəsində və YAP Yasamal Rayon təşkilatının sədri kimi elmi, ictimai-siyasi sahədə fəaliyyət göstərir.

## İMANLI MƏHƏMMƏD NAĞI OĞLU

*Hüquq elmləri doktoru, professor*



***"Təbiət sonsuz olduğu kimi biliklərin də həddi-hüdudu yoxdur. Buna səbəb dərk etmə obyekti olan kainatın sonsuzluğudur. Təbiət və cəmiyyətin vəhdəti elmlə rövnəqlənir. Elm elə bir sərvətdir ki, o, nə qarət olunmaz, nə də məhv edilməz. Zamanın gərdişindən, hər bir təbii fəlakətdən belə hifz olunan xəzinə-elm olduğu üçün hər bir insan ondan faydalanmağa çalışmaqdadır".***

*M.Əhvədi*

Həqiqətən də büllur bulağa bənzər elmlərdən faydalanaraq, vətən yolunda, xalqımızın xoşbəxt və firavan yaşaması naminə göstərilən fəaliyyət yolu sonsuz zirvələrə doğru istiqamətlənir. Azərbaycan respublikasının ictimai həyatında fəal iştirak edən ziyalı, Türk Dilli Ölkələrin Beynəlxalq Hüquq Assosiyasının vitse prezidenti, Rusiyya Federasiyyasının hüquqşünaslıq ixtisası üzrə elmi metodik şuranın assosativ üzvü, hüquq elmləri doktoru, professor Məhəmməd İmanlı Qərbi Azərbaycanın (Ermənistan) Amasiya rayonunda anadan olmuşdur. Amasiya rayonu Güllücə kənd orta məktəbində orta təhsilin əla qiəymətlərlə baş vuraraq, 1980-1983-cü illər Rusiyada hərbi xidmətdə olmuş, 1983-cü ildə Politexnik İnstitutuna (Texniki Universitetə) eksperiment yolu ilə qəbul olunmuşdur.

Professor Məhəmməd İmanlı 1987-ci ildə Texniki Universitetdə ali təhsilə yiyələndikdən sonra ADU-nun (Bakı Dövlət Universitetinin) hüquq fakultəsinə imtahan verdiyi vaxtda ancaq əla qiymətlər alan əyani şöbəyə qəbul olunurdu. Bu fakultəni fərqlənmə diplomu ilə bitirən Məhəmməd İmanlı Elmi Şuranın qərarı ilə hüquq fakultəsində saxlanılmışdır. Əmək fəaliyyətinə BDU-nin hüquq fakultəsinin "Cinayət hüququ və kriminalogiya" kafedrasında qiyabi aspirant olmaqla müəllim kimi başlamışdır. Daha sonra həmin kafedrada müəllim, baş müəllim və dosent vəzifəsində çalışmışdır. Professor Məhəmməd İmanlı 2004-cü ildən 2011-ci ilə qədər hüquq fakultəsində dekanın I müavini, 2006-2009-cu illərdə 12.00.09. Müdafiə Şurası yanında seminarın sədri, 2009-cu ildən isə Azərbaycan Respublikası Prezidenti yanında Attestasiya Komissiyasında hüquq ixtisası üzrə ekspert vəzifələrində çalışır.

Hal-hazırda YAP-ın üzvü olan Məhəmməd müəllim fəaliyyətini uğurla davam etdirir. 2006-cı ildən hüquq elmləri doktoru olaraq, ölkəmizdə səviyyəli hüquqşünasların yetişməsində önəmli əhəmiyyət kəsb edən təcrübəyə malik bir alim-pe-





daqoq məsul vəzifə sahibi kimi çalışır.

Elmi nailiyyətləri və pedaqoji fəaliyyəti ilə yanaşı elmlər namizədləri və elmlər doktorları yetişməsində Məhəmməd İmanlının böyük rolu olmuş, onun rəhbərliyi ilə alimlərimizin sayı artmışdır. 10 kitabın, 6 monoqrafiyanın, 120-dən artıq elmi məqalələrin müəllifidir. Həyatının böyük bir hissəsinin Vətənin, elmin və təhsilin inkişafı yollarına həsr edərək, əzmlə çalışan Məhəmməd İmanlı Azərbaycanın tanınmış görkəmli alimi olaraq əldə etdiyi dərin və zəngin bilikləri ilə dərin nüfuza malik olmuşdur.

Bakı Dövlət Universitetinin hüquq fakultəsinin dekanı Məhəmməd İmanlının alim kimi yetişməsində, uzun illər məsul vəzifə sahibi kimi çalışmasında onun yüksək və mənəviyyatlı bir ziyalı olduğunun rolu önəmlidir.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il tarixli sərancamı il "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Məktəbdə əlaçı, Universitetdə fərqlənən qabaqcıl tələbə olan, təhsilini aspiranturada davam etdirən, namizədlik və doktorluq dissertasiyalarını uğurla müdafiə edən, müəllim, baş müəllim, dekan müavini, dekan vəzifələrini müvəffəqiyyətlə yerinə yetirən professor Məhəmməd İmanlının təltifləri saysızdır. Yuxarıda qeyd olunan məsul vəzifələrin ona həvalə olunmasının özü də ən böyük mükafat və təltifdir.

Hüquqşünas kadrların hazırlanmasında özünəməxsus xidmətləri olan professor Məhəmməd İmanlının ömrünün ən mənalı və məsuliyyətli dövrü öndədir. Alimə elmi fəaliyyətində, pedaqoji və ictimai işlərdə uğurlar, nailiyyətlərlə zəngin səadət dolu uzun ömür yolları arzulayırıq.

Gözəl ailə başçısı olan Məhəmməd Nağı oğlu İmanlı Ailəlidir, üç övlad atasıdır.

Ziyalılar ailəsinə İlahidən övlad fəxri, ailə səadəti diləyirik.



## HƏBİBOV İBRAHİM ƏBÜLFƏZ OĞLU

*Texnika Elmləri doktoru, professor*



***Ağıl bütün xoşbəxtliklərin əsası, bütün səadət qapılarının açarıdır.***

*Büzürgmehr*

Elmin tərəqqisi dövlətin, xalqın tərəqqisidir. Elmin sirrlərini öyrənməklə, onu cəmiyyətə tətbiq etməklə öz işıqlı və dəyərli fikirləri ilə bir sıra xidmətləri olmuş insanlar xalq üçün çox əziz və hörmətə layiq insanlardır.

"Ömrünü elmə həsr edən insan heç vaxt ölmür" deyən Məhəmməd Peyğəmbərimiz (ə.s.) elmin nə qədər insan həyatında vacib və lazım olduğunu göstərir.

Həyatını elmə həsr edən, bu sahədə özünə məxsus xidmətləri olan, həm alim kimi, həm də ali insanlıq zirvəsinə ucalaraq böyük hörmətə malik olan Həbibov İbrahim Əbülfəz oğlu 4 iyun 1951-ci ildə Bakı şəhərində anadan olub. 1968-ci ildə Bakı şəhəri 44 №-li orta məktəbi bitirib və həmin ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNA) "Neft-mexanika" fakultəsinə daxil olub. İ.Ə.Həbibov 1973-cü ildə ali məktəbi "Mühəndis mexanik" ixtisası üzrə bitirib.

1973-cü ildə XKB "Bakneftemaş"da konstruktor vəzifəsində ilk əmək fəaliyyətinə başlayan İ.Həbibov 1974-1977-ci illərdə indiki Suraxanı maşınqayırma zavodunda çalışmışdır. 1977-ci ildən hal-hazırki vaxta qədər Azərbaycan Dövlət Neft Akademiyasında əvvəlcə assistent, dosent və 1995-ci ildən isə professor və "Mühəndis qrafikası" kafedrasının müdiri vəzifəsində çalışır. İ.Ə.Həbibov 1988-89-cu illərdə Kiyev Dövlət Universitetinin 10 aylıq Xarici kursunu (ingilis dilini) bitirib. 1988-ci ildə Təhsil Nazirliyi tərəfindən Çin Xalq Respublikasına elmi məzuniyyətə göndərilib.

Elmi-pedaqoji kadrların hazırlanmasına böyük əmək sərf edən son dərəcə savadlı, elmin axtarışlarına daim can atan İ.Həbibov 1984-cü ildə M.Lomonosov adına Moskva Zərif Kimya Texnologiyası İnstitutunda texnika elmləri namizədi və 1994-cü ildə isə Azərbaycan Dövlət Neft Akademiyasında doktorluq dissertasiyaları müdafiə edib.

170-dən yuxarı monoqrafiya elmi məqalə, dərslik və dərs vəsaitinin müəllifi olan professor İ.Ə.Həbibovun elmi və metodiki işləri Almaniyada, Türkiyədə, Çində, Ruminiyada, Rusiya və başqa ölkələrdə çap olunub. Onun rəhbərliyi altında 4 namizədlik dissertasiyası müdafiə edilmişdir. Hal-hazırda 2 doktorluq, 5 namizədlik dissertasiyalarına rəhbərlik edir. 2003-cü ildə Beynəlxalq Ekoenergetika Akademiiyasının akademiki seçilib.

Elm yolunda bir ömür sərf edərək təhsil yolunda yorulmadan çalışan texnika elmləri doktoru, professor İ.Ə.İbrahimov gözəl ailə başçısıdır. Övladları və nəvələri var.





## İSMAYILOV ƏLİF QULU OĞLU

*Əməkdar müəllim, "SSRİ maarif əlaçısı"*



***İnsanda olan bacarıq, qabiliyyət və kamillik alın tərzi ilə təmasda olanda dahilik yaranır.***

*A.Düma.*

Təhsil sahəsinin inkişafı ölkənin inkişafı deməkdir. Maarifin dinamik inkişafı yollarında əzmlə çalışaraq, ölkəmizə yüksək mənəviyyatlı, elmli məzunlar ordusu yetirən "Şərəf nişanı" ordenli pedaqoq Əlif İsmayılov 1919-cu ildə Qubadlı rayonunun Yuxarı Molu kəndində anadan olmuşdur. Orta təhsili uğurla başa vuraraq, Bakı Pedoqoji Universitetinin (APİ-nin) Tarix fakultəsinə qəbul olunmuşdur. Ali təhsilli mülə‌lim kimi özünün təhsil aldığı Yuxarı Molu kəndində pedaqoji fəaliyyətə başlayan Əlif müəllim 48 il həmin məktəbin direktoru vəzifəsində ləyaqətlə çalışmışdır. O, bir ömür həsr edərək, çalışdığı məsul vəzifələrdə daima öz kollektivinə hörmətlə yanaşmış və yurdumuza layiqli məzunlar yetirmişdir. Rayonun ictimai həyatında fəal ziyalı kimi tanınan Ə.İsmayılov Qubadlı Rayon Partiya Komitəsində məsul vəzifələrdə çalışmışdır. Dövlətimiz tərəfindən əməyi yüksək dəyərləndirilən Əlif müəllim bir sıra yüksək təltiflərə layiq görülmüşdür. "Əməkdar müəllim", "Azərbaycan SSR Maarif əlaçısı", "Əməkdə fərqlənmə ordeni" və bir çox bu kimi dəyərli təltiflərlə mükafatlandırılmışdır mərhum Əlif müəllim. Elm sahəsində, gənc nəslin təlim-tərbiyəsində böyük əməyi olan Ə.İsmayılov deyərdi:

- Biz gələcək nəslin yetişməsində məsul ziyalılarıq. Bu günün məktəblisi sabahın qurucuları, iş adamları, alimləri, həkimləri, rəhbər vəzifə sahibləridir. Biz bu məsuliyyəti dərk edərək, hər gün sinfə daxil olarkən yalnız onu düşünməliyik ki: "Qarşımızda əyləşənlər əsil və yüksək mənəviyyatlı insanlar kimi yetişməlidir".

- Həqiqətən də sözün əsl mənasında onun əməyinin bar-bəhəri olan məzunlar ölkəmizdə və Respublika hüdudlarından kənarda təmsilçimiz olaraq, azərbaycanlı olmaqları ilə fəxr duyur və bu adı şərəflə daşıyırlar. Ölkəmizdə neçə-neçə alim, müəllim, həkim, mühəndis olaraq çalışır Əlif müəllimdən elm və təlim-tərbiyə alan məzunlar. O, ulu və zəngin bir dağa bənzəyirdi. Nə qədər sadə və təvazökar, nə qədər nəcib və alicənab insan olduğu yadigar qoyub getdiyi xatirələrdən aydın hiss olunur:

*Sən dağ idin, bir əlçatmaz zirvə idin müəllim,*
*Düşünürəm o illəri, əksin önündə sənin.*

*Bir çeşməydin, güc almışdı səndən çınqıllı çaylar,*
*Əlif müəllim-deyər məzunlar-hey səni ağlar.*

*Sən getdin bir xəzinə qoyub Vətənimizə*
*O xəzinə nə alınmaz, nə satılmaz.*

O xəzinə bü günkü ziyalılar ordusu, əsil bir insandan insaniyyətlik dərsi alaraq, müəlliminin adına layiq şərəfli şəxslərdir. Əlif müəllimin bir kitabəyə bənzər ömür tarixininin hər səhifəsi bir həyat dərsidir. Elə o səbəbdəndir ki, bu şərəfli şəxsiyyətin həyat və fəaliyyətindən qısa da olsa vacib məqamlarla oxucularımızı tanış etməyə dəyər - deyə qərar vermişik.

Azərbaycanın ən qədim diyarlarından olan Qubadlı ərazisinin ən gözəl bir guşəsində dünyaya göz açan Əlif İsmayılov elə-obaya, yurda-ocağa bağlı, vətənpərvər ruhlu, mübariz bir ziyalı idi. Onun keçdiyi dərsi dinləyən hər kəs Əlif müəllimin hər bir kəlməsindən bir tarix öyrənirdi. Əlif müəllimin gözəl və yaddaqalan müdrik kəlamları indi də qocaman məzunların, ağsaqqal el atalarının, ağbirçək ziyalılarımzın sözündə, qəlbində və amalındadır.

Yarım əsrə bərabər bir dövr ərzində məktəb direktoru vəzifəsində çalışan, Qubadlı rayonunda məsul vəzifələri uğurla icra edən, rayonun təhsil-elm, mədəniyyəti sahəsində əzmlə işləyən və inkişaf yollarında, ictimai işlərdə öndə olan Əlif müəllimi bütün el-oba hörmət və ehtiramla yad edərək, İlahidən o böyük insana rəhmət diləyirlər.

O, Ulu Öndər Heydər Əliyev pərəstişkarı və dahi rəhbərə xidmət edən şəxs olaraq, YAP-ın Qubadlı rayon təşkilatının sədri və Ağsaqqallar Şurasının sədri idi. 2006-cı ildə həyatla vidalaşan mərhum ziyalı Əlif İsmayılov ömrünün son anına qədər xalqa, Vətənə sədaqət və şərəflə xidmət edərək:

- Elə yaşayın ki, həyatda iz qoyun - deyərək dünyasını dəyişdi.

Yeddi övlad: beş qız, iki oğul atası idi Əlif İsmayılov. Onun layiqli davamçılarına, övladlarına, nəvələrinə və yetirmələrinə səadət dolu uğurlu illər və müvəffəqiyyət arzulayırıq.





## EDİSON İBADZADƏ

*Kimyaçı alim, nüfuzlu ziyalı*

***Elə ölənlər var ki, həmişə sağ diridir.***
***Elə sağlar da var ki, diriykən o ölüdür.***
*M. Şeyxzadə*



Dünya mövcud olduğu dövrdən bu günə qədər ən şüurlu varlıq olan insan bu dünyanın müvəqqəti sakini olaraq ömür payını yaşayıb əbədiyyətə qovuşmuş, tarixdə iz qoyanlar yaşanmış, yalnız yaşamaq xatirinə gəlib - gedənlər isə bir müddət keçdikdən sonra unudulmuşlar.

Əsil insan məqsədlə yaşayaraq, sabahımızı düşünən: xalqım üçün, vətənim üçün daha nə etməliyəm? deyə çalışanlar elə tariximizi yaşadanlar və həyatı rövnəqləndirənlərdir. Ömrünün 46 ilini elmə həsr edərək görkəmli alim kimi xalqımıza, vətənimizə xidmət edən şəxsiyyət haqqındadır açacağımız söhbət. Edison İbadzadə 1941 - ci ildə Şəki şəhərində, ziyalı ailədə dünyaya gəlmişdir.

Orta təhsili 1949 - cu ildə müvəffəqiyyətlə başa vuraraq Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (hazırki Pedaqoji Universitetin) kimya - biologiya fakultəsinə daxil olmuş və institutu elmli, bacarıqlı, ictimai işlərdə fəal fərqlənən ali təhsilli ixtisasçı kimi bitirmişdir.

İlk əmək fəaliyyətinə pedaqoq kimi Şəki şəhər 8 saylı məktəbdə başlayan Edison İbadzadə ordu sıralarında hərbi xidməti borcunu layiqincə yerinə yetirərək ixtisasca yiyələndiyi Pedaqoji Universitetdə əmək fəaliyyətini davam etdirir. Kimya fakultəsində laborant, assisent kimi çalışan Edison İbadzadə AMEA - nın qeyri üzvü və fiziki kimya fakultəsinin aspiranturasına qəbul olunur.

1973 - cü ildə "Dəmir alyuminium katalizatorunda, qaynar təbəqədə təbii qazların konveksiyası" mövzusu üzrə dissertasiya müdafiə edərək alimlik dərəcəsinə layiq görülmüşdür.

Edison İbadzadə kiçik elmi işçi, 1980 - cı ildən böyük elmi işçi vəzifələrində çalışaraq daima elmi axtarışlarda olmuş, tədqiqatlar apararaq elmin inkişafı yollarına öz töhfələrini vermişdir. Məhz onun səyi və zəhmətinin sayəsində Filizçay polumetallik filizi tədqiq edilərək tərkibində olan qiymətli metallar Zn, Cu, Rb və sairənin çıxarılması üçün xüsusi texnologiya işlənib hazırlanmışdır. Həyatının, fəaliyyətinin hər bir anı elmin zənginləşməsi və inkişafı yollarına həsr olunmuşdur. Edison İbadzadə ixtisasçı mütəxəssisi, alimi olduğu elm sahəsinin

dəyərli xadimi kimi tanınmış və nüfuz sahibi olmuşdur.

Dörd səmərəli ixtiranın müəllifi olan alimin kəşfi hər zaman yurdumuzun elmi nailiyyətlərində öz əksini tapır. Edison İbadzadə 40 elmi məqalənin və tezislərin müəllifidir.

Azərbaycanın hörmətli, ləyaqətli alimi Edison İbadzadə ölkəmizin təmsilçisi olaraq xarici ölkələrdə konfrans və simpoziumlarda səmərəli təklifləri, çıxışları ilə xalqımıza şərəf gətirmişdir. Gördüyü işlərin uğurlu nəticələri keçmiş Sovet İttifaqı ölkələrində keçirilmiş elmi konfranslarda dinlənilmiş və mətbuatda dərc edilmişdir. Alma - Ata Moskva, Kiyev, Karaqanda, Minsk şəhərlərində azərbaycanlı ixtiraçı alim tanınmış və bu gün də onun tövsiyələri nəzərə alınaraq həyata kesirilməkdədir.

Gözəl ailə başçısı Edison İbadzadənin həyat yoldaşı Afaq xanım Az MEA-nın Geologiya institunun aparıcı elmi işçisidir. İki övladı həkimdir.

Əbədi həyata qovuşan Edison İbadzadəyə cənnət, behişt diləyərək deyirik: Rahat uyuyun nəcib insan, dünyanın ən dəyərli neməti olan xeyirxahlıqlarla zəngin bir həyat yaşadınız.

Etdiyiniz yaxşılıqların, haqqa bağlı əməllərin vətənə, xalqa sadiq məhəbbətinizin müqabilində bütün sizi tanıyanlar, ziyalılar, alimlər, yetirdiyiniz mütəxəssislər və sizi sevib - fəaliyyətinizi dəyərləndirənlər sizə ucadan uca Allahdan əbədi cənnət diləyirlər. Mənalı həyat yolu keçən Edison İbadzadə bu dünyanı tərk etsə də onun əməlləri və adı daima ürəklərdə və həyatda yaşayacaqdır.







## İSMİXANOV MƏCİD ABDULLA OĞLU

*Elm xadimi, professor*



***Ağıl olan yerdə, zora ehtiyac yoxdur!***
*H.Əliyev.*

Ən böyük səadət Tanrının bəxş etdiyi ömrü mənalı yaşamaq, müqəddəs peşə sahibləri olmaq, onu tanıyanların arasında müəyyən nüfuza malik olmaqdır. Ömrünü elmə, təhsilə həsr edən Bakı Dövlət Universiteti pedaqoqika kafedrasının professoru Məcid Abdulla oğlu İsmixanov 1940 - cı ilin may ayında Qonaqkənd (indiki Quba) rayonunda anadan olmuşdur. 1958 - ci ildə orta məktəbi başa vurmuş və elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun pedaqoji fakultəsinə daxil olmuş və 1962 - ci ildə oranı adlı təqaüdlə və fərqlənmə diplomu ilə bitirərək, insitutda müəllim kimi saxlanılmışdır.

Məcid İsmixanov 1962-1964-cü illərdə hərbi xidmətdə olmuşdur. Xidməti borcunu yerinə yetirdikdən sonra APİ - nin pedaqoqika kafedrasında müəllimlik fəaliyyətini davam etdirmiş, baş müəllim, dosent, dekan müavini, dekan vəzifələrində çalışmışdır.

O, 1982-1987-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı olan "Azərbaycan məktəbi" elmi nəzəri jurnalında redaktor işləmişdir.

Məcid İsmixanov hələ tələbəlik illərində elmi araşdırmalar aparmış, sonradan müəllim işləməklə 1968 - ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Onun elmi rəhbəri tanınmış alim, professor Mərdan Muradxanov, 1 - ci rəsmi opponenti təhsil naziri - akademik Mehdi Mehdizadə olmuşdur.

Dəfələrlə ümumrespublika və beynəlxalq səviyyəli elmi konfranslarda (Moskva, Kiyev, Minsk və s.) aktual pedaqoji mövzularda məruzələrlə çıxış etmişdir. Uzun illər Rusiya Pedaqoji Elmlər Akademiyası elmi problem şurasının üzvü kimi Məcid İsmixanov Azərbaycanı təmsil etmişdir.

Onun 150 - Ç.V. həcmində elmi əsərləri, o cümlədən 3 monoqrafiyası, 4 dərslik və dərs vəsaiti, 10 tədris - metodik vəsaiti, 100 - dən çox elmi məqaləsi çap olunmuşdur. O, ali məktəblər üçün "Didaktika", "Pedaqoqikanın əsasları", "Ali məktəb pedaqoqikası", orta ümumtəhsil məktəbi üçün "Azərbaycan dili" (təlim rus dilində olan I siniflər üçün) dərslik və dərc vəsaitlərinin müəllifidir.

Professor uzun müddət Azərbaycan Respublikası Təhsil Nazirliyinin vahid elmi metodik şurası pedaqoqika və psixologiya bölməsinin elmi kütləvi, "Azərbaycan məktəbi" jurnalı redaksiya heyətinin Respublika Jurnalistlər Birliyinin üzvi ki-

mi çalışmışdır.

Məcid İsmixanov Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Azərbaycanın xalq, maarif əlaçısı" adına, Respublika miqyaslı və universitet rektorluğunun fəxri fərmanlarına, təşəkkürlərinə, pul mükafatlarına layiq görülmüşdür.

Elm sahəsiində özünəməxsus xidmətləri olan M. Abdulla oğlunun nəşr olunmuş kitabları:

1. Dərsin səmərəli təşkili (1978).
2. Məktəb, ailə və ictimayyət (həmmüəllif, 1979).
3. Gənclik və mənəvi tərbiyə ( 1980).
4. İbtidai təlimdə şagirdlərə müstəqil iş bacarıqlarının aşılanması. (1982).
5. Kiçik məktəblərdə təhsil əməyi vərdişlərinin formalaşdırılması (1986).
6. Təlimdə şagirdlərin müstəqil işinə pedaqoji rəhbərlik (1990).
7. Didaktika təlim və təhsil nəzəriyyəsi (1998).
8. Pedaqoqikanın əsasları (2005,2008).
9. İnsan xarakteri və münasibətləri (2009).
10. Azərbaycan dili (həmmüəllif, 2003, 2010).
11. Ali məktəb pedaqoqikası (2010) və s.

Qəlbi xoş duyğularla döyünən alimin gözəl ailəsi, 2 övladı və 2 nəvəsi var.







## İMAMİ ŞÖVKƏT (HÜSEYNOVA) ƏBÜLFƏZ QIZI

*"Sara Xatun" Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin sədri, qəzəlxan*



**Ana! Dünyada sənin müqəddəsliyini təyin edə biləcək hələ heç bir ölçü yoxdur, sənin əzəmətini təsvir edə biləcək hələ heç bir kitab yazılmamışdır.**

*M.S.Ordubadi*

Ziyalılıq qəlbində və əməlində olan, saf əməlləri ilə hamının hörmətini qazanan İmami Şövkət Əbülfəz qızı (Hüseynova) 1951-ci ildə ziyalı ailəsində anadan olub. Bakıda orta məktəbi bitirdikdən sonra o vaxtı "SSRİ-nin 50 illiyi" adına Xarici Dillər İnstitutuna daxil olur. Ali məktəbi müvəffəqiyyətlə başa vuran Şövkət İmami 1980-ci ildə "Y.Qaqarin" adına Pionerlər Sarayında metodist işləmişdir. Dövrü mətbuatda daim şerləri çap olunur. Radio və televiziya kanallarında müntəzəm çıxış edir.

1993-cü ildə Azərbaycan mədəniyyət fonduna və Hacı Mailin sədirlik etdiyi "Füzuli" əbədi məclisinə dəvət olunur. Burada bərpa olunan "Məcmə-üş-şüəra"-nın qəzəl müsabiqəsində 1997-ci ildə qadınlar içində qalib çeçilir.

İ.Şövkət xanım Bakıdakı bir çox cəmiyyətin, o cümlədən DAK-i Ağsaqqallar Şurasının üzvüdür. 2000-ci ildə "Bakı Kəndlər Birliyi"ndə yaranmış "Ustad Hacı Mail" məclisinin sədri seçilib. "Şövkət xanım 2003-cü ildə "Sara Xatun" Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin təsisçisi olur və sədri seçilir. İctimai işlərdə fəal iştirak edən çox istedadlı bir xanım olan Şövkət xanımın məqalə və şerləri dövrü mətbuatda, bir çox almanaxda qəzəlləri çap olunub. Dünya ədəbiyyatından tərcümələr edən İmami Şövkət "Zirvələr fatehi Gültəkin", "Əfsanələr var eşqidə", "Səbr" adlı kitabların müəllifidir. Ömrünün ən mənalı illəri "Füzuli" ədəbi məclisində keçib. Əsasən qəzəl yazır. Qurani-Kərimi gözəl avazla oxuyur". Şövkət xanımın yazdığı qəzəlləri oxuduqca sanki insanın ruhu dincəlir. Şövkət Əbülfəz qızı Azərbaycan Elmlər Akademiyasının "Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi"nin üzvüdür.

Yüksək etik mədəni davranışı, humanist keyfiyyətləri nurlu çövhəsi ilə hər yerdə böyük hörmət qazanan Şövkət xanım, əsl azərbaycan xanımına xas olan təmkinli, ağıllı baxışları ilə həyatda öz yerini bilən və tapan ziyalı bir xanımdır.

Hal-hazırda Azərbaycanın dəyərli şəxsiyyətləri haqqında monoqrafiyalar yazır. İmami Şövkət xanım gözəl və qayğıkeş anadır. Övladları və nəvələri var.

# İSRAFİLOVA FİRUZƏ HÜSEYİN QIZI

*ELTAC MEDİKL "Gözəllik" Şirkətinin prezidenti*



***Ağlın çevikliyi bütün gözəlliklərin nailiyyətlərin başlanğıcıdır.***

*Müdrik kəlamlardan*

Həyatda o insan xoşbəxtdir ki, onu tanıyanlar tərəfindən adı fəxrlə çəkilir, gördüyü işlərdən ürəklə danışılır. Bu isə zəhmətlə keçən, həyatın hər bir anından səmərəli istifadə edən, özünün bütün hərəkət və davranışlarını əsil vətənpərvərliklə uyğunlaşdırmağı bacaran bir ömrün payına düşür. Hər kəs həyatını xalqına xidmət etməklə keçirirsə xalqı da onu sevir və hörmət edir.

Öz zəhməti ilə, xanım - xatınlığı ilə özünə hörmət qazanan tibb elmləri namizədi, alim İsrafilova Firuzə Hüseyn qızı 1951 - ci il dekabrın 27 - də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini 1968 - ci ildə başa vurduqdan sonra elə həmin ili Azərbaycan Tibb İnstitutunun müalicə - profilaktika fakultəsinə qəbul olunmuş, 1974 - cü ildə ali məktəbi müvəffəqiyyətlə bitirmişdir.

F.H.İsrafilova 1974 - cü ildən Respublika Dəri - Zöhrəvi Dispanserində dermatoloq ixtisası almışdır. İlk əmək fəaliyyətinə poliklinikada dermatoloq kimi başlamışdır. Kosmetalogiya sahəsinə böyük həvəsi onu 1976- 1977 - ci illərdə Moskva Elmi Tədqiqat Kosmetalogiya İnstitutunda kosmetoloq ixtisasına yiyələnməyə gətirib çıxartmışdır. Firuzə xanım İsrafilova 1978 - ci ildən "Gözəllik institutunda həkim - kosmetoloq işləmişdir. Moskvada Elmi - Tədqiqat Kosmetologiya İnstitutunun dissertantı olmuşdur.

1989 - cü ildə "ACVE" - nin "Azərbaycan vulkan palçıqları ilə müalicəsi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi adını almışdır. 1988 - ci ildə Praqa şəhərində "Gözəllik" institutunda təcrübə keçən Firuzə xanım 1991 - ci ildən ELTAC MEDİKL "Gözəllik" Şirkətinin prezidentidir.

İxtisası üzrə metodik vəsaitlər və elmi məqalələr dərc etdirmiş, "Evdarlıq" kitabının tərtibində yaxından iştirak etmişdir. 1998 - ci ilin iyun ayında I Ümumdünya Kosmetoloqlar Professional Kosmeloqlar Liqasına üzv seçilən Firuzə xanım Azərbaycan Beynəlxalq Qadınlar Klubu və Qadınlar Assosiasiyasının üzvüdür.

Vətənimizin ləyaqətli şərəfli ziyalı, alim xanımı Firuzə xanım bir çox fəxri fərman və diplomlarla mükafatlandırılmışdır. Onun ən böyük mükafatı xalq arasında olan hörməti və məhəbbətidir.

Çayın mənbəyi bulaq, ailənin mənbəyi anadır. Xanım - xatınlığı ilə onunla ünsiyyətdə olanlara xoş təəssürat bəxş edən Firuzə xanım gözəl və mehriban anadır. Bir övladı var. Ona övlad xoşbəxtliyi və yaradıcılıq uğurları arzu edirik.





# KAZIMZADƏ ZƏKİ İSKƏNDƏR OĞLU

*Texnika elmləri doktoru, professor, əməkdar elm xadimi*



***Hər bir insan qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməlli nəticə götürə bilən, cəmiyyətdə, ölkəyə xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.***

***Heydər Əliyev.***

Odlar yurdu Ana Vətən Azərbaycan, zaman-zaman tarixi şəxsiyyətlər yetirən qədim və ulu məkan.

O şəxsiyyətlərdən biri-Əməkdar Elm Xadimi, Texnika Elmləri Doktoru, professor Zəki Kazımzadə haqdadır açacağımız söhbət. Adı Azərbaycanın elmi tarixinə qızıl misralarla düzülməyə layiq dahi şəxsiyyət, görkəmli alim, tanınmış pedaqoq və ən əsası əsil-təvazökar, insanı dəyərləndirməyi bacaran insan Zəki Kazımzadə. Hələ tarix dəyişəcək, zaman keçəcək və gələn nəsillər onun xalqımıza ərməğan edərək, qoyub getdiyi elmi və mənəvi dühasından yararlanaraq, böyük alimi yaşadacaqdır həyatda.

1908-ci ildə Bakıda ziyalı ailədə dünyaya göz açmışdı Zəki İskəndər oğlu Kazımzadə. Onun orta təhsilə yiyələndiyi uşaqlaq-gənclik dövrü keşməkeşli bir zəmanəyə təsadüf etmişdir. Birinci Dünya Müharibəsi illəri və bir müddət keçdikdən sonra Oktyabr İnqilabı illəri Zəki İskəndər oğlunun ömür tarixinin ən mənalı çağlarının fırtınalı zamanıdır. O, qəlbində çağlayıb-coşan düşüncələrini-ədalət!-deyin hayqıran misralarına köçürərək, yaradıcılıq yoluna yeniyetmə çağlarından başlamışdır.

Zəki Kazımzadə elmin bütün sahələrini öyrənən-çalışqan, fəal bir gənc kimi yetişərək, əsasən nəzəri texniki elmlərə üstünlük vermişdir. Bu maraq və biliklər onu N.Nərimanov adına Texnikuma gətirir və Z.Kazımzadə təhsilini M.Əzizbəyov adına Sənaye İnstitutunda (Neft Akademiyasında) davam etdirir. Professor Z.Kazımzadənin nurlu yolları Neft Akademiyasını "Fərqlənmə diplomu" ilə bitirdiyi ildən başlayır. İlk əmək fəaliyyətinə "Krasnaya Zvezda" DRES-də mühəndis-elektrik vəzifəsi ilə başlayan Z.Kazımzadə məsul vəzifələrə irəli çəkilir. Ömrünün 60 ilini Neft Akademiyası ilə bağlayan Alimin bu təhsil ocağının inkişafında xidmətləri-əməyi əvəzsizdir.

Onun alim Ağa Axundovla birgə yazıb hazırladığı: İlk Azərbaycan dilində elektrotexnika üzrə dərslik və izahlı lüğət, dərs vəsaitləri uzun illər istifadə olun-

muş, olunmaqdadır. Səmərəli fəaliyyətinin elmi nəticəsi məktəb, tələbə və aspirantlara ərmoğan olunan xəzinədir. Z.Kazımzadənin əməyi sayəsində çoxsaylı dissertasiyalar müdafiə edilmiş və yurdumuzun mayakı olan alimlər yetişmişdir. Professor doğma dilimizdə ilk dəfə olaraq, 1950-ci ildə və daha sonra 1952-ci ildə fundamental əsərlər yaratmışdır ki, bu əsərlər Azərbaycan Milli Texniki ədəbiyyatının qızıl fonduna daxil edilmişdir. Onun əsərləri dünyanın bir çox ölkələrində:

Yaxın Şərqdə, Orta Asiya Respublikalarında, Rusiyada yüksək qiymətləndirilmişdir. Professor Z.Kazımzadə Əməkdar elm xadimi adına layiq görülmüş alim, texnika elmləri doktoru, görkəmli pedaqoq, fədakar və əsil insan idi. ADNA-nın "Elektrotexnikanın nəzəri əsasları" kafedrasına uzun illər rəhbərlik etmiş Z.Kazımzadə elmin görkəmli mütəxəssisi olaraq, vətən üçün çoxsaylı elmi, pedaqoji kadrlar hazırlayırdı və onlar bu gün uğurla böyük alimin fəaliyyətinin davamçılarıdır.

Z.Kazımzadə Respublikanın ictimai həyatında fəal alim olaraq, AMEA-nın Azərbaycan Terminologiyası Komitəsinin, Azərbaycan Ensiklopediyasının, SSRİ Təhsil Nazirliyi Tədrismetodika Mərkəzi elektrotexnika bölməsinin daimi üzvü idi. Onun Professor Zəki Kazımzadənin yaratdığı kafedrada davamçıları onun fəaliyyətini öz xeyirxah və səmərəli işləri ilə davam etdirirlər.

Zaman keçdikcə Azərbay\anın elm dühalı alimi Elmlər doktoru, Professor Zəki Kazımzadə yaşayacaqdır vətənimizin uğurlarında, nailiyyətlərlə zəngin həyatında və xalqımızın qəlbində. Onun fəaliyyəti gələn nəsillərin yoluna nur saçacaqdır.

**Mənim bu dünyada çox kəsim qaldı,**
**Ucuz, nəhayətsiz həvəsim qaldı.**
**Adımı yazmışam mən ürəklərə,**
**Kağızlarda ancaq nəfəsim qaldı.**







## KAZIMZADƏ QUMRAL RƏNA ZƏKİ QIZI

*Texnika elmləri doktoru, professor*

***İnsan mənəviyyatı üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan ədəbi olacaqdır.***

*Heydər Əliyev.*



Böyüklüyü varlığında, xarakterində, insanlara münasibətdə öz təcəssümünü tapır. Ali niyyət sahibi sözün əsil mənasında Azərbaycanın ziyalı xanımı, yüksək mədəniyyət sahibi, təvazökar, səmimi insan, "Elektronika və elektrik təchizatı" kafedrasının müdiri, Beynəlxalq Energetika və Ekologiya Akademiyasının həqiqi üzvü, elmlər doktoru, professor Kazımzadə Qumral Rəna Zəki qızı 1942 - ci ildə Bakı şəhərində anadan olmuşdur.

Orta təhsilini 134 saylı məktəbdə alıb. 1965 - ci ildə ali məktəbi, 1969 - cu ildə aspiranturanı bitirib "Yeraltı metal qurğuların elektrik parametrlərin tədqiqatı və hesablanması və onların rabitə kanalı vəzifəsində istifadə imkanı" mövzusunda namizədlik, 1998 - ci ildə isə "Yarımkeçiricilər və dielektriklər fizikası üzrə $Ge_{1-x}Si_x$ xəlitələrində aşqar mərkəzlərinin əsas energetik halları və elektrik köçürmə hadisələri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1969 - cu ildən ADNA - da assistent, dosent, professor, kafedra müdiri vəzifələrində işləmiş, hal - hazırda "Elektronika və elektrik təchizatı" kafedrasının müdiridir. O, 200 - dən artıq elmi - metodik məqalənin, onlarla monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir, onlardan "Rusca - azərbaycanca elektrotexnika terminləri lüğəti", "Elektrotexniki terminlər" beşdilli lüğəti, "Qeyri - xətti elektrik dövrələri", "Elektrik dövrələrinin nəzəriyyəsi", "Elektrotexnika", "Dəyişən cərəyan elektrik dövrələri", "Visual Basic və MS Exsel - də kurs layihəsi və buraxılış işlərinin icrası üçün istifadə edilməsi", "Diaqramlarla təsvir olunmuş elektrotexnika" və sairə adlı dərslik, dərs vəsaiti və metodik vəsaitlərin, monoqrafiyaları göstərmək olar. Bir sıra elmi məqalələri MDB ölkələrində, ABŞ, Türkiyə, Yaponiyada dərc olunmuş və Beynəlxalq konfrans və simpoziumlarda məruzə edilmişdir.

2000 - ci ildə Kembric Beynəlxalq mərkəzi tərəfdən 2000 - 2001 - ci illərin "Beynəlxalq Qadını" adına layiq görülmüş və Vaşinqtonda 2 - 9 iyul 2000 - ci ildə keçirilən 27 - ci Beynəlxalq Konqresə (Millenium Konqress) dəvət olunmuşdur.

Qumral Rəna xanımın Oksfordda dərc olunmuş "Deep impuritu levels in Ge1 x

Six" məqaləsi 11 cilddən ibarət olan "Elm və texnologiya materiallarının ensiklopediyası"na daxil olunmuşdur. Amerika Bioqrafiya İnstitutu ona sertifikat göndərmiş və öz assosiasiyasına üzv seçmişdir.

1999 - cu ildə İngiltərənin Kembric şəhərində dərc olunmuş "Kim Kimdir?" sorğu kitabına (II nəşr) Adı düşmüşdür,

Qumral Rəna Kazımzadə "XX əsrin 2000 görkəmli alimi" diplomunu almış, "XX əsrin ən görkəmli şəxsiyyəti" arasında adı çəkilmişdir. Kembric şəhərindəki Beynəlxalq mərkəzin "2000 ən görkəmli alimi və şəxsiyyəti" diplomu ilə təltif olunmuş, 2001 - ci ildə Beynəlxalq Energetika və Ekoloji Akademiyasına həqiqi üzv seçilmişdir.

"2002 - ci ilin Beynəlxalq şəxsiyyəti" və "XXI əsrin görkəmli alimi" adı verilmişdir. Bundan əlavə həmin mərkəzin Beynəlxalq Bioqrafiya Lüğətinə adı layiq görülmüşdür. Təhsil Nazirliyi tərəfindən "Fəxri fərman"la təltif olunmuşdur. Əmək veteranıdır. ADNA-nın 90 illiyi ilə əlaqədar olaraq "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Mənəviyyatca zəngin Rəna xanımın böyüklüyünü duymaq, elm yolunda çəkdiyi zəhmətləri görmək üçün yalnız 5-10 dəqiqə söhbət etmək kifayyətdir. Bir zamanlar siyah olan saçlar Şah dağının bəyaz qarı tə daha da müdriklik saçır onu nurlu görkəminə.



Bu böyük alimin göz xanımın daxili aləmini ta mamlayan kamilliyini görmə mək mümkün deyil.

Qumral Rəna xanım ailəli dir, 1 oğlu, 1 qızı və 3 nəvə var.







## KAZIMZADƏ AYDIN HƏSƏN OĞLU

***Hər kim yol göstərən bilik çırağı olsa, o qaranlıq gecədə də yolunu azmaz.***

*M.Əhvədi.*



Keçdiyi nurlu yollara nəzər salmaq və həyatın hər bir anından səmərəli istifadə etmək, ziyalı nəslin gənclərə tövsiyəsidir. Xalqımız, vətənimiz həyatı örnək olan alimlərimizlə öyünür, fəxr edir. Elm sahəsində özünə məxsus xidmətləri olan BDU - nin yarımkeçiricilər fizikası kafedrasının müdiri, fizika - riyaziyyat elmləri doktoru,əməkdar elm xadmi, professor Kazımzadə Aydın Həsən oğlu 1950 - ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. Yarımkeçiricilər fizikası sahəsində mütəxəssisdir. 1967 - ci ildə 1 saylı Ordubad şəhər orta məktəbini qızıl medalla bitirərək BDU - nun fizika fakultəsinə daxil olmuşdur. 1972 - ci ildə BDU - nun fizika fakultəsini bitirərək həmin universitetin yarımkeçiricilər fizikası kafedrasının nəzdində 01.04.10 - Yarımkeçiricilər və dielektriklər fizikası ixtisası üzrə aspiranturaya daxil olmuşdur. 1975 - ci ildə BDU - da "İnSe və GaSe monokristallarında tarazlıqda olmayan elektron prosesləri" mövzusunda dissertasiya müdafiə edərək fizika - riyaziyyat elmləri namizədi, alimlik dərəcəsi almışdır. Sonralar elmi araşdırmalarını davam etdirərək 1987 - ci ildə AMEA - nın Fizika İnstitutunda A3B6 - tipli layvari birləşmələrin elektron xassələri və onlar əsasında heterokontaktlar" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və 01.04.10 - Yarımkeçiricilər və dielektriklər fizikası ixtisası üzrə fizika riyaziyyat elmlər doktoru, alimlik dərəcəsi almışdır.

Professor A.H.Kazımzadə 1973 - cü ildən BDU - nun Yarımkeçiricilər fizikası kafedrasında elmi və pedaqogi fəaliyyətə başlamışdır. 1976 - cı ildən BDU - nun Yarımkeçiricilər fizikası kafedrasında assistent (1976 - 1979), baş müəllim (1979 - 1986), dosent (1986 - 1988) vəzifələrində çalışmışdır. 1988 - ci ildən professordur. 1996 - cı ildən BDU - nun yarımkeçiricilər fizikası kafedrasının müdiri vəzifəsində çalışır.

1976 - cı ildə elm və texnika sahəsində Respublika Lenin Komsomolu mükafatına, 1993 - cü ildə Beynəlxalq Elm Fondu tərəfindən Soros mükafatına layiq görülmüşdür. 1995 - ci ildə Nyu - York Elmlər Akademiyasına həqiqi üzv, 1996 - cı ildə Amerika Milli Coğrafiya Cəmiyyətinə üzv seçilmişdir.

Professor A.H.Kazımzadə yerli və xarici elmi nəşrlərdə dərc edilmiş 260 elmi və bir neçə publisistik məqalənin müəllifidir. Bu əsərlərdən 140 - ı xarici nəşrlərdə, o cümlədən Rusiya, İngiltərə, Slovakiya, Fransa, Almaniya və digər xarici ölkələrdə nəşr edilən elmi jurnallarda çap edilmişdir. Bir sıra beynəlxalq konfranslarda iştirak etmiş, o cümlədən Almaniya, İngiltərə, Fransa, Türkiyə, Rusiya, Ukrayna, Belarusiya, Litva, Özbəkistan, Gürcüstan, İran İslam Respublikası və başqa ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmişdir.

Professor A.H.Kazımzadənin elmi fəaliyyəti çoxşaxəli olub müasir fizikanın və təhsilin əsasən aşağıdakı sahələrini əhatə edir:

Yarımkeçiricilərin fizikası və texnikası.

Yarımkeçirici cihazların fizikası və texnikası.

Şüalanmanın maddə ilə qarşılıqlı təsiri.

Axma nəzəriyyəsi və onun müxtəlif məsələlərə tətbiqi.

Maye kristallar fizikası.

Elementar zərrəciklər fizikası və qarşılıqlı təsirlərin birləşdirilməsi.

Təhsil tədqiqatları: kurrikulum, fasiləsiz təhsil və müəllim hazırlığı.

Respublikada qeyri bircins yarımkeçiricilərin, yarımkeçirici heterokeçidlərin və güclü korrelyasiya olunmuş sistemlərin fiziki xassələrinin öyrənilməsi sahəsində yeni elmi istiqamətin yaradılmasının əsas banilərindən biridir. İlk dəfə olaraq kristallik maddələrdə anomal fotokeçiricilik və elektrik sahəsi ilə induksiyalanmış aşqar fotokeçiriciliyi hadisələrini müşahidə etmiş A3B6 - tipli laylı kristallarda ilk dəfə olaraq güclü lazer şüalarının təsiri ilə Anderson keçidinin baş verdiyini göstərmiş, yarımkeçiricilərdə Oje - rekombinasiyanın yeni mexanizmini təklif etmişdir. Layvari kristallar əsasında hazırlanmış heterokeçidlərdə, Şotki diodlarında və yarımkeçirici - maye kristal sərhəddində elektron proseslərinin xüsusiyyətlərini öyrənmiş və diod qurluşlarının parametrlərini təyin etmək üçün yeni üsul təklif etmişdir. Axma nəzəriyyəsi sahəsində tədqiqatlar aparmış və bu nəzəriyyənin tətbiqi ilə yarımkeçirici bərk məhlullarda faza keçidlərinin və aşqarlanmış yarımkeçiricilərdə Mott keçidinin xüsusiyyətlərini müəy-





yən etmişdir. Son illərdə təbiətdə mövcud olan qarşılıqlı təsirlərin birləşdirilməsi sahəsində araşdırmalar aparmışdır.

Professor A.H.Kazımzadə 1973 - cü ildən başlayaraq pedaqoji fəaliyyətlə məşğul olur. Bu müddət ərzində ümumi fiziki kursu, fizikanın müasir problemləri və yarımkeçiricilər fizikasının müxtəlif sahələri üzrə mühazirələr oxumuş, laboratoriya və seminar məşğələləri aparmış, magistr dissertasiyalarına, diplom və kurs işlərinə rəhbərlik etmişdir. Yarımkeçiricilər fizikası kafedrası üzrə tədris edilən bütün fənlər üzrə tədris planı və proqramları hazırlamışdır.

Tanınmış alimin təşəbbüsü və bilavasitə iştirakı ilə 1996 - cı ildən başlayaraq BDU - nun fizika fakultəsi nəzdində "Tətbiqi fizika" ixtisası açılmış, bu ixtisas üzrə tədris planı və proqamları hazırlanmışdır.

Professor A.H.Kazımzadə Təhsil Nazirliyinin "Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurası"nın sədr müavinidir. Dəfələrlə ali məktəb tələbələri arasında aparılan olimpiadaların, konkursların və konfransların, fizika fənni üzrə Bakı şəhər orta məktəb müəllimləri arasında aparılan "İlin müəllimi" müsabiqəsinin təşkilində və keçirilməsində fəal iştirak etmiş, təşkilat komitələrinin sədri və üzvü vəzifələrində çalışmışdır. Bu sahədə apardığı fəaliyyətə görə keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin, Respublika Təhsil Nazirliyinin və BDU - nun Fəxri Fərmanları ilə təltif edilmişdir. 1996 - 2003 - cü illərdə Azərbaycan prezidenti yanında AAK - ın ekspert şurasının, elmlər namizədi və elmlər doktoru adı verən birdəfəlik və daimi ixtisaslaşmış şuraların üzvü olmuş, namizədlik və doktorluq dissertasiyaları üzrə opponentlik etmişdir. Hazırda fizika fakultəsinin Elmi Şurasının, BDU - nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, "Bakı Universitetinin xəbərləri" jurnalının redaksiya heyətinin üzvü və fizika fakultəsinin ekspert şurasının sədridir.

Professor A.H.Kazımzadə hal-hazırda elmi və pedaqoji fəaliyyətini davam etdirərək layvari və mürəkkəb yarımkeçiricilər əsasında diod qurluşlarının elektron xassələrinin xüsusiyyətlərini öyrənir və onlar əsasında funksional elementlərin yaradılması sahəsində çalışır.

Ailəlidir. İki oğlu və bir qızı var.

## KAZIMOV ARAZ NURƏDDİN OĞLU

*Şərəfli hakim*



Xalq yolunda, vətənin işıqlı gələcəyi naminə həyatını, fəaliyyətini məşələ çevirən hüquqşünaslar və bu şərəfli peşənin müqəddəs zirvəsi olan hakimlik. Müstəqillik yolunda inkişaf edərək zənginliyi ilə dünyaya səs salan ölkəmizin Məhkəmə və Ədliyə tarixində ədalət mühakiməsinin əsas rəmzlərindən biri sayılan "Mantiya" - hakimlərin xüsusi geyim forması olan, həmin "Mantiya" ilk dəfə olaraq 2001 - ci il 8 avqust tarixində Ədliyə naziri Fikrət Məmmədov tərəfindən Azərbaycanın tanınmış, ədalətli hüquqşünası, şərəfli hakim Araz Kazımova təqdim olunmuşdur. Bu yüksək səviyyəli təqdimat tarixinə qədər Araz Kazımovun həyat və fəaliyyəti hüquqi yollara nur saçan çırağa bənzəyir.

On yeddi yaşından (ali təhsil almaqla yanaşı) bu günə qədər çalışır xalqın ədalət keşiyində Araz Kazımov. Ötən 36 il ərzində öz halal zəhməti ilə, qazandığı hörmət və nüfuzu ilə hakimlik zirvəsinə yetən Araz Kazımov artıq 21 ildir ki, hakim vəzifəsində uğurla çalışır.

O, böyük insanın həyatına nəzər salarkən bir an belə durmadan vətən yolunda fədakarcasına çalışan bir ziyalı ömrünün tarix kitabını oxuyuruq: 1958 - ci ildə qədim, zəngin, ulu, əsrarəngiz gözəllikləri, müqəddəs ziyarətgahları və dünyada tanınmış şəxsiyyətləri ilə məşhur olan şəhərlər gözəli Gəncədə, mötəbər dövlət qulluqçusu ailəsində dünyaya göz açmışdır.

Araz Kazımov orta təhsili əla qiymətlərlə bitirərək ADU (BDU) - nun hüquq fakultəsinə qəbul olunmuşdur. Ali təhsilli hüqquşünas ixtisasına yiyələnən Araz Kazımov universitetdə tələbəlik illərindən biliyi savadı ilə qabaqcıl və ictimayyətçi - təşkilatçılıq qabiliyyətinə malik bir gənc olaraq professor - müəllim heyətinin, kollektivin hörmətini qazanmışdır.

Araz Kazımov 1975 - ci ildən ilk əmək fəaliyyətinə AR DİN - nin 10 saylı islah əmək müəssisəsində xüsusi şöbənin inspektoru və baş inspektoru vəzifələrində çalışmaqla ADU (BDU) - nun axşam şöbəsində təhsil almışdır. 1977-1979-cu illərdə DİN Daxili Qoşunlarında hərbi xidmətdə olmuşdur. O, bu müəssisədə 1986 - cı ilə qədər çalışdığı 11 il müddətində dəfələrlə "Təşəkkürnamə"lərə və işdə əldə etdiyi nailiyyətlərə görə "Fəxri - fərman"lara layiq görülmüşdür. Araz Kazımov 1986 - cı ildən AR Ədliyyə Nazirliyi ETMEİ - də mütəxəssis və ekspert, 1987-1990-cı illərdə Əzəzbəyov rayonu 7 saylı Dövlət Notariat Kontorunda





Dövlət Notariusu vəzifəsində çalışmışdır. 1990-1996 - cı illərdə Əzizbəyov rayon Məhkəməsinin hakimi, 1996-2007-ci illərdə Əzizbəyov rayon Məhkəməsinin sədri vəzifələrində çalışmışdır.

Araz Nurəddin oğlu Kazımov AR Prezidenti cənab İlham Əliyevin 28 iyul 2007 - ci il tarixli sərəncamına əsasən Suraxanı rayon məhkəməsinin sədri vəzifəsinə təyin olunmuş və hal - hazıra qədər məsul və şərəfli vəzifədə uğurla çalışmaqdadır. O, icra hakimiyyəti, hüquq mühafizə orqanları ilə işgüzar münasibətlərin qurulması istiqamətində səmərəli planların həyata keçirilməsinə nail olaraq ictimai - siyasi həyatda nüfuzlu ziyalı kimi seçilir və onun əməyi yüksək dəyərləndirilir.

Onun yüksək səviyyəli çıxışları və məruzələri əmək kollektivlərində, təhsil müəssisələrində diqqət və maraqla dinlənilir ki, bu da qanunvericiliyin incəlikləri haqda əhalinin maarifləndirilməsi istiqamətində aparılan əsas və uğurlu sahələrdən biridir. Dövlət qanunlarının aliliyini, insan və vətəndaş hüquqlarının azadlığını, dövlət qanunvericiliyinin müddəalarını aydınlaşdırmaqla verilən suallara maraq və məsuliyyətlə verdiyi dolğun cavabları ilə öz nüfuzunu, xalqın ona olan məhəbbətini daha da artırır o təvazökar və nəcib insan.

Əsil insana xas olan ən vacib xüsusiyyətlər cəmlənmişdir alicənab şəxsin ruhunda. O, öz humanistliyi, vətənpərvərliyi, vəzifədə məsuliyyətliyi və haqqa - ədalətə əsaslanması ilə seçilmiş, tanınmış insanlar içərisində nüfuzlu şəxslərdəndir.

Ailəlidir.1 oglu, 1qızı, 3 nəvəsi var. Həyat yoldaşı və övladları hüquqşünasdırlar.



## QARAYEV SİYAVUŞ FƏRHAD OĞLU

*AMEA-nın həqiqi üzvü, akademik*



***İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o ölkələr inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir. Yeni texnologiyalar tətbiq olunur, ümumiyyətlə dünyada gedən tərəqqinin əsas əlaməti və səbəbi bilikdir, savaddır. Ona görə Azərbaycanda yeni nəslin tərbiyə olunmasında təhsil ocaqlarının çox böyük əhəmiyyəti var.***

*İlham Əliyev.*

Öz tükənməz enerjisi, bilik və təcrübəsi, dəyərləri ilə elmin qüdrətli yollarında layiqli bir iz salan, təhsilimizin inkişafı naminə yorulmadan çalışan, elm adlı dühanın qanadlarında yüksək məqam fəth edən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, ADNA-nın rektoru Qarayev Siyavuş Fərhad oğlu 1942-ci ildə Azərbaycan Respublikasının Samux rayonunda ziyalı ailəsində anadan olmuşdur.

1959-cu ildə Gəncə şəhər 24 nömrəli rus orta məktəbini bitirmişdir. Elə həmin il BDU-nun kimya fakultəsinə daxil olmuş, 1964-cü ildə təhsilini başa vurmuş və təyinatla SSRİ Neft Kimya Sənaye Nazirliyinin ümumittifaq Elmi Tədqiqat Olefinlər İnstitutuna göndərilmişdir. Siyavuş Qarayev 1964-1967-ci illərdə bu institutda mühəndis, kiçik elmi işçi, Millli Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft Kimya Prosesləri institutunun Sumqayıt filialında kiçik elmi işçi vəzifəsində çalışmışdır.

O, 1967-ci ildə M.Əzizbəyov adına Neft Kimya institutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) aspiranturasına daxil olmuş, 1970-ci ildə oranı bitirib namizədlik dissertasiyasını müdafiə edib kimya elmləri namizədi adını almışdır. Siyavuş Qarayev 1970-1982-ci illərdə Azərbaycan Neft Kimya institutunda kiçik elmi işçi, baş elmi işçi, sektor rəhbəri, üzvü kimya kafedrasının dosenti, elmi işlər üzrə prorektorun müavini vəzifəsində işləmişdir. Bu dövrdə geniş elmi-tədqiqat işləri ilə məşğul olan Siyavuş Qarayev 1981-ci ildə M.V.Lomonosov adına Moskva Zərif kimya texnologiyaları institutunda doktorluq dissertasiyasını uğurla müdafiə etmiş, kimya elmləri doktoru adını almışdır.

Siyavuş Qarayev 1982-ci ildən bu günə qədər Azərbaycan Neft və Kimya institutunda üzvü kimya kafedrasının müdiri vəzifəsində işləyir, 1988-1997-ci illərdə Kimya-texnolgiya farültəsinin dekanı olmuş, 29 iyun 1997-ci ildə isə Azərbayan Respublikası prezidentinin sərəncamı ilə Azərbaycan Dövlət Neft Akademiyası-





nın rektoru təyin edilmişdir.

İstedadlı tədqiqatçı professor Siyavuş Qarayev 500-ə qədər əsərin, o cümlədən 300 məqalənin, 70 müəlliflik şəhadətnaməsinin və potentin, 11 dərsliyin və dərs vəsaitin, 2 monoqrafiyanın müəllifidir. Profeesor Siyavuş Qarayevin elmi məqalələri beynəlxalq nəşriyyatlarda, o cümlədən Almaniyanın Heydelberq, Hamburq universitetlərində, ABŞ-da, İngiltərədə, Yaponiyada, Çində, Bolqarıstanda, Ruminiyada, Polşada, Türkiyədə, Əlcəzairdə, Fransada, Rusiyada çap edilmişdir.

Ufa Neft İnstitutunun dəvəti ilə, tanınmış alim Siyavuş Qarayev 1985-ci ildə bu təhsil müəssisəsində müəllimlər və aspirantlar üçün, 1989-cu ildə Almaniyanın Drezden texniki universitetində mühazirələr oxumuşdur. Drezden Universitetinin professoru K.Ryulman bildirmişdir ki, professor Siyavuş Qarayev dünya miqyasında üzvü kimyanın ən görkəmli nümayəndələrindən biridir. Ufa Dövlət Neft Texniki universitetinin rektoru, professor A.M.Şammazovun fikrinə görə Siyavuş Qarayev fundamental və tətbiqi üzvü kimya sahəsində artıq tanınmış məşhur alimdir.

Professor Siyavuş Qarayevin rəhbərliyi altında Suriya, Əfqanıstan, Vyetnam, Konqo ölkələri üçün 23 elmlər namizədi hazırlanmışdır.

Professor Siyavuş Qarayev "Azərbaycan ali texniki tədris müəssisələrinin xəbərləri" jurnalının baş redaktoru, Azərbaycan Respublikası təhsil nazirliyinin kollegiyasının, çox saylı elmi jurnalların, "Qoşa ulduz" və "Vışka" qəzetinin redaksiya heyətinin üzvüdür.

Görkəmli alim , akademik Siyavuş Qarayev tərəfindən zərif üzvi sintezin doymamış heterofunksional birləşmələrinin alınma üsullarının işlənməsi, quruluşnun öyrənilməsi, kimyəvi davranış qanunauyğunluqlarının və praktiki cəhətdən dəyərli xassələrinin aşkar olunmasına qeyri-ənənəvi yanaşmanı özündə əks etdirən perspektiv istiqamətli inkişaf etdirilmişdir.Bu birləşmələrin əsasında metalların korroziyasının yüksək temperaturlu yeni ingibitorları, xüsusi yanacaqlara qatlanan enerji tutumlu əlavələr, yanacaq və sürtkü yağları üçün aşkarlar, flotoreagentlər, dərman preparatları, kənd təsərrüfatı bitkilərinin inkişafının stimullaşdırıcıları alınmışdır.

Akademik Siyavuş Qarayevin elmi nailiyyətləri dövlət və ictimai təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir, 1991-ci ildə S.F.Qarayevə "Fəxri kimyaçı", 2000-ci ilin 14 noyabrında isə Azərbaycan Respublikasının fərmanı ilə "Əməkdar elm xadimi" adı verilmişdir. Beynəlxalq Mühəndislik Akademiyası ona "XX əsrin görkəmli mühəndisi" adını vermişdir. 2000-ci ildə elm, maarifçilik, təhsil sistemini inkişafına görkəmli xidmtlərinə görə Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyəti S.Qarayevi Y.Məmmədəliyev adına medella təltif etmişdir.

2001-ci ilin sentyabrında "Vektor" Beynəlxalq Elm Mərkəzinin həyata keçirdiyi "Azərbaycanın 100 görkəmli alimi layihəsinin qalibi olmuş və Azərbaycan elminin inkişafında xidmətlərnə görə akademik Siyavuş Qarayev

"Beynəlxalq" diploma layiq görülmüşdür.

Elm sahəsində görkəmli xidmətlərinə görə 1995-ci ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, 1997-ci ildə Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, 2000-ci ildə Beynəlxalq Mühəndislik Akademiyasının heqiqi üzvü, 2001-ci ildə Beynəlxalq Elmlər Akademiyasının akademiki, 2003-cü ildə Çin N eft Universitetinin fəxri professoru, 2006-cı ildə Azərbaycan Mühəndislik Akademiyasının, 2007-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Akademik Siyavuş Qarayevin adı beynəlxalq bioqrafik mərkəzinin (Kembric, Böyük Britaniya) intellektuallar arasında "Kim K imdir" və Amerika Bioqrafik institutunun (ABŞ) dünyanın 5000 şəxsiyyəti nəşrlərinə daxil edilmişdir.

Akademik Siyavuş Qarayev müasir cəmiyyətin intellektual inkişafında şəxsi xidmətlərinə görə Avropa Biznes-Assambleyası və Avropa rektorlar klubu tərəfindən Beynəlxalq Sokrat mükafatı ilə təltif edilmişdir.

Ulu öndərimizin dövlətçilik məktəbinin ləyaqətli yetişdirməsi akademik Siyavuş Qarayev, müstəqilliyimizin və milli dövlətçiliymizin qorunması və möhkəmlənməsində geniş fəaliyyət göstərir.O, hesab edir ki, gənclərin milli dövlətçilik ruhunda tərbiyə edilməsi tədris prosesinin tərkib hissəsidir. Akademik Siyavuş Qarayevin təşəbbüsü ilə ulu öndərimiz Heydər Əliyevin dövlətçilik irsi Azərbaycanda Dövlət Neft Akademiyasında dərindən öyrənilir və geniş təbliğ edilir.Onun düşüncəsinə görə hazırlanan hər bir gənc mütəxəssisin biliyi, təcrübəsi və dövlətçilik mövqeyi vəhdətdə olmalıdır.







## QASIMLI MƏHƏRRƏM PAŞA OĞLU

*Filologiya elmləri doktoru, professor*



**Yaxşı hörmətinən,təmiz adınan,**
**Mən dolandım bu Qafqazın elini.**
**Pirə ata dedim, caxana qardaş,**
**Ana-bacı bildim qızı-gəlini.**

*Aşıq Ələsgər*

Alicənablığı, nəcibliyi, əsil ziyalılığı, mədəni rəftarı ilə fərqlənən qəlbi nəcib duyğularla dolu bir insan olan filologiya elmləri doktoru, professor Məhərrəm Paşa oğlu Qasımlı 05 avqust 1958 - ci ildə Tovuzun Alakol kəndində anadan olmuşdur. 1975 - ci ildə orada orta məktəbi bitirdikdən sonra 1975 - 80 - cı illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində təhsil almışdır.

1983 - cü ildə AMEA - nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olunmuş, 1987 - ci ildə "Şah İsmayıl Xətainin poeziyası" mövzusunda namizədlik, 1997 - ci ildə isə "Aşıq sənəti: qaynaqları , təşəkkülü və mühitləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2003 - cü ildən professordur.

1986 - 92 - ci illərdə Ədəbiyyat İnstitutunda elmi əməkdaş olan Məhərrəm Qasımlı 1992 - ci ildən həmin institutun elmi işlər üzrə direktor müavinidir. O, 1996 - 2002 - ci illərdə "Xaricdə Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 2002 - ci ildən həm də "Şifahi xalq ədəbiyyatı" şöbəsinə rəhbərlik edir.

2004 - cü ildən fəaliyyət göstərən "Folklor və etnoqrafiya" beynəlxalq elmi jurnalının baş redaktoru M.Qasımlı Beynəlxalq Folklor Fondunun (ABŞ) Azərbaycan təmsilçisi və "Milli folklor" (Türkiyə) Beynəlxalq jurnalının redaksiya heyətinin üzvüdür.

YUNESKO - nun qeyri - maddi irs üzrə "Aşıq sənəti" layihəsinin elmi məsləhətçisi (2007-2008 - ci illər) olan görkəmli alim beynəlxalq aləmdə nüfuzlu folklor tədqiqatçı kimi tanınır.

Elmi xidmətlərinə görə 2009-cu ildə Azərbaycan Respublikasının Dövlət Mükafatı Laureatı adına layiq görülmüşdür. ABŞ, Rusiya, Almaniya, Türkiyə, İran

və bir çox başqa ölkələrdə tədqiqatları nəşr edilən, beynəlxalq elmi konfranslarda məruzə və çıxışları böyük maraqla dinlənilən araşdırıcının aşıq sənəti sahəsindəki elmi - təşkilatı fəaliyyəti haqqında 2006 - cı ildə Türkiyənin Atatürk Universitetində dissertasiya işi müdafiə olunmuşdur.

On bir kitabın, iki monoqrafiyanın və yüzə yaxın məqalənin müəllifi olan professor M.P.Qasımlının rəhbərliyi altında on beş elmlər namizədi yetişmişdir.

O, beşcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin redaksiya heyətinin üzvü, birinci cildin isə məsul elmi redaktoru və əsas müəlliflərindən biridir. Naxçıvan, Dərbənd, Gəncəbasar ərazilərindən, eləcə də Cənubi Azərbaycan, Qazaxıstan və Gürcüstanda yaşayan soydaşlarımızdan folklor materiallarının toplanılması və antoloji nəşrlərin hazırlanmasında da onun mühüm xidmətləri vardır.

Elmi fəaliyyətlə yanaşı, təhsil - tədris sistemində də fəaliyyət göstərən professor M.P.Qasımlı Azərbaycanın bir çox nüfuzlu universitetlərində də çalışmaqdadır. 2008 - ci ildən Azərbaycan Aşıqlar Birliyinin birinci katibidir. Azərbaycan Yazıçılar Birliyinin üzvü, poetik yaradıcılıq və bədii publisistik fəaliyyətlə yaxından məşğul olan Məhərrəm Qasımlı bədii əsərlərində Orxan Paşa təxəllüsünü işlədir..







## ÜMMÜHƏBİBƏ MƏMMƏDTAĞI QIZI QƏLƏNDƏRLİ

*İqtisadçı-alim,*
*Sahibkar, xeyriyyətçi*

**Ən yüksək elm müdriklikdir, Ən yüksək müdriklik isə xeyirxahlıqdır.**

***Müdrik kəlamlardan.***



Azərbaycan tarixinin elə bir dövrü olmayıb ki, qadınlarımız öz zəkası, hünəri və qeyrəti ilə həmin dövrün rəmzi kimi parlayıb bu günə işıq saçmasın. Bu bir həqiqətdir ki, ən ziddiyyətli, ağır və keşməkeşli şəraitdə müdrik qadınlarımızın, ana və bacılarımızın mətanəti və mərdliyi, təmkin və tərbiyəsi sayəsində Azərbaycan ictimaiyyəti heç vaxt öz təbii tarazlığını itirməmişdir.

Azərbaycanın ziyalı, zəkalı, həzin duyğulu, xeyriyyəçi xanımlarından olan iqtisad elmləri namizədi Ümmihəbibə Məmmədtağı qızı Qələndərli 1969 - cu ildə Göycə mahalında anadan olmuşdur. Elə orta təhsilini də Göycə mahalında alan Ümmühəbibə xanım Azərbaycan Pedoqoji İnstitutunun fizika - riyaziyyat fakultəsinə daxil olmuş və institutu müvəffəqiyyətlə başa vurmuşdur. 1991 - 2001 -ci illərdə Ümmühəbibə xanım həyat yoldaşının oxuması üçün Türkiyəyə göndərilməsi ilə əlaqədar İstanbulda yaşamış və ilk əmək fəaliyyətinə də Azərbaycanın İstanbuldakı konsulluğunda başlamışdır. 1998 - ci ildə fərq imtahanı verən Ümmühəbibə xanım İstanbul Universitetinin Beynəlxalq İqtisadi Əlaqələr fakultəsinin magisturaturasına daxil olmuşdur.

2001 - ci ildə ailəsi ilə Bakıya qayıdaraq Azərbaycan Dövlət İqtisad Universitetində təhsilini başa vurur və təhsil aldığı universitetdə müəllim kimi fəaliyyətə başlayır. 2007 - ci ildən baş müəllim kimi fəaliyyət göstərir. 2005 - ci ildən iqtisad elmləri namizədidir.

Dərs dediyi təhsil ocağında öz dərin biliyi və bacarığı ilə müəllim kollektivinin və tələbələrin böyük hörmət və nüfuzunu qazanan Ümmühəbibə xanım kollektivin sevimlisi olmuşdur.

Bir çox ölkələrdə - Almaniya, İzrail, Rusiya, İspaniyada olan, Türkiyədə 10 il yaşayan Ümmühəbibə xanım Azərbaycan qadınlarının cəmiyyətdəki fəal mövqeyinin xarici ölkə qadınlarından üstün olduğunu fəxr ilə vurğulayır.

Ölkəmiz müstəqillik əldə edəndən bəri sahibkarlığın inkişafı ilə əlaqədar, sahibkar qadınlarımızın da sayı xeyli artmış, cəmiyyətdə mövqeyi möhkəmlənmişdir. Ümmühəbibə xanım da ADİU - də baş müəllim işləməklə yanaşı, həm də belə sahibkar xanımlarımızdan biridir. "Aybikə Qələndər" estetik və gözəllik mərkəzinin müdiridir. Onun əməyi və bacarığı sayəsində bu mərkəz gündən günə abadlaşır. Bundan əlavə Ümmühəbibə xanımın atası Məmmədtağı müəllim kimi xeyriyyəçi bir ziyalıdır. Ot öz kökü üstə bitər. Atası Məmmədtağı müəllim Göycə Mahalının sayılan xeyriyyəçisi, ağsaqqalı olmuşdur. Atasının bu xüsusiyyəti irsi olaraq Ümmühəbibə xanıma keçmişdir.

Ailəlidir 2 övladı var.

Ümmühəbibə xanımın gözəl ailəsi var. İki övlada qayğıkeş anadır. Bu ziyalı ailəyə uzun ömür, can sağlığı və yeni - yeni uğurlar arzulayırıq.







## QƏHRƏMANOVA MƏLAHƏT



***Hər kimin yol göstərən bilik çırağı olsa, o qaranlıq gecədə də yolunu azmaz.***

*M.Əhvədi*

İnsanlara xeyir vermək amalı ilə bir ömür yaşamaq, cəmiyyətdə özünə layiqli yer tutmaq, əsil xanım fədakarlığı ilə ali məqsədlər uğrunda mübarizə aparmaq və fəal ictimaiyyətçi olmaq əlbəttə hər qadına nəsib olmur. Gözəl xanım, işində qətiyyətli, insanların sağlamlığı üçün əlindən gələni əsirgəməyən "Nərgiz" klinikasının təsisçisi və direktoru Qəhrəmanova Məlahət Cəmil qızı 1961-ci ildə Azərbaycan Respublikasının Ağstafa rayonunda anadan olub. 1977-ci ildə orta məktəbi bitirib. Elə həmin ildə Tibb məktəbinə daxil olub və müvəffəqiyyətlə başa vurub.

1989-cu ildə Bakı Dövlət Universitetinin "Tibbibiologiya fakültəsini bitirib və "Fizioloq" ixtisasına yiyələnən M.G.Qəhrəmanova bu sahədə fəaliyyətinə həkim-laborant kimi başlayıb. Ölkə müstəqillik əldə edəndən bəri sahibkarlığın inkişafı ilə əlaqədar sahibkar qadınlarımızın da sayı xeyli artmış, cəmiyyətdə mövqeyi möhkəmləndirilmişdir. Bu səbəbdən başqa sahələrdə olduğu kimi tibb sahəsində də yeniliklər və inkişaf özünü büruzə verdi.

Məlahət xanımın hələ erkən yaşlarından bitkilərə marağı sonsuz olub. Bunun da səbəbi el arasında "loğman" kimi tanınmış nənəsi Xədicə xanımın və xalq təbabətinin əvəzsiz bilicisi olan anası Səyyad xanımın uzun müddət bu sahədə çalışaraq xalqın hörmət və məhəbbətini qazanmaları olub. Belə bir loğmanlar ailəsində bitki aləminin sirlərini öyrənməklə, böyük bir təcrübə toplayaraq yaşa dolmuş Məlahət xanıma zəngin təcrübə bir çox xarici ölkələrdə olduğu anda kömək olmuş və xalq təbabəti ilə məşğul olmağa təkan vetmişdi. Bu sahədə yeniliklər etməyinə kömək olan Məlahət xanımın, bir çox ölkələrdən olması, diqqətini cəlb etmiş və xalq təbabəti il ə məşğul olmağına təkan vermişdir.

Azərbaycanın çox zəngin florası var. Sadəcə bundan düzgün istifadə etmək, hər bir bitkinin tərkib hissəsini dəqiqliklə müəyyən etmək bacarığı olmalıdır. Belə bir bacarığın sahibi Məlahət xanımın təsisçiliyi ulə 2006-cı ildə "Nərgiz" Klinikası yaradıldı. Bu klinika müasir avadanlıqlarla təchiz olunmuşdu. Burada hər bir bitkinin tərkibi, insan orqanizminə olan təsir mexanizmi tam öyrənildikdən sonra istifadə olunur.

Daim elmi axtarışlarını davam etdirən M.G.Qəhrəmanovanın bir çox ixtiraları



İran islam respublikasında konfrans zamanı

var. Bunlardan "Cavanlaşdırmabalzam"dır ki, bunun da tərkibi təbii bitkilərdən hazırlanaraq insan orqanizmini cavanlaşdırmaqla, qan dövranını tənzimləyir, yaddaşı bərpa edir və bir çox xəstəliyin qarşısını alır.

"Saçların bərpası və tökülmənin qarşısını alan üç lasyon" - gözəl effekt berir. Eyni zamanda bir çox dərman və bitkilərdən hazırlanmış qarışıq dəmləmələr əvəzolunmaz müalicə üsullarıdır.

Bu günlərdə Məlahət xanım İran İslam Respublikasında keçirilən konfransa dəvət olunmuş və Azərbaysanı layiqincə təmsil etmişdir.

Konfransda çıxış edən "Nərgiz" klinikasının baş həkimi Məlahət Cəmilqızı klinikada xalq təbabəti ilə aparılan müalicə üsullarından geniş məlumat vermişdi. Bu isə konfrans iştirakçıları arasında böyük marağa səbəb olmuş və bu klinika ilə müqavilə bağlamaq üçün çoxlu sayda təkliflər irəli sürülmüşdü.

Bütün bu nailiyyətlərə görə Məlahət xanım bir çox fəxri diplomlarla təltif olunmuşdur. O cümlədən 2009-cu ildə əldə etdiyi uğurlara görə "Qızıl ulduz" fəxri diplomuna və 2010-cu ildə "İlin həkimi" fəxri ada layiq görülmüşdür.

Qəlbinin hərarəti ilahinin qüdrəti ilə insanların sağlamlığı naminə yorulmaq bilmədən çalışan və bundan xüsusi zövq alan Məlahət xanım həm də gözəl anadır. 3 oğul övladı, 1 nəvəsi var. Övladlarının üçü də ali təhsillidirlər.

Mənəviyyatca zəngin, xanım xatınlıq xüsusiyyətlərinin hamısını zərif qadın vicudunda birləşdirən bu gözəl xanıma övlad və nəvə xoşbəxtliyi arzu edirik.







## QULİYEV AKİF ƏLƏKBƏR OĞLU

*Elmlər doktoru, professor*



***Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda verən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.***

*Heydər Əliyev.*

Elmin tərəqqisi, dövlətin, xalqın tərəqqisidir. Elmin sirrlərini öyrənməklə, onu cəmiyyətə tətbiq etməklə öz işıqlı və dəyərli fikirləri ilə bir sıra xidmətləri olmuş insanlar xalq üçün çox əziz və hörmətə layiqdir.

Həyatını elmə həsr edən, bu sahədə özünəməxsus xidmətləri olan Akif Ələkbər oğlu Quliyev 1942 - ci ilin martın 20 - də Gəncə şəhərində anadan olmuşdur. 1949 - cu ildə o, Gəncə şəhərində 4 saylı məktəbə daxil olmuş və 1959 - cu ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

Elə həmin ildə Akif Quliyev Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakultəsnə qəbul olmuş və 1961 - ci ildən orada təhsil almışdır. Sonra təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) biologiya fakultəsndə davam etdirmişdir. Axırıncı kursda təhsil alarkən o, həm də bitki fiziologiyası kafedrasında laborant vəzifəsində işləmişdir.

A.Ə.Quliyev 1964 - cü ildə BDU - nun biologiya fakultəsinin uğurla bitirmiş və fakultənin Elmi Şurasının zəmanəti ilə aspiranturaya daxil olmuşdur. 1966 - cı ilin dekabr ayından Praqa Universitetinə göndərilən A.Ə.Quliyev 1967 - ci ilin oktyabr ayında Bakıya qayıtdıqdan sonra, bitki fiziologiyası kafedrasına assistent vəzifəsinə təyin edilmiş, 1968 - ci ilin fevral ayında işə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir.

A.Ə.Quliyev 1968 - 1973 - cü illərdə biologiya fakultəsinin dekanı vəzifəsində çalışmışdır. Kafedrada assistent, sonra isə baş müəllim (1969) və dosent (1972) vəzifələrində işləyərək Akif Quliyev problem laboratoriyası yaratmış və bir qrup gənc mütəxəssislərin məhsuldar fəaliyyətini təşkil etmişdir. Bu mütəxəssislər sonralar 1972 - ci ildə yaradılmış biokimya kafedrasının özəyini təşkil etmişlər. Yaradıldığı gündən hal - hazıra qədər bu kafedraya Akif Quliyev rəhbərlik edir.

1988 - ci ildə fakultə dekanı seçilən A.Ə.Quliyev 1989 - cu ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1990 - cı ildən professordur.

Onun rəhbərliyi altında 8 namizədlik dissertasiyası müdafiə edilmişdir. Hal -

hazırda 3 namizədlik və 1 doktorluq dissertasiyalarına rəhbərlik edir.

Professor A.Ə.Quliyev 1990 - cı ildə Bakı Dövlət Universitetinin I prorektoru vəzifəsinə təyin edilmiş və bu vəzifədə 1992 - ci ilədək işləmişdir. Hal - hazırda Respublika Biokimyaçılar Cəmiyyətinin üzvüdür. O, həm də AMEA- nın Botanika İnstitutu nəzdində fəaliyyət göstərən elmlər namizədi və elmlər doktoru elmi dərəcəsi almaq üçün ixtisaslaşdırılmış Elmi Şuranın üzvüdür.

1994 - cü ilin Oktyabr ayında Azərbaycanın nümayəndə heyəti tərkibində Nyu - Yorkda Dünyanı Müdafiə Komitəsinin iclasında iştirak etmişdir.

Respublikada meyvələrin yetişməsi və saxlanılmasının biokimya və fiziologiyası sahələrində yeni istiqamətin yaradıcısı olan A.Ə. Quliyev, ilk dəfə olaraq etilenprodüsentlərlə işlənmiş meyvələrin yetişməsinin tənzimlənməsinini fizioloji və biokimyəvi mexanizmlərini izah etmişdir. Sintetik etilenprodüsenlərdən biri - hidrel əməkdaşlarla birlikdə bilavasittə onun tərəfindən müxtəlif metabolik yolların qarşılıqlı əlaqələrinin elmi əsaslandırılmış sxemi təklif olunmuşdur. Bu metabolik yollar meyvələrin yetişməsinin genetik proqramının həyata keçməsində və hormonal tənzimlənməsində iştirak edir.

Biokimya və biotexnologiya kafedrası TEMPUS xətti ilə 2003 - 2005 - ci illərdə Londonun Vestminster Universiteti ilə birlikdə immunpologiya üzrə qrantın, 2006 - 2008 - ci illərdə "Ekologiya üzrə magistrlərin hazırlanması", 2007 - 2009 - cu illərdə isə NATO - nun "Elm sülhün keşiyində" qrant layihələrinin iştirakçısı, professor A.Ə.Quliyev isə bu layihələrin koordinatoru olmuşdur. Bu layihələr xarici universitetlərdə magistr və müəllimlərin təkmilləşdirilməsinə imkan vermişdir.

2007 - ci ildə professor A.Ə.Quliyev "İlin müəllimi" fəxri adına layiq görülmüşdür. 2008 - ci ildə ABŞ - nın "WHO'S WHO in the world" adlı bioqrafik ensklopediyada professor A.Ə.Quliyev haqqında məlumat dərc edilmişdir.

Alimin həyat və fəaliyyətinin həp saatı, hər anı bir kitabdır desək, yanılmarıq.

Akif Ələkbər oğlu gözəl ailə başçısıdır. 2 övladı, 3 nəvəsi var. Görkəmli alimə övlad fərəhi, nəvə xoşbəxtliyi arzu edirik.





## QULİYEV RAUF ƏLƏKBƏR OĞLU

*Kənd təsərrüfatı elmləri doktoru, professor*



***Müdrik şəxs vəzifəli adama möhtac olmaya bilər, amma vəzifəli şəxslər müdrik adama möhtacdılar.***

*M.Ş.Vazeh.*

Xalqımız zaman - zaman alimlər, səviyyəli ziyalılar yetirmişdir vətənə. Kənd təsərrüfatı elmləri doktoru, BDU - nun biologiya fakultəsinin "Genetika və təkamül təlimi" kafedrasının müdiri, professor Rauf Quliyev elmi - pedaqoji fəaliyyəti haqqında qısa məlumat verməklə, müasir dövrümüzdə və gələcəkdə kənd təsərrüfatının inkişafı və zənginləşməsi istiqamətində tanınmış alimlərimizin zəhmətinin əvəzsiz olduğunu vurğulamaq, dəyərləndirməkdir. .

5 yanvar 1938 - ci ildə Gəncədə anadan olmuşdur Rauf Quliyev. Orta təhsili başa vuraraq AKT Akademiyasına daxil olmuşdur. 1962 - ci ildə ali təhsili "Fərqlənmə" diplomu ilə bitirərək AMEA nəzdində olan Genetika və Seleksiya Elmi Tədqiqat İnstitutunda kiçik elmi işçi vəzifəsi ilə ilk əmək fəaliyyətinə başlayır. 1963 - cü ildə aspiranturaya qəbul olunaraq mükəmməl elmlərə yiyələnir və 1967 - ci ildə namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi, alimlik dərəcəsi alır. Rauf Quliyev elm yolunda əldə etdiyi uğurlarla addım - addım irəliləyərək doktorluq dissertasiyası üzərində dəyanətlə çalışır və 1988 - ci ildə Ukraynanın Xarkov şəhərində doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək kənd təsərrüfatı elmləri doktoru adına layiq görülür.

1967 - ci ildən BDU - nun Genetika və darvinizm kafedrasında assisent vəzifəsində çalışan Rauf Quliyev daha sonra baş müəllim, dosent, professor kimi vəzifələrə halal zəhməti, səyi və elmi sayəsində çatmışdır. 1988 - ci ildə çalışdığı kafedraya müdir seçilən Rauf Quliyev 1989 - cu ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə professor adına layiq görülmüşdür. 1981 və 1987 - ci illərdə Rauf Quliyev keçmiş SSRİ - nin xalq Təsərrüfatı Sərgisinin iştirakçısı kimi Baş Komitənin bürünc və gümüş medalları ilə təltif edilmişdir. O, Ağdaş - 3, Ağdaş - 13, Ağdaş - 17, Ağdaş - 19, Ağdaş - 20, Ağdaş - 21 pambıq sortlarının müəllifidir. Bunlardan Ağdaş - 3 pambıq sortu 1982 - ci ildən bu günədək respublikanın pambıq şahələrində əsas yer tutur. Bu sortun müəlliflik şəhadətnaməsini 1982 - ci ildə Moskvada alıb. Ağdaş - 3 sortu 25 ildir ki, Azərbaycanın pambıq sahələrində əsas əkin yeri tutur. Bu günədək Ağdaş - 3

sortunun iqtisadi dəyəri respublika üçün 100 milyon ABŞ dolları ilə hesablanır. 1990 - cı ildə SSRİ dağılandan sonra Ağdaş - 3 pambıq sortunun məhsulunu barter üsulu ilə un, ət, yağ və digər qida və sənaye məhsulları ilə Respublikamız təmin edilirdi.

Rauf Quliyev dövlətimiz və rəhbərlik tərəfindən mükafatlara, təltiflərə layiq görülmüşdür. Dəfələrlə Təhsil Nazirliyi tərəfindən "Fəxri fərman"larla, SSRİ Elmələr Akademiyasının Rəyasət Heyətinin qərarı ilə "N.İ.Vavilov" adına medalla, BDU - da yüksək ixtisaslı kadrlar hazırlanmasındakı xidmətlərinə görə mükafatlarla təltif olunmuşdur. 2009 - cu ildə Təhsil Nazirliyinin fərmanı ilə professor Rauf Quliyev "Qabaqcıl müəllim" adına dayiq görülmüşdür. Onun ömür tarixinin ən dəyərli təltifi və mükafatı qazandığı hörmət və əldə etdiyi nailiyyətlər, vətənə göstərdiyi xidmətləridir.

Təhsil sahəsində nailiyyətlərə görə ARTC - nin təsis etdiyi mükafata (Diplom RŞRT 002(19) layiq görülən Rauf Quliyevin demək olar ki, hər bir ötən ili bir təşəkkürnamədir. O təşəkkür, xalqımızın görkəmli alimə verdiyi dəyər, bəslədiyi hörmət və məhəbbətdir. Professor 110 - dan artıq elmi məqalələrin, 5 dərsliyin müəllifidir. Hal - hazırda 4 namizədlik dissertasiyasına rəhbərlik edən professor Rauf Quliyev artıq 5 elmlər namizədi, 1 doktorluq dissertasiya müdafiəsinə rəhbərlik etmişdir.

Rauf Quliyevin xidmətləri, elmə həsr etdiyi ömür, 45 illik pedaqoji fəaliyyəti dəyərli və şərəfli bir həyat salnaməsidir. Ailəlidir professorr Rauf Quliyev, 2 övladı və 3 nəvə sahibidir. Həyatda səadət, elmdə uğurlar və pedaqoji fəaliyyətində daha böyük nailiyyətlər, yüksək mükafatlar nəsibiniz olsun hörmətli professor. Yazın, yaradın, çalışın vətənimizin xoşbəxt gələcəyi naminə. Biz də yaşadaq kitablarda xalqımızın inkişafı yollarında uğurla, yorulmadan çalışanları.







## QULUZADƏ CƏFƏR MÜSEYİB OĞLU

*Elmlər doktoru,professor. Əməkdar müəllim*



***Həqiqətə vurğun adamın şair və ya dahi olması lazım deyildir. O adam özlüyündə həm şair, həm də dahidir.***

*T.Renar.*

Azərbaycan xalqının tanınmış alimi, 200 - dən artıq seçilmiş əsərlər, 7 kitab müəllifi,əməkdar müəllim, elmlər doktoru, professor Cəfər Quluzadənin elmi və əmək fəaliyyəti haqqında qısa məlumatı oxucuların nəzər-diqqətinə çatdırırıq. Hazırda BDU-nun Astrofizika kafedrasının müdiri vəzifəsində çalışan professor şərəfli ömür yolu keçmişdir. 1937-ci il 27 avqust tarixdə Tovuz rayonunun Xatınlı kəndində anadan olmuşdur Cəfər Quluzadə. Orta təhsili bitirərək Leninqrad (Sankt-Peterburq) Dövlət Universitetində ali təhsil almış və Astrofizika ixtisası üzrə aspiranturada təhsilini davam etdirmişdir. Aspiranturanı uğurla başa vuraraq namizədlik dissertasiyasını müdafiə etmiş və elmlər namizədi, alimlik dərəcəsi almışdır.

AMEA-nın Şamaxı rəsədxanasında (1966-69-cu illərdə) elmi işçi vəzifəsində çalışan Cəfər Quluzadə daha sonra 1969-cu ildən BDU-da dosent, 1991-ci ildən professor vəzifəsində çalışır.

Günəş fizikası sahəsində çalışan professor Cəfər Quluzadə 1997 - ci ildən Astrofizika kafedrasına rəhbərlik edir. 170 məqalə, dərsliklər və metodik vəsaitlərin müəllifidir. 2001 - ci ildən Avropa Astronomiya Cəmiyyətinin üzvü olaraq daima elmi araşdırmalar aparmaqla bir çox yeni tədqiqatlar üsulu təklif etmiş və səmərəli nəticə ilə elmə yeniliklər töhvə etmişdir. Alim 1991 - ci ildə SSRİ Kosmonavtika Federasiyasının diplomu ilə təltif olunmuşdur. Doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək (2003 - cü il) elmlər doktoru adını qazanmış Cəfər Quluzadə 40 ildir ki, görkəmli alim olaraq elm, təhsil yolunda çalışır. O, Türkiyə, Yunanıstan, İran, Rusiya, Fransa və digər Avropa ölkələrində Beynəlxalq seminar, simpozium və konfranslarda Azərbaycan alimi kimi fəal iştirak edərək ölkəmizi ləyaqətlə təmsil etmişdir və bu uğurlu fəaliyyət davam etməkdədir.

Azərbaycanda ixtisasçı kadrlar hazırlanmasında professor Cəfər Quluzadənin xidmətləri böyükdür. Onun müəllifliyi ilə nəşr olunan dərsliklər, elmi yeniliklərlə zəngin vəsaitlər tələbələrin ən yaxın köməkçisidir. Professor İstambul

Universitetinin dəvəti ilə Türkiyədə daha bir nailiyyət əldə etmiş, İstambul universitetində "Spektroskopiya" kursunu təşkil etmişdir. Professorun həyatının, əmək fəaliyyətinin hər bir anı elmdə zirvələrə doğru yüksələn bir pillədir. Uzun illər Astrofizika kafedrasının müdiri vəzifəsində çalışan professor Cəfər Quluzadənin pedaqoji fəaliyyəti təhsilimizə işıq saçan bir şəfəq, bir nuri ziyadır. İslam dünyasının Ulu Peyğəmbəri Həzrəti Məhəmməd (s.ə.a.s) buyurmuşdur: "Elmlə məşğul olan saleh insan ibadət etmiş hesab oluna bilər". Həqiqətən də vətən yolunda, xalqımızın elmi inkişafı yollarında ömür həsr edərək həyatını gələcəyimiz naminə elmə, təhsilə bəxş edən professorun əməyi, çəkdiyi zəhmətlər, əldə etdiyi nailiyyətlər təqdirəlayiqdir. Professor Cəfər Quluzadə magistrantlara, elmlər namizədlərinə və elmlər doktoruna rəhbərlik etmişdir. Ötən yarım əsrə bərabər bir dövr ərzində təhsilin inkişafı və elmin zənginləşməsi istiqamətində öz səmərəli fəaliyyəti ilə xalq yolunda, vətənimizin işıqlı gələcəyinə doğru gedən yollarda yorulmadan çalışan elmlər doktoru, professor Cəfər Quluzadə dövlət tərəfindən yüksək qiymətləndirilərək prezidentin fərmanı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

Mənalı bir ömür yaşayan professor Cəfər Quluzadə bir çox əsərlərin, o cümlədən:

Günəş spektrində Fraunhofer xətlərinin mərkəzi intensivlikləri haqqında.

Günəş atmosferinin fiziki parametrlərinin yüksəliş əyrisi üsulu ilə təyini haqqında.

Günəş spektrində güclü Fraunhofer xətlərinin konturları haqqında.

Yüksəliş əyrisində terminlərin cütlüyü effekti haqqında.

Günəş üçün yeni yüksəliş əyrisi.

Günəş diski mərkəzi üçün Fel xətlərinə əsasən qurulmuş yüksəliş əyrisi haqqında.

Fel - in cüt - tək və tək - cüt keçidləri üçün yüksəliş əyrilərinin fərqi.

Yüksəliş əyrisində Spektral terminlərin cütlüyü effektinə dair.

Günəşin lokal kəsilməz spektr səviyyəsinin təyini üçün yeni üsul.

Günəş spektrində Fraunhofer xətlərinin diferensial və inteqral asimmetriyası haqqında.

Günəşin ayırd olunmuş və ayırd olunmamış spektrində .

Fraunhofer xətlərinin profillərinin asimmetriyasının intensivlikdən asılılığı.

Günəş və ulduz spektrlərində Fraunhofer xətlərinin profillərinin asimmetriyasını hesablamaq üçün proqram.

Crl xətlərinin profillərinin inteqral və qalıq asimmetriyasının klassifikasiyası haqqında.

Günəş spektrində spektral xətlərin profillərinin asimmetriyasının klassifikasiyası haqqında.

Günəş diski mərkəzi spektrində 5324.185 A F el xəttinin incə qurluşu tədqiqi.





Günəş diski mərkəzi spektrində 5324.185 f F el xəttinin incə qurluşu tədqiqi kimi seçilmiş əsərlərin həmçinin :

Kopernik və dünyanın heliosentrik sistemi;Bakı, 1973.

Atom spektroskopiyası; Bakı, 1985.

Tarixləri çevirmək üçün metodik göstəriş; Bakı, 1985.

Atom spektroskopisinin temelleri; (türkcə) İstanbul, 1995.

Klassik astronomiya; Bakı 2004.

Günəşin Faunhofer spektri; Bakı 2006.

Klassik astronomiya (yenidən işlənmiş ikinci nəşri) Bakı, 2007 - kimi kitabların müəllifidir.

Son dərəcə vətənpərvər, şair qəlbli professor Cəfər Quluzadənin yüzlərlə şeirləri, poemaları var:

***Oğulun qeyrəti, qızın namusu,***
***İnsanın yerişi, atın duruşu,***
***Dənizin dalğası,yellərin tuşu,***
***Çaylardan sakitcə axan yaxşıdır.***

***Dostun etibarı nəsilin zatı,***
***Qardaşın doğması, dostların yadı,***
***Alimin qələmi, igidin adı,***
***Pislikdən uzaqda duran yaxşıdır.***

***Cəfər də vurğundur bir qələm qaşa,***
***Onunla vuracaq ömrünü başa.***
***Tale toxunmasın heç zaman daşa,***
***Eşqinin oduna yanan yaxşıdır***

- deyən Cəfər Quluzadəyə yeni - yeni yaradıcılıq uğurları arzulayırıq.

## QASIMOVA LƏZİFƏ

*Pedaqoji elmləri doktoru, professor*



***Hər gün dünyanın ən müdrik adamları ilə ünsiyyətdə olmaqdan qiymətli nə ola bilər?***

*L.N.Tolstoy*

Qadın zərif bir varlıqdır, qadın anadır, analar müqəddəs olduğu üçün Ulu Peyğəmbərimiz Rəsuli - Əkrəm Həzrəti Məhəmməd buyurmuşdur: "Cənnət anaların ayaqları altındadır". Müasir Azərbaycan qadını həyatın ən məsuliyyətli sahələrində uğurla çalışaraq, elmi araşdırmalar aparmaqla səmərəli nəticələr əldə edir və öz nailiyyətləri ilə xalqa şərəf gətirirlər. Ləzifə Qasımova yurdumuzun adı fəxrlə çəkilən alim xanımlarındandır: 1948 - ci il 31 dekabr tarixində Naxçıvan şəhərində anadan olmuş və orta təhsili əla qiymətlərlə başa vurmuşdur.Ləzifə Qasımova APİ - nin (Pedaqoji Universitetin Naxçıvan filialı) filologiya fakultəsinə daxil olmuş və 1971 - ci ildə ali təhsili "Fərqlənmə" diplomu ilə başa vurmuşdur.

Ləzifə xanım 1977 - 1981 - ci illərdə APİ -də aspiranturada elm - savadını artıraraq, təhsilini davam etdirmiş və 1986 - cı ildə üzərində çalışdığı dissertasiyanı müdafiə edərək elmlər namizədi, alimlik dərəcəsi almışdır. Pedaqoji fəaliyyətini də uğurla davam etdirərək 1975 - ci ildən Naxçıvan Dövlət Universitetində müəllim olaraq çalışmışdır.Pedaqoji fəaliyyəti ilə yanaşı doktorluq dissertasiyası üzərində çalışaraq uğurla müdafiə etmiş və 2006 - cı ildə elmlər doktoru adına layiq görülmüşdür. Ləzifə Qasımova 1983 - cü ildən BDU - da (ADU - da) dosent vəzifəsində çalışır.

O, 10 - dan çox namizədlik dissertasiyasının rəsmi opponenti olmuş və 3 monoqrafiya, pedoqoqika dərsliyinin, metodik vəsaitin müəllifidir. Ləzifə xanımın mətbuatda 90-dan artıq elmi və publisistik məqalələri dərc olunmuşdur. O, 1988-1996 - ci illərdə Azərbaycan Təhsil Problemləri İnstitutu nəzdindəki namizədlik dissertasiya şurasının üzvü olmuşdur.

Ləzifə Qasımova çalışdığı uzun bir dövrdə xalqımıza yüzlərlə elmi - savadlı ixtisasçı kadrlar, alimlər yetişdirmişdir. O, pedaqoq - alim olmaqla yanaşı, yaradıcılığını da davam etdirmiş və elmi - publisisitik məqalələri vasitəsi ilə mətbuatdan öz haqq sözünü, elminin - zəkasının aynası olan səviyyəli mövzularını oxuculara çatdırmışdır və yenə çatdırmaqdadır. Azərbaycanın alim - filoloqları, yüksək mənəviyyatlı pedaqoqları içərisində Ləzifə xanımın xüsusi yeri və nüfuzu vardır.





2007 - ci ildən prezident yanında AAK -nın Ekspert Komissiyasının üzvüdür. O, sosial elmlər və psixologiya fakultəsi - metod şurasının sədridir.

Fəal ictimayyətçi, elmlər doktoru, pedaqoq və oxucu qarşısında məssuliyyətli müəllif olan Azərbaycan ziyalısı Ləzifə Qasımova həyatını, fəaliyyətini vətənə, xalqa həsr etmiş və bu uğurlu, səmərəli zəhmətin bar - bəhəri bizim gələcəyimiz olan universitet məzunlarıdır. Ondan elm alan ixtisasçıları ölkəmizdə və Respublika hüdudlarından kənarda çalışaraq, müəllim - alim Ləzifə Qasımovaya və onların bu günkü uğurlarında əməyi olan bütün əsil pedaqoq adı daşıyanlara öz minnətdarlıqlarını bildirirlər. Yurdumuzun şərəfli ziyalı xanımı pedoqoji elmlər doktoru, professor Ləzifə Qasımovaya elm və təhsilin inkişaf yollarında uğurlar və nailiyyətlərlə zəngin həyat yolu arzulayırıq.

Ləzifə xanımın gözəl ailəsi var. Nəvəsi Şəbnəm də nənəsi kimi elmin zirvəsinə qalxmaq arzusundadır. Ona bu yolda uğurlar arzulayırıq.



## QASIMOV AYDIN EYLAS OĞLU

*Hüquq üzrə fəlsəfə doktoru, general mayor*



**Həyatda öz yerini tutmaqla bərabər, onu anlayan, duyan bir kəslə bərabər addımlayan insan xoşbəxtdir.**

*Aydın Qasımov*

Vətən, torpaq o halda basılmaz olur ki, onun övladları güclü vətənpərvər və həm də elmli olsun, vətənin xoşbəxt gələcəyi məhz elmli, bacarıqlı insanların əlindədir. Vətəninə olan sonsuz sevgisinə, milli mənsubiyyətinə görə qürur hissi keçirməsinə, insanlıq ləyaqətini hər şeydən üstün tutmağına görə xüsusi hörmətə layiq olan, Milli Aviasiya Akademiyasında "İqtisadiyyat və hüquq" fakultəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent Qasımov Aydın Eylas oğlu 1953 - cü ildə sentyabr ayının 11 -də Bakı şəhərində anadan olmuşdur. 1970 - ci ildə Beyləqan rayonunun I Şahsevən kəndində orta məktəbi bitirdikdən sonra 1972-1973-cü illərdə hərbi xidmətdə olmuşdur.

A.E.Qasımov 1974 - cü ildə Bakı Dövlət Universitetinin Hüquq fakultəsinə daxil olmuş və 1980 - cı ildə ali məktəbi müvəffəqiyyətlə başa vuraraq elə həmin ildə Zəngilan rayon polis şöbəsinə əməliyyat müvəkkili vəzifəsinə təyin olunmuşdur. 1983 - cü ilə kimi bu vəzifədə işləyən Aydın Qasımov Tər-Tər rayon polis şöbəsində baş əməliyyat müvəkkili, daha sonra 1986 - cı ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsində əməliyyat müvəkkili kimi çalışmışdır. 1988-1991 - ci illərdə Tər - Tər, 1991-1992 - ci illərdə Bərdə rayon polis şöbəsində rəis müavini vəzifəsini yerinə yetirmişdir. 1992 - 1994 - cü illərdə Bakı şəhər Baş Polis İdarəsində baş əməliyyat müvəkkili, şöbə rəisinin müavini, şöbə rəisi və cinayət axtarış idarəsinin rəis müavini vəzifəsində işləyən Aydın Qasımov 1994 - 1997 - ci illərdə Qaradağ rayon Polis İdarəsinin rəisi vəzifəsində işləmişdir. İşinə daima can yandıran, son dərəcə məsuliyyətli olması ona hər yerdə baş ucalığı gətirmişdir.

Aydın Eylas oğlu Qasımov 1995 - ci ildə növbədənkənar polis polkovniki xüsusi rütbəsi almışdır. Bacarığına və iş təcrübəsinə görə irəli çəkilən Aydın Qasımov həyatda hansısa bir addımı atanda məqsədli şəkildə etmiş və məqsədinə doğru can atmışdır. İnsan o vaxt səhv edir ki, nə istədiyini bilmir. Məqsədli gediş hər şey deməkdir.- deyərək düşünən Aydın Qasımovun insanlarda xüsusi dəyərləndirdiyi ən mühüm xüsusiyyətlər onların ədalətli və səmimi olmasıdır.

Haqqa, ədalətə, həqiqətə arxalanan bir insan mütləq əmin olmalıdır ki, ilahi





onu haqq yolu ilə işıqlı-nurlu bir gələcəyə aparacaqdır.



1997 - ci ilin mart ayının 6- dan Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini, MQİBİ - nın rəisi vəzifəsinə təyin olunmuşdur. İşində heç bir qanun pozuntusuna yol verməyən, daima ədalətli və səmimi olan Aydın Qasımov hərbi rütbəyə, 1998 - ci ilin dekabr ayının 31 - də cənab Heydər Əliyevin fərmanı ilə general - mayor rütbəsinə layiq görülmüşdür.

Bütün insanlıq komplekslərini özündə cəmləşdirən Aydın Qasımov, tutduğu vəzifəni, apardığı işləri,ləyaqətlə yerinə yetirməklə layiq görüldüyü hər bir mükafata görə vətən və xalq qarşısında məmnundur.

A.E.Qasımov hal - hazırda Milli Aviasiya Akademiyasında "İqtisadiyyat və hüquq" fakultəsinin dekanıdır. 10 cildlik "Cəza - icra hüququnun tarixi" elmi monoqrafiyasının, "Azərbaycan Respublikası cəzalarının icrası məcəlləsinin komentariyası"nın, "Dəstə tərəfindən törədilən ictimai - təhlükəli əməllərlə cinayət - hüquqi mübarizə adlı monoqrafiyanın müəllifidir.

2003 - cü ildə Ulu öndər Heydər Əliyevin anadan olmasının 80 illiyi şərəfinə Aydın Qasımovun ucaltdığı heykəl o dövrdə nəinki Azərbaycanda, hətta bütün dünyada ucaldılmış ilk heykəl idi.

Zəngin mənəvi dəyərlərlə, humanist əməllərə, saf düşüncələrə, niyyətlərə malik olan, ülvi amal üçün yaşayan Aydın Eylas oğlu gözəl ailə başçısıdır. 3 övladı var.



## QURBANOV ELŞAD MƏCNUN OĞLU

*Biologiya elmləri doktoru, professor*



***Elm haqqa, həqiqətə doğru aparan bilgilər sistemidir.***
*M.Fizuli.*

Xoşbəxt o insandır ki, öz sənətini sevir, sənət də onu. Belə qarşılıqlı məhəbbət insanı ucaldır. Öz sənətinə ürəkdən bağlanaraq bu sahədə daim yeniliklər axtaran, bütün insani keyfiyyətlərə malik botanika kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Qurbanov Elşad Məcnun oğlu 2 yanvar 1951 - ci ildə Zəngəzur mahalının Sisyan rayonunun Urud kəndində anadan olmuşdur. 1973 - cü ildə Bakı şəhəri 8 saylı tibb məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. 1972 - 1980 - cı illərdə Bakının Nərimanov və Yasamal rayońunun sanitar epidemioloji stansiyalarında sanitar - həkim köməkçisi vəzifəsində çalışmışdır.

E.M.Qurbanov Bakı Dövlət Universitetinin biologiya fakultəsini botanika ixtisası üzrə bitirmişdir. 1979 - 82 - ci illərdə Azərbaycan MEA - nın Botanika İnstitutunun aspiranturasında əyani təhsil almış və 1984 - cü ildə namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi, 2004 - cü ildə doktorluq dissertasiyasını müdafiə edərək biologiya elmləri doktoru elmi adını almışdır. Həmin ildən BDU - nun professorudur. Tanınmış alim 190-a qədər elmi əsərin (o cümlədən 80 - ı xaricdə), 7 kitabın, çoxlu sayda tədris proqramlarının müəllifi və 5 kitabın elmi redaktorudur. Dəfələrlə beynəlxalq simpozium və konfranslarda (Avropa ölkələrində, Rusiya Federasiyasının bir çox şəhərlərində, Türkiyə Cümhuriyyətinin bir çox universitetlərində, Gürcüstanda, İran İslam Respublikasında) çıxış etmişdir. Onlarla doktorluq və namizədlik dissertasiyalarının opponenti və ya aparıcı təşkilat kimi rəyçisi olmuş, Elşad Qurbanovun rəhbərliyi ilə 20 - dən çox magistr və üç aspirant müdafiə edərək elmi dərəcə almışdır

AMEA - nın bəzi institutlarının elmi şurasının, ADRU - nun nəzdində fəaliyyət göstərən B/D 02.061 doktorluq müdafiə şurasının üzvüdür. O, elmi tədqiqatlarla yanaşı pedaqoji fəaliyyətlə də məşğuldur. 1982 - ci ildən botanika kafedrasının müəllimi, baş müəllimi və 1992 - ci ildən BDU - nun botanika kafedrasının müdiri vəzifəsində çalışır.

Elşad Məcnun oğlu nizam - intizamlı bir müəllim kimi göstərdiyi fəaliyyətə görə BDU-nun rəhbərliyi tərəfindən dəfələrlə təşəkkür almış, BDU - nun 75 illiyinə həsr edilmiş xatirə medalına layiq görülmüşdür. 2009 - cu ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən "Tərəqqi" medalı ilə təltif olunmuşdur. 2009 - cu ildə yerinə yetirdiyi elmi işlərin nəticəsinə görə "İlin alimi" fəxri adını almışdır.

2000 - 2002 - ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komisiyyasının üzvü olmuşdur. E.M.Qurbanov Azərbaycanın "Qırmızı kitab"ının redaksiya heyətinin üzvüdür.





## QULİYEVA MEHPARƏ

*Şərəfli alim, qabaqcıl təhsil işçisi*



**Elm yolunu seçən insan üçün Allah da behiştə sarı bir yol açır.**
*Məhəmməd reyğəmbər (əs)*

Vətənpərvər ziyalı, elmli filoloq, yüksək mənəviyyata mənsub - savadlı kadrlar yetişdirən pedaqoq adı daşımaq şərəfli bir məqamdır. Bu yüksək məqama mənsub olan alim xanım - Mehparə Quliyevanın fəaliyyətindən qısa məlumatı oxucuya çatdırmaqda məqsədimiz gənc azəri qızlarına -"Haqq yolu ilə, öz halal zəhməti və elmi ilə çalışaraq şərəfli ada layiq olan xanımlarımızın həyatından örnək götürün" - deməkdir. Mehparə Quliyeva 1949 - cü il 20 noyabr tarixində anadan olmuş, orta təhsili başa vurduqdan sonra 3 il (1967 - 1970 - ci illər) orta təhsil müəssisəsində baş pioner dəstə rəhbəri kimi çalışaraq iş təcrübəsi toplamış və 1970 - ci ildə V.İ.Lenin adına APİ - yə (hazırkı Azərbaycan Pedaqoji Universiteti) qəbul olunmuşdur.

O, hələ tələbəlik illərindən ictimai işlərdə fəal, çalışqan bir gənc xanım kimi kollektivin hörmətini qazanmış, Tələbə Elmi Cəmiyyətinin fəal üzvü olaraq konfranslarda yüksək səviyyəli çıxışları və səmərəli təklifləri ilə elmli, bacarıqlı tələbə kimi seçilmişdir. Ali təhsili müvəffəqiyyətlə başa vuran Mehparə Quliyeva 1977 - ci il 25 yanvar tarixindən Bakı Dövlət Universitetinin pedaqoqika kafedrasında əmək fəaliyyətinə başlayır. Mehparə xanım "1970 - 1980 - cı illərin bədii nəşrində işlənmiş dialekt sözləri" mövzusu üzrə namizədlik dissertasiyası üzərində işləyərək 1987 - ci ildə uğurla müdafiə edir və filologiya elmləri namizədi, alimlik dərəcəsi adını alır. Hazırda Bakı Dövlət Universitetinin Pedaqoqika Kafedrasında dosent vəzifəsində çalışan Mehparə Quliyevanın dərin məzmunlu və yüksək səviyyəli çıxışlarını ölkə dinləyiciləri böyük maraqla radio qarşısında dinləyir və bu tərbiyəvi tövsiyələrə köklənən mövzulardan bir örnək alır hər kəs. Mehparə xanım pedaqoq - alim olmaqla yanaşı yaradıcılıq fəaliyyətini də davam etdirməklə 50 - dən artıq məqalənin, tezislərin, 5 iri həcimli dərs vəsaitinin və monoqrafiyanın müəllifidir. Onun əməyi rəhbərlik tərəfindən yüksək dəyərləndirilmiş və M.Quliyeva bir sıra mükafatlara, təltiflərə layiq görülmüşdür. Mehparə xanımın ömür tarixinin ən yüksək təltifi qazandığı hörmətdir ki, bu nüfuzu alim xanım öz yüksək mənəviyyatı, əsil - nəcib bir insan olması, haqq - ədalət yolu ilə irəliləməsi müqabilində əldə etmişdir. Dövlətimiz və xalqımız yaxşıları dəyərləndirəndir. Mehparə Quliyevanı tələbələr, məzunlar, professor - müəllim heyəti yaxşı dəyərləndirəndir. Mehparə Quliyevanı böyük hörmət və məhəbbətlə qarşılayır. Biz də yazarlar olaraq Nigar qeyrətli, Həcər hünərli alim azəri xanımlarına xalqımız adından minnətdar olduğumuzu bildiririk. Mehparə xanım "Qabaqcıl Təhsil işçisi" döş nişanı, BDU - nun "Fəxri fərmanı" ilə təltif olunmuşdur. Mehparə Quliyevaya elmi və pedaqoji işlərində nailiyyətlər, həyatda səadət arzulayırıq.

## QƏHRƏMANOV ADİL

*Şərəfli-alim*



**İnsan elmdən nə qədər ac olsa, nəfsi bir o qədər tox olar.**

*Atalar sözü*

Hər bir kəs həyatda layiqli yerini tutmaq üçün çalışır. "Niyyətin hara, mənzilin ora" - demişdir atalar. Riyaziyyat elmləri üzrə alimlik dərəcəsinə layiq görülərək ömrünü təhsilin inkişaf yollarına, elmə həsr edən Adil Qəhrəmanov Gürcüstan Respublikasının Adıgün şəhərində 1942 - ci il 27 sentyabr tarixində dünyaya gəlmişdir. Orta təhsili başa vuraraq ADU (BDU) - nun mexanika - riyaziyyat fakultəsinə daxil olmuşdur.

1966 - cı ildə ADU - nu müvəffəqiyyətlə bitirən Adil Qəhrəmanov universitetin Elmi Şurasının zəmanəti ilə AR MEA - nın Mexanika və Riyaziyyat İnstitutunun aspiranturasına daxil olur. 1972 - ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edərək elmlər namizədi, alimlik dərəcəsi almışdır.

Adil Qəhrəmanov təhsil sahəsində müvəffəqiyyətlərə nail olaraq çalışan bir alim kimi etimad qazanmış və riyazi fizika üzrə baş elmi işçi dərəcəsi almışdır. Adil Qəhrəmanov 1981 - ci ildə Tətbiqi riyaziyyat kafedrasına müsabiqə yolu ilə baş müəllim vəzifəsinə təyin edilmişdir. 45 ildir ki, öz ixtisasının alimi olaraq yorulmadan çalışır. 1985 - ci ildə müsabiqə yolu ilə Tətbiqi riyaziyyat kafedrasında dosent vəzifəsinə seçilmişdir. 1988 - ci ildən Adil Qəhrəmanov hal - hazıra qədər elm - təhsil yollarında uğurla çalışır.

Tətbiqi riyaziyyat və kibernetika kafedrasında bütün kollektivin, məzunların, universitet əməkdaşlarından adi gənc tələbəyə qədər hamının hörmət və məhəbbət bəslədiyi ziyalı alim Adil Qəhrəmanov vətənpərvər bir pedaqoqdur. Şərəfli ziyalı, ləyaqətli müəllim, dosent Adil Qəhrəmanov qayğıkeş ata, məsuliyyətli ailə başçısıdır. Həyat yoldaşı Əmirova Elmira Cəmşid qızı 2 saylı Bakı Musiqi Məktəbində şöbə müdiridir. Ziyalılar ailəsində iki qız övladı ali təhsilə yiyələnmişdir. Lamiyə xanım ailəlidir. Səbinə xanım isə Qərb universitetinin məzunudur. Adil Qəhrəmanova ailəsi ilə birgə səadətlə dolu illər, yaradıcılığında uğurlar arzulayırıq.





## QASIMOVA FİDAN ƏKRƏM QIZI

*Dünya şöhrətli ecazkar musiqiçi, xalq artisti, professor*



Soy - kökü ululara bağlı zəngin bu nəslin ziyalı, istedadlı, nüfuzlu davamçıları ölkəmizin, xalqımızın fəxri olmuş, vardır və gələcəkdə də Tanrının köməyi ilə olacaqdır. Qori Müəllimlər Seminariyasında Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bədəlbəyli kimi dahilərlə eyni elmlərə yiyələnmişdir Əli Qasımov. Daha sonralar Azərbaycanın maarifpərvər şəxsiyyəti olaraq, ölkəninin Səlyan, Lənkaran, Şuşa və s. bölgələrində məktəb direktoru, təhsil üzrə məsul vəzifə aparan Əli Qasımovu yetirən Qafqaz Ruhanilər İdarəsinin Şeyx Ül İslamı - Axundu və rəhbəri Əbdüs Salam Axundzadə olmuşdur.

Əli Qasımov Azərbaycan dahilərinin: N.Nərimanov, C.Məmmədquluzadə, Süleyman Sani Axundov, M. Mahmudbəyovun bir zaman təhsilə yiyələndiyi tatar məktəbinin direktoru vəzifəsində çalışmışdır. Dahi yazıçı Lev Tolstoyun yaxın qələm dostu, tərcüməçi, filoloq, yazıçı, qabaqcıl maarifçi Əli Qasımovun oğlu Əkrəm Qasımov o gözəl övladları yurdumuza bəxş edən atadır. Əkrəm Qasımov və Tükəzban xanım Qasımova üç alicənab övladlar yetirmişdir yurdumuza Əlibəy Qasımov, Fidan və Xuraman Qasımovalar. Əkrəm Qasımov Neft Akademiyasında ali təhsil almış və uğurlarla, nailiyyətlər, zəngin bir fəaliyyət yolu ilə rəhbər vəzifədə çalışmış və onun ruhən incəsənətə bağlılığı övladlarının yaradıcılığında, əldə etdikləri nüfuzda, tanınıb şöhrətə, təltifə layiq olduqları ölkəmizdə və dünyada öz izini qoymuşdur.

Əkrəm Qasımov və Tükəzban xanım, hər ikisi ziyalı olmaqla yanaşı musiqiyə, incəsənətə, poeziyaya qəlbən vurğun və istedadlı olduğu haqda artıq kitablar yazılmışdır. Fidan Qasımova hələ uşaqkən ailə dostları, valideynlərinin əziz qonaqları olan Niyazi, Tofiq Quliyev, Şəmsi Bədəlbəyli, Lətif Kərimov, Süleyman Rüstəm, Rauf Hacıyev kimi dahilərin incəsənətlə bağlı fikirlərini, söhbətlərini və ifalarını dinləmişdir. F.Qasımovanın xatirələri sonsuzdur: "Atam yorulmadan çalar, muğamdan başlayaraq xalq mahnıları, operalardan ariya və romanslar (maestro Niyazinin müşayəti ilə) ifa edərdi".

Azərbaycan Dövlət Plan İdarə rəisi vəzifəsində çalışan Ə.Qasımov ailədə mehriban, səmimi ata, layiqli həyat yoldaşı olmuşdur. Vətən müharibəsi dövründə Tükəzban xanım həm arxa cəbhədə həkim kimi (Tibb universitetinin tələbəsi olaraq) çalışmış və ailə qayğıları ilə məşğul olmuşdur. Onun yaradıcılıq yollarını bəzəyən

bəstələdiyi mahnılardan: "Ürəyim", "Getmə dayan" (sözləri M.Müşviqindir), Şövkət Ələkbərovanın ifasında səslənərkən insan ruhən qanadlanırdı.

Budur ruhən nəsildən nəslə ötürülən təkrarsız incilərlə, gövhərlərlə bəzənmiş sərvət. O sərvət ki, bütün Azərbaycanı, xarici dövlətlərin xalqları onun qarşısında baş əyir. O sərvət Fidan və Xuraman adlı incəsənət xəzinəsi, istedad məbədidir. "Qoşa qanad" Qasımovaları heç kəs əvəz etmək iqtidarında deyil hələlik. Bu alicənab alim xanımların öz zəhməti və rəhbərliyi ilə bəlkə bu nə vaxtsa baş verə bilər. Məşhur opera nəğməkarı, SSRİ xalq artisti, professor Fidan Qasımova dünyanın hər bölgəsindən parlaq qələbə ilə vətənə dönmüş, incəsənətimizin zənginliyini sübuta yetirmişdir. Onun bilik və bacarığının inkişaf edib formalaşmasında əvəzsiz xidməti olan anası Tükəzban xanım, Fidan xanımın bu günkü məşhurluğunu sanki, öncədən görür, duyurdu. Dahi mayestro Niyazinin fəxri və ən sevimli məşhur musiqiçiləri Müslüm Maqomayev, Fərhad Bədəlbəyli, Fidan və Xuraman Qasımovalar olmuşlar. Hansı ki, onlar bütün xalqımızın fəxri, incəsənətin şahanə bir şəfəqidirlər. Mərhum prezidentimiz, ölməz Ulu öndər, Ümummilli lider Heydər Əliyev Fidan və Xuraman Qasımovaları Azərbaycanın ən dəyərli xəzinəsi, incisi kimi dəyərləndirmişdir. Heydər Əliyev xalqımıza rəhbər vəzifədə çalışanlara öz çıxışında: "Belə nadir incilərimizə qarşı diqqətli və qayğılı olmağı" tövsiyə etmiş və dəfələrlə Fidan Qasımova yüksək təltiflərlə mükafatlandırılmışdır. Ali təhsilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında yiyələnən Fidan Qasımovanın misilsiz ifasını, ucalığını incəsənət xadimi, SSRİ xalq artisti, incəsənət Akademiyasının rektoru Fərhad Bədəlbəyli yüksək qiymətləndirir, onun çıxışından qısa məqam: "Fidan Qasımovanın sehirli səsi, musiqi incəliklərinə dərindən bələd olması, ondan ilahi bir qüdrət, istedad hər kəsə nəsib deyil". F.Qasımova Azərbaycan Dövlət Konservatoriyasını bitirərək, aspiranturaya daxil olur və yaradıcılıq yollarında öz istedadı, ecazkar səsi, elmi və bacarıbı ilə pillə - pillə xalq gözündə, vətəndə və dünyada ucalır.

Bir çox dövlətlərdə səfərdə olmuş F.Qasımova ölkəmizə qalib - birinci olaraq mükafatlarla dönmüşdür. Bu fəaliyyət və təltiflər haqda çox deyilmiş, çox yazılmış, onun məharətlə ifa etdiyi baş rolları, əsərin əsas qəhrəmanı Fidan xanım olduğunu oxucular məlumatlı olduğu üçün təkrar etmirik. Fidan xanım Qasımovanın yaratdığı obrazlar əsəri yaddaşlarda yaşadaraq daha yüksək səviyyəyə qaldırır.

"Koroğlu"da Nigar, "Karmen"də Mikaela, "Sevil"də Sevil, "Otello"da Otello, "Voqema"da Mimi, "Yevgeni Onegin"də Tatyana, "Fanste"də Mimi və s.

Azərbaycanın vokal ifaçıları içərisində ilk dəfə olaraq Fidan Qasımova İtaliyada keçirilən Beynəlxalq musiqi - ifaçıları müsabiqəsində "Qızıl medal"a layiq görülərək, ilk mükafat almışdır. Professor, xalq artisti adına layiq görülmüş ziyalı xadim, şərəfli, şöhrətli ifaçımız Fidan xanım Qasımova bütün uğurlarına görə valideynlərinə, təhsil aldığı elm, incəsənət ocaqlarının kollektivinə, onun yaradıcılığını dəyərləndirən böyük şəxsiyyətlərə minnətdar olduğunu bildirir. Qeyd etmək





borcumuzdur ki, onun təhsil aldığı Bülbül adına Bakı Musiqi mktəbinin və Azərbaycan Dövlət Konservatoriyasının bütün kollektivi professor Fidan Qasımova kimi bir ziyalı xanım məzunu ilə fəxr edir və qürur duyur. Xalqımızın, vətənimizin Fidan və Xuraman Qasımovalar adlı fəxarət, mədəniyyət, sehirli səs və elm, istedad xəzinəsi vardır. Opera ulduzu, alim, Beynəlxalq laureatlar mükafatçısı, dünya şöhrətli ifaçı, professor Fidan xanım Qasımova. Əlbət ki, bir ömür həsr edərək xalq məhəbbəti, vətən hörməti dünya incəsənətində fəxri ad qazanmağa qadir professor Fidan xanımın keçdiyi yaradıcılıq yolunun izahı üçün əsərlər, kitablar yazılsa bəlkə də az olar deyərdik. Lakin onu qeyd etmək lazımdır ki, Fidan Qasımova və ya Xuraman Qasımova dedikdə, yazdıqda, yaxud onlar ekranda, həyatda göründükdə xalqımız sevinc və fəxarət hissi duyur. Bu məhəbbət, bu hörmət Fidan xanımın və Xuraman xanımın ən dəyərli təltifi və sərvətidir. Fidan Qasımovaya həyatda səadət, fəaliyyətdə uğurlar arzulayırıq.



## QASIMOVA XURAMAN ƏKRƏM QIZI

*Dünya şöhrətli ifaçı, xalq artisti, professor*



Dünyanın mənası, həyatın rövnəqi və tarixin davamçısı olan insan mənəviyyatı kökdən olur. Azərbaycanın qədim, zəngin; Həzrəti Peyğəmbər (s.ə.s) nəslinin davamçıları olan müqəddəs imamət nəslinin törəmələrinin hal - hazıra qədər yaşayıb - yaratdığı torpaq Kür sahilində, bir zamanlar Tuğay meşələri ilə əhatə olunan, ulular yetirən salxım söyüdlü Şirvan.

Qafqaz Ruhani Müsəlmanlar İdarəsinin Axund - rəhbəri, ŞeyxÜl İslam, Əbdüs Salam Axundzadə. Onun həyat və fəaliyyəti haqda çox yazılıb, deyilmişdir. Əbdüs Salam Axundzadə Fidan və Xuraman Qasımovaların ulu babasıdır. Bu məqamı oxucuların nəzər - diqqətinə çatdırmaqda məqsəd insanların kökdən rişələndiyini, zənginliyin nəslən keçdiyini aydınlaşdırmaqdır. Ölkəmizin tanınmış şəxsiyyətləri ziyalılar ailəsində "Qoşa qanad" Qasımova bacıları dünyaya gəlmişdir. Azərbaycan bəstəkarlar İttifaqının üzvü Tükəzban xanım və məsul rəhbər vəzifələrdə çalışmaqla yanaşı qəlbən incəsənətə bağlı, ziyalı şəxs Əkrəm Qasımov - ata - ana olaraq yurdumuza üç ləyaqətli övlad yetirmişlər: Əlibəy, Fidan və Xuraman xanım, bunlar ziyalı, alicənab, mötəbər valideynlərin yetirmələridir. Professor Xuraman Qasımova ali təhsil illərinə qədər artıq bir musiqiçi idi. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında musiqi incəlikləri sirrlərinə dərindən bələd olan Xuraman xanım yüksək mədəniyyəti və mənəvi zənginliyi ilə xalq məhəbbəti ilə təltif olunmuş bir ifaçıdır.

O, hələ gənc yaşlarından dünyanın bir sıra ölkələrində keçirilən Beynəlxalq və Ümumittifaq konkursların Beynəlxalq laureatı olmuş, yüksək mükafatlar və təltiflərlə vətənə dönmüşdür. Xuraman Qasımovanın fəaliyyəti Fidan xanımla yanaşı olduğu üçün, bu iki ecazkar musiqiçi "Qoşa qanad" adlandırılmışdır. Azərbaycan Dövlət Opera və balet Teptrının solisti olan X.Qasımova daima alqışlanmış və məhəbbət, hörmətlə qarşılanmışdır. Xalq artisti adına layiq görülmüş, elmi, istedadı, bacarığı ilə professorluq zirvəsi fəth etmiş Xuraman xanım 1982 - ci ildə, o dövrün ən yüksək mükafatına: Respublika "Lenin Komsomolu" mükafatı laureatı adına layiq görülmüşdür. Xuraman xanımın ifasında xalqa təqdim olunan əsas qəhrəman olan baş rollar xalqın məhəbbətini, rəğbətini qazanmışdır. Səhnə mədəniyyəti, milli - mənəvi dəyərlərimiz, ilahinin bəxş etdiyi istedad, elmi biliklər bütünlükdə onun varlığında cəmlənmişdir. İstambul Konservatoriyasında çalışan professor





X.Qasımova Türkiyə Dövləti tərəfindən səhnəyə dəvət olmuş və incəsənətimizin təmsilçisi olaraq, xalqımızın adını zirvəyə ucaltmışdır.

1994-cü ildən Azərbaycan Musiqi Akademiyasında vokal kafedrasının müdiri vəzifəsində çalışan professor X.Qasımova ölkəmizdə yüzlərlə musiqişünas, ifaçı, incəsənətin inkişafında mühüm rolu olan ziyalılar yetişməsi yolunda fədakarlıqla çalışır. Ümummilli liderimiz Ulu öndər, əbədiyaşar Prezident Heydər Əliyevin çıxışlarından bir məqama diqqət edək: "Yüz il əvvəl dahi Üzeyir Hacıbəyov Azərbaycan klassik incəsənətinin bünövrəsini qoydu. Bizim zəngin mədəniyyətimiz nadir incilərə malikdir. Belə incilər azdır, ona görə də dəyərlidirlər. Onların ən nadiri, ən dəyərli gövhəri isə Fidan xanım və Xuraman xanımdır. Bizim keçmiş dövürdə ən qiymətli xəzinə qızıl hesab edilərdi və o zamanın qiymətli qızılı 999 əyar idi. Mən bütün insanlara üz tutaraq: Belə incilərimizə xüsusi münasibət bəsləməyə, hörmətlə yanaşıb qayğısını çəkməyə çağırıram. Mən istəyirəm ki, hər kəs gənc istedada diqqətlə yanaşsın. İstedadlı gənclər Fidan və Xuraman Qasımovalardan nümunə götürməlidir". Hər iki professor xanımlar ölməz prezident Heydər Əliyevi özlərinə və bütün istedadlı insanlara ruh atası hesab edirlər.

Xuraman xanımın dediklərindən: Ulu öndər Heydər Əliyev insanları yüksək dəyərləndirir. O böyük şəxsiyyətin özündə Allah istedad bəxş etdiyi üçün o da istedadlı insanları sevir və yüksək dəyərləndirir. Xuraman Qasımova xarici dövlətlərdə, dünyada, keçmiş SSRİ respublikalarında hörmətlə tanınır və alqşlarla qarşılanır. Xuraman xanım Qasımovanın apardığı rollar əbədi yadda qalan bir surət yaradır.

"Sevil"də Dilbər, "Aida"da Aida, "Mimi"də Munzetta və s.

Onun apardığı rollar, elmdə fəth etdiyi zirvə, çalışdığı rəhbər vəzifə, qadir olduğu istedadın, ecazkar səs və incəsənət duyumunun zənginliyi Xuraman Qasımova olaraq ona nə qədər nüfuz gətirmişsə, bu alicənab ziyalı xanımın çox yüksək intellekt səviyyəsi, saf və incə duyqulu qəlbi, gözəlliyinə nur verən bahar ətirli ruhiyyəsi onun varlığını bizə, yəni xalqa tanıdır.

Ömrünün ən gözəl çağlarını yaşayır professor Xuraman xanım. Ona daha böyük nailiyyətlərlə bəzənmiş, səadət günəşinin şəfəqlərinin çilədiyi gözəl aylar, illər arzulayırıq.

## QASIMOV ALIŞ MƏMİŞ OĞLU

*Hüquq elmləri doktoru, professor*



**Yaxşı kitab yaxşı cəmiyyət kimi duyğuları və əxlaqı tərbiyələndirir və nəcibləşdirir.**

***N.İ.Pifaqor.***

Elmin nuru ilə şəfəq saçan ömür dünyası insana həmişə hörmət və baş ucalığı gətirib. Mənalı və zəhmətlə yaşanan ömür hər insana qismət olmur. Elmə, öz sənətinə ürəkdən bağlı olan, xalqı, torpağı ilə nəfəs alan, gənc yaşlarından elmin enişli-yoxuşlu yollarında inamla addımlayan hüquq elmləri doktoru, professor Qasımov Alış Məmiş oğlu 1960-cı ildə Beyləqan rayonunun Milabad qəsəbəsində fəhlə ailəsində anadan olub. 1977-ci ildə Milabad qəsəbə orta məktəbini bitirib. Elə həmin ildə Bakı Mebel Hissələri Kombinatında fəhlə qismində ilk əmək fəaliyyətinə başlayıb. 1979-1981-ci illədək Sovet ordusu sıralarında hərbi xidmətdə olub.

A.M.Qasımov 1981-ci ildə Bakı Mebel Hissələri Kombinatında fəhlə, daha sonra isə yataqxana müdiri vəzifəsində çalışıb.

1982-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət İnstitutunun (indiki BDU) hüquq fakultəsinin axşam şöbəsinin birinci kursuna daxil olmuş, 1988-ci ildə həmin fakultəni hüquqşünaslıq ixtisası üzrə bitirib.

A.M.Qasımov 1988-ci ildən 1989-cu illədək Bakı Şəhər Əzizbəyov Rayon Xalq Məhkəməsində kuriyer, kargüzar, dəftərxana müdiri vəzifələrində işləyib.

Çətinliklərə sinə gərməyi bacaran Alış Qasımov 1991-1994-cü illərdə istehsalatdan ayrılmadan Mülki proses əmək və ekologiya hüququ kafedrasının aspirantı olmuş, 1994-cü ilin aprelində əmək hüququ; sosial təminat hüququ ixtisası üzrə "Əmək və bəzi mülki hüquq münasibətlərindən əmələ gələn əvəzli və əvəzsiz əmlak səlahiyyətlərinin qarşılıqlı əlaqə sistemi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, hüquq elmləri namizədi alimlik dərəcəsi alıb. 1995-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın qərarına əsasən dosent elmi adına layiq görülüb.

A.M.Qasımov 30 iyun 2003-cü il tarixdə "Azərbaycan Respublikasının əmək hüququnda qarşılıqlı maddi məsuliyyət" mövzusunda doktorluq dissertasiyası





müdafiə edərək hüquq elmləri doktoru alimlik dərəcəsi alıb. Azərbaycan Respublikası Yanında AAK-nın Rəyasət Heyətinin 5 fevral 2010-cu il tarixli qərarı ilə professor elmi adına layiq görülüb.

A.M.Qasımov 21 fevral 1989-cu ildən bu cünədək Bakı Dövlət Universitetinin hüquq fakultəsində çalışır. Həmin müddətdə baş metodist, müəllim, baş müəllim, dosent, dekan müavini vəzifələrində çalışıb. Hal-hazırda Mülki proses, əmək və ekologiya kafedrasının müdiridir.

2001-ci ildə Müqəddəs Həcc, 2002-ci ildə Müqəddəs Kərbəla və Məşəd ziyarətlərində olub.

A.M.Qasımov Yeni Azərbaycan Partiyasının üzvüdür.

Hər kəsə örnək olacaq bir ömür yolu yaşayan A.Qasımovun keçdiyi enişli-yoxuşlu cığırlar yüksək mənəviyyatlı ziyalını elə bir zirvəyə aparmışdır ki, onun adı o ucalıqdan boylanır.

Gözəl ailə başçısı olan Alış müəllimin Vətənə layiqli üç ali təhsilli oğulları var. Ziyalılar ailəsinə səadət arzulayırıq!



## MİRZƏCANZADƏ AZAD XƏLİL OĞLU

*Akademik, iki dəfə dövlət mükafatı laureatı*



**Hikmətlə, biliklə, comərdliklə sən,**
**Hər iki dünyada şahdan hakimsən.**
***X.Nasir***

Mirzəcanzadə Azad Xəlil oğlu Bakı şəhərində anadan olmuşdur. 1945-1948-ci illərdə orta məktəbdə müəllim kimi əmək fəaliyyətinə başlamışdır. 1948-1959-cu illərdə Azərbaycan EA sistemində, Neft institutunda laborant, elmi işçi, Neft Ekspedisiyasında şöbə rəhbəri, Geologiya institutunda laboratoriya rəhbəri işləmişdir. 1949-cu ildə "Neft və qaz quyularının işlənməsi və istismarı" ixtisası üzrə AzSİ-nin neft-mədən fakultəsini bitirmişdir. 1951-ci ildə "Gilli məhlulların hidravlikasının elementləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1952-1960-cı illərdə ADU-nin dosenti, professoru olmuşdur. 1957-ci ildə "Özlüplastik və özlü mayelərin hidromexanikası məsələləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1959-cu ildən - AzETNÇİ-da "Hidromexanika" laboratoriyasının rəhbəri olub. 1962-ci ildə Azərbaycan EA-nın müxbir, 1968-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1962-ci ildən AzNKİ-nun "Neft yataqlarının işlənilməsi və istismarı" kafedrasına rəhbərlik edib.

1969 - 1973-cü illərdə - SSRİ EA Mexanika problemləri institutunda (Moskva) "Neft və qazın qeyri-xətti mexanikası" şöbəsinin, Geologiya və faydalı qazıntılar yataqlarının işlənilməsi institutunda (Moskva) laboratoriya rəhbəridir.

1973-2004-cü illərdə Neft hasilatı üzrə Sahəvi elmi-tədqiqat kompleksində şöbə müdiri, böyük elmi işçi, prezident müşaviri olub. 1988-2002-ci illərdə Azərbaycan EA- Riyaziyyat və mexanika institutunda şöbə müdiri, 1992-2001-ci illərdə Azərbaycan Respublikası prezidenti AAK-nın sədri, Azərbaycanın Elm və Texnika üzrə Dövlət Komitəsnin sədri işləyib.

2002-2006-cı illərdə ADNA-da "Neft yataqlarınnn işlənilməsi və istismmarı" kafedrasına rəhbərlik edib və eyni zamanda həmin kafedranın professoru olmuşdur. Mirzəcanzadə A.X. neft və qaz yataqlarının işlənilməsi sahəsində görkəmli alimdir.

Mirzəcanzadə A.X. 400-dən artıq elmi məqalənin, 70 monoqrafiyanın müəllifidir. İxtira və patentlərə görə 57 müəlliflik şəhadətnaməsi alıb. 100-dən artıq elmlər doktoru və 300 elmlər namizədi hazırlayıb.





Beynəlxalq Şərq Neft Akademiyasının prezidenti, Ukrayna Neft və qaz akademiyasının həqiqi üzvü, Rusiya Təbiət elmləri akademiyasının xarici həqiqi üzvü, Başqırdıstan Elmlər Akademiyasının fəxri üzvü olmuşdur. O, iki dəfə Azərbaycan Dövlət mükafatının, üç dəfə akad. İ.M.Qubkin adına mükafatın, SSRİ Nazirlər Sovetinin mükafatının laureatıdır. Mirzəcanzadə A.X. SSRİ Təhsil nazirliyinin mükafatı laureatı, "SSRİ fəxri neftçisi", "SSRİ qaz sənayesinin fəxri işçisi", "Rusiyanın Yanacaq Enerji Kompleksinin fəxri işçisi", "Azərbaycanın əməkdar elm və texnika xadimi", "Bolqarıstanın fəxri neftçisi" adlarına layiq görülmüşdür.

O, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni, həmçinin Oktyabr İnqilabı, Şərəf Nişanı, Azərbaycan Respublikasının "İstiqlal" ordenləri və akad. P.L.Kapitsa adına qızıl medal ilə təltif olunmuşdur.

1993-cü ildə akad. Mirzəcanzadə A.X. adına fond yaradılmışdır.

Azad Mirzəcanzadə 2006-cı ildə vəfat etmişdir.



## MƏRDANOV MİSİR CÜMAYİL OĞLU

*Əməkdar elm xadimi, şöhrət ordenli, mexanik riyaziyyat elmləri doktoru, professor*



***Dünyada hər bir dövləti təşkil edən üç amildir: torpaq, millət və hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil bir məmləkətdir.***

*Y.V.Çəmənzəminli.*

Kamil insan ali hisslərin işığında inamla addımlayır, yaşadığı illər ərzində əməlləri ilə ömür salnamısinə layiqli izlər salır. Zəngin ömür yaşayraq nəsillərə örnək olur. Milli mənsubiyyətinə görə qürur hissi keçirən, tələbələrin savadlanmasında, onların püxtələşməsində, əvəzsiz rolu olan "Əməkdar elm xalimi", "Şöhrət" ordenli Azərbaycan Respublikasının Təhsil Naziri, professor Azərbaycan milli təhsil sisteminin inkişafında Misir Mərdanovun xidmətləri misilsizdir. Təhsil sisteminin yenidən qurulması və dünya təhsil sistemi standartlarına cavab verməsi ən çox Misir müəllimin adı ilə bağlıdır. Misir Cumayıl oğlu Mərdanov 1946-cı il oktyabrın 3-də anadan olub. 1964-cü ildə orta məktəbi bitirib, həmin il Azərbaycan Dövlət Universitetinə daxil olub. 1969-cu ildə universitetin mexanika-riyaziyyat fakültəsini bitirib.

M.Mərdanov 1970-1972-ci illərdə ADU-nun aspirantı olub. 1973-cü ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyasını müdafiə edib. 1971-ci ildən 1989-cu ilədək ADU-nun mexanika-riyaziyyat fakültəsində müəllim, baş müəllim, dossent, 1978-ci ildən 1989-cu ilə kimi dekan müavini vəzifələrində çalışıb. 1989-1992-ci illərdə Azərbaycan Respublikası Xalq Təhsil Nazirliyində Ali Təhsil İdarəsinin rəisi, təhsil nazirinin müavini işləyib. 1992-1996-cı illərdə ADU-nun tədris işləri üzrə prorektoru, 1997-ci ildə isə Bakı Dövlət Universitetinin rektoru olub. 1998-ci ildən Azərbaycan Respublikasının təhsil naziri vəzifəsində çalışır.

Elm və təhsil sahəsindəki nailiyyətlərinə görə 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Əməkdar elm xadimi" fəxri adına, 2006-cı ildə isə "Şöhrət" ordeninə layiq görülüb.

15-dən artıq kitabın, 100-dən çox elmi məqalənin müəllifidir.

Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının və idaər heyətinin üzvüdür.

Onun böyüklüyü varlığında, xarakierində, insanlara münasibətdə öz təcəssümünü tapır. Ali niyyət sahibi bütün insani keyfiyyətləri özündə birləşdirən Misir Mərdanov nurlu bir ziyadır. Yüksək mədəniyyət sahibi, təvazökar, səmimi insan, öz sənətini daim uca tutan professora səadət dolu günlər arzu edirik! Ailəlidir, 3 övladı var.





## MƏHƏRRƏMOV ABEL MƏHƏMMƏDƏLİ OĞLU

*Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü,*
*Kimya Elmləri doktoru, professor*



**"Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam"!**

*Heydər Əliyev*

Müdirklik insan ömrünün ən uca zirvəsidir. Müdrik insan əlçatmaz uca dağ zirvəsinə bənzəyir, elmi, dühası, zəngin təxəyyülü ilə ətrafa işıq saçır, insanlara gərəkli olur. Tanrı tərəfindən sevilib seçilən insanlar həmişə elmli, bacarıqlı, qabiliyyətli və istedadlı olurlar. Belə insanların kəşfləri, iztirabları, zaman-zaman xalqa xidmət edərək, tarixin əbədiyaşar səhifələrində kök salmış, nəsildən-nəsilə ötürülmüşdür. Zəngin mənəvi dəyərlərə malik olan, xalqına, millətinə sədaqətlə xidmət edən, AMEA-nın həqiq üzvü, Milli Məclisin deputatı, Azərbaycan-Yaponiya Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupunun rəhbəri, Bakı Dövlət Universitetinin rektoru, Əməkdar elm xadimi, Nyu-york Elmlər Akademiyasının həqiqi üzvü, Beynəlxalq Ali Təhsil Assosiasiyalarının prezidenti Abel Məhərrəmov 1950-ci il yanvarın 5-də Ağdam şəhərində anadan olmuşdur. Abel Məhərrəmov orta məktəbi medalla bitirdikdən sonra 1966-cı ildə Bakı Dövlət Universitetinin kimya fakültəsinə qəbul olmuş və oranı 1971-ci ildə əla qiymətlərlə başa vurmuşdur. Universiteti bitirdikdən sonra təyinatla Ümumittifaq Olefinlər Elmi-Tədqiqat İnstitutunda operator, sonra isə mühəndis vəzifəsində çalışmışdır. 1973-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində üzvi kimya ixtisası üzrə (əyani) aspiranturaya daxil olmuşdur. 1976-cı ildə akademik N.S.Zefirovun rəhbərliyi altında "İkiqat rabitələrlə birləşmə reaksiyalarında sulfenxloridlərin elektrofilliyinin artırılmasının yeni metodu" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1991-ci ildən "Alkenlərin, üçüzvlü karbo və heterotsiklli birləşmələrin elektrofil reaksiyaları əsasında yeni sintetik yanaşmalar" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və həmin ildən də BDU-nun üzvi kimya fafedrasının professorudur.

Elmi-pedaqoji fəaliyyəti dövründə xaricdə və respublikamızda 600-ə yaxın elmi məqalə dərc etdirmişdir. O cümlədən, 33 ixtiranın, 10-a yaxın monoqrafiya, 37 dərslik və dərs vəsaitinin müəllifidir.

A.Məhərrəmov üzvi kimya kafedrasının müdiri, "Zərif üzvi sintez" Elmi-Tədqiqat Laboratoriyasının rəhbəri, AMEA-nın həqiqi üzvü, Əməkdar elm

xadimi, kimyanın əsas sahələrindən hesab edilən neft kimyası, üzvi kimya sahəsində geniş və dərin tədqiqatlar aparan, onu yeni biliklərlə zənginləşdirən, elmi məktəb yaradan tanınmış kimyaçı alimdir. O, "Alkenilfenolların kimyası", "Aminotiolı i ix proizdnıe" monoqrafiyalarının və "Neft kimyası və neft-kimyəvi sintez", "Dərman maddələrinin sintezi" dərsliklərinin müəllifidir.

Tanınmış alim kimi elmi nəticəsələrinə və təhsil quruculuğuna görə Əməkdar elm xadimi fəxri adına, "Y.Məmmədəliyev adına qızıl medal"a, Beynəlxalq EKO mükafatına, Rumıniyanın "Ali Komandor dərəcəli Qızıl ulduz" ordeninə və digər nüfuzlu mükafatlara layiq görülmüşdür. Avropanın bir neçə ali məktəbinin fəxri doktoru, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Beynəlxalq Ali Təhsil Assosiasiyalarının prezidenti və idarə heyətinin üzvü və s. seçilmişdir.

Abel Məhərrəmov 11 yanvar 1999-cu ildə Bakı Dövlət Universitetinə rektor təyin edilmişdir. 2002-2004-cü illərdə Qara Dəniz Universitetləri Assosiasiyasının prezidenti olmuşdur. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Milli Məclisin deputatıdır. Milli Məclisin Elm və Təhsil Məsələləri Daimi Komissiyasının üzvü, Azərbaycan-Yaponiya Parlamentlərarası Əlaqələr Üzrə İşçi Qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-İspaniya, Azərbaycan-Türkmənistan Parlamentlərarası Əlaqələr Üzrə İşçi qruplarının üzvüdür.

Ailəlidir, 2 övladı, 4 nəvəsi var.







## MƏMMƏDZADƏ ARİF MİKAYIL OĞLU

*Texnika elmləri doktoru, professor*



***Kimin elmi olsa, o, güclü olar,***
***Qoca qəlbə elmlə gənclik dolar.***
***Bilikdən böyük sərvət olmaz yəqin,***
***Vara "yox" demək, bil, çətindir, çətin.***

*Ə. Firdovsi*

Allah insanı tarazlıqda yaradır. Bir şeyi verəndə o birini alır. Ancaq bəndəsini çox sevdiyi zaman ondan bir çox şeyləri əsirgəmir. Bu da hər insana qismət olmur, həm sənətkar kimi, həm də insan kimi bütöv olsun.

Allahın sevimli bəndələri arasında hesab edilən bütöv insan kimi bütün əxlaqi keyfiyyətlərə cavab verən texnika elmləri doktoru, professor Məmmədzadə Arif Mikayıl oğlu 1945 - ci ildə Bakı şəhərində anadan olmuşdur. 1968 - ci ildə "Neft istehsalının avadanlıqları" ixtisası üzrə AzNKİ - nin neft mexanika fakultəsini bitirmişdir.

1970 - 73 - cü illərdə adı çəkilən institutun aspirantı olmuşdur. 1970 - 90 - cı illərdə "Nəzəri mexanika" kafedrasının dosenti olmaqla bərabər, həmçinin Tatneftin, Başneftin, ÜETNİ - nin atom geofizikasının ÜETİ - nin və Qərbi Sibirin birgə elmi tədqiqat işlərində iştirak etmişdir.

Məmmədzadə Arif Mikayıl oğlu 1973 - cü ildə "Gilin qaz maye sisteminin doyma təzyiqinə təsiri" mövzusunda namizədlik, 1989 - cu ildə isə "Doyma təzyiqindən aşağı təzyiqlərdə neft yataqlarının işlənməsi prossesinin intensivləşdirilməsinin nəzəri və təcrübi əsasları" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. 1991 - ci ildən bu günə qədər ADNA - nın "Neft yataqlarının işlənməsi və istismarı" kafedrasının professorudur.

Arif Məmmədzadə 1994 - cü ildə "UNOCAL", 1998 - ci ildə isə "SOVVİET PETRO" xarici şirkətlərində işləmişdir. Məmmədzadə Arif neft və qaz yataqlarının işlənməsi sahəsində tanınmış alimdir.

Neft və qaz mayelərində faza keçidləri neft hasilatının fiziki (maqnit) sahələrinin tətbiqi, layların neftveriminin artırılması elmi tədqiqatlarının əsas sahəsidir.

Neft və qaz mayelərində faza keçidlərin tədqiqatları məsaməli mühitin qazın neftdən ayrılması prosesinə təsirinin öyrənilməsindən ibarətdir. Belə yanaşma quyu dibi zonasında yerləşən qaz - neft axınının modelləşdirilməsinə imkan verir. Məmmədzadə A. M. ilk dəfə göstərdi ki, gilli kollektorlar qazın neftdən

ayrılmasına daha yüksək təzyiqlərdə olur. Belə ki, təzyiqin ayrılma qiyməti, doyma təzyiqindən 30 % təzyiqin dəqiq qiymətinin təyini, quyuda optimal rejimin saxlanmasına imkan verir. Bu da öz tərəfindən neftverməni artırmasına səbəb olur.

Məmmədzadə Arif dünyada ilk dəfə maqnit qurğularını neftin ixracında tətbiq etdi. Onun işlədiyi maqnit qurğusu və yeni texnologiyaları istismar və vurucu quyuların məhsuldarlığını orta hesabla 20 - 30 % artırmağa imkan verir. Onun işlədiyi yeni texnologiya gili çox olan kollektorlardan neft almaq imkanı yaradır. Ondan əvvəl belə kollektorlardan neft ixrac olunmurdu və neft möhürlənmiş şəkildə layda qalırdı.

Onun işlədiyi yeni texnologiyalar, layın neft vermə əmsalını 25 %, qazma prosesinin sürətini iki dəfə artırmasına, qazma prosesində qəflətən avadanlığın dayanması, korroziya sürətini azaltmaqla neft avadanlığının işləmə müddətini iki dəfə artırmasına, neft avadanlığında hidratın əmələ gəlməsinin azaldılmasına imkan verir.

Məmmədzadə A. M. 105 elmi əsərin müəllifidir, onlardan 2 monoqrafiya, 10 müəlliflik şəhadətnaməsi, 9 elmlər namizədi yetişdirmişdir.







## MUSAYEV ƏLİŞİR VEYS OĞLU

*Əməkdar elm xadimi, Tibb elmləri doktoru, professor*



***Bilik öyrənərsə bir insan əgər,***
***Bununla başı göylərə yüksələr.***

*Ə. Firdovsi*

Tutduğu vəzifədə uğur qazanmaq üçün çalışan hər bir insan dövlətçilik əxlaqına, öz xalqına, millətinə xeyir vermək istəyinə və işgüzar xüsusiyyətlərə malikdirsə o, mütləq öz niyyətinə çatacaq.

Bütün bu xüsusiyyətləri malik olan Musayev Əlişir Veys oğlu 1949 - cu ildə Gürcüstanın Dmanisi rayonunun Qızılkilsə kəndində ziyalı ailəsində anadan olub. 1966 - cı ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub, 1972 - ci ildə müvəffəqiyyətlə başa vurub. 1974 - cü ildə Movkva şəhərində Mərkəzi Elmi Tədqiqat Kurortologiya və Fizioterapiya İnstitutunda "sinir xəstəlikləri" ixtisası üzrə aspiranturaya daxil olmuş və 1978 - ci ildə "Bel ostexondrozunun nevroloji təzahürləri olan xəstələrdə müxtəlif konsentrasiyalı radon vannalarının sinir - əzələ aparatına təsiri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək tibb elmləri namizədi, 1987-ci ildən doktorluq dissertasiyası müdafiə edib. Tibb elmləri doktoru alimlik dərəcəsi adını alaraq Azərbaycan ET Kurortologiya və Fizioterapiya İnstitutuna qayıtmışdır. 1988 - ci ildə həmin instituta Elmi Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutu adı verilmiş və Ə. V. Musayev direktorun elmi işlər üzrə müavini, 1993 - cü ildən direktor vəzifəsinə təyin edilmişdir. Həmin ildən Əlişir Musayev APİ - nin "fizoterapiya" kursuna və 2002 - ci ildən Odlar Yurdu Universitetinin "fiziki - kimyəvi təbabət və reabilitasiya" kafedrasına rəhbərlik edir.

1999 - cu ildə Azərbaycan Respublikasının Ali Attestasiya Komissiyasının qərarı ilə "sinir xəstəlikləri və kurortologiya və fizoterapiya" ixtisasları üzrə ona professor elmi adı verilib. Əlişir Musayevin elmi fəaliyyətinin əsas itiqamətlərini sinir sisteminin müxtəlif xəs- təlikləri zamanı fiziki və kurort amillərinin orqanizmə müalicəvi təsirinin neyrofizioloji əsaslarının öyrənilməsinə həsr olunan tədqiqatlar təşkil edir. Onun bilavasitə rəhbərliyi altında planlaşdırılmış və yerinə yetirilmiş nevrologiya və kurortologiyanın ən aktual problemlərinin həllinə yönəlmiş elmi işlərin nəticələri əsasında mərkəzi və periferik sinir sistemi xəstəliklərinin yeni müalicə üsulları yaradılıb və reabilitasiya proqramı işlənib hazırlanıb. Respublikada və MDB məkanında ilk dəfə olaraq periferik sinir sisteminin odlu silah yaralanmalarının təsnifatı, diaqnostik meyarları və yeni müalicə üsulları işlənib. Əlişir Musayev onurğa beyni damar

potologiyalı xəstələrin fiziki amillərlə yeni müalicə üsullarının və reabilitasiya prinsiplərinin ən aktual problemlərinin həllinə yönəlmiş, MDB məkanında və Beynəlxalq səviyyədə qəbul edilən elmi işlərin müəllifidir. Onun rəhbərliyi altında AMEA - nın institutları ilə birgə Azərbaycanın təbii müalicəvi amillərinin, xüsusən də naftalan neftinin və ondan alınan bioloji aktiv komponentlərin, müalicəvi palçıqların , mineral suların öyrənilməsinə yönəlmiş geniş miqyaslı tədqiqatlar aparılmışdır. Ölkəmizdə ilk dəfə olaraq kosmofiziki faktorların demoqrafik göstəricilərə və insan sağlamlığına təsirini öyrənmək üçün tədqiqat işləri aparılmış, böyük elmi əhəmiyyəti olan nəticələr alınmışdır. Milli Aviasiya Akademiyası ilə birlikdə Hava Hərəkəti İdarəsinin disretçerlərinin funksional vəziyyətinin nəzarət - korreksiya proqramı işlənib hazırlanıb və bununla da Azərbaycanda Aviasiya təbabətinin əsası qoyulmuşdur.

Professor Əlişir Musayevin rəhbərliyi altında 2 doktorluq, 11 namizədlik dissertasiyaları müdafiə olunub, 6 namizədlik dissertasiyası bitmək üzrədir, yüzlərlə həkim nevrologiya və fizoterapiya üzrə ixtisas artırmışdır. Professor Ə. V. Musayevin geniş elmi araşdırmalarının nəticələri 380 elmi əsərdə, o cümlədən 2 monoqrafiyada, sinir sisteminin yeni müalicə və reabilitasiya üsullarını təklif edən 14 ixtira və patentlərdə, 6 səmərələşdirici təklifdə, təcrübi təbabətdə geniş tətbiq olunan 15 metodik tövsiyyələrdə öz əksini tapmışdır. O, dəfələrlə xarici ölkələrdə fiziki təbabət, reabilitasiya və nevrologiya üzrə keçirilən Beynəlxalq konqreslərdə (Rusiya, Türkiyə, İspaniya, İzrail, İngiltərə, Danimarka, Fransa və s.) məruzələrlə çıxış etmişdir. Tibbi və bioloji elmlərin inkişafındakı əhəmiyyətli xidmətlərinə görə professor Əlişir Musayev "Rusiya Tibb Elmləri Akademiyasının fəxri doktoru", Gürcüstan Respublikasının Profilaktik Təbabət Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan Rnspublikası Prezidentinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Milli EA - nın və Respublika Səhiyyə Nazirliyinin fəxri fərmanı ilə təltif olunub. Beynəlxalq miqyasda əldə etdiyi elmi nailiyyətlərinə görə Amerika Bioqrafiya Tədqiqatlar Mərkəzi tərəfindən "Qold Rekord" medalı ilə təltif olunub.

Professor Əlişir Musayev elmi - pedoqoji fəaliyyəti ilə yanaşı geniş ictimai fəaliyyətlə də məşğul olur. O, 1993 - 2006 - cı illərdə Səhiyyə Nazirliyinin baş nevropatoloqu vəzifəsində çalışmış, nevrologiya üzrə həkimləri attestasiya komissiyasının sədri olmuş, 1996 - 2002 - ci illərdə ixtisaslaşdırılmış dissertasiya şurasına ("nevrologiya", "kurortologiya və fizoterapiya", "psixiatriya" ixtisasları üzrə) rəhbərlik etmişdir. Hal - hazırda o, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının ekspert şurasının sədr müavini, Azərbaycan Kurortoloq və Fizoterapevtlər Cəmiyyətinin sədri, Səhhiyyə Nazirliyinin elmi - tibbi şurasının, ATU - nun Böyük Elmi Şurasının və Problem Komissiyasının üzvüdür.

Ə. V. Musayev 2008 - ci ilin oktyabr ayında Türk Dünyası Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş və bu Akademiyanın Qızıl medalına layiq görülmüşdür.

Olduqca təvazökar, yüksək əxlaqi keyfiyyətlərə malik olan Əlişir Musayevin gözəl ailəsi, Vüqar və Anar adlı iki oğlu var.





**MƏMMƏDOV ƏLİBABA**

*Respublikanın xalq artisti, Şöhrət ordenli*



***Ağlın, elmin ən gözəl üstünlüklərindən biri odur ki, o insana qocalıqda hörmət gətirir.***

*Stendal*

Hər bir dövlət, hər bir xalq özünəməxsus melodiya və ritm tərzinə, özünə məxsus ifa tərzinə, özünəməxsus mahnılara, rəqslərə malikdirlər.

Azərbaycan musiqi sənəti çoxəsrli bir inkişaf yolu keçmiş və oz səsinə, sənətinə görə tanınmış, ifaçıları ilə seçilmişdir. Əlibaba Məmmədovda öz məlahətli şirin, ürəklərə yatan səsi ilə seçilən xanəndələrimizdəndir.

Məmmədov Əlibaba 1930 - cu ildə Maştağa kəndində anadan olub. 7 - ci sinfi bitirdikdən sonra, sənət məktəbinə daxil olub və qazmaçı peşəsinə yiyələnib. Hələ lap uşuq yaşlarından musiqiyə həvəsi olduğundan, bir neçə musiqi alətində çalmağı öyrənmişdir. Əmisi Gülməmməd Məmmədovdan isə muğamlarımızı öyrənib. 1949 - cu ildə keçirilən "İstedad axtarırq" müsabiqəsində iştirak edərək qalib çıxdığına görə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının "Estrada" şöbəsinə işə qəbul olunub.

1953 - cü ildə Azərbaycan Dövlət Filarmoniyasına solist və A. Zeynallı adına Musiqi Texnikumuna Seyid Şuşinskinin sinfinə, muğam şöbəsinə daxil olub. 1959 - cu ildə Moskvada Dekadada (on günlük) çıxışına görə Əlibaba Məmmədov Azərbaycan Ali Sovetinin fəxri fərmanı ilə təltif edilib. 1963 - cü ildə Azərbaycan Respublikasının Əməkdar Artisti fəxri adına layiq görülüb, həmin ildən pedoqoji fəaliyyətə başlayıb. 1968 - ci ildən "Humayun" xalq çalğı alətləri ansamblına rəhbərlik edir. Bu müddət ərzində yüzdən artıq mahnı və təsniflər bəstələyib, eyni zamanda gözəl tələbələr və populyar müğənnilər yetişdirir. 1989 - cü ildə Respublikanın Xalq Artisti fəxri adını alıb. 2000 - ci ildə "Şöhrət" ordeni ilə təltif edilib. 2001 - ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərdi təqaüdünə layiq görülüb. Əlli ildir ki, fasiləsiz ifaçılıq və pedoqoji fəaliyyətlə məşğul olur. Azərbaycan xalq musiqisinin, muğamlarımızın sirlərini böyuk həvəslə yeni nəslə öyrədir.

## MUXTAROV ABDULLA İBRAHİM OĞLU

*Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor*



**Məşhur olmaq hər kəs üçün xoşbəxtlikdir, faydalı olmaq isə hər kəsin borcudur.**

*V.Hüqo.*

İnsanın böyüklüyü, ucalığı və ləyaqətli olması əqli və mənəvi inkişafından asılıdır. Elm, zəka nurunu daim inkişaf etdirən, ömrünü elmə həsr edən, xalqına sədaqətlə xidmət edən Bakı Dövlət Universitetinin "Nəzəri fizika" kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, Respublika elmlər akademiyasının müxbir üzvü, əməkdar elm xadimi həmişə elmə bağlı, sözün əsil mənasında davranışı, sadəliyi, insani və əxlaqi keyfiyyətləri ilə nümunəvi olan Muxtarov Abdulla İbrahim oğlu 1918-ci ildə Dağıstanın Rutul rayonunun Saxur kəndində anadan olmuşdur.

Yeddi yaşında Zaqatala şəhərinə ailəsi ilə köçmüş A.Muxtarov burada orta məktəbin birinci sinfinə getmişdir. V-VIII sinifləri Zaqatala Pedaqoji Texnikumunda oxumuş, 1934-35-ci illərdə Bakıya gələrək A.Muxtarov burada Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş və 1939-ci ildə oranı fərqlənmə diplomu ilə bitmişdir. Həmin ildə Azərbaycan Dövlət Universitetinə imtahansız daxil olan A.Muxtarov, 1944-cü ildə fizika-riyaziyyat fakultəsini fizika ixtisası üzrə bitirmiş və həmin ildən ADU-nun nəzdindəki Elmi-Tədqiqat İnstitutunda elmi işçi kimi çalışmışdır. Moskva Dövlət Universitetində (1947-1950) aspirantura keçəndən sonra, 1950-ci ildən Azərbaycan Dövlət Universitetində baş müəllim kimi fəaliyyətini davam etdirən Abdulla müəllim baş müəllimlikdən Respublika Elmlər Akademiyasının müxbür üzvlüyünə qədər böyük bir elmi-pedaqoji yol keçmişdir. Abdulla müəllimin ilk elmi fəaliyyəti 1948-ci ildən, Moskva dövlət Universitetinin aspirantı olduğu vaxtdan başlamışdır. Bu dövr müasir kvant elektrodinamikasının yaranmasına təsadüf edir. Belə bir "burulğanlı" dövrdə bu və ya digər hadisələrin nəzəriyyəsini vermək üçün, uyğun riyazi metodun yaradılmasına çox zəruri tələbat var idi. Bu məqsədlə Abdulla müəllim elmi rəhbəri A.Sokolovla birlikdə, fermionların uzununa polyarizasiyasını hesablamaq üçün yeni metod təklif etmişdir. Sonralar bu metodu ixtiyari polyarizasiya üçün ümumiləşdirmişdir. Abdulla müəllimin bu elmi işləri, kvant elektrodinamikasına həsr olunmuş monoqrafiyalara daxil edilmiş və dünya ədəbiyyatında öz layiqli yerini tutmuşdur. A.İ.Muxtarovun elmi işlərinin bir qismi pozitronium atomuna, elektron-pozitron dəstəsinin toqquşmasında yaranan fermionlara, bozonlara, adronlara və yüksək spinə malik olan zərrəciklərə





çevrilməsi prosesinin tədqiqinə həsr olunmuşdur. Bu işlərdə Abdulla müəllim qeyd olunan hadisələrin nəzəriyyəsini vermiş və onun aldığı nəticələr təcrübədə təsdiq edilmişdir.

Yüksək enerjili zərrəciklərin müxtəlif səpici mərkəzdən səpilmə prosesləri çoxlu sayda yeni zərrəciklərin, əsasən spini vahiddən böyük olan mezon, barion rezonanslarının kəşfinə gətirmişdir. Belə proseslərin nəzəriyyəsini vermək üçün, spini ikidən böyük olan zərrəciklərin proeksiya operatorunun işlənib hazırlanması tələb olunurdu; belə operator ilk dəfə Abdulla müəllim tərəfindən qurulmuş və rezonansların yaranmasına gətirən proseslərin təhlilinə tətbiq edilmişdir və təcrübi faktların izah edilməsinə nail olmuşdur. Abdulla müəllimin bu istiqamətdəki işlərindəki lokal və qeyri-lokal nəzəriyyələrdə, yüksək enerjili qamma kvantların, elektron və pozitronların, neytronların ixtiyari zərrəciklərdən səpilmə prosesi tədqiq edilmişdir.

Görkəmli alimin son illərdəki işlərində yüksək enerjili elektron və pozitron dəstələrinin toqquşması zamanı elektro-zəif qarşılıqlı təsirlərdə iki və daha çox zərrəciklərin yaranma prosesi tədqiq olunmuş, zərrəciklərin polyarizasiya xarakteristikaları, müxtəlif növ assimetriya əmsallarının təcrübədə ölçülməsini asanlaşdıran nəticələr alınmışdır.

Azərbaycanın görkəmli aliminin aldığı nəticələr 150-dən çox məqalə şəklində xarici, keçmiş ittifaqın çox nüfuzlu jurnallarında və respublikanın jurnallarında çap edilmişdir. Bu məqalələr dünyanın tanınmış alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. A.İ.Muxtarovun rəhbərliyi altında 35 namizədlik və 6 doktorluq dissertasiyası müdafiə olunmuşdur. O, 1965-1967-ci ildə fizika fakultəsinin dekanı olmuş, 1967-1988-ci ildə nəzəri fizika kafedrasının müdiri olmuşdur. A.İ.Muxtarov fizika fakultəsində nəzəri kurslarla yanaşı, fizika elminin müasir və perspektivli sahələri üzrə xüsusi kursları da tədris edir. Abdulla müəllimin "Statistik fizika" və "Kvant mexanikası" dərslikləri fizika ictimaiyyəti üçün xüsusi əhəmiyyət kəsb edir. Yalnız ali məktəblərin tədrisilə kifayətlənməyir, o, orta məktəb dərsliklərinin ən fəal tərcüməçisi və redaktoru, uzun müddət orta məktəblərdə olimpiadaların keçirilməsinin təşəbbüskarı olaraq orta məktəb şagirdlərinə kömək məqsədi ilə "Fizikadan olimpiada məsələləri" vəsaitini yazmışdır. Abdulla müəllimin elmi və pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1972-ci ildə Respublika Elmlər Akademiyasının müxbir üzvü seçilmiş və 1992-ci ildə əməkdar elm xadimi adına layiq görülmüşdür.

1998-ci ildə Ümummilli lider Heydər Əliyevin fərmanı ilə Azərbaycanda elmin və təhsilin inkişafındakı xidmətlərinə görə A.İ.Muxtarov "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Prezident təqaüdçüsüdür.

Azərbaycanda nəzəri fizika elminin banisi və ümumiyyətlə respublikada fizika elminin inkişaf etməsində böyük əməyi olan, tanınmış alim, yüksək pedaqoji qabiliyyətə malik, nəcib və xeyirxah bir insan olan Abdulla müəllimə cansağlığı, uzun ömür, xoşbəxtlik, elmi və pedaqoji fəaliyyətində yeni uğurlar arzulayırıq.

## MƏMMƏDƏLİYEV VASİM MƏMMƏDƏLİ OĞLU

*AMEA-nın həqiqi üzvü,*
*əməkdar elm xadimi, şöhrət ordenli*



***Allah istədiyi şəxsə hikmət, (elm, mərifət, mülriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı insanlar dərk edərlər!***

***"Qurani-Kərim"***
***Əl-Bəqərə surəsi, ayə 269.***

Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitablara bərabər olsun, elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəyişin - deyərək düşünən Ə.H.Bəhmənyar sanki bu söhzlərdə Vasim Məmmədəliyevi nəzərdə tutmuşdur.

İslam Dünyasının mahir bilicisi, Haqqıqn dərgahına sədaqətli bir insan, Tanrı tərəfindən sevilən, əsil Azərbaycan ziyalısı BDU-nun İlahiyyət fakultəsinin dekanı, Ərəb filologiya kafedrasının müdiri, "Əməkdar elm xadimi", "Şöhrət" ordenli, AMEA-nın həqiqi üzvü Məmmədəliyev Vasim Məmmədəli oğlu 1942-ci ildə Şəki şəhərnidə anadan olmuşdur. 1949-cu ildə Bakı şəhər 113 №li orta məktəbə daxil olmuş və 1959-cu ildə müvəffəqiyyətlə başa vurmuşdur.

V.M.Məmmədəliyev 1959-cu ildə BDU-nun Şərqşünaslıq fakultəsinə qəbul olmuş və 1964-cü ildə ərəb filologiyası ixtisası üzrə tam kursu bitirmişdir.

Elmə olan böyük həvəsi və bu yolda elmi axtarışları 1964-cü ildə BDU-nun aspiranturasına qəbul olmağına səbəb olmuş və 1967-ci ilə kimi buranın aspirantı olmuşdur.

V.M.Məmmədəliyev 1968-ci ildə Tbilisi Dövlət Universitetində "Müasir Ərəb - Azərbaycan ədəbi dilində və İraq dialektində felin zaman formalarının müqayisəli-tipoloji təhlili" mövzusunda namizədlik, 1974-cü ildə həmin universitetdə "Müasir ərəb dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1978-ci ildən professordur.

Deyirlər dünya elmin nuru ilə ziyalanar, əldən qüvvət alar, mənəvi dayaqlar üzərində möhkəmlənər. Dünyanın Vasim Məməmdəliyev kimi alimlərin, ziyalıların çiynində dayandığını deməyə tam haqqımız çatır.

Professor V.M.Məmmədəliyevin elmi nəticələri ərəb dilçiliyi və ümumi dilçilik sahələrində (eləcə də Azərbaycan dilçiliyində), islamşünaslıqda, Ərəb Azərbaycan ədəbi-mədəni əlaqələrində geniş istifadə olunur.





Görkəmli alim bir çox ölkələrdə beynəlxalq və regional konfrasların iştirakçısı olub.

20 dissertasiya işinə rəhbərlik, 30-dan artıq dissertasiya işinə rəsmi opponentlik etmişdir.

Azərbaycan Şərqşünaslığının iftixarı, doğma Azərbaycanımızı hər yanda - daxildə, xaricdə yüksək ləyaqətlə təmsil edən Professor V.M.Məmmədəliyev İraq Elmlər Akademiyasının (1989), İslam Təşkilatı Konqresi nəzdində İslam hüquqi Akademiyasının (1994), Suriya Quran Elmləri və Ərəb Filologiyası Akademiyasının (1995) üzvü seçilmişdir.

BDU-nun şərqşünaslıq fakultəsinin dekanı (1981-1991), prorektoru (1991-1992) vəzifələrnidə çalışmışıdır. Hal-hazırda BDU-nun ilahiyyət fakultəsinin dekanı, Ərəb filologiyası kafedrasının müdiridir.

Azərbaycan prezidenti İlham Əliyev, Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Vasim Məmmədəli oğlu Məmmədəliyev "Şərəf" ordeni ilə təltif olunub.

Akademik, BDU-nun ilahiyyat fakültəsinin dekanı, ərəb filologiyası kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Vasim Məmmədəliyev dünyanın müxtəlif ölkələrində çap olunmuş 300-dən çox elmi əsərin, 20 kitabın müəllifidir. Alim Türkiyə, İran, İraq, Misir, Liviya, Gürcüstan, Rusiya, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və digər ölkələrlə sıx elmi əməkdaşlıq edir. 1992-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. O, "Qurani-Kərim"in Azərbaycan dilinə tərcüməçilərindən biridir.

Vasim Məmmədəliyev 2002-ci ildə ölkə prezidentinin fərmanı ilə ölkənin yüksək mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilib.

Elm adlı dühanın qanadlarında yüksək məqam fəth edən, olduqca sadə və təvazökar olan böyük alim 1992-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2001-ci ildə Azərbaycan AMEA-nın müxbir üzvü seçilmişdir.

Belə dəyərli bir alim ölkə rəhbərliyi tərəfindən qiymətləndirilmiş və 26 avqust 2002-ci ildə Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə Vasim Məmmədəli oğlu "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Əsil insani dəyərlərlə zəngin olan, müdrik, dünya görmüş alim AMEA-nın həqiqi üzvü seçilmişdir.

Xüsusi hörmət və ehtirama layiq olan Vasim Məmmədəliyevə can sağlığı arzu edirik.

## MƏMMƏDOV PƏRVİZ ZİYA OĞLU

*AMEA-nın müxbir üzvü, professor*



**"Dünyanın ən müdrik şəxsiyyətləri o kəslərdir ki, həyatını xalqın gələcəyinə və fəaliyyətini vətəninin inkişafı-na həsr edir".**

*A.Dante.*

Dünya dövlətlərinin və xalqlarının sərvətlərlə zəngin bir ölkə kimi tanıdığı Azərbaycan zaman-zaman dahilər, alimlər, yüksək mənəviyyatlı şəxsiyyətlər bəxş etmişdir cahana. Həyatını, fəaliyyətini, bütün amalını vətəni-mizin, xalqımızın xoşbəxt gələcəyi naminə həsr edərək ziyalılıq zirvəsi fəth edən şərəfli və ləyaqətli alim:

Azərbaycan Dövlət Neft Akademiyasının "Geofiziki kəşfiyyat üsulları" kafedrasının müdiri, ölkəmizə və dünyanın müxtəlif bölgələrinə yüksək mütəxəssislik qabiliyyətinə malik olan ixtisasçı kadrlar hazırlayan pedaqoq, Azərbaycan Milli Elmlər Akademiyasının və Beynəlxalq Mühəndislər Akademiyasının müxbir üzvü, geologiya-minerologiya elmləri doktoru, professor Pərviz Məmmədov 1937-ci il 12 yanvar tarixində Bakı şəhərində mötəbər bir ailədə dünyaya gəlmişdir. Orta təhsili Bakı şəhəri 31 saylı məktəbdə gümüş medalla başa vuraraq, Azərbaycan Dövlət Neft Akademiyasına (o dövrdə Azərbaycan Sənaye İnstitutu olmuşdur) qəbul olunur və 1959-cu ildə "Fərqlənmə" diplomu ilə mühəndisgeofizik ixtisası üzrə mütəxəssis olaraq, ali təhsili başa vurur. O, mühəndis, elmi işçi vəzifələrində çalışmaqla 1961-65-ci illərdə AzSİ-nin qiyabi aspirantı olmuş və 1967-ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Yüksək intellektual səviyyəli ziyalıalim ictimaiyyətdə, çalışdığı elmi müəssisədə qazandığı nüfuzla dosent, professor, kafedra müdiri, elmi işlər üzrə prorektor və rektor vəzifələrində müvəffəqiyyətlə çalışmış və hal-hazırda da elminə, mənəviyyatına böyük hörmət bəslənilən, təhsil aldığı və bir ömür həsr edərək, çalışdığı ADNA-nın "Geofiziki kəşfiyyat üsulları" kafedrasına rəhbərlik edir. Geologiya-minerologiya elmləri doktoru, professor Pərviz Məmmədov





Azərbaycanda ilk dəfə olaraq, neft-qaz yataqlarının axtarışında səmərəli seysmik stratiqrafiya üsulunu tətbiq etmiş, 1981-ci ildən CXMŞ struktur-xüsusiyyətlərinin öyrənilməsi ilə məşğul olan alimdir. 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə edən professorun ömrünün hər bir anı elmə nur saçan mayaka bənzəyir.

Amerika Neftçi Geoloqlar və Avropa Geofizik Mühəndisləri Assosiasiyalarının üzvü, Beynəlxalq Mühəndislər Akademiyasının və Milli Elmlər Akademiyasının müxbir üzvüdür. 150-dən artıq elmi əsərlərin (məqalə, monoqrafiya və dərs vəsaitlərinin) müəllifi olan alim bir sıra xarici neft şirkətləri ilə əməkdaşlıq edərək, səmərəli fəa-liyyətinə görə "Fəxri diplom", "Priz" və dəyərli təltiflərlə mükafatlandırılmış, 2009-cu ildə Geofizika elminin inkişafında müstəsna xidmətlərinə görə görkəmli alim S.Komorov adına "Qızıl medal"la təltif olunmuşdur. Beynəlxalq inkişaf və əməkdaşlıq Assosiasiyasının elmi layihələri (İNTAS), MEBE layihəsi (Orta Şərq hövzələrinin evolyusiyası) üzrə Amerika elmi və inkişaf fondunun (CRDF Award) qrantı ilə Texas AM Universiteti ilə birlikdə elmi-tədqiqatlara rəhbərlik edən və icraçısı olan professor Azərbaycanın görkəmli alimi və tanınmış tədris, elm təşkilatçısıdır.

Müstəqilliyimizin çox çətin və mürəkkəb dövründə dünya şöhrətli ali məktəbə - ADNA-ya rəhbərlik etmişdir. Köhnə tədris sistemindən yeni iki pilləli (bakalavr və magistr hazırlığı) sistemə keçid zamanı təhsilin təşkili və inkişafı üçün çox enerji sərf etmiş, dünyanın bəzi texniki ali məktəblərilə beynəlxalq təhsil proqramları əsa-sında (Tempus, Tasis) əlaqələr yaratmışdır.

Pərviz Məmmədov ixtisasçı və elmi kadrlar yetişdirməklə yanaşı, elmlər namizədləri, magistrlər hazırlamış, elmlər doktorlarının məsləhətçisi olmuş və dünyanın bir çox ölkələrində uğurlarla çalışan mühəndis-geofiziklər bakalavrlar yetişdirmişdir. Təhsil Nazirliyi və Milli Elmlər Akademiyası tərəfindən dəfələrlə dəyərli təltiflərə layiq görülən professor AR Prezidenti yanında Ali Attestasiya Komitəsinin eksperti, 1994-2003-cü ildə SSRİ (keçmiş) EA yanında Seysmostratiqrafiya" komissiyasının üzvü, "Neft və qaz" jurnalı redaktoru, "AMEA xə-bərləri" jurnalı redaksiya heyət üzvü və digər ictimai işlər aparmaqla yanaşı, Azərbaycan elm fondunun eksperti, AMEA Elmi tədqiqatların Koordinasiya Şurasının sədr müavini vəzifələrini də uğurla icra etməyə qadir nüfuzlu ziyalıdır.

Cənubi Xəzərin dərinlik quruluşu geodinamikası və inkişaf mərhələlərinin öyrənilməsi ilə məşğul olan tədqiqatçı-alim ABŞ, İngiltərə, Almaniya,

Avstriya, İsveçrə, Norveç, İspaniya, Finlandiya, Türkiyə, İran, Rusiya, Ukrayna, Qazaxstan və digər xarici dövlətlərdə təşkil olunan konqres və simpoziumlarda ölkəmizin ləyaqətli təmsilçisi olaraq, səmərəli təklifləri ilə, alqışlarla qarşılanan çıxışları ilə Azərbaycan Aliminin yüksək mənəviyyata və elmi biliklərə mənsub olduğunu əməli, sözü ilə təsdiqləmişdir.

Görkəmli alimin apardığı məruzələrin nəticələri Helsinki, Leypsiq, Vena, London, Parij, Madrid, Hyuston, Moskva şəhərlərində keçirilən beynəlxalq konfranslarda etdiyi məruzələrdə də, elmi məqalələrində də öz əksini tapmışdır. Həyata nikbin nəzərləri, bütün insanlara qarşı yüksək mədəniyyətli münasibəti, xalqın ona olan sevgisini, vətənimizə sədaqət və ləyaqətlə xidmət etməsi isə bir ziyalı-alim olaraq, nüfuzunu artırmışdır. Şərəfli, zəngin ziyalı, layiqli ailə başçısı, görkəmli xadim Pərviz Məmmədova sağlam və uzun ömür, uğurlu və səmərəli fəaliyyətlə daha uca məqamlara doğru nurlu yollar arzulayırıq. Ömrünün hər anı, nailiyyətləri ilə laciverd Asimanı xatırladan zəhmət dolu əməlləri və işıqlı-nurlu amalı nümunə olsun gələn nəsillərə. İlahi çəkilən zəhmətin bar-bəhərini ziya təki insanın yollarına çiləyir. Hörmətli professor Pərviz Məmmədovun da yollarına Tanrı ziya çiləsin.







## MÜSEYİBOV MÜSEYİB AĞABABA OĞLU

*Coğrafiya elmləri doktoru, professor*



**Həqiqət yolu çətin yoldur, odur ki, çox az adam bu yola qədəm qoyur, amma bu yolun zirvəsinə çatanların qarşısında son dərəcə gözəl mənzərə açılır.**

*C.Bruno*

Həqiqət yolunu tutaraq, onun zirvəsinə ucalan Azərbaycan xalqının tanınmış alim oğlu, elmlər doktoru, professor adlarına layiq görülən Müseyib Müseyibovu yurdumuzun bütün bölgələrində bir şəxsiyyət olaraq tanıyır və ona hörmət bəsləyirlər. M.Müseyibov 1927 - ci ildə Tovuz rayonunun Qaraxanlı kəndində, böyük bir nəslin davamçıları olan mötəbər ailədə dünyaya gəlmişdir. Atası Ağababa Müseyib oğlu İsaxanov Müseyib kəndxudanın oğlu, Qaraxanlı Hacı İsaxanın nəvəsidir. Repressiya illərinin vurduğu zərbə bu böyük və zəngin nəsildən yan keçməmiş, 1938 - ci ildə M.Müseyibovun atası Ağababa Müseyib oğlu həbs edilərək güllələnmişdir. O vaxt 11 yaşlı Müseyib ata nəvazişindən məhrum olaraq dayı himayəsində təhsilini davam etdirib. Tovuz rayonunun el ağsaqqalı Novruz Əliyev (M.Müseyibovun dayısı) məktəbyaşlı Müseyibin savadlı və kamil bir insan kimi yetişməsi üçün əlindən gələni əsirgəməmişdir. M.Müseyibov 1944 - cü ildə orta təhsili başa vuraraq, ADU (BDU) - ya daxil olmuşdur. Geologiya - coğrafiya fakultəsində coğrafiya ixtisası üzrə ali təhsilə yiyələndikdən sonra aspiranturaya qəbul olunmuşdur. M.Müseyibov 1954 - cü ildə namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi, alimlik dərəcəsi almış və fiziki coğrafiya kafedrasında dossent vəzifəsinə təyin olunmuşdur. 1960 - cı ildən isə həmin kafedranın müdiri vəzifəsinə layiq görülən M.Müseyibov çalışdığı dövürdə etimad və hörmət qazanmış, əsil bir insan kimi tanınmışdır. M.Müseyibov 1963 - cü ildə doktorluq dissertasiyasını uğurla müdafiə edərək, elmlər doktoru, professor adı almışdır. Professor M.Müseyibov SSRİ Ali Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən ali coğrəfiya elmi - metodik şurasının üzvü olmuş və eyni zamanda Azərbaycan Respublikası Ali Təhsil Nazirliyinin EMŞ - nin "Coğrafiya" bölməsinin sədri, Azərbaycan Ağsaqqallar Şurasının yaradıcılarından biri və Rəyasət Heyətinin üzvü (1999 - cu ildən 2011-ci ilə dək) BDU Coğrafiya fakultəsinin dekanı vəzifəsində çalışmışdır. M.Müseyibov Tələbə Qəbulu üzrə Dövlət Komissiyası yanında fəaliyyət göstərən "Coğrafiya" seminarının rəhbəri, Tovuz rayonunun azğın ermənilərin hücumundan müdafiələrinə yardım məqsədi

ilə yaradılmış Bakıda fəaliyyət göstərən "Tovuz" Xeyriyyə Cəmiyyəti Ağsaqqallar Şurasının sədri olmuşdur. SSRİ - nin coğrafiyaşünas alimləri içərisində öz xüsusi yeri və hörməti olan M.Müseyibov dünyanın bir çox ölkələrində, Fransa, İngiltərə, Danimarka, Kanada, İspaniya, İtaliya, Çexoslovakiya, ADR, Bolqarıstan və digər dövlətlərdə keçirilən elmi konfranslarda yüksək səviyyəli təklif və çıxışları ilə bir alim olaraq ölkəmizi təmsil etmişdir.



M.Müseyibov Cənubi Qafqazda səmərəli elmi tədqiqatların əsasını qoyan şərəfli alimlərdən, hörmətli tədqiqatçılardandır. Mühüm əhəmiyyətli xəritələrin tərtibçisi və həmmüəlifi olan professor M.Müseyibov yüksək səviyyəli ixtisasçı kadrların hazırlanması istiqamətində bir ömür həsr edərək çalışmışdır. O, Tbilisi, Daşkənd, Moskva, Yaroslavl, Leninqrad və digər şəhərlərdə namizədlik və doktorluq dissertasiyalarına opponentlik etmiş və onun rəhbərliyi ilə namizədlik və doktorluq dissertasiyaları hazırlanmışdır. 48 illik pedaqoji fəaliyyəti dövründə ölkədə kadrlar yetirən professorun xidmətləri əvəzsizdir. A.R.Təhsil Nazirliyi E.M.S. Coğrafiya bölməsinin sədri olaraq M.Müseyibov təhsilin inkişafında, ümumtəhsil və ali məktəblərin coğrafiya proqramlarının təkmilləşdirilməsində, ali məktəblərə qəbul proqrpmlarının və test tapşırıqları bankının yaradılmasında səmərəli fəaliyyəti ilə çalışan və seçilən vətən ziyalısıdır. M.Müseyibov orta və ali məktəb tələbələri üçün dərsliklərin müəllifidir. "Ümumi fiziki coğrafiya" (6-cı sinif), "Materiklər və okeanlar coğrafiyası" (7-ci sinif), "Azərbaycan coğrafiyası" (9-cu sinif), "Ümumi yerşünaslıq" (10 - cu sinif) dərslikləri üzərində yenidən işləyərək təkmilləşdirmiş və nəşr etdirmişdir. Bütün bunlar professorun redaktəsi ilə öz həllini tapmışdır. 11 - ci siniflər üçün "türk dünyasının coğrafiyası" dərsliyi üzərində yenidən işlənərək nəşr olunmuşdur. M.Müseyibovun xalqımız, vətənimiz, üçün gördüyü işlər, elmi araşdırmalar, nailiyyətlər, xidmətlər sonsuzdur. O, böyük alim bütöv bir ömür salnaməsi həsr etmişdir təhsilə, elmə, pedaqoji fəaliyyətə. Bütün bu böyük və dəyərli nailiyyətlərlə yanaşı M.Müseyibovun həyat yoldaşı Lətifə Mahmud qızı Mustafayeva ilə birlikdə layiqli bir nəsil yetirmişdir vətənimizə. Müseyibovlar ailəsnin davamçıları Afaq xanım, Azad Müseyibov, Fəxrəndə xanım və İbrahim Müseyibovlar Azərbaycanın layiqli ziyalıları, ali təhsilli mütəxəsisləri və hər biri gözəl ailə sahibidirlər.

Müseyibov Müseyib Ağababa oğlu 2011-ci ildə vəfat etmişdir.
Allah rəhmət eləsin.





## MEHDİYEV MƏHƏMMƏD FƏRMAN OĞLU

***Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor***



**Mütaliə ən yaxşı təlimdir. Böyük adamın fikirləri ilə məşğul olmaq ən maraqlı elmdir.**
*A.S.Puşkin.*

XVIII əsrdə yaşamış mütəfəkkir Nəsrəddin Tusi "Əxlaqi Nasiri" əsərində elmə, elm adamlarına sevgini, məhəbbəti, istəyi, ən ülvi əxlaqi keyfiyyət hesab edir və göstərir ki, elmi sevən, ona qovuşan həqiqi mənada onu mənimsəyən insan nümunəvidir.

Həmişə elmə bağlı, sadəliyi, insani və əxlaqi keyfiyyətləri ilə nümunəvi olmuş Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fizika - riyaziyyat elmləri doktoru, professor Mehdiyev Məhəmməd Fərman oğlu 2 oktyabr 1941 - ci ildə Laçın rayonunun Təzəkənd kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1951 - ci ildə Ərdəşəvi kənd orta məktəbinin birinci sinfinə daxil olaraq, oranı müvəffəqiyyətlə başa vuran Məhəmməd Mehdiyev 1966 - cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika - riyaziyyat fakultəsini bitirmiş və Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun aspiranturasına göndərilmişdir. Aspirantura hazırlığını Rostov Dövlət Universitetində akademik İ.İ.Voroviqinin rəhbərlik etdiyi Elastikiyyət nəzəriyyəsi kafedrasında keçmişdir. Təyinatla Riyaziyyat və Mexanika İnstitutunda 1970 - ci ilin yanvarından kiçik elmi işçi kimi çalışmışdır.

Məhəmməd Mehdiyev 1975 - ci ildə Rostov Dövlət Universitetinin elmi şurasında namizədlik dissertasiyasını müdafiə etmişdir. 1976 - cı ildə baş elmi işçi vəzifəsinə irəli çəkilmişdir.

Qəlbi nəcib duyğularla dolu olan, daim işinə məsuliyyətlə yanaşan Məhəmməd Mehdiyev 1978 - ci ilin sentyabrında "Nazik divarlı konstruksiyalar" şöbəsinə rəhbər təyin edilmişdir. 1985 - 1991 - ci illərdə Riyaziyyat və Mexanika İnstitutunun XKB direktorunun elmi işlər üzrə müavini işləmişdir.

Elmi axtarışlarını davam etdirən Məhəmməd Mehdiyev 1989 - cu ildə Leninqrad Dövlət Universitetində doktorluq dissertasiyasını müdafiə edərək, fizika - riyaziyyat elmləri doktoru elmi dərəcəsini, 1994 - cü ildə professor elmi adını almışdır. 1981 - 1985 - ci illərdə "Optik və lövhələrin statistikası rəqsi, dayanıqlığı" ümumittifaq elmi-tədqiqat proqramının rəhbərlərindən biri olmuşdur.

Professor M.F.Mehdiyevin 1972, 1973, 1975, 1976, 1981, 1983 - cü illərdə aldığı elmi nəticələr SSRİ EA - nın baş elmi katibinin məruzəsində mühüm işlər şurasında qeyd olunmuşdur.

Professor M.F.Mehdiyev deformasiyalanan bərk cisim mexanikası sahəsində görkəmli mütəxəssisdir. Onun tərəfindən elastikiyyət nəzəriyyəsində yeni "bircins həllər" metodu işlənib hazırlanmış, həmin metodun köməyi ilə optik və lövhələr üçün elastikiyyət nəzəriyyəsinin üçölçülü məsələsindən ikiölçülü məsələyə keçid problemi öyrənilmişdir. Optik və lövhələrin ümumi riyazi nəzəriyyəsi yaradılmış, bu dəqiq münasibətlər əsasında optik və lövhələrin klassik nəzəriyyəsinin tətbiq olunma oblastı müəyyən olunmuşdur. Nazik divarlı konstruksiyalarda əvvəllər məlum olmayan yeni dinamik effekt kəşf olunmuşdur. Xüsusi halda klassik elastikiyyət nəzəriyyəsinin Senvenan prinsipinin rəqs tezliyinin müəyyən qiymətindən sonra doğru olmadığı isbat olunmuşdur.

Professor M.F.Mehdiyev tərəfindən optik və lövhələrin klassik nəzəriyyəsinə nəzərən daha dəqiq olan optik və lövhələrin yeni tətbiqi nəzəriyyəsi verilmişdir. Deformasiyaların bərk cisim mexanikası sahəsində aldığı fundamental nəticələrlə yanaşı, professor M.F.Mehdiyev tərəfindən verilmiş "Bircins həllər" metodu diferensial operatorların spektial nəzəriyyəsinə, diferensial tənliklərin asimptotik inteqrallama metoduna ciddi yenilikdir.

Son illərdə professor M.F.Mehdiyev və onun tələbələri anizotropik örtüklərin ümumi nəzəriyyəsi yaradılmış, bu nəzəriyyələr əsasında mövcud texniki nəzəriyyələrin tətbiq olunma oblastları müəyyən edilmişdir. Xüsusi halda elmi ədəbiyyatda akademik S.A.Ambartsumyan nəzəriyyəsinin klassik kirqof - hyaf nəzəriyyəsinə nəzərən dəqiq olması müddəası rədd edilmişdir. Çətinliyinə və mürəkkəbliyinə baxmayaraqı S.A.Ambartsumyan nəzəriyyəsinin klassik kirqov - hyav nəzəriyyəsinə ekvivalentliyi isbat edilmişdir.

Professor M.F.Mehdiyev kosmik uçuş aparatlarının təkmilləşdirilməsində və yeni kosmik aparatların yaradılmasında icraçı, məsul icraçı, mövzu rəhbəri və möhkəmlik məsələləri üzrə baş layihə konstruktoru kimi bilavasitə iştirak etmişdir.

Cörkəmli alim"Energiya - Buran" sistemində istifadə olunan daşıyıcı raketin möhkəmlik məsələləri üzrə baş layihə konstruktoru olmuşdur. Kosmik uçuş aparatlarının real şəraitdə sınağı üçün nəzərdə tutulmuş sınaq stendinin müəlliflərindən biridir. O, həmçinin respublikanın bir çox sənaye obyektlərinin sifarişlərini yerinə yetirmişdir. Onun müəlliflərindən biri olduğu "Sualtı rezervuar" ixtirası iki dəfə beynəlxalq sərgidə (Dehli, Sofiya) ikinci yeri tutmuşdur.

Professor M.F.Mehdiyev keçmiş ittifaqda bir çox doktorluq və namizədlik dissertasiyalarının rəsmi opponenti olmuş, respublikada doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşmış şuraların üzvüdür.





Professorun rəhbərliyi altında 15 elmlər namizədi, 1 elmlər doktoru hazırlanmışdı. Hazırda 6 aspirant və dissertanta rəhbərlik edir. İki tələbəsi doktorluq dissertasiyasını tamamlamaq üzrədir. Amerika Bioqrafiya İnstitutu tərəfindən "2003 - cü ilin adamı" hesab olunmuş, 2004 - cü ildə həmin institut tərəfindən elm və bəşəriyyət qarşısında xidmətlərinə görə "Qızıl medal"a layiq görülmüşdür.

Professor M.F.Mehdiyev Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının üzvüdür. O, çap olunmuş 86 əsərin, eyni zamanda keçmiş ittifaqın qapalı mətbuatında çap olunmuş bir çox əsərlərin, o cümlədən iki monoqrafiyanın müəllifidir. Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən № 02016 dissertasiya şurasının sədri, Böyük Elmi Şurasının üzvüdür.

2001 - ci ildə AMEA-nın mexanika ixtisası üzrə müxbir üzvülüyünə qəbul olunan Məhəmməd müəllim 2002 - ci ilin fevralında "Tətbiqi analizin riyazi üsulları" kafedrasının müdiri vəzifəsinə seçilmiş və hal - hazırda həmin kafedranın müdiri vəzifəsində çalışır. 07 yanvar 2008-ci ildə "Tətbiqi riyaziyyat və kibernetika" fakultəsinin dekanı seçilmişdir.

M.F.Mehdiyev 2010 - cu ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən öz ölkəsini dünyaya tanıtdığına görə "Qızıl medal"a layiq görülmüşdür. 2009 - cü ilin sentyabr ayında "Əməkdar elm xadimi" adını alıb.

Professor Məhəmməd Fərman oğlunun Respublikada və ölkə hüdudlarından kənarda yüksək ixtisasçı kadrları çalışdıqca alim müəllimin yolları nurlanır.

Böyük alim, nəsib insan Məhəmməd Mehdiyevə deyirik: Kamil ömrünüzün məğrur divarları heç vaxt əyilməsin.



## MUSTAFAYEV QARA TEYFUR OĞLU

*Elmlər doktoru, professor, şöhrət ordenli*



**Alim, qocaldıqca ucalar, ucaldıqca qocalar.**

*Azərbaycan atalar sözü*

İnsan Yer üzünün əşrəfidir. Hər bir insan Ulu Tanrımızın ona verdiyi istedaddan bəhrələnməli, bunun müqabilində yaşayıb yaratmalı, insanlara gərək olmağı, cəmiyyətdə daha layiqli yer tutmağa çalışmalıdır. Hər bir kamil insanın ruhi aləmi kökdən gələn zənginlikdən bəhrələnir. Kökdən gələn zənginliyin işığında zəhmət və paklıq dolu bir ömür yaşayan, yüksək savadı və zəhmətsevərliyi itlə zaman-zaman dərin hörmət qazanan, xalq tərəfindən sevilərək qiymətləndirilən, biologiya elmləri doktoru, professor, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının akademiki, Həsən Əliyev adına Ekologiya mükafatı laureatı, Dövlət Ekologiya Kollegiyasının üzvü, Azərbaycan Zooloqlar Cəmiyyətinin vitse-prezidenti, Zoologiya ixtisası üzrə Müdafiə Şurasının həmsədri, Ekologiya eksperti, BDU-nun Böyük Elmi Şurasının üzvü, "Onurğalılar zoologiyası və bioloji ekologiya" kafedrasının müdiri Qara Teyfur oğlu Mustafayev 1931-ci il dekabrın 25-də Kürdəmir rayonunun Dəyirmanlı kəndində dünyaya gəlib. Orta təhsilini 1 saylı Kürdəmir şəhər məktəbində bitirib. 1949-cu ildə Bakı Dövlət Universitetinin Biologiya fakultəsinə daxil olan Qara Mustafayev 1954-cü ildə fərqlənmə diplomu ilə başa vurub. Hələ tələbə ikən Həmkarlar təşkilatınının qrup nümayəndəsi olub.

Fakultə Elmi Şurasının qərarına əsasın aspiranturaya daxil olub. Qara Teyfur oğlu "Azərbaycanda quşların bəzi kütləvi növlərinin ekologiyası" mövzusunda namizədlik dissertasiyası, 1985-ci ildə isə Moskva Dövlət Universitetində "Птицы наземных екосистем Азербайджана" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, biologiya elmləri doktoru elmi adı almış, 1987-ci ildən professor rütbəsinə yüksəlmişdir.

Qara Mustafayev yaradıcılığı çoxşaxəli və genişdir. "Elm üçün işləyib, xalq üçün yaşamaq istəyirəm" - deyən Qara müəllimin başqa bir ifadəsi də var: "Xalqa xidmət etməyən elm cəfəngiyyatdır".

Azərbaycan EA Zoologiya İnstitutunda elmi işçi olarkən Kommunist Partiyası sıralarına qəbul edilən Qara Mustafayev BDU-nə qayıtdıqdan sonra (1960) Həmkarlar Təşkilatı Komitəsinin üzvü, sonra Kafedra Partiya Özəyi rəhbəri, daha sonra Fakultə Partiya Təşkilatının katibi seçilibdir. Çox keçmədən Biologiya





fakultəsinin dekan müavini, daha sonra dekanı seçilib.

Hal-hazırda Qara Mustafayev "Onurğalılar Zoologiyası və Biologiya" kafedrasına rəhbərlik edir.

Alimin pedaqoji yaradıcılığının səciyyəvi göstəricisi kimi qeyd etmək olar ki, o hansı fənni tədris edirsə, ona dair dərslik və ya dərs vəsaiti yaradır. Daimi elmi axtarışlara can atan Qara Mustafayev "Ekologiyanın əsasları" kursuna dair müasir tələblərə cavab verən proqram yazaraq onun mahiyyətini 150-dən çox sxemdə yerləşdirib. Hər sxem haqqında Azərbaycan, rus və ingilis dillərində açarlar tərtib edib. "Ekologiya sxemlərdə" adlı orijinal dərs vəsaiti ATN-yi tərəfindən təsdiq edilib və 1998-ci ildə Türkiyənin İstanbul şəhərində nəşr olunub. Mərhum akademik Rasim Əsədov bu kitabı "XXI əsrin dərs vəsaiti" adlandırmışdır. Bu kitaba görə Qara Mustafayev Beynəlxalq Pedaqoji Akademiyasının akademiki seçilib və BDU-nun mükafatına layiq görülüb.

Yüksək kvalifikasiyalı kadr - 38 nəfər azərbaycanlı, gürcü, ərəb (Yəmən), İran vətəndaşları olan aspirant dissertant və magistrilərin dissertasiya işlərinə rəhbərlik etmiş və indi də bu sahədə intensiv çalışır.

Olduqca sadə, təvazökar olan professor Qara Mustafayevin təbiət elmlərinin xalqa çatdırılmasında xidməti əvəzsizdir. O, 60-dan çox kitabın, 1000-dən çox məqalələrin və 5 telefilmin ssenari müəllifidir. 21 il mərhum professor Mir Əli Axundov ilə birlikdə və 15 ildən çox ayrılıqda "Təbiəti sevənlər" verilişinin aparıcısı olmuş, bu müddətdə 602 veriliş üçün 3 600 səhifə mətn yazıb efirə yayıbdır. İki dəfə Moskva TV-nin "В мире животных" proqramı ilə Azərbaycanın təbiətini keçmiş SSRİ miqyasında tanıtmışdır.

Professor Qara Mustafayevin əməyi qiymətləndirilmiş, çoxlu sayda mükafat, diplom, medal və fəxri adlar almış, Azərabycan Respublikasının prezidentinin 11 fevral 2000-ci il tarixli fərmanı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Professor Qara Mustafayevin indiki ən böyük arzusu çalışdığı respublikamızda ekologiyanın fasiləsiz tədrisinə nail olmaqdır və Qarabağın azad olmasıdır.

Görkəmli alim, gözəl ailə başçısıdır. 3 övladı, 7 nəvəsi var.

## MURADOV BABAXAN SULTAN OĞLU

***Respublikanın əməkdar müəllimi,***
***SSRİ - nin və Az SSR - nin maarif əlaçısı***




*Düzlüyü çox sevir taleyi yazan,*
*Görmədim düz yolda yolunu azan.*
*Həqiqət yolundan dönməsə hər kəs,*
*Çatar arzusuna, diləyi sönməz.*
*Sədi.*

Zahiri görkəmindən başlamış daxili bütövlüyünədək mənəviyyatı, qəlbi, varlığı ilə kamillik zirvəsinə qalxan, onunla ünsiyyətdə olan, həmsöhbət olan hər bir kəsin könlünə hərarət, qəlbinə nur paylayan Azərbaycan Respublikasının əməkdar müəllimi, SSRİ və Az. SSR - i maarif əlaçısı Muradov Babaxan Sultan oğlu 1927 - ci ilin martın 21 - də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Nəsirvaz kəndində anadan olmuşdur. Bu kənddə orta məktəbi bitirdikdən sonra, 1943- 1945 - ci illərdə Nəsirvaz kəndində müəllim işləmişdir.

B.S.Muradov 1945 - ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakultəsinə daxil olmuş və 1950 - ci ildə oranı bitirmişdir. Təyinatla Naxçıvan Dövlət Müəllimlər İnstitutuna müəllim göndərilmiş, orada tarix müəllimi, tarix və dil - ədəbiyyat fakultələrinin dekanı vəzifələrində işləmişdir.

B.S.Muradov 1951 - ci ildə Naxçıvan Muxtar Respublikasının Maarif Nazirinin müavini təyin olunmuş, 1952 - ci ilin iyun ayından Naxçıvan Muxtar Respublikasının Maarif naziri vəzifəsində çalışmışdır.

Bacarığına, ağlının çevikliyinə, dərin daxili mədəniyyətinə və yüksək mənəvi keyfiyyətinə görə 25 yaşında Maarif naziri təyin edilmiş B.S.Muradov iki il Naxçıvan Muxtar Respublikasında bu vəzifədə işlədikdən sonra ailə vəziyyəti ilə əlaqədar 1954 - cü ildə Bakı şəhərinə gəlmiş və həmin ilin sentyabr ayından 1955 - ci ilin avqustuna qədər Bakı Maliyyə Texnikumunda tarix müəllimi işləmişdir.

B.S.Muradov 1955 - ci ildən 1971 - ci ilin dekabr ayına qədər Bakı şəhər Xətai rayonunda maarif müdiri kimi fəaliyyət göstərmişdir. Bu illərdə üç hesabat partiya komitəsinin büro üzvü seçilmişdir. Maarif müdiri işlədiyi bütün illərdə Rayon İcrayyə Komitəsinin prezidiumunun üzvü olmuşdur.

B.S.Muradov 1971 - ci ilin dekabrında Azərbaycan Respublikasının Maarif Nazirinin Baş Məktəblər İdarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur. 1972 - ci ilin may ayında öz ərizəsi ilə tutduğu vəzifədən azad olunduqdan sonra, həmin ilin





iyun ayından 1995 - ci ilə qədər Bakı şəhər Nərimanov rayonunun 82 saylı məktəbinin direktoru vəzifəsində çalışmışdır.

B.S.Muradov 1991 - ci ildə Respublika Müəllimlər Şurasının sədri seçilmişdir. Sədrin təşəbbüsü ilə Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı verilmiş, bu qərarla Azərbaycan müəllimlərinin stavkasının yükü xeyli azaldılmışdır. İbtidai sinif müəllimlərinin stavkası 24 saatdan 12 saata, yuxarı sinif müəllimlərinin stavkası 18 saatdan 12 saata, məktəbəqədər tərbiyə ilə məşğul olan müəllimlərin stavkası 36 saatdan 12 saata, ali məktəb müəllimlərinin 800-120 saat olan stavkaları 550 saata endirilmişdir. Həmin qərarda müəllimlər üçün bir sıra başqa güzəştlər də nəzərdə tutulmuşdur.

B.S.Muradovun öz işinə məsuliyyəti, son dərəcə vətəninə, xalqına bağlı olması dövlət tərəfindən daim qiymətləndirilmiş və ona 1963 - cü ildə Azərbaycan Respublikasının əməkdar müəllimi adı verilmişdir.

1995 - 2000 - ci illərdə Milli Məclisin deputatı olmuş Babaxan Muradov həmin illərdə Milli Məclisin Təhsil Komissiyasının sədr müavini olmuşdur. İki dəfə Azərbaycan Respublikası Ali Sovetinin fəxri fərmanı ilə təltif olunmuşdur. SSRİ - nin və Az SSR - nin maarif əlaçısıdır.

B.S.Muradov bu illərdə dəfələrlə şəhər və rayon Zəhmətkeş Deputatlar Sovetinə deputat seçilmişdir. Maarif Nazirliyinin kollegiyasının üzvü olmuş Babaxan Muradov Respublikanın maarif həyatında fəal iştirak etmişdir.

Qəlbi nəcib duyğularla dolu olan, şərəfli bir ömür yolu keçən Babaxan müəllim ailəlidir, 2 övladı, 3 nəvəsi var.



## MƏMMƏDOV FELİKS VƏLİ OĞLU

*Kimya elmləri doktoru, professor*



**Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən, həyatın məqsədi məhz bundan ibarətdir.**

*M.Cəlil*

Həyatda hər kəs bir ömür yaşayır, cəmiyyətdə öz layiqli yerini tapmış, Tanrının ona bəxş etdiyi bacarıqdan layiqincə istifadə etmiş, insani keyfiyyətləri, təvazökarlığı ilə qəlblərdə əbədi yer tutmuş görkəmli alim və pedoqoq, gözəl və qayğıkeş insan Feliks Vəli oğlu Məmmədov 1934 - cü il dekabrın 8 - də Gəncə şəhərində qulluqçu ailəsində anadan olmuşdur. O, 1953 - cü ildə Bakı şəhərində 160 saylı orta məktəbi bitirmişdir. Sonra D. İ. Mendeleyev adına Moskva Kimya Texnologiya İnstitutuna daxil olmuş, oranı 1958 - ci ildə bitirərək Sumqayıt Sintetik Kauçuk zavoduna təyinat almışdır. 1958 - 1960 - cı illərdə həmin zavodda növbə rəisi vəzifəsində işləmişdir. 1960 - 1963 - cü illərdə D. İ. Mendeleyev adına MKTİ - nin aspirantı olmuşdur. 1963 - cü ildə namizədlik dissertasiyasını müdafiə etmiş və yenidən vətənə qayıdaraq C. A. Dadaşov adına Tikinti Materialları Elmi Tədqiqat İnstitutunda kimya laboratoriyasının müdiri vəzifəsində işləmişdir. 1965-ci ildə Azərbaycan Dövlət Nefi Akademiyasında "Yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrasının yaradılmasında iştirak etmiş, həmin kafedrada baş müəllim, dosent, professor kimi əmək fəaliyyətini davam etdirmişdir. F. V. Məmmədov 1989 - cu ildə D. İ. Mendeleyev adına MKTİ - da "Butil kauçuku və bəzi doymamış monomerlər əsasında calaqlanmış sopolimerlərin sintezi və tədqiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və 1992 - ci ildə "Yüksəkmolekullu birləşmələrin texnologiyası" ixtisası üzrə professor adına layiq görülmüşdür.

Onun apardığı elmi - tədqiqat işləri və pedoqoji fəaliyyətinin nəticələri 5 monoqrafiya, dərslik və dərs vəsaitində, 160 - dan çox elmi əsərdə, o cümlədən 30 müəlliflik şəhadətnaməsində və patentdə öz əksini tapmışdır. Alimin rəhbərliyi ilə 8 elmlər namizədi və 1 elmlər doktoru hazırlanmışdır.

Professor F. V. Məmmədov onlarla Beynəlxalq simpoziumlarda Azərbaycan elminin layiqli təmsilçisi olmuşdur. Onun əməyi bir neçə dəfə dövlət səviyyəsində qiymətləndirilmişdir.

Azərbaycan EA Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutu nəzdində olan İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olmuşdur. Professor F. V. Məmmədov 2000 - ci ildə vəfat etmişdir. Professor F. V. Məmmədovun parlaq xatirəsi onu tanıyanların, qədirbilən tələbələrinin xatirəsində qayğıkeş insan, fədakar müəllim kimi daim yaşayacaqdır.





## MƏMMƏDOV ƏZİZ VƏLİ OĞLU

*Texnika elmləri üzrə fəlsəfə doktoru*

**Kitablar ölməzlik qabiliyyətinə malikdir. Onlar insan fəaliyyətinin ən uzun ömürlü meyvələridir.**

*S.Smayls.*



Həyatda insan ali hisslərin işığında inamla addımlayır. Milli mənsubiyyətinə görə qürur hissi keçirən fəlsəfə doktoru, Azərbaycan Dövlət Neft Akademiyasının "Neft yataqlarının işlənməsi və İstismarı" kafedrasının dosenti, gözəl ziyalı, xeyirxah insan Əziz Vəli oğlu Məmmədov 1950 - ci ildə Bakı şəhərində anadan olmuşdur.

O, 1967 - ci ildə Bakı şəhərində 133 saylı orta məktəbi əla qiymətlə bitirib. Bakı Dövlət Universitetinin mexanika - riyaziyyat fakultəsinə daxil olmuş və 1972 - ci ildə universiteti bitirərək riyaziyyatçı ixtisasına nail olmuşdur. Universiteti bitirdikdən sonra 1972 - 74 - cü illərdə Almaniyada Sovet Hərbi bölməsində zabit rütbəsində qulluq etmişdir.

Ə.V.Məmmədov hərbi qulluğunu bitirdikdən sonra onun əmək fəaliyyəti Azərbaycan Neft və Kimya institutunun "Neft yataqlarının işlənməsi və istismarı" kafedrası ilə bağlı olmuşdur. Buraya o, akademik A.X.Mirzəcanzadə tərəfindən dəvət olunmuş və 1975 - ci ildən öz əmək fəaliyyətini - mühəndis, baş elmi işçi, problem laboratoriyasının müdiri və dosenti vəzifələrində davam etdirmişdir.

O, 1981 - ci ildə elmlər namizədi alimlik dərəcəsi adını almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etmişdir. O, Almaniya Akademik Cəmiyyətinin dəvəti ilə Braunşveyq və Hannover Texniki Universitetlərində bir sıra məruzələr oxumuşdur.

Əziz Vəli oğlu Azərbaycan, Almaniya və Rusiyanın tanınmış mətbəələrində çap olunmuş 100-ə qədər məqalə, müəlliflik şəhadətnaməsi və metodiki rəhbərliyin müəllifidir.

Əziz müəllimin geniş elmi fəaliyyəti yalnız Azərbaycanda bitmir, onu bir neftçi alim kimi Tatarstanda, Başkorstanda, Qərbi Sibirdə, Komi Respublikasında, Ukraynada, Vyetnamda və bir çox digər ölkələrdə öz elmi tədqiqatlarının nəticələrini tədbiq etdiyi üçün yaxşı tanıyırlar.

Onun geniş biliyi ilə təsdiq olunmuş analitik fikirləri imkan verir ki, yeni konstruktiv modellərin yaradılması və həllinə yönəldilmiş, enerji resurslarını qoruyan texnologiyaların effektivliyinin qorunması və saxlanılması sahəsində elmi - tədqiqat işləri genişləndirilsin.

Əziz Vəli oğlu Məmmədov gözəl ailə başçısıdır, bir qızı və nəvəsi var.

## MƏMMƏDZADƏ RƏFAEL BƏHRAM OĞLU

*Texnika elmləri üzrə fəlsəfə doktoru*



**Üç şey adama istək gətirər: mədənilik, təvazökarlıq, mülayimlik.**

*Ərəb atalar sözü.*

Elm - zəka nurunun daim inkişaf etdirən, ömrünü elmə həsr edən, mədəniliyi, təvazökarlığı, mülayimliyi ilə onu tanıyanların hörmət və istəyini qazanan texnika elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Neft Akademiyasının "Neft yataqlarının işlənməsi və istismarı" kafedrasının dosenti Rəfael Bəhram oğlu Məmmədzadə 1942 - ci ildə Bakı şəhərində anadan olub.

1959 - cu ildə 150 saylı Bakı şəhər orta məktəbini fərqlənmə ilə bitirib. Məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitunun Neft mexanika fakultəsinə daxil olmuş və orada təhsilini bitirərək mühəndis - mexanik ixtisasını almışdır.

R.B.Məmmədzadə ilk əmək fəaliyyətinə 1967 - ci ildə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" kafedrasında akademik A.X.Mirzəcanzadənin dəvətilə gənc mütəxəssis kimi göndərişlə başlamışdır.

O, öz əmək fəaliyyəti müddətində ardıcıl olaraq sıravi mühəndisdən başlayaraq problem laboratoriyasının müdiri və kafedranın dosentinədək vəzifələrdə çalışmışdır.

R.B.Məmmədzadə 1978 - ci ildə texnika elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş və bu dissertasiyada ilk olaraq neft yatağına problem məhlullarının tətbiqi ilə ikinci təsir üsullarının təkmilləşdirilməsi məsələlərinə baxılmışdır.

1980 - cı ildə R.B.Məmmədzadə mütəxəssislərin mübadiləsi qaydasında ağır sənayenin Mişkol Universitetinə və ağır neftlər ilə xarakterizə olunan yataqların işlənməsinin səmərəliliyinin artırılması üzrə tövsiyələrin verilməsi üçün macar mütəxəssislərilə birgə bir sıra tədqiqatlar aparmışdır.

1980 - cı ildə R.B.Məmmədzadə macar mütəxəssislərilə birgə tədqiqatlar və ağır neftlər ilə xarakterizə olunan yataqların işlənməsinin səmərəliliyinin artırılması üzrə tövsiyələrin hazırlanması üçün Mişkol Universitetinə dəvət olunmuşdur. Universitetin rəhbərliyi tərəfindən dəvət alaraq o, mütəxəssislər və tələbələr üçün "Macar yataqları neftlərinin qeyri - nyuton xassələri barədə" mövzusunda tsikl məruzələr oxumuşdur.





O, Azərbaycanın, Ukraynanın, Rusiyanın nüfuzlu mətbuatlarında nəşr olunmuş 100 - dən çox elmi əsərin müəllifidir. Onun müəllifi olduğu ixtiralar, metodiki işlər və rəhbər sənədlər neftçi - mühəndislər və elmi əməkdaşlar tərəfindən elmi - metodiki vəsaitlər kimi istifadə olunur. R.B.Məmmədzadənin fəaliyyəti həm də yaxın şərq və uzaq xarici ölkələrdə (Rusiya, Ukrayna, Tatarstan, Qərbi Sibir, Başqardıstan, Vyetnam, Misir və b.) yataqların işlənməsinin səmərəliliyinin artırılması problemlərinin həlli məsələlərini də geniş əhatə edir. Bu sahədə Azərbaycan aliminin bilikləri özünün məhsuldar nəticələrini vermişdir.

Onun sistemli və geniş təfəkkürü neft elminin tətbiqi sahələrindəki elmi bilikləri öz təsdiqini tapmışdır və yeni enerji resursaqənaətedici nanotexnalogiyaların yaradılmasına imkan verir ki, bu da Azərbaycan Respublikasının proqram sənədi əsasında karbohidrogen hasilatında geniş texniki - iqtisadi perspektivə malikdir.

Rəfael Bəhram oğlu Məmmədzadəyə yaradıcılıq uğurları arzulayırıq!



## MİRZƏYEV MİRZƏ SƏMƏD OĞLU

*Yüksək mənəviyyatlı ziyalı, ali dərəcəli həkim*



**Xalq xidmətinə sərf olunan ömrün hər nəfəsi bir həyata dəyər.**

*Hüman Təbrizi.*

Yer kürəsində elm - texnika inkişaf etdikcə hər bir peşə, sənət öz dairəsini genişləndirərək zənginləşir və dinamik inkişaf yolu ilə izini dərinləşdirir. Ən müqəddəs peşə olan həkimlik özü bir yüksək məqam deməkdir. Lakin o peşənin sahibinin elmi və intelektual səviyyəsi, mənəviyyatı burada əsas rol oynayır. Söhbət yüksək mənəviyyatlı, elmi ilə, bacarığı və varlığı ilə xalqa, vətənə xidmət edən ali dərəcəli həkimdən gedir. O, həkimdən ki şəfası ilə, məsləhətləri, müalicəsi və səmimiyyəti ilə xəstəni sağaltmaq qabiliyətinə malikdir və ömrünün 44 ilini xalqımızın sağlamlığına həsr etmişdir. Onun şərəfi və sərvəti sağaltdığı xəstələrin minnətdarlığı və layiq olduğu təltiflər, mükafatlardır.

Mirzəyev Mirzə Səməd oğlu 1 yanvar 1942 - ci ildə Oğuz rayonunun Kərimli kəndində anadan olmuşdur. Yeddiillik təhsili Kərimli, orta təhsili Oğuz şəhər 2 saylı orta məktəbində bitirmişdir. İki il istehsalatda çalışmışdır.

1961- 1967 - ci illərdə Azərbaycan Dövlət Tibb Universitetində təhsil almışdır. İnstitutu bitirdikdən sonra təyinatla Oğuz rayonuna göndərilmiş, burada 10 il burun, boğaz, qulaq həkimi işləmişdir. 1977 - ci ildə Bakı şəhərinə köçmüş, 3 saylı klinik xəstəxananın burun, boğaz, qulaq şöbəsində həkim işləməyə başlamışdır. 1990 - cı ildən bu günədək həmin şöbənin müdiri vəzifəsində çalışır. 1985 - 1987 - ci illərdə Laos Xalq Demokratik Respublikasında həkim işləmişdir. Ali dərəcəli həkimdir.

Həkimin kabinetinin divarlarından fəxri fərmanlar, diplomlar, şəkillər asılmışdır. Bunların içərisində bir sıra ictimai təşkilatlar, birliklər, müxtəlif qəzetlərin redaksiyaları tərəfindən təsis edilmiş diplomlar, fəxri fərmanlar həkimin fəaliyyətinə verilən qiymətdir.

Mirzə Mirzəyevin 2002 - ci ildə layiq görüldüyü Mir Mövsüm Ağa mükafatını, 2003 - cü ildə "İti qələm" Rspublika Ədəbi Birliyinin Zərifə Əliyeva adına fəxri diplomunu, 2004 - cü ildə "Vicdanın səsi" qəzetinin Heydər Əliyev adına "Ləyaqət fəxri diplomunu, "Avropa Mətbu Evi"nin müəyyənləşdirdiyi 2007 - ci il üzrə "İlin ən yaxşı həkimi" diplomunu", "Hippokrat" tibb jurnalının "Şəfalı əllər"





fəxri diplomunu və s. buna misal göstərmək olar.

Onun haqqında ilk məqalə 1970 - ci il "Azərbaycan gəncləri" qəzetində çap olunmuşdur. Bu günə qədər hər il bir neçə qəzetdə həkim haqqında gözəl fikirlər söylənilir. Aqillərdən biri deyib: "Ulu o adamdır ki, torpağın üzərində bulud kölgəsi kimi elə getsin ki, qarışqanı da incitməsin". Mirzə həkim belə şəxsiyyətlərdəndir. Həkimə ailəsi haqqında sual verdikdə onun qaşları çatıldı. Buna səbəb oğlu Elmarın vaxtsız vəfatı idi: - Oğlum Elmar Mirzəyev BDU - nun hüquq fakultəsini bitirmişdi. Vergi sistemində işləyirdi. Amansız ölüm birdən - birə onu yaxaladı. Fidan adlı bir qız yadigarı var. Qızım Züleyxa Mirzəyeva Azərbaycan Tibb Universitetini bitirib. 3 saylı klinik xəstəxanada mama - qnikoloq işləyir. Səlimə və Çingiz adlı bir qızı və bir oğlu var.

Mirzə həkimin həyat yoldaşı Mirzəyeva Zivər Yusif qızı Bakı Sənaye Pedaqoji Texnikumunun müəllimidir. Nümunəvi ziyalılar ailəsinə uğurlar arzulayırıq.

***Sən xalqımın həkimisən, çalışırsan durmadan,***
***Qırx dörd ildir xalqımızın xidmətindəsən həkim.***
***Bu yollarda bircə an da dayanıb, yorulmadan,***
***-Bizim müqəddəs borcumuz budur - deyirsən həkim.***
***Sənin tükənməz sərvətin xalqın məhəbbətidir,***
***Mirzə həkim varlığıyla qərarında qətidir.***
***O deyir ki, həkim gərək əsgər tək ayıq olsun,***
***Səfasıyla dəryalarda yelkənli qayıq olsun.***
***Hər bir xəstə o dəryanın zərrəsindən sağalsın,***
***O qayıq da ziya dolu sahillərə yan alsın.***



# MƏMMƏD NÜTVƏLİ OĞLU MUSTAFAYEV

*SSRİ idman ustası, yenilməz çempion*
*"Zorxana" milli güləş federasiyasının vitse prezidenti*



**"İdman sağlam həyat deməkdir. İdmanın bütün növləri insan düşüncəsinə aydınlıq, istirahət bəxş edərək, yeni həyat verir. İnsan həyatının bütün ömrü boyunca hər bir dövründə: uşaq və yeniyetməlik, gənclik, orta yaş və müdriklik dövrü- idman insana həyat eşqi bəxş edən, ömrü uzadan, sağlamlığın etibarlı qarantı olan bir sahədir".**

*"Faydalı məsləhətlər" silsiləsindən*

İnsan bu dünyada yaşadığı ömür boyunca çatdığı məqamı öz bacarığı, zəhməti və elmi ilə fəth edir. Haqqında söhbət açacağımız, görkəmli idman ustası, Azərbaycana "Qızıl" medal gətirmiş, yenilməz çempion, nüfuzlu ziyalı, nəcib və əsil insan adını ləyaqətlə daşıyan Məmməd Mustafayev haqqındadır.

Ölkəmizi dünyaya tanıdan sahələrdən biri də idmandır. Məşhur çempionlarımız, idmançı qəhrəmanlarımız, gənc idmançılar yetişdirən idman ustaları - məşqçi müəllimlərimiz xalqımızın fəxridir. Görkəmli idman ustası (SSRİ üzrə), "Dinamo" İdman Cəmiyyəti Mərkəzi Şurasının çempionatı mükafatlarına layiq olan və ömrünün 52 ilini (12 yaşından) idmana həsr edərək, nailiyyətlər əldə edən, təvazökar, nəcib, ziya dühasının sahibi Məmməd Mustafayev 1946-cı ildə Şəki şəhərində anadan olmuşdur. Hələ 12 yaşlı məktəbli ikən sərbəst güləşlə məşğul olmağa başlayan Məmməd Mustafayev 1960-1961-ci illərdə (14-15 yaşlarında) Şəki çempionu adına layiq görülmüşdür.

Bakı şəhəri "Dinamo" İdman Cəmiyyətinə dəvət alan gənc idmançı gərgin məşqlərdən sonra Bakı çempionu olmuşdur. Məmməd Mustafayev Respublika çempionatında mükafat alan yerlər tutmuşdur. 1968-ci ildə Respublika Yığma Komandasının üzvü olmuşdur.

O, 1968-ci ildə Moskva şəhərində keçirilən "Dinamo" İdman Cəmiyyətləri Mərkəzi Şurasının çempionatında III yeri tutaraq mükafatlandırılmışdır. SSRİ İdman ustası normalarını lazımınca yerinə yetirən Məmməd Mustafayev 1969-cu ildə Respublika İdman Komitəsinin Nazirlər Komitəsinə göndəriş ilə tanınmış idmançılar cərgəsindən seçilərək, konkursdan kənar böyük güzəştlərlə Bədən Tərbiyəsi İnstitutuna (İdman akademiyası) qəbul olunmuşdur. İdman Akademiyasında ali təhsilini müvəffəqiyyətlə başa vuraraq Bakı Xalq Maarif Şöbəsinin İxtisaslaşdırılmış Güləşçilər Məktəbində məşqçi olaraq çalışmışdır. Daha sonra 68 saylı və 75 saylı "Kulinariya və Ticarət" İxtisas Kollecində Bədən Tərbiyəsi işləri üzrə rəhbər vəzifəsində çalışmışdır. Respublika İdman Komitəsinin müraciəti ilə Bakı Soveti sədrinin sabiq I müavini Həbib Sadıqoviç Fətəliyevin rəhbərliyi ilə ölkəmizin idman şərəfini qoruduğu üçün Məmməd Mustafayev mənzillə təmin edilmişdir. 2009-cu ildən Məmməd Mustafayev Respublika Milli İdman Növləri Assosiyasiyasının "Zorxana Milli Güləş" Federasiyasının vitse-prezidenti vəzifəsində çalışır. 1982-ci ildə məşhur idmançı Məmməd Mustafayev Respublika Kartonos-poliqrafiya kombinatında çalışmaq üçün sərbəst güləş üzrə dəfələrlə Respublika çempionu olmuş Aydın Babayev tərəfindən isə dəvət olunur. Məmməd Mustafayevi həmin müəssisədə şöbə müdiri vəzifəsində işlə təmin edən Aydın Babayev xeyirxah insan, nüfuzlu ziyalıdır. İqtisadi inkişaf Naziri vəzifəsində ləyaqətlə çalışmış Heydər Babayev kimi davamçısı, yetirməsi, övladı da daima xeyirxahlığı ilə hörmətə layiq bir şəxs kimi seçilmişdir. Məmməd Mustafayev də bu etimadı doğruldaraq, çalışdığı 20 il ərzində şöbə müdiri vəzifəsindən direktor müavini vəzifəsinə qədər yüksəlmişdir. 2001-ci ildən bu günə qədər öz şəxsi ideyası və layihəsi ilə yaratdığı "Aynurə" Məhdud Məsuliyyətli Cəmiyyətdə uğurla çalışır. Məmməd Mustafayevin böyüklüyü varlığında, xarakterində, insanlara münasibətdə öz təcəssümünü tapır. Ali niyyət sahibi, bütün insani keyfiyyətləri özündə birləşdirən nurlu bir ziyadır. Səmimi insan, idman şərəfini daima uca tutan, peşəkar idmançı Məmməd Nütvəli oğlu Mustafayevin rəhbərliyi ilə 19-22 may tarixində Litvanın Şaulay şəhərində keçirilən "Zorxana" Milli Güləş Üzrə Avropa Çempionatında Azərbaycan Yığma Komandası qalib gələrək "Avropa çempionu" adına layiq görülməklə Vətənə qızıl medallarla qayıtmışlar. Hər iki məsul vəzifəni hal-hazırda ləyaqətlə idarə edən: Respublika Milli İdman Növləri Assosiyasiyasının "Zorxana Milli Güləş" Federasiyasının vitse-prezidenti olan və eyni zamanda "Aynurə" Məhdud Məsuliyyətli (poliqrafiya işləri) cəmiyyətinə rəhbərlik edən, əsl vətən ziyalısı, xalqına, millətinə gərəkli bir insan olan Məmməd Mustafayevə daha böyük uğurlar, nailiyyətlər arzulayırıq. Onun yetirmələri ölkəmizin fəxridir.



Məmməd müəllim gözəl ailə başçısıdır. 2 övladı və 2 nəvəsi var. Arzulayırıq ki, övladları onun həyatına rövnəq verən, bəxtiyarlıq bəxş edən Azəri xanımı kimi vətənimizin şərəfli, ləyaqətli qızları - anaları olaraq ata fəxarəti olsunlar.

## MƏMMƏDOV FƏXRƏDDİN NƏRİMAN OĞLU

*Tarix elmləri doktoru, professor*



**İnsana arxadır ömür kamalı,**
**Ağıldır hər kəsə dövləti, varı.**

*N.Gəncəvi*

Savadlı, bacarıqlı, elm sahəsində bir çox uğurlar əldə etmək üçün böyük potensiala malik olan, işgüzarlığı, təvazökarlığı, ali insani keyfiyyətləri ilə hər yerdə hörmət qazanan Məmmədov Fəxrəddin Nəriman oğlu 13 dekabr 1948 - ci ildə Hacıqabul rayonunun Qızılburun kəndində ziyalı ailəsində anadan olmuşdur. 1966 - cı ildə Atbulaq kənd orta məktəbini bitirib elə həmin ildə də Bakı Dövlət Universitetinin Tarix fakultəsinə daxil olmuş, 1971 - ci ildə təhsilini başa vurub, tarixçi ixtisasına yiyələnmişdir.

1973 - 1977 - ci illərdə Azərbaycan MEA Tarix İnstitutunun aspiranturasında oxumuş, 1978 - ci ildə namizədlik, 1990 - cı ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

F.N.Məmmədovun bu vaxta qədər tədqiqat mövzusu, tariximizin müxtəlif problemləri ilə bağlı "İnqilab Barrikadalarında", "Gəncə", "Ulu Gəncə", "Gəncə (tarixi oçerk)", "İstiqlal mücadiləmizin beşiyi", "Azərbaycan tarixi", "Azərbaycanın şimal qapısı - Xaçmaz" adlı 6 monoqrafiya, elmi jurnallarda və dövrü mətbuatda 100 - dən çox məqalələri nəşr edilmişdir.

1973 - cü ildən 1988 - ci ilə qədər Azərbaycan MEA Tarix İnstitutunda laborant, baş laborant, kiçik elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır. F.N.Məmmədov Azərbaycan Tibb Universitetində 1988 - ci ildən əvəzçilik üzrə, 1989 - cu ildən isə müsabiqə yolu ilə seçilməklə baş müəllim kimi fəaliyyət göstərmişdir. Zəngin mənəviyyatlı,yüksək intellektual səviyyəli F.N.Məmmədov 1994 - cü ildən professor vəzifəsinə seçilmişdir. Hal - hazırda universitetin "Azərbaycan tarixi" kafedrasının müdiri vəzifəsində çalışır.

Səkkiz il Azərbaycan tedeviziyası ilə "Əsrlərdən gələn səslər" verlişində Azərbaycan tarixini respublika əhalisinə tədris etmişdir. Ümumdünya türk xalqlarının 1994 - cü ildə İzmirdə keçirilən II qrultayının iştirakçısı olmuşdur. Orada plenar iclaslarda məruzə ilə çıxış etmişdir.

Professor səmərəli fəaliyyəti ilə çalışan və seçilən vətən ziyalısıdır. O çalışdığı Azərbaycan Tibb universitetində daima hörmət və nüfuz sahibi olmaqla tələbələr in və kolleltivin məhəbbətini qazanıb. Görkəmli alimə yaradıcılıq nailiyyətləri arzulayırıq.





## MİRİYEV AKİF FƏRMAN OĞLU

*Filoloq-alim*

**Doğru və salamat fikirli adamların kamalı həmişə aydın, açıq və düzgün olur.**

*F.Köçərli*



Zəhmət dolu ömür yolları keçən, işinə, sənətinə vicdanla yanaşan bilik və bacarığı, özünə məxsus insani keyfiyyətləri və intellektuallığı ilə seçilən Azərbaycan Tibb Universitetinin Azərbaycan dili kafedrasının müdiri, gözəl alim Akif Fərman oğlu Miriyev 1943 - cü ildə İmişli rayonunun Mirili kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ilk öncə İmişli dəmir yol stansiyasında, fəhlə daha sonra Yalavac kənd 8 illik məktəbində baş pioner dəstə rəhbəri kimi ilk əmək fəaliyyətinə başlamışdır. 1962- 67 - ci illərdə BDU - nun filologiya fakultəsində təhsil almışdır. 1967 - ci ildə təyinatla İmişli şəhər 1 saylı orta məktəbinə müəllim göndərilmişdir. Müəllim işlədiyi 4 il ərzində məktəbin və ümumiyyətlə rayonun ictimai həyatında fəal iştirak etmişdir.

A.F.Miriyev 1971 - ci ildə Azərbaycan Respublikası EA Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasına (qiyabi) daxil olmuş, həmin vaxtdan da institutda kiçik elmi işçi işləmişdir. O, 1977 - ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin (indiki ATU) azərbaycan və rus dilləri kafedrasının müəllimi seçilmişdir. 1980 - cı ildə "Azərbaycan mətbuat dilində qrammatik normalar (70 - ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edən Akif müəllim 1992 - ci ildən kafedranın dosentidir.

Müəllimliklə təşkilat metodiki və ictimai işi daim birləşdirməyə üstünlük verən A.F.Miriyev 1984 - cü ildən müstəqil Azərbaycan dili kafedrasının tədris hissə müdiri işləmiş, 2008 - ci ildə (18 aprel) isə onun 40 illik rəhbəri, filologiya elmləri doktoru, professor Səyyarə Məmməd qızı Mollazadənin zəmanəti ilə kafedranın müdiri seçilmişdir.

1970 - ci illərdən Azərbaycan ədəbi dilinin normaları sahəsində tədqiqatlar aparan Akif müəllim ölkəmizdə ilk dəfə nəşr olunan "Azərbaycan dilinin orfoepiya sözlüyü"nün tərtibçilərindəndir (1982 - ci il "Elm" nəşriyyatı). Ümumilikdə Azərbaycan ədəbi dilinin orfoqrafik, orfoepik, leksik, qrammatik normalarına və müxtəlif məsələlərə aid 80-ə yaxın məqalə, teziz və dərs vəsaiti çap etdirmişdir.

A. Fərman oğlu 2010 - cu ildə Tələbə qəbulu üzrə Dövlət Komissiyasında geniş istifadə üçün hazırlanıb nəşr olunmuş "Azərbaycan dili" tədris vəsaitinin (648 səh) həmmüəlliflərindəndir. Akif müəllim "Müasir Azərbaycan ədəbi dili: norma və variantlar" mövzusunda irihəcmli tədqiqatını tamamlamaq üzrədir.

A.F.Miriyev gənclik illərindən vaxtaşırı bədii yaradıcılıqla da məşğul olur, iş yoldaşları haqqında yubiley məqalələri, şeir və nəşr kitablarına rəylər yazır, beynəlxalq və respublika səviyyəli elmi - nəzəri konfranslarda məruzələrlə çıxış edir. Ümumiyyətlə Akif müəllim fəal mövqeli ziyalı kimi gənclərin vətənpərvərlik tərbiyəsinə ciddi yanaşır, tədrisdə bu cəhətə üstünlük verilməsinə daim diqqət yetirir.

Öz işinə məsuliyyətlə yanaşan Akif Miriyevin yetirdiyi yüzlərlə elmli, savadli ixtisaslı kadrlar Azərbaycanda və Respublika hüdudlarından kənarda uğurla çalışırlar. Nüfuzlu ziyalı Akif Miriyevə həyatda nailiyyətlər arzulayırıq.

Akif müəllim gözəl ailə başçısıdır. Onun üç övladı və üç nəvəsi var.







## MƏMMƏDOVA ŞƏRQİYYƏ BEHBUD QIZI

***RBQC-nin sədri,***
***"Anaların səsi" qəzetinin baş redaktoru, filoloq alim***



**Dünyada inam və xoşbəxtliyə çatmaq üçün biliklən asan və yaxın yol yoxdur.**

*"Min bir gecə" kitabından*

İnsan övladı o zaman zənginliyə qovuşur ki, zəhmətsevərlik və xeyirxahlıq hisslərinin təsiri altında möcüzələrlə dolu olan dünyamızda xariqələr yaradaraq ömür yollarına əbədi yaşar izlər salsın. Ali mərifət sahibi, bütün insani keyfiyyətləri özündə cəmləşdirən, yüksək mədəniyyətə malik, müəllim sənətini daim uca tutan, filologiya elmləri namizədi, Respublika Beynəlxalq Qadınlar Cəmiyyətinin sədri, "Anaların səsi" qəzetinin baş redaktoru Məmmədova Şərqiyyə Behbud qızı 1953-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olmuşdur. Naxçıvanda orta təhsilini başa vuraraq Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin filoligiya fakultəsini bitirmişdir. Şahbuz rayonunda müəllim kimi ilk əmək fəaliyyətinə başlamışdır.

Şərqiyyə xanım Məmmədova 1980-ci ildən Babək rayonunun Tumbul və Şıxmahmud kənd orta məktəblərinin direktoru vəzifəsində işləmişdir. İşində tələbkar və məsuliyyətli olması, daim diqqət mərkəzində olmuş, 1990-cı ildə Naxçıvan şəhər Xalq Təhsili Şöbəsinə inspektor vəzifəsinə təyin edilmişdir. 1992-ci ilədək burada çalışan Şərqiyyə Behbud qızı 1992-ci ildən 1996-cı ilədək Naxçıvan Şəhər "Xanım qızlar" litseyinin direktoru vəzifəsini icra etmişdir.

Şərqiyyə xanım Məmmədova 1996-cı ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş, Bakı şəhəri Nərimanov rayon 200 saylı məktəbində direktor müavini, eyni zamanda Bakı Dövlət Universitetinin Azərbaycan Dilçiliyi Kafedrasının müəllimi işləmişdir. Tutduğu vəzifələrdən asılı olmayaraq, daim məsul və nüfuzlu şəxsiyyət kimi seçilmiş ziyalılar cərgəsində olmuşdur. Elm sahəsinə möhkəm tellərlə bağlı olan, xalqı, torpağı ilə nəfəs alan, Azərbaycan təhsilinin inkişafında xüsusi xidmətləri olan Şərqiyyə Behbud qızı 2007-ci ildə "1990-2000-ci illərin poeziyasında vətəndaşlıq və vətənpərvərlik ideyalarının bədii təcəssümü" mövzusunda müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi adını almışdır. Elm Tanrının insanlara verdiyi mükafatdır. Bu mükafatı dəyərləndirənlər zamanın ən qiymətli inciləridir.

Alimin fəaliyyət dairəsi tək elm sahəsi ilə bitmir, o həm də fəal ictimaiyyətçi

bir xanımdır. İki çağırış Yerli Sovetin deputatı olmuşdur. 1996-cı ildən Azərbaycan Qadınlar Cəmiyyətinin üzvü olan, xalq arasında xeyriyyəçi kimi tanınan Şərqiyyə xanım imkansız ailələrə, Uşaq və Qocalar evinə tez-tez baş çəkərək onların problemləri ilə yaxından tanış olur və yardımlar təşkil edir.

Şərqiyyə xanım Məmmədova xarici ölkələrdə keçirilən konfransların iştirakçısı olmuş, o cümlədən 1999-cu ildə İraqda Ümumdünya Müsəlman Qadınlarının Konfransına, 2002-ci ildə Respublika Qadınlar Şurası Nümayəndə Heyətinin tərkibində Kiprin müstəqillik bayramına dəvət olunmuşdur. 2003-cü ildə Tehranda Müsəlman Qadınları Konfransının iştirakçısı olmuşdur.

İctimai fəallığına, xeyriyyəçiliyinə və bir çox xidmətlərinə görə 2005-ci ildə Dünyada Sülh naminə Dinlərarası və Beynəlxalq Federasiyası tərəfindən Şərqiyyə Behbud qızına "Sülh məramlı səfir" adı verilmişdir.

Elm sahəsində bir çox xidmətləri olmuş alim 30-a yaxın elmi məqalənin və 2 kitabın müəllifidir. Hal-hazırda doktorluq dissertasiyasının müdafiəyə hazırlıq mərhələsi gedir.

Şərqiyyə xanım Məmmədova hörmətli bir alim olaraq, bütün insanlıq kompoleksini özündə cəmləşdirən, kövrək duyğulu, şair qəlbli ziyalı bir xanımdır. Xeyli əsərləri və şeirləri mətbu orqanlarda dərc olunur və rəğbətlə qarşılanır. Yüksək savadlı və natiqlik məharəti olan Şərqiyyə xanım tez-tez televiziya verilişlərinə dəvət alaraq çıxışlar edir, görkəmli şəxsiyyətlərin anım və yaradıcılıq günlərində, tədbirlərində iştirak edir.

Şərqiyyə xanım Behbud qızı Vətənpərvər xanım olaraq hərbi hissələrdə, səngərlərdə əsgərlərlə görüşüb onlara əsl ana qaybısı göstərərək onlara mənəvi dayaq olur. Alim xanımın ən böyük arzusu, Qarabağımızın tezliklə işğaldan azad olmasıdır.

Şərqiyyə xanımın gözəl ailəsi var. Bir qız, iki oğluna qayğıkeş ana, nəvələrinə mehriban nənədir.







## MUSTAFAYEVA ZƏMİNƏ QARA QIZI

*Qabaqcıl maarif işçisi*



***Bizi yerdən göyə qaldıran da, həyatdakı uğurlarımıza imza atan da müəllimlərimizdir. Xalq ancaq belə insanları yadda saxlayır.***

**Platon**

O insan xoşbəxtdir ki, bütün sənətini, həyatını vətən övladlarının savadlanmasına, onların gələcəkdə düzgün istiqamətlənməsinə sərf edir. Bu da bir tale yoludur. Bu yolları ağlı, işgüzarlığı iradəsi ilə addımlayanlar nəticə etibarı ilə öz istəklərinə çatırlar. Tale yollarını mətin addımlarla addımlayan, yüksək insani keyfiyyətlərə malik Mustafayeva Zəminə Qara qızı 1955-ci ildə Gürcüstan Respublikasının Dmanisi rayonunda anadan olub.

1981-ci ildə SSRİ-nin 50 illiyi adına Xarici Dillər İnstitutunu (indiki ADU) bitirib.

Z.Mustafayeva ilk əmək fəaliyyətinə 1977-ci ildən N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda katibə kimi işləməklə başlayıb. 1980-ci ildən İnstitut Həmkarlar İttifaqı komitəsində sədrin köməkçisi kimi fəaliyyət göstərib. 1992-ci ildən Tibb Universiteti nəzdindəki Xarici Dillər kafedrasında əvvəlcə baş laborant daha sonra müəllim vəzifəsində çalışır.

Zəminə xanım Mustafayeva Universitetin ictimai həyatında yaxından və fəal iştirak edir. O bir sıra ölkə miqyaslı tədbirlərdə iştirak etmiş İnstitut yaşıllar hərəkatının fəal üzvlərindən olub, tələbə və müəllim kollektivi arasında böyük hörmətə malikdir.Rus, alman, ingilis, türk, gürcü dillərini gözəl bilən Z.Mustafayeva hazırda baş müəllim kimi fəaliyyət göstərir. Öz sənətinə ürəkdən bağlı olan, münasibəti, xeyixahlığı, xanım xatınlığı, ləyaqəti ilə seçilən gözəl bir xanımdır. Ləyaqət, gözəllik pay kimi verilmir. Onu qazanmaq lazımdır. Zəminə xanım 15-ə yaxın elmi məqalənin müəllifidir.

2008-ci ildən Dilçilik İnstitutunun dissertantıdır. Çox aktual və maraqlı bir dissertasiya mövzusu: Soyadların yaranması və inkişafı (oğuz qrupu türk dilləri konteksində) artıq yekunlaşma ərəfəsindədir.

Tələbələr tərəfindən kristal müəllimə kimi qəbul olunan vətənpərvər xanımı daha yaxından tanımaq, xalq-vətən yolunda çəkdiyi zəhmətləri görmək üçün çox yox, onunla yalnız 5-10 dəqiqə söhbət etmək kifayətdir. Onun gözləri, mənalı baxışları müdriklik saçar nurlu görkəminə. Xeyriyyəçi və vətənpərvər xanım olan Z.Mustafayeva ailəlidir. Iki övlad anasıdır.

## NƏBİYEV BƏKİR ƏHMƏD OĞLU

*Əməkdar elm xadimi,*
*AMEA-nın həqiqi üzvü, akademik*



**Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.**

*Heydər Əliyev.*

Həmişə elmə bağlı olan, sözün əsil mənasında davranışı, sadəliyi, insani və əxlaqi keyfiyyətləri ilə xüsusi hörmət və nüfuza malik olan Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü akademik Bəkir Əhməd oğlu Nəbiyev 1930 - cu ildə Ağdaş bölgəsinin Üçqovaq kəndində anadan olmuşdur. 1947 - ci ildə Ağdaş şəhər orta məktəbini, 1954 - cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Akademik B.Ə. Nəbiyev 1954 - 1961 - ci illərdə "Azərbaycan gəncləri", "İnşaatçı", "Kommunist" qəzetlərinin redaksiyalarında məsul katibin müavini, ədəbi işçi, tərcüməçi, mədəniyyət şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Yazıçılar Birliyinin (1958), Jurnalistlər Birliyinin (1960) üzvüdür. 1960 - cı ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1961 - ci ildən öz taleyini Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlamışdır. Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, elmi katib, baş elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. 1970 - ci ildə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. On altı il (1971 - 1987) Ədəbiyyat muzeyinin (Nizami muzeyinin) direktoru olmuşdur. 1982 - ci ildə Akademik B.Ə. Nəbiyevə professor elmi adı verilmişdir. 1983 - cü ildə o, Azərbaycan Elmlər Akademiyasına müxbir üzv, 1989 - cu ildə isə həqiqi üzv (akademik) seçilmişdir. 1987 - ci ildə 2001 - ci ilədək Akademiyada Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibi vəzifəsində çalışmış, "Azərbaycan EA Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası)" jurnalının baş redaktoru olmuşdur. Hazırda AMEA - nın müşaviri və Nizami adına Ədəbiyyat İnstitutunun direktorudur (2003 - cü ildən). B.Nəbiyev altıcildlik "Çoxmillətli sovet ədəbiyyatı tarixi"nin (Moskva) müəlliflərindən, ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin müəlliflərindən və redaktorlarından biri, altıcildlik "Azərbaycan əbəbiyyatı





tarixi"nin baş redaktorudur. Azərbaycan Milli Ensklopediyası redaksiya heyəti sədrinin müavinidir.

Akademik B.Ə. Nəbiyev uzun müddət Bakı Dövlət Universitetində, N.Tusi adına Dövlət pedaqoji Universitetində, Müəllimləri Təkmilləşdirmə İnstitutunda Azərbaycan tarixindən, ədəbi əlaqələrdən mühazirələr oxumuş, "Tənqid və ədəbi proses" fənni üzrə ixtisas kursu aparmışdır. 1994 - 2002 - ci illərdə "Təfəkkür" Universitetində filologiya kafedrasının müdiri olmuşdur. 30 cildlik "Türk dünyası ədəbiyyatı" ensklopediyasının (Ankara) Azərbaycan Respublikası üzrə məsul əlaqələndiricisidir.

Əsas işi ilə yanaşı B.Nəbiyev Azərbaycan Mədəniyyət Fondunun (1982 - 1986), Azərbaycan Ədəbiyyat Fondunun (1987 - 1991) sədri vəzifələrində çalışmışdır. 20 il (SSRİ dağılanadək) Sovet Yazıçılar İttifaqının Tənqid və Ədəbiyyatşünaslıq Şurasının üzvü, 1987 - 1991 - ci illərdə isə SSRİ Elmlər Akademiyasının İctimai Elmlər üzrə Əlaqələndirmə şurasının üzvü olmuşdur. Hazırda "Ədəbiyyat qəzeti"nin redaksiya heyətinin (1970 - dən), Azərbaycan Milli Dram Teatrının bədii Şurasının (1985 - dən), Qafqaz Müsəlmanları İdarəsi Elmi - Dini Şurasının (1996 - dan) və Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının (1997- dən) üzvü, Terminologiya komissiyasının ədəbiyyatşünaslıq bölməsinin sədridir (2009- dan). Elmlər Akademiyasında filologiya elmləri doktoru alimlik dərəcəsi verən Müdafiə Şurasının sədridir (1994- dən).

Akademik B.Ə. Nəbiyevin indiyədək 50 kitabı, 800- dən artıq məqalə və rezensiyası nəşr edilmişdir. Bu əsərlər klassik irsin, cari ədəbi prosesin, ədəbi tənqidin, poeziyada və nəşrdə sənətkarlıq həsr edilmişdir. "Ədəbi düşüncələr", "Tənqid və ədəbi proses", "Kamalın təntənəsi", Roman və müasir qəhrəman", "Özümüzdən başlayaq", "Əhməd Cavad", "Almas İldırım", "Şəhriyar kəlamının vüsəti", "Çətin yollarda", "İstiqlal şairi", "Xəzan vurmasın", "Hərənin öz yolu var..." və s. kitabları, müştərək hazırlanmış orta məktəb dərslikləri, o cümlədən XI siniflər üçün "Ədəbiyyat" kitabı elmi - ədəbi ictimayyət tərəfindən dönə - dönə təqdir edilmişdir.

Akademik B.Ə. Nəbiyev Bakıda bədii ədəbiyyatda realizm (1966), romantizm (1972) məsələlərinə, Moskvada (1978), Kiyevdə (1980), Tbilisidə (1983), Alma - Atada (1986), Düşənbədə (1989) qarşılıqlı ədəbi əlaqələr problemlərinə həsr edilmiş simpoziumlarda məruzəçi olmuşdur. Birinci millətlərarası Azərbaycan Konqresində "Azərbaycan ədəbiyyatı tarixinin yazılması prinsipləri" (Qayseri, 1990), Azərbaycan Mühacirət Ədəbiyyatı Simpoziumunda "Azərbaycan ədəbiyyatında qürbət lirikası" (Bakı, 1991), Üçüncü Uluslararası Türk Kültürü Konqresində "Əhməd Cavadın yaradıcılığında türkçülük idealları" (Ankara, 1993),

Beynəlxalq Nizami Konqresində "Nizami və Gəncə (Təbriz, 1993), Beynəlxalq Fizuli Konqresində "Həqiqətüş - süəda"nın fikri - bədii vüsəti" (Tehran, 1995), Beynəlxalq Fizuli Konqresində "Aşiqanə sözün bənzərsiz ustadı" (Ankara, 1996), Dördüncü Uluslararası Türk Kültürü Konqresində "Azərbaycan dilinin terminoloji lüğətləri" (Ankara, 1997), Birinci Beynəlxalq Nəsimi Konfransında (Hələb, 2008) "Azərbaycan şeirinin Nəsimi möcüzəsi mövzularında və s. məruzələr etmişdir. Çexiya, Slovakiya, Yuqoslaviya, Yunanıstan, Danimarka, Türkiyə, İran, İraq, Səudiyyə Ərəbistanı, Suriya, ABŞ, Çin və Yaponiyada beynəlxalq ədəbi - elmi və siyasi məclislərdəki məruzə və çıxışlarında, radio televiziya ilə söhbətlərində Azərbaycan haqqında, xalqımızın zəngin mənəvi dəyərləri haqqında həqiqətləri təbliğ və təlqin etmişdir. Məqalələri türk, rus, fars, ingilis, çin dillərinə tərcümə edilmiş, "Didərgin şair" monoqrafiyası Ankarada türk dilində buraxılmışdır.

Ədəbiyyatşünaslıq üzrə yüksək ixtisaslı kadrların yetişdirilməsi sahəsində də B.Nəbiyevin xidmətləri vardır. Onun rəhbərliyi altında 38 gənc alim doktorluq və namizədlik dissertasiyaları hazırlamış və müvəffəqiyyətlə müdafiə etmişlər.

Akademik B.Ə. Nəbiyev ədəbi - tənqidi məqalələri üçün tənqidçilər arasında "Qızıl qələm mükafatını almış (1974) ilk Azərbaycan tənqidçisidir. "Böyük Vətən Müharibəsi və Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüşdür (1978). Ədəbiyyatşünaslıq elminin inkişafında xidmətlərinə görə "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdir (1986). Əməkdar elm xadimi (1990), "Hacı Zeynalabdin Tağıyev" (1993) və "Məmməd Araz" (1994) mükafatlarının laureatıdır. 2002 - ci ildə "Türk dünyası xalqlarına xidmət üçün" Beynəlxalq TİKA mükafatına layiq görülmüşdür. Azərbaycan Jurnalistlər Birliyi Rəyasət Heyətinin "Ustad" Ali Mükafatını almışdır (1997). 2005 - ci ildə ona "Akademik Yusif Məmmədəliyev" medalı verilmişdir.

Ümummilli liderimiz cənab Heydər Əliyev alimin 70 illik yubileyi münasibəti ilə ona "Şöhrət" ordeni vermişdir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev 2005 - ci ildə Akademik B.Ə. Nəbiyevə "İstiqlal" ordeni təqdim etmişdir.





## NAMAZOVA ADİLƏ

***AMEA-nın həqiqi, SSRİ EA-nın müxbir üzvü, əməkdar elm xadimi, akademik***



**Eşqində atəşə dön, nifrətində buza dön,**
**Elm yolunda günə dön, aya dön, ulduza dön.**

*Nizami Gəncəvi*

İnsanlara laqeyid olan adamlardan heç vaxt həkim olmaz deyərək, Vətən övladlarının sağlamlığı naminə biliyini, bacarığını əsirgəməyən, müqəddəs həkimlik sənətini daim uca tutan, xalq tərəfindən çox hörmətlə qarşılanan və sevilən, AMEA-nın həqiqi üzvü, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, Azərbaycan Səhiyyə Nazirliyi Uşaq Həkimləri Cəmiyyətinin sədri, Akademik Topçubaşov mükafatı qalibi, "Şöhrət" ordenli, Azərbaycan Tibb Universitetinin "Uşaq xəstəlikləri" kafedrasının müdiri, tibb elmləri doktoru, professor Adilə Namazova 1926-cı ildə Qarabağın Seyidli kəndində anadan olmuşdur. Ağdam şəhər 1№ orta məktəbini bitirmiş, ATU-nun "Pediatriya" fakultəsinə daxil olmuş və müvəffəqiyyətlə başa vurmuşdur.

Professor A.Namazova ilk əmək fəaliyyətinə 1949-cu ildə Ağdam şəhər uşaq məsləhətxanasının müdiri kimi başlamışdır. 1954-57-ci illər Moskva Həkimləri Təkmilləşdirmə Mərkəzi İnstitutunun aspirantı olmuşdur. Adilə xanım N.Nərimanov adına Tibb İnstitutunun "Uşaq xəstəlikləri" kafedrasının assisenti vəzifəsində çalışmış, Moskva şəhərində tibb elmləri namizədlik dissertasiyası müdafiə etmişdir. Elm sahəsində daim axtarışlarda olan Adilə Namazova SSRİ Tibb Elmlər Akademiyasının doktorantı olmuş və doktorluq dissertasiyası müdafiə etmişdir. Görkəmli alim 1966-69-cu illərdə N.Nərimanov adına ADTİ-nun müalicə-profilaktika fakultəsinin Uşaq xəstəlikəlri kafedrasının müdiri seçilmiş, 1966-cı ildə professor adını almışdır. 1969-cu ildə institutun "Hospital pediatriya" kafedrasının müdiri təyin olunan Adilə Namazova 1970-ci ildə "Leninin 100 illik yubileyi" medalı ilə təltif olunmuş, 1971-ci ildə SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Azərbaycan səhiyyə Nazirliyi Akademik Tobçubaşov Mühazirələri Komissiyası vəzifəsində çalışan Adilə xanım SSRİ xalq deputatı, SRRİ millətlər

sovetinin üzvü, SSRİ Ali Sovetinin üzvü, Azərbaycan Orta Asiya Respublikası Qadınlar Komitəsinin sədri kimi məsul vəzifələrdə işləmiş, qadın və uşaqların problemlərinin həllində mühüm rol oynamışdır. Uzun illər tibb sahəsində çalışan professor A.Namazova elmi tədqiqatlarının tətbiqi nəticəsində ürək çatışmazlığından əziyyət çəkən yüzlərlə körpələrə sağlamlıq bəxş etmişdir. Beynəlxalq forumda Azərbaycanı layiqincə təmsil edən professor, ADTU-də də yüksək ixtisaslı kadrların yetişməsində böyük əməyi olmuşdur. O, 40-dan çox elmlər namizədi və elmlər doktoru hazırlamışdır, 320-dən çox elmi əsərlərin və Azərbaycanda ilk "Uşaq xəstəlikləri" dərsliyinin, 20-dən çox monoqrafiyanın və dərs vəsaitinin müəllifidir.

Əsl böyük insanlar sadə və təvazökar olurlar. Sadəliyi, insani münasibətləri, əxlaqi keyfiyyətləri, yüksək savadlı və elmli olması ilə dərin hörmət və nüfuz sahibi Adilə Namazova Dövlət İxtira Komitəsi tərəfindən 5 vəsiqə almışdır.







## NƏBİYEV AZAD MÖVLUD OĞLU

***Filologiya elmləri doktoru, professor***



**Dünyanı həmişə ürəyincə bil,**
**Ayaz gecələrdən axı çən doğur.**
**Onu bilirəm ki, üfüqdən deyil,**
**Hər kəsin günəşi qəlbindən doğur.**

*B.Vahabzadə*

Hər bir insanın həyatda missiyası özünün daxili imkanlarını arayıb axtarmaqdan onu həm özünün həm də ictimayyətin mənafeyinə yönələtməkdən ibarətdir. Dəyərli bir həyat yolu keçən, öz peşəsini dərindən bilən və sevən, öz dəsti xətti ilə seçilən, mənəviyyatlı, qəlbi varlığı ilə kamillik zirvəsinə qalxaraq hər yerdə özünə hörmət qazanan Azad Mövlud oğlu Nəbiyev 1945 - ci il aprelin 20-də Quba rayonunun II Nügədi kəndində ziyalı ailəsində anadan olmuşdur. 1952 - ci ildə Quba rayonunun II Nügədi kənd orta məktəbinə daxil olmuş, 1963 - cü ildə on birinci sinfi əla attestatla bitirmişdir. Elə həmin il Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinə daxil olmuş, 1967 - ci ildə jurnalist ixtisası üzrə fərqlənmə diplomu ilə başa vurmuşdur. A.M.Nəbiyev ilk əmək fəaliyyətinə 1967 - ci ildə Azərbaycan Dövlət Nəşriyyatında siyasi ədəbiyyat üzrə redaktor kimi əmək fəaliyyətinə başlamışdır. Sonrakı illərdə nəşriyyat sistemində müxtəlif vəzifələrdə çalışmış, 1976 - cı ildən işə universitetdə müəllimlik fəaliyyətinə başlamışdır.

1972 - ci ildə filologiya elmləri namizədi elmi dərəcəsini almışdır. Elm sahəsindəki daimi axtarışları, savadı 1981 - ci ildə onu filologiya elmləri doktoru elmi dərəcəsi almağa sövq etmişdir. 1982 - ci ildə professor adını almışdır.

A.M.Nəbiyevin təşəbbüsü ilə 1989 - cu ildə Bakı Dövlət Universitetində folklor kafedrası açılmış, elə həmin vaxtdan burada kafedra müdiri vəzifəsində çalışır. Professor Azərbaycan folklor məsələlərini, türk xalqlarının folklor əlaqələrini, milli mifologiya və folklorun nəzəri problemlərini araşdıran, folklorşünaslıq sahəsində öz məktəbini yaradan nəzəriyyəli alim kimi tanınır. O, folklorun aktual məsələlərini əhatə edən əllidən artıq monoqrafiya, dərs vəsaiti və özünün yazıya aldığı folklor materiallarından ibarət topluların, 450 - dən artıq elmi məqalənin müəllifidir. 5 kitabı və 20- dən artıq məqaləsi xarici ölkələrdə nəşr olunan professor A.M.Nəbiyev "Qəhrəmanlıq səhifələri", "Azərbaycan - özbək folklor əlaqələri", "Sərhəd bilməyən əlaqələr", "El nəğmələri, xalq oyunları" həmçinin rus dilində nəşr edilən "Vzaimosvəzi Azerbaydjanskoqo i Uzbekskoqo folğklora", müəlliflə yazdığı

"Azerbaydjanskiy qeroiseskii gpas", "İlaxır çərşənbələr", "Azərbaycan uşaq folkloru", "Milli təəssübkeşlik, yoxsa erməni saxtakarlığı", "Azərbaycan aşıq məktəbləri" və b. monoqrafiyaların, iki hissədən ibarət "Azərbaycan xalq ədəbiyyatı" dərsliyinin müəllifidir.

Bu sahənin bütün incəliklərini dərindən bilən Azad Nəbiyevin - "Nəğmələr, alqışlar, insanlar", "Azərbaycan dastanları", "Novruz", "Novruz bayramı", "Sehirli sünbüllər", "İlaxır çərşənbələr", "Alqışlar, adətlər, nəğmələr", rus dilində çap edilən "Mifı, leqendı i skazki Azerbaydjana", "Azerbaydjanskiy folğklor", Ankarada çap edilən iri həcmli Azərbaycan ədəbiyyatı antologiyası folklor cildi, nağıl, dastan "Koroğlu" və başqa dəyərli topluları da vardır.

Professor A.M.Nəbiyev 2000-ci ildə "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülmüş, 2001 - ci ildə ədəbiyyatşünaslıq sahəsindəki böyük xidmətlərinə görə Azərbaycan milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. 2005 - ci ildə anadan olmasının 60 illiyi ilə əlaqədar AMEA - nın və Bakı Dövlət Universitetinin fəxri fərmanları, Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir. Bir sıra Beynəlxalq və sahə akademiyalarının üzvü, bir neçə ölkənin fəxri vətəndaşıdır.

Professor A.M.Nəbiyev Azərbaycan Yazıçılar Birliyinin və Ağsaqqallar Şurasının üzvüdür. Müxtəlif illərdə bir sıra Müdafiə və Dissertasiya Şuralarının, Elmi - Metodik Şuraların və nüfuzlu qəzet və jurnalların redaksiya heyətinin üzvü olmuş, Ali Attestasiya Komisiyyasının filologiya elmləri üzrə eksperti və Ekspert Şurasının sədrinin müavini olmuşdur.

2009 - cu ildən AMEA - nın folklorşünaslıq üzrə Koordinasiya Şurasının sədridir. 30 - dan artıq dissertant və aspirantın elmi rəhbəri, 4 doktorantın elmi məsləhətçisi, onlarla doktorluq və namizədlik dissertasiyaların rəsmi apponenti kimi çıxış etmişdir. Professor A.M.Nəbiyev 1992 - ci ildən nəşr edilən "Folklorşünaslıq məsələləri" elmi nəzəri və ədəbi bədii jurnalının təsisçisi və baş redaktorudur. Tanınmış nəzəri məktəbi olan, yaxın və uzaq xaricdə ardıcıl olaraq əsərləri çap edilən tədqiqatçı alimlərdən olan professor A.M.Nəbiyevin əsərləri bir çox xarici dillərə tərcümə olunaraq rus, ingilis, türk, özbək, türkmən və fars dillərində nəşr edilmişdir. Bir sıra Beynəlxalq Simpoziumlarda Azərbaycanı ləyaqətlə təmsil edən elm xadimlərindən biri kimi tanınmışdır. 2006 - cı ildə oxşar mədəniyyətlərin, xalqların gen, birliyi ilə bağlı yarandığını təsdiqləyən beynəlxalq universal nəzəriyyəsini irəli sürmüş və buna görə müəlliflik şəhadətnaməsinə layiq görülmüşdür. Əsər tam halda 2009 - cu ildə nəşr edilmişdir. Professor A.M.Nəbiyev hələ gənc yaşlarından Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü, "Qızıl Qələm" mükafatı laureatıdır. 1986 - cı ildən Beynəlxalq Əlillər Federasiyasının fəxri üzvüdür.

Ülvi bir amal üçün yaşayan, zəngin mənəvi dəyərlərə malik olan Azad Nəbiyev gözəl ailə başçısıdır. İki övladı, 4 nəvəsi var. Qızı Ylkər Nəbiyeva filologiya üzrə fəlsəfə doktoru, oğlu Rövşən Nəbiyev hüqüq muhafizə orqanlarının polkovnikidir.





## MUSAYEV PAŞA İSMAYIL OĞLU

*Dünya şöhrətli alim,*
*Tibb elmləri doktoru, professor*



**Bir bacarıqlı təbib, yüzlərlə əsgərə dəyər.**
*Homer*

"Həkim nəinki ağıllı, yüksək əxlaqlı, xeyirxah və insanpərvər olmalıdır, o, xəstə üçün ata, şəfasını qaytardığına - keşikçi, sağlam adama dost olmalıdır", - deyən Hippokratın bu sözlərinə layiqincə əməl edən, qəlbi ancaq xeyirxah əməllərlə döyünən, ATU-nun oftalmologiya kafedrasının müdiri, Azərbaycanın görkəmli oftalmo-cərrahı, dünya şöhrətli alim, Rusiya Tibb Elmləri Akademiyasının fəxri doktoru, Amerika Oftalmologiya Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor Musayev Paşa İsmayıl oğlu 1952-ci ildə Şəmkir rayonunun Çinarlı kəndində anadan olub.

1968-ci ildə orta məktəbi medalla bitirib. N.Nərimanov adına ATİ-na daxil olub və 1974-cü ildə institutu başa vurub Gəncədə və Bakıda göz həkimi işləyib.

P.İ.Musayev 1978-81-ci illərdə S.M.Seçenov adına I Moskva Tibb İnstitutunun aspiranturasında təhsil alıb. 1981-ci ildə oftalmoloq , akademik M.M.Krasnovun rəhbərliyi ilə "Gözün buynuz qişasının bulloz distrofiyasının yeni cərrahi üsulla müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

Professor P.İ.Musayev 1981-ci ilin dekabrında N.Nərimanov adına ATU-nun Oftalmologiya kafedrasında assisent kimi fəaliyyətə başlayıb.

1987-ci ildə Moskvada "Gözün yarımkeçirici baryerləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib.

Professor P.İ.Musayev 1988-ci ildən N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının peofessoru, 1990-cı ildən isə həmin kafedranın müdiridir.

Professor P.İ.Musayev Qəlbinur 1989-cu ildən Azətrbaycan Alimlər İttifaqı İdarə Heyətinin, 1997-ci ildən Amerika və Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Birliyinin İdarə Heyətinin üzvüdür.

150-dən artıq elmi məqalənin, 3 monoqrafiyanın və 10 elmi ixtiranın müəllifidir. 2001-ci ildə Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Birliyi Blimsəl qrumunun həmsədri seçilmişdir.

12-17 noyabr 2002-ci il tarixdə Brüsseldə (Belçika) 51-ci Ümumdünya İxtiralar

Salonunda "Brüssel Evrika 2002" sərgisində "Oftalmologiyada yeni dərman preparatı "Aktipol"un kəşfi", Böyük qızıl medala və Belçika Maliyyə Nazirliyinin xüsusi prizinə layiq görülmüşdür. "Aktipol" dünyada bu günə qədər istifadə olunan ən effektli antivirus dərmanlardan biridir.

Professor P.İ.Musayev Qəlbinur on mindən çox cərrahi əməliyyatı uğurla aparmışdır.

1981-ci ildə "Ay bir əlçim buluddur" adlı ilk şeir kitabı, 1987-ci ildə "Payız məktubu" şeirlər kitabı 1990-cı ildə "Rəngli göz yaşları" adlı şeir kitabı, 1996-cı ildə, "itmiş həsrət" kimi şeirlər kitabı çapdan çıxmışdır. Şeirlərində hikmət də var, bu hikmətin təsirli portik ifadəsi və rəngarənglik də var. Hər bir şeiri bir dünyalıq, bir ömürlük xatirə danışır. Yaradıcılığında humanizm, vətənpərvərlik, məhəbbət hisslərinin tərənnümü əsas aparıcı motivlərdir.

Qəlbi nur çeşməsi, ilham mənbəyi olan Paşa Musayevin 2002-ci ildə "Ağlıma gələn, başıma gəldi", "Təbabət poeziyasının əyanı kimi və ya MAUE İŞIQ" və "Paşa Qəlbinur 50" biblioqrafiq kitabı çapdan çıxmışdır.

1987-ci ildən SSRİ Yazıçılar İttifaqının, 1992-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Dünya Azərbaycanlıları Konqresinin (DAK) həmsədri seçilmişdir. Brussel-2008, London-2010 qrultaylarında iştirakçısı olmuşdur.

Gözəl ailə başçısıdır. Övladları var.







## RƏHİMOV HƏMİD ƏHMƏD OĞLU

***Baş ədliyyə müşaviri, əmək veteranı***



**İnsanın ləyaqəti onun vətənpərvərliyi ilə ölçülür.**

*N.Q.Çernışevski.*

İnsanın məqsədi insanlıqdır. Çünki qəlblərə yalnız məhəbbətlə, insani rəftarla hökm etmək olar, orada məskən salmaq olar. Əsil insani kefyiyyətləri özündə cəmləşdirməklə onu tanıyanların qəlbində nurlu siması ilə daim yaşayan Həmid Əhməd oğlu Rəhimov 1933 - cü il martın 10 - da Ucar rayonunun Qəzyan kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra ordu sıralarında qulluq edib. 1953 - 56 - cı illərdə Gürcüstanda hərbi xidmət zamanı H.Rəhimov bir illik kurs keçərək gizir rütbəsinə layiq görülüb.

H.Rəhimov ilk əmək fəaliyyətinə Qaradağ Neft Mədənləri İdarəsində yeraltı təmir ustası kimi başlayıb. Cinəyatkarlığa qarşı mübarizə etmək, ədalət prinsiplərin yerinə yetirməsi üçün səy göstərmək, insan haqqlarının qorunması kimi müqəddəs bir işə həsr etmək onu hüquq fakultəsində təhsil almağa sövq edib. H.Rəhimov 1960 - cı ildə BDU - nun hüquq fakultəsinə daxil olmuş 1965 - ci ildə oranı müvəffəqiyyətlə başa vurmuşdur. Hüquq sahəsində ilk dəfə Jdanov (indiki Beyləqan) rayon prokurorluqunda stajor kimi əmək-fəaliyyətinə başlamışdır. Öz işinə məsuliyyətlə yanaşmasını, çevikliyini, bacarığını nəzərə alaraq onu Naxçıvan Muxtar Respublikasının Şahbuz rayon prokrorluğuna müstəntiq vəzifəsinə təyin edirlər. 14 il burada çalışan Həmid Rəhimov sonradan Muxtar Respublika prokurorunun köməkçisi, Culfa və Naxçıvan rayon prokuroru vəzfələrində çalışır.

1979 - 84 - cü illərdə İmişli, 1984 - 88 - ci illərdə Abşeron, 1991 - 92 - ci illərdə Hacıqabul rayon prokuroru, daha sonra Baş Rokurorluqda şöbə rəisi vəzifəsində çalışmışdır. Baş ədliyə müşaviri H.Rəhimov mənalı ömrünün çoxunu qanunçuluğun dürüst yerinə yetirilməsi, cinayətkarlığa qarşı mübarizə, ədalət prinsipinin zəfər çalması, insan haqlarının qorunması kimi müqəddəs bir işə həsr etmişdir. Gənc kadrların yetişdirilməsində, təcrübə toplamasında, onların mübarizlik, nəciblik, xeyirxahdıq ruhunda tərbiyə edilməsinə onun xidmətləri əvəzsizdir.

H.Rəhimov 2 dəfə Moskvada, 1 dəfə isə Xarkovda peşəsi ilə bağlı təkmilləşdirmə kurslarında olmuşdur. Onun fədakar əməyi, dövlətçiliyə vicdanla

xidməti, qanunçuluğun keşiyində sədaqətlə durması, hər işdə prinsipial mövqeyi layiqli qiymətini almışdır.

Həmid müəllim Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Fəxri Fərmanı, "Əmək veteranı" medalı, "Prokurorluğun fəxri işçisi" döş nişanı, prokurorluq orqanlarında uzun müddətli səmərəli fəaliyyətinə görə Fəxri Fərman və digər təltiflərlə mükafatlandırılmış, prokurorluğun rəhbərliyi tərəfindən dəfələrlə təşəkkür və pul mükafatlarına layiq görülmüşdür.

Tanınmış hüquqşünas, baş ədliyyə müşaviri Həmid Əhməd oğlu Rəhimov ömrünün 35 ilini ali və müqəddəs bir işə - qanunçuluğun təmini, cinayətkarlıqla mübarizəyə həsr etmişdir.

Həmid Əhməd oğlu Rəhimov gözəl ailə başçısı olub. Yeganə övladı olan Könül Hacıyeva BDU - nun şərqşünaslıq fakultəsini bitirib. Elmlər namizədidir. AMEA Nizami adına Ədəbiyyat institutunda elmi işçi olaraq çalışır. Qayğıkeş ata, mehriban baba, baş ədliyyə müşaviri Həmid Əhməd oğlu Rəhimov 2007 - ci ildə vəfat edib. Dövlətinə sədaqətli qulluqçu, prinsipial mövqeyi, əsil insani keyfiyyətləri ilə yaddaşlarda əbədi iz qoyan Həmid müəllimə Tanrıdan rəhmət diləyirik.







## RZAYEV ANAR RZA OĞLU

*Əməkdar incəsənət xadimi, AYB-nin sədri*



**Dünyada nə qədər kitab var belə,**
**Çalışıb, vuruşub gətirdim ələ.**
**Oxudum, oxudum, sonra da vardım,**
**Hər qızıl xəzinədən bir dürr çıxardım.**

*N.Gəncəvi*

Böyük şair, alim mütəfəkkir N.Gəncəvi insanı yer üzünün əşrəfi, bütün maddi varlığın tacı adlandırmış, insanın ağlını, şüurunu, kamalını təbiətin ən böyük neməti kimi qiymətləndirmişdir. Zəngin mənəvi dəyərlərə, humanist əməllərə malik olan mənalı bir ömür yaşayan xalq yazıçısı Rzayev Anar Rəsul oğlu 1938-ci il martın 14-də Bakıda yazıçılar ailəsində anadan olub. 1955-ci ildə orta məktəbi bitirdikdən sonra ADU-nin filologiya fakultəsinə daxil olmuş, 1960 -cı ildə buranı bitirmişdir. 1962-1964 -cü illərdə Moskvaya Ali ssenari kurslarında, 1970-1972-ci illərdə rejissor emalatxanasında təhsil almışdır.

Əmək fəaliyyətinə 1960 -cı ildə Nizami adına Ədəbiyyat Muzeyində başlamışdır. Muzeydə kiçik elmi işçi, sonra Dövlət Radio və TVK-də redaktor və şöbə müdiri vəzifəsində çalışmışdır. 1968-ci ildən 1987-ci ilə qədər "Qobustan" incəsənət toplusunun baş redaktoru olmuşdur. 1983-cü ildə ictimai əsaslarla Respublika Afrika və Asiya ölkələri ilə Həmrəylik Komitəsinin sədri seçilmişdir. 1987-ci ildə Azərbaycan Yazıçılar ittifaqının plenumunda yekdilliklə ittifaqın birinci katibi, 1991-ci və 1997-ci illərdə Azərbaycan Yazıçılarının IX-X qrultaylarında yekdilliklə Yazıçılar birliyinin sədri seçilmişdir.

İlk hekayələri 1960-cı ildə "Azərbaycan" jurnalınlda dərc olunmuşdur. İlk kitabı 1963-cü ildə Bakıda nəşr olunmuşdur. Sonrakı illərdə Bakıda, Moskvada, Türkiyədə və iyirmiyə qədər xarici ölkədə 50-dən artıq kitabı nəşr olunmuşdur. Roman, povest, hekayə və əsərləri 30-dan artıq dilə tərcümə edilmişdir. Pyesləri Azərbaycanın bütün teatrlarında, habelə müxtəlif ölkələrin teatrlarında tamaşaya qoyulmuşdur. Senariləri əsasında 12 bədii film, ondan artıq sənədli və televiziya filmi çəkilmişdir. 1987-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatı, 1989-cu ildə SSRİ Xalq deputatı və SSRİ Ali Sovetinin üzvü, 1995-ci ildə ARMM-nin deputatı və Mədəniyyət məsələləri üzrə daimi komissiyasının sədri seçilmişdir. 1995-2000-ci illərdə Mədəniyyət komissiyasının hazırladığı 9 qanun Milli Məclis tərəfindən qəbul edilmiş və prezident tərəfindən imzalanmışdır. Moskvada, Leninqradda (indiki Sankt-Peterburq), ABŞ-da, Fransada, Almaniyada, Türkiyədə, İranda, İraqda, Hindistanda keçirilən müxtəlif konqreslərdə, simpoziumlarda, ictimai toplantılarda iştirak və çıxış etmişdir. 1976-cı ildə Azərbaycanın əməkdar incəsənət xadimi adına layiq görülmüş, səkkizinci şəxs və bu ordenə layiq görülmüş ilk Azərbaycan nasiridir. 1988-ci ildə Azərbaycanın Xalq yazıçısı adını almışdır. 2000-ci ildə Göyçayın 75 nömrəli seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

## SÜLEYMANOVA ELMİRA TEYMUR QIZI

*Nyu-York Elmlər Akademiyasının üzvü,*
*İnsan Haqları Üzrə Müvəkkil- Ombudsman,*



**Bu qoca dünyada bir adət də var,**
**Qadın olan yerdə ədalət də var!**
*Səməd Vurğun*

Elmin tərəqqisi dövlətin xalqın tərəqqisidir. Elmin sirlərini öyrənməklə, onu cəmiyyətə təqdim etməklə, öz işıqlı və dəyərli fikirləri ilə bir sıra xidmətləri olmuş insanlar xalq üçün çox əziz və hörmətə layiq insanlardır. Həyatını elmə həsr edən, bu sahədə özünə məxsus xidmətləri olan, həm alim kimi, həm də ali insanlıq zirvəsini fəth edən bir xanım kimi böyük hörmətə malik olan Elmira Teymur qızı Süleymanova 1937-ci ildə Bakıda ziyalı ailəsində dünyaya göz açmışdır. Orta təhsilini Bakı şəhərindəki 134 №-li məktəbdə almışdır. O, 1959-cu ildə (ADU) Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir.

Mükəmməl təhsil alan Elmira Süleymanova, gənc yaşlarından kimya elminə maraq göstərmiş, 1989-cu ildə təyinatla AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutuna göndərilmiş və elmi fəaliyyətini həmişəlik bu məşhur elm ocağı ilə bağlamışdır. Burada o, laborant, kiçik elmi işçi, böyük elmi işçi olmuşdur.

E. Süleymanova 1967-1971- ci illərdə AMEA-nın Kimya Elmləri Bölməsinin elmi katibi işləmiş, 1980-cı ildə dissertasiya müdafiə edib kimya elmləri doktoru olmuşdur. O, elə həmin il Azərbaycan EA Neft-Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri vəzifəsinə irəli çəkilmişdir. 1982-ci ildən, professor adına layiq görülmüşdür.

Elmira Süleymanova 1997-ci ildən Nyu-York EA-nın üzvüdür. Bu alim ömrünün bəhrələri, yeni fikirlərində, ideyalarında, tədqiqatlarında, yeni kimyəvi maddələr, onların alınması üçün orijinal üsullar və texnoloji proseslər, 240-dan çox elmi əsərlərində, 40-dan çox ixtiralarında, özünün və tələbələrinin namizədlik və doktorluq dissertasiyalarında öz əksini tapmışdır. 5 elmlər doktoru, 15 elmlər namizədi yetişdirmişdir.

Fəxri kimyaçı adına layiq görülmüş bu ilk azərbaycanlı qadının elmi işləri dünya alimlərinin diqqətini cəlb etmişdir. Elmira xanım bir sıra ölkələrin, o cümlədən Almaniyanın kimyaçı mütəxəssisləri ilə birlikdə maraqlı tədqiqatlar aparmış, həmin tədqiqatların nəticələri ilə 20-ə yaxın beynəlxalq elmi konfranslarda məruzə etmişdir. Görkəmli alim olmaqla yanaşı təkcə respublikamızda deyil, həm də beynəlxalq aləmdə tanınmış ictimai xadimdir. Uzun illər boyu AMEA-nın Kimya Elmləri Bölməsinin





elmi katibi, "Neft -kimyası" Problemi Üzrə Əlaqələndirmə Şurasının sədr müavini, həmin problem üzrə SSRİ EA-nın Əlaqələndirmə Şurasının üzvü və Ümumittifaq "Neft-kimyası" elmi jurnalının redaksiya heyətinin üzvü, "Kimya" problemi üzrə Respublika Bilik Cəmiyyətinin İdarə Heyətinin üzvü və Bakı şəhər bölməsinin sədri, Respublika AAK-nın Kimya Üzrə Ekspert Şurasının üzvü, işgüzar və müdafiə üzrə ixtisaslaşmış Elmi Şuraların üzvü kimi davamiyyətli, uğurlu fəaliyyət göstərmişdir.

Elmira Süleymanova elmi fəaliyyəti ilə yanaşı, 1980-cı ildən Respublikamızda qadın hərəkatının rəhbərlərindəndir.

Neçə illər (1990-1994) Respublika Qadınlar Cəmiyyətinin ən mübariz üzvlərindən biri olmuş, Azərbaycan qadınlarının haqq-ədalət uğrundakı mübarizəsinin dünya ictimaiyyətinə çatdırılması, respublikada demokratiyanın, sabitliyin və əmin-amanlığın yaradılması işində öz nəcib xidmətlərini göstərmişdir.

Əsrin sonunda Azərbaycanda gedən qadın hərəkatının beynəlxalq aləmdə əks-səda verməsini, bunun ÜQH-nın mübariz bir qolu olmasını əks etdirmək üçün, Elmira xanımın Türkiyədə, İranda, Pakistanda, Amerikada beynəlxalq məclislərdəki məruzələri, çıxışları bunu bir daha sübut etmişdir. Həmin illərdə (1994) o, ölkəmizdə BMT-nin İqtisadi və Sosial Şurası ilə xüsusi məsləhətçi statusu almış yeganə qeyri-hökumət təşkilatı- "Qadın və İnkişaf" Elmi-Tədqiqat və Praktiki Mərkəzin yaradıcısı və prezidenti, 2002-ci ildən - fəxri üzvüdür. Həmin təşkilat öz fəaliyyətini BMT-nin müxtəlif bölmələri UNDP, UNFPA, UNICEF, UNIFEM, UNDRPİ və başqaları ilə sıx əlaqə qurur, 15 nüfuzlu Beynəlxalq qurumun tamhüquqlu üzvüdür.

BMT-nin Baş Assambleyasının aşağıda göstərilən Xüsusi Sessiyalarında dövlət və yaxud QHT nümayəndəsi kimi iştirak edib, həm ölkəmizin, həm də MDB ölkələrinin, Şərqi Avropa və Mərkəzi Asiya regionları üzrə təmsilçisi və koordinatoru kimi məruzələr və çıxışlar etmişdir. Regional qurumlarda və işçi qruplarında fəaliyyət göstərmişdir. Bunlardan İnsan Haqları üzrə (Vyana,1993), Əhali və İnkişaf (Qahirə, 1994 və Haaqa, 1999), Qadınların IV Ümumdünya Konfransı (Pekin - 1995, Nyu-York - 2000), Sosial İnkişaf (Cenevrə - 2001), Uşaq haqları (Nyu-York - 2002), BMT-nin Baş Assambleyası Xüsusi Sessiyaları, BMT-nin Qadınların vəziyyəti üzrə Komissiyasının, həmçinin BMT-nin İctimaiyyətlə Əlaqələr Bölməsinin illik iclasları (1995-2002) xüsusi əhəmiyyət kəsb edir. Onun rəhbərlik etdiyi Azərbaycan Qadın və İnkişaf Mərkəzi respublikada qadın hərəkatının inkişafı işində böyük rol oynamışdır. Mərkəz təhsil, insan hüquqları, qanunçuluq, qadınların məşğulluğu, sosial müdafiəsi, qadın və ətraf mühit, sağlamlıq və ailə, qaçqın qadınlar, sülh, gənclərlə iş proqramı ilə fəaliyyətini bu gün də davam etdirir. Azərbaycan Qadın və İnkişaf Mərkəzi 12 beynəlxalq təşkilatın və şəbəkənin üzvü kimi beynəlxalq siyasi aləmində də fəal mövqe tutur. Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırır. 1998-ci ildə dünyanın 100 Öndər qadınları siyahısına daxil edilmişdir. Eyni zamanda, E.Süleymanova Azərbaycan və Avropa Ombudsman İnstitutunun Prezidentidir.

## SALAHOV TAHİR TEYMUR OĞLU

*SSRİ xalq rəssamı, dünya şöhrətli professor, dövlət mükafatı laureatı*



*Bir ölkənin gələcəyi o ölkə insanlarının keçdiyi təhsil ilə bağlıdır.*

*Eynşteyn*

Böyük mütəfəkkür şair Nizami Gəncəvi, sağlam bədəndə sağlam fikrin olmasını, hələ XXI əsrdə belə ifadə etmişdir.

*"Bədən sağlam olanda saf olar sözdə,*
*Süs adam süst olar bədəndə sözdə".*

Sağ lam fikirli, saf vicdanlı, dostluqda sədaqətli, fitri istedada malik SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü (1975), SSRİ rəssamlıq akademiyyasının həqiqi üzvü, ADR Rəssamlıq ittifaqının (1957), Avstriya Rəssamlıq Akademiyasının fəxri üzvü, (1983) PXR -in əməkdar mədəniyyət xadimi (1981), SSRİ Dövlət mükafatı laureatı (1965), M. F. Axundov adına Respublika Dövlət mükafatı (1965), ASSR Dövlət mükafatı laureatı (1970), Azərbaycan boyakarı və qrafiki SSRİ xalq rəssamı (1973), SSRİ Rəssamlıq Akademiyası Boyakarlıq bölməsinin akademik katibi (1979), SSRİ Nazirlər Soveti yanında Ədəbiyyat, İncəsənət və Memarlıq sahələrində Lenin və SSRİ Dövlət mükafatları komitəsinin üzvü (1976), YUNESKO yanında Beynəlxalq Plastik Sənədlər Asosiasiyasının vitse prezidenti (1979 - 1983) Salahov Tahir Teymur oğlu 1928 - ci il noyabr ayının 26-da Bakıda anadan olub.

Ə. Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbində (1945 - 1950) və V. İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda (1951 - 1957) oxumuşdur.

1963 - 1974 - cü illərdə M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (1973 - cü ildən professor) pedoqoji fəaliyyət göstərmişdir.

1975 - ci ildən V. İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda dərs deyir (professor). Yaponiya, İspaniya və s ölkələrdə fərdi sərgiləri nümayiş etdirmişdir.

Oktyabr İnqilabı Ordeni, Qırmızı Əmək Bayrağı Ordeni, BXR-ın 1-ci dərəcəli "Kirill və Mefodi" ordeni, həmçinin medallarla təltif edilmişdir.





## SEYİDOV SƏMƏD İSMAYIL OĞLU

*Psixologiya elmləri doktoru, professor, Az. Dillər Universitetinin rektoru, millət vəkili.*



**Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.**

*F.Bekon.*

Kamil insan yaşadığı illər ərzində əməlləri ilə ömür salnaməsinə layiqli izlər salır. Zəngin ömür yaşayaraq nəsillərə örnək olur. Elmin nuru ilə şəfəq saçan ömür dünyası insana həmişə hörmət və baş ucalığı gətirib. Elmə, öz sənətinə ürəkdən bağlı olan, xalqı, torpağı ilə nəfəs alan, elmin zirvəsinə yüksələrək bu sahədə xüsusi xidmətləri olan Səməd İsmayıl oğlu Seyidov 1964-cü il yanvarın 18-də ziyalı ailəsində anadan olmuşdur. 1981-ci ildə Leninqrad Dövlət Universitetinin psixologiya fakultəsinə daxil olmuş və 1986-cı ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatı SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutuna almış və bir neçə ay burada laborant vəzifəsində işlədikdən sonra yenidən SSRİ-nin 50 illiyi adına APXDİ-da sosial psixologiya üzrə aspiranturaya daxil olmuş və 1989-cu ildə Leninqrad Dövlət Universitetində müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1990-xı ildən başlayaraq SSRİ-nin 50illiyi adına APXDİ-da müəllim, baş müəllim, dosent kimi çalışmış,1994-cü ildən institutun tədris işləri üzrə prorektoru vəzifəsinə təyin olunmuşdur.

1995-ci ildə doktorluq dissertasiyasını müdafiə edərək psixologiya elmləri doktoru adını almış və az sonra professor elmi rütbəsinə layiq görülmüşdür.

Professor S.İ.Seyidov 1998-ci ildən başlayaraq Azərbaycanın təhsil sistemini Avropa Şurasıda təmsil edir. O, ABŞ,İtaliya, Böyük Britaniya, Belçika, Türkiyə,Fransa, İzrail və digər ölkələrdə təşkil olunmuş elmi konfrans və seminarlarda Azərbaycanı təmsil etmiş, orada maraqlı məruzələrlə çıxış etmişdir.

100-dən çox elmi məqalənin, ocümlədən çağdaş dövrün tələbləri səviyyəsində yazılmış dərsliklərin və monoqrafiyaların müəllifidir.

4 aprel 2000-ci ildən AzərbaycanDillər Universitetinin rektoru vəzifəsinə təyin olunub. Universitetdə 4446 tələbə təhsil alır. 749 professor- müəllim heyyəti, 381 rəhbər inzibati və xidmətedici heyyətə malikdir.Universitetdə Koreya, Norveç, İvrit, Müxtəlif Beynəlxalq dil mərkəzləri, təlimdə informasiyalar və təhsil

kafedrası açılıb. ADU bütün dünya universitetləri ilə sıx əlaqə saxlayır.

S, İ.Seyidov 2000-2005-ci ilədək, 2005-2010-cu ilədək Azərbaycan Respublikasının Milli Məclisinə Millət vəkili seçilib, Beynəlxalq Münasibətlər və Parlamentlərarası əlaqələr Komitəsinin sədridir.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, AŞPA-nın vitse prezidentidir

2009-cu ildə S. Seyidovun diplomatik xidmətləri Xarici İşlər Nazirliyi tərəfindən yüksək qiymətləndirilərək "Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 90 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

S,İ.Seyidov elmdə göstərdiyi yüksək uğurlarına görə 2009-cu ildə Gürcüstan Respublikasının Təhsil Elmlər Akademiyasının Akademiki fəxri adını alıb.Ailəlidir. 2 övladı var.







## SÜLEYMANOV ƏLİ MAHMUD OĞLU

***Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin Rrezitenti,alim.***



**Dünyada hər şeyə, elmi qalxan et, çünki, elmdən möhkəm qalxan ola bilməz, hər kəs elmi özünə qalxan etsə, dünya zərbələrindən zərər görməz.**

*Nasir Xosrov*

Həyatını əməyə, zəhmətə, elmə bağlamaqla istədiyi arzuya çatan insanlar xoşbəxtdirlər. Elm sahəsində xüsusi xidmətləri olan və elmin zirvəsinə yüksələrək öz arzusuna çatan Əli Mahmud oğlu Süleymanov 1937-ci ilin mart ayının 13-də Dəvəçi rayonunun Zeyvə kəndində anadan olmuşdur.

O, 1954-ci ildə Dəvəçi şəhər orta məktəbini bitirmiş, 1955-ci ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakultəsinə daxil olmuş və 1960-ci ildə institutu əla qiymətlərlə bitirərək " Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı" ixtisası üzrə "Dağ mühəndisi-geoloq" ixtisasına yiyələnmişdir.

Əli Süleymanov, təyinatla SSRİ Geologiya Nazirliyinin Türkmənistan SSR Nazirlər Soveti yanında Yer Təkinin Geologiyası və Mühafizəsi İdarəsinin "Cənubi-Şərqi Qaraqum Geoloji Ekspedisiyasına" göndərilmişdir. Ekspedisiyada kollektor və texnik-geoloq vəzifələrində çalışan Ə. Süleymanov Qaraqum səhrasının cənub-şərq hissəsində, Amu-Dərya çayı hövzəsində, əvvəlcə geoloji xəritəalma işləri, sonra isə struktur-axtarış quyularının qazılması ilə məşqul olmuşdur. Onun iştirakı ilə qazılmış struktur-axtarış quyuları ilə aşkarlanmış Farab, Saka və b. strukturlarda sonralar zəngin qaz yataqları tapılmışdır.

Ağır səhra şəraiti Ə. Süleymanovun səhhətinə pis təsir etdiyinə görə o, 1961-ci ilin yanvar ayında Türkmənistanı tərk etməli olmuşdur.

Ə.Süleymanov 1961-ci ilin mart ayında Azərbaycan Dövlət Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda "Neft Geologiyası" laboratoriyasına kiçik-texnik vəzifəsinə qəbul olunub.

1961-1964-cü illərdə böyük texnik, mühəndis-geoloq vəzifələrində işləyən Süleymanov Azərbaycanın müxtəlif neftli-qazlı rayonlarının geoloji quruluşlarını, neft-qazlılıq perspektivliklərini öyrənməklə məşğul olmuşdur.

1965-ci ildə Ə.Süleymanov Azərbaycan Dövlət Elmi-Tədqiqat Neftçıxarma İnstitutunun nəzdində mövcud olan aspiranturanın əyani şöbəsinə qəbul olmuşdur.

1965-1968-ci illər ərzində akad. Ə. Ə. Əlizadənin rəhbərliyi altında "Xəzəryanı-Quba neftli-qazlı rayonunun Təbaşir dövründə paleogeologiyası və Təbaşir çöküntülərinin neft-qazlılığı" mövzusunda dissertasiya işini tamamlayıb və 1969-cü ilin mart ayında müvəffəqiyyətlə müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik

dərəcəsinə layiq görülüb.

Əli Süleymanov, 1978-ci ilin mart ayında Sovet eksperti vəzifəsində işləmək üsin SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən Hindistan Respublikasının ONGC şirkətinə ezam olunub.

1990-1995-ci illərdə Suriya Ərəb Respublikası ərazisində aparılacaq axtarış-kəşfiyyat işlərinin planı hazırlanmış və icra olunmaq üçün rəhbər sənəd olaraq Suriya Neft şirkətinə təqdim edilmişdir.

Əli Süleymanov 1986-1994-cü illərdə AzNQSDETLİ-nin geoloji şöbəsində böyük və aparıcı elmi işçi vəzifələrində çalışmışdır.

1994-ci ildən Ə.Süleymanov "Geoloji-kəşfiyyat işlərinin əsaslandırılması" laboratoriyasının rəhbəri vəzifəsində çalışır. Onun rəhbərliyi altında Azərbaycanın Mezozoy, Paleogen-Miosen çöküntülərinə aparılmış axtarış-kəşfiyyat işlərinin nəticələri hərtərəfli təhlil edilərək, gələcəkdə aparılacaq axtarış-kəşfiyyat qazmasının effektivliyini artırmaq üçün təkliflər verilmişdir.

Onun rəhbərliyi altında işlənmiş "Qərbi Abşeronda Paleogen-Miosen çöküntü kompleksinin öyrənilməsi məqsədi ilə görülmüş geoloji-kəşfiyyat işləri nətiçələrinin təhlili və yeni perspektivli sahələrin müəyyənləşdirilməsi." mövzusunda elmi-tədqiqat işi üzrə hesabatı 1999-cu ildə Azərbaycan Milli Elimlər Akademiyası Rəyasət Heyyətində ilin mühüm elmi naliyyətlərindən biri olduğu qeyd edilmişdir.

1996-ci ildə Fransa Respublikasının TOTAL neft şirkətinin dəvətilə, məsləhətçi kimi Paris şəhərində; 1998-ci ildə isə Hindistanın ONGC şirkətinin dəvəti ilə Dehli və Dəhrə-Dun şəhərlərində, qısa müddətli ezamiyyətlərdə olmuş və adları çakilən şirkətlərə neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı üzrə dəyərli məsləhətlər vermişdir.

Ə. M. Süleymanov 80-ə qədər elmi məqalənin və 3 monoqrafiyanın müəllifi və həmmüəllifidir. Onun Beynəlxalq Konfrans və Simpoziumlarda etdiyi məruzələr mütəxəssislər tərəfindən böyuk maraqla qarşılanmışdır.

Əli Süleymanov elmi tədqiqat işləri ilə yanaşı, institutun elmi-ictimai işlərində də fəal iştirak etmişdir. O, uzun müddət institltda geoloji şöbəsi üzrə elmi-texniki cəmiyyətin sədri olmuşdur. 2004-cü ildə Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin Vitse Prezidenti, 2006-cı ildə isə Prezidenti seçilmişdir. O, cəmiyyətin işində səmərəli fəaliyyətinə görə fəxri fərmanlarla təltif olunmuşdur.

Ə.Süleymanov 2004-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Ə.Süleymanov ailəlidir, oğlu Süleymanov Qüdrət atasının yolunu davam etdirir. O, Azərbaygan Neft Akademiyasının geoloji-kəşfiyyat fakultəsini bitirmişdir.





## SUSANNA NƏCƏFQULU QIZI RƏHİMOVA (NADİROVA)

*"İlin ən yaxşı müəllimi"*



***Nəciblik azərbaycanlıların qanındadır, onlar təbiət etibarı ilə xoşxasiyyət və rəhmdildilər.***

*V.A.Veliçko.*

Ömrünün yarıdan çoxunu təhsilin-maarifin inkişafına həsr edən, istər ictimai həyatda, istərsə də ailədə mövqeyini qoruyub saxlaya bilmiş, öz qabilliyət və imkanına uyğun yer tutmağa çalışmış həyat yolu, şəxsi nümünəsi ilə gənclərə örnək ola bilən nümunəvi ziyalı bir xanım 34 illik müəllimlik təcrübəsi olan, öz biliyi, xoş rəftarı ilə şagirdlərin sevgisini qazanan gənclərin elmi dünyagörünüşünün formalaşması qayğısına qalaraq gələcək nəslin savadlı və mədəni yetişmələrinə hörmətlə yanaşan Rəhimova Susanna Nəcəfqulu qızı 21 oktyabr 1941 - ci ildə Naxçıvan şəhərində anadan olub.

1949 - cu ildə Nax- çıvan şəhərindəki 2 saylı qız orta məktəbinin I sinfinə daxil olub. 1956 - cı ildə 1 saylı orta məktəbin VII sinfini əla qiymətlə bitirdikdən sonra Kənd Təsərrüfatı Texnikumuna qəbul olunub. 1960 - cı ildə texnikumu qırmızı diplomla bitirib. Naxçıvan Dövlət Universitetinin tarix fakultəsinə müsabiqədənkənar daxil olub, 1978 - ci ildə təhsilini başa vurub. Naxçıvan şəhər internat məktəbində tarix müəlliməsi kimi fəaliyyətə başlayıb. 22 il həmin məktəbdə işləyib. Ali kateqoriyalı müəllimədir. Yeni tədris metodları ilə dərs demək üçün bir neçə sertifikatları var.

2000- 2001 - ci dərs ilindən Susanna müəllimə Bakı şəhəri Nərimanov rayonu N. Tağıyev adına 212 saylı orta məktəbdə tarix müəlliməsi işləyir. 34 illik pedoqoji fəaliyyətində dərs dediyi yüzlərlə şagirdləri vardır ki, indi onların bir neçəsi hazırda Respublikamızda yüksək dövlət vəzifələri tutan, iqtisadiyyatın inkişafında böyük əməyi olan şəxslərdir.

Susanna xanımın əmək fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, fəxri fərmanla təltif olunmuş, dəfələrlə ilin ən yaxşı müəlliməsi adını almışdır. 1995 - ci ildə Məşəd ziyarətində, 2007 - ci ildə Məkkədə Kəbə ziyarətində olub.

Ailəlidir, 2 oğlu, 2 qızı və 7 nəvəsi var. Övladları ali təhsillidirlər

Ləyaqəti və xanım-xatınlığı ilə istər çalışdığı kollektivdə, istərsə də onu tanıyanlar arasında xüsusi hörmətə malik müəllimə kimi şərəfli peşə sahibi olan Susanna xanıma Tanrıdan can sağlığı və ailə xoşbəxtliyi arzu edirik.

## SADIQOV CAVANŞİR ŞÜKÜR OĞLU

*ATU-nun "Azərbaycan Tarixi" kafedrasının tədris hissə müdiri, tarixçi alim*



**Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.**

*A.Şaiq*

Həyat, tale, insana ona görə bəxş edilir ki, bir ömrü zəhmətlə, xüyirxahlıqla yaşasın və düşünsün ki, qismətinə düşən ömür payı mənalı olmalıdır. Təhsil ocaqları dünyada tayı-bərabəri olmayan elə bir müqəddəs məbəddir ki, burada çalışanlar da bu müqəddəsliyə qovuşur. Tanrının bəxş etdiyi ömür payından təmiz əqidəsi və düşüncəsi ilə lazımi istifadə edərək ömrünü müqəddəs təhsil ocaqlarınfdan biri olan Azərbaycan Tibb Universitetinə bağlayaraq burada hörmət qazanmış Cavanşir Şükür oğlu Sadıqov 1953-cü ildə Bakı şəhərində anadan olub. Orta təhsilini elə bu şəhərdə başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə qəbul olub. 1974-cü ildə ali məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra elə həmin ildən 1990-cı ilə qədər Rus dili və Ədəbiyyat İnstitutunun "Tarix kafedrasında əvvəlcə müəllim, sonra isə baş müəllim vəzifəsində işləyib".

C.Ş.Sadıqov 1990-cı ildə müsabiqə yolu ilə Azərbaycan Tibb Universitetinin "Azərbaycan tarix" kafedrasında baş müəllim. 2002-ci ildə dosent yerinə seçilmiş və indiyə qədər həmin vəzifədə çalışır.

Elmi-tədqiqat işinə böyük həvəsi olan C.Şükürov 1988-ci ildə Bakı Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edərək alimlik dərəcəsi adını alır.

Bir neçə elmi məqalələrin müəllifi olan G.Şükürov daim elmi axtarışlarını davam etdirir. Onun "Azərbaycan Xalq Cümhuriyyəti xarici mətbuatda", "1920-ci ilin aprelin 28-də Azərbaycan dövlətinə qarşı bolşevik təcavüzünün hazırlanması və həyata keçirilməsi, "Bakı xalqının tarixinə dair", "Azərbaycanda 30-cu illər repressiyası haqqında" və s. elmi məqalələri tədqirələyiqdir. "Azərbaycan tarixindən" bir neçə tədris metodik vəsaitlər, ATU-də təhsil alan xarici tələbələr üçün azərbaycan, ingilis və rus dilində hazırlanan tədris-metodiki vəsaitlərin müəllifidir. Ömrünü başdan-başa sevdiyi peşəsinə,elmə həsr edən Cavanşir Şükür oğlu Sadıqov kafedranın tədris hissə müdiridir.

Cəmiyyətdə və işlədiyi kollektivdə özünə böyük hörmət və məhəbbət qazanan elmi axtarışlarını mütəmadi olaraq davam etdirən Cavanşir Şükür oğluna həyatın bütün sahələrində uğurlar arzu edirik.





## TEYMURLU MƏHƏMMƏD ƏBDÜLƏZİZ OĞLU

*ADU-nun fəlsəfə kafedrasının professoru*



**3 şey adama istək gətirir: "mədənilik, təvazökarlıq, mülayimlik".**

*Ərəb atalar sözü.*

Bəşər tarixinin hər bir dövrundə dünyaya qədəm qoyan bütün insanlar bir-birindən fərqli ömür yaşayaraq, sonda əbədiyyətə qovuşurlar. Lakin:

***Həyat var, yüz ili bir ana dəyməz,***
***Həyat var, bir anı əsrə bərabər.***

Bəli, həqiqətən də sözün əsil mənasında ilahinin yaratdığı dünyanın mənası və rövnəqi olan insanlara gərəkli olanlar nadir incilər kimi tarixdə iz qoyur. Çünki, onlar yalnız insaniyyətliyə xas olan ümdə xüsusiyyətləri ilə yaşatmaq və yaratmaq eşqi ilə "ulu bir məqsədlə çalışırlar həyatda.

Məhz belə insanlardan biri haqqındadır oxucularımıza təqdim edəcəyimiz məlumat: əsil Azərbaycan ziyalısı Məhəmməd Əbduləziz oğlu Teymurlu.

Azərbaycanın görkəmli ədibi, dahi mütəfəkkir, tanınmış ustad Həsən bəy Zərdabi nəslinin dəyərli davamçılarından olan, zəngin mənəviyyatlı, ulu soy kökünü yüksək intellektual səviyyəsi ilə yaşadan Məhəmməd Teymurlu ölkəmizdə, respublika hüdudlarından uzaqlarda da bir alim kimi, fəal ictimai xadim kimi tanınır və hər zaman sözü, məsləhəti, səmərəli tövsiyələri yüksək kürsülərdən hörmət və ehtiramla qarşılanır. Dərs dediyi tələbəyə, dərs aldığı müəllimi qədər hörmət və məsuliyyətlə yanaşan Məhəmməd Əbduləziz oğlu Teymurlu 1939-cu ildə Zərdabın Məlikli kəndində anadan olub. Orta məktəbi və Göyçay Pedaqoji Texnikumunu bitirib. İlk əmək fəaliyyətinə kənddə sinif müəllimi kimi başlayıb.

M.Ə.Teymurlu 1965-ci ildə indiki Slavyan universitetinin əyani şöbəsinə daxil olmuş, 1971-ci ildə Fərqlənmə Diplomu ilə başa vurmuşdur. Nümunəvi və savadlı olduğuna görə universitetdə saxlanılmış, hazırda dərs deməklə yanaşı çox tirajlı bilik qəzetində ədəbi işçi, redaktor müavini, ictimai elmlər kabinetinin müdiri işləyib.

1977-1978-ci illərdə Şevçenko adına Kiyev Dövlət Universitetində ictimai elmlər üzrə ixtisasartırma kursunu bitirən Məhəmməd Teymurlu 1985-ci ildə BDU-nun məqsədli aspiranturasına qəbul olub. 1987-ci ildə dissertasiya müdafiə

edərək, fəlsəfə elmləri üzrə alimlik dərəcəsi alıb.

1989-cu ildən ADU-nun fəlsəfə kafedrasında müəllim, baş müəllim, dosent vəzifəsini tutub. 1993-2005-ci illərdə fəlsəfə, politologiya və iqtisadi nəzəriyyə kafedrasında müdir işləyib.

M.Ə.Teymurlu 50-dən çox elmi-siyasi metodik və dərs vəsaitinin, yüzlərlə publisistik məqalənin müəllifidir. Son 10 ildə "Fəlsəfə", "Politologiya", "Sosiologiya", "Qədim Şərq fəlsəfəsi" adlı ali məktəblər üçün nəzərdə tutulmuş dərsliklərin müəllifidir. Eyni zamanda polkovnik Abdulla Qurbaninin əsgər həyatına, görkəmli sərkərdələrimizin, generallarımızın, Vətən oğullarının qəhrəmanlıqlarına həsr edilmiş 30-dan artıq samballı, bədii, tarixi, sənədli əsərlərdən ibarət kitabların redaktorudur.

M.Ə.Teymurlu tez-tez hərbi hissələrdə, xüsusilə, Murovdağda, qaçqın düşərgələrində, uşaq, qoca evlərində, respublikamızın ən ucqar məktəblərində, universitetlər auditoriyasında Şəhidlik-Qəhrəmanlıq dərsləri keçir. Gənclərin Orduya hazırlanmasında, ölkədə vətənpərvərlik işinin təşkilində göstərdiyi xidmətlərə görə təkcə Müdafiə Nazirliyi və Ali Hərbi Komandanlıq məktəbi tərəfindən 5 dəfə Şah İsmayıl Xətai adına Fəxri Fərman və diplomlarla təltif edilib.

Səmərəli fəaliyyətinə görə Dünya Azərbaycanlı Gənclərin Beynəlxalq Həmrəylik Cəmiyyətinin Ağsaqqallar Şurasının sədri kimi dəfələrlə fəxri mükafatlar alıb.

Döyüşlərin ən qızğın çağlarında ön xətdə əsgərlərin arasında olan Məhəmməd Teymurlu qaçqın, şəhid ailələrinin, köməyə ehtiyacı olanların dayağı olub. Etdiyi yaxşılıqların hamısını insanlıq borcu kimi qiymətləndirib. Onun fikrincə xalqın ağır günündə hamı bir-birinə köməklik etməlidir. Bütün bu nəcib və humanist əməllərinin nəticəsidir ki, Məhəmməd Teymurlunun adı çəkiləndə hər kəsin üzündə xoş bir təbəssüm yaranır.

M.Ə.Teymurlu Azərbaycan Jurnalistlər Birliyinin üzvü, ABŞ-da çıxan beynəlxalq "Babilyan Azərbaycan" jurnalının müxbiri və jurnalın idarə heyətinin, ictimai-siyasi satirik "Güzgü" qəzetinin Redaksiya Heyətinin və Həsən bəy Zərdabi adına Dünya Azərbaycanlılarının Xeyriyyə Cəmiyyətinin idarə heyətinin, Respublika Veteranlar Şurasının İdarə Heyətinin üzvüdür.

Alim 2010-cu ilin dekabrından Dünya Azərbaycanlıları Konqresinin Böyük Britaniyanın paytaxtı Londonda keçirilmiş XI qurultayında "Türk Birliyinin formalaşmasında mətbuatın rolu" mövzusunda məruzə ilə çıxış etmişdir. Həmin şəhərdə BBS-nin iqamətgahı qarşısında Cənubi Azərbaycan və Qarabağ problemlərinə həsr edilmiş izdihamlı mitinqdə fəal iştirak etmişdir.

Tələbələri tərəfindən sevilən Məhəməmd Teymurlu hal-hazırda ADU-nun fəlsəfə kafedrasında professor vəzifəsində çalışır.

2003-cü ildə YUNESKO-nun xətti ilə İrəvanda keçirilən beynəlxalq





simpoziumda Azərbaycan nümayəndə heyətinə başçılıq edib.

2005-ci ildə 22 saylı Nəsimi rayonu ikinci seçki dairəsi komissiyasının 16 saylı qərarı ilə Azərbaycan Respublikası Milli Məclisin deputatlığına namizədliyi qeydə alınıb.

Gözəl ailə başçısı olmaqla 3 övlad və 2 nəvə sahibi olan, fəal ictimai ziyalı şəxsiyyətləri sırasında öz xüsusi yeri və nüfuzu olan professor Məhəmməd Teymurlunun qızı Aysel Teymur "Evrovision-2009" Beynəlxalq mahnı müsabiqəsində 45 Avropa ölkələri arasında III yeri tutmuş və Azərbaycan bayrağını göylərə qaldırmışdır.

Davamçıları olan övladlar, nəvələr, bütün xalqımızın, Vətənimizin fəxri olacağına əminik. Çünki, onların kökü, başı qarlı zirvə olan uca bir dağa bağlıdır. O zirvə bir alim ömrüdür.

Vətəninə, torpağına canını qurban verməyə hazır olan, dərs dediyi tələbələrinin heç vaxt yaddaşından silinməyən, onların sonsuz sevgisini qazanan Məhəmməd Teymurluya həm tələbələri, həm də bir çox şairlər şeirlər ithaf ediblər. onlardan birini təqdim edirik:

*Tale sənə qoy yar olsun Məhəmməd,*
*Peyğəmbərin layiq oldun adına.*
*Heç kəsdə yox səndə olan mərhəmət,*
*Yetdin yetim-yesirlərin dadına.*

*Ey Zərdabi, ey Məlik bəy nəsilli,*
*Adlı, sanlı, sən əsl bəy əsilli,*
*Saçı bəyaz könlü bahar fəsilil,*
*Sevinirsən baxıb dostun şadına.*

*"Ey əsgərlər" - dedin - "Vətən qeyrətdi!"*
*Şaqraq səsin Murovdağı titrətdi,*
*Səsin, sözün özün kimi qüdrətdi,*
*Getməyəsən sən fələyin badına.*

*Savalançün ən sayğılı, ən sayın*
*Bir dostsan ki, etibarda yox tayın*
*Gözəlikdə olubdu lap çox payın*
*Qadir Allah salmış səni yadına.*

## TƏHMƏZOVA MARİYA KÜBAR QIZI

*"Zirvə" AZ Tibb mərkəzinin rəhbəri*



**Hər vaxt öz işini ağıllı məsləhətinə, şəraitin tələbinə görə qur.**

*Platon*

Əmək - səadət və xoşbəxtlik rəmzidir. Hər bir adamın ləyaqəti, bacarığı, istedadı onun əməyi ilə müəyyən edilir. Xarakteri, ictimai siması, psixologiyası əmək prossesində ucalır. Zəhmət dolu ömür yolları keçən, işinə, sənətinə vicdanla yanaşan, fədakar və qeyrətli qadınlarımızdan olan Təhməzova Mariya Kübar qızı 1949 - cu ildə Xaçmaz rayonunun Ortoba kəndində anadan olmuşdur. 1964 - 68 - ci illərdə Dərbənd Pedaqoji Məktəbində təhsil almışdır. İki il işlədikdən sonra 1970 - ci ildə Dağıstan Dövlət Universitetinə daxil olmuş və oranı müvəffəqiyyətlə başa vurmuşdur.

M.K.Təhməzova ilk əmək fəaliyyətinə 1970 - ci ildə Nabran kəndində natamam orta məktəbdə ibtidai sinif müəlliməsi kimi başlamışdır.

İşinə məsuliyyətlə yanaşması, savadlı olmasının nəticəsidir ki, iki il işlədikdən sonra həmin məktəbdə tədris işləri üzrə direktor müavini kimi fəaliyyət göstərib. 1976- 86 - cı illərdə 10 il məktəb direktoru işləyib.

Mariya Təhməzovanın işgüzarlığı və bacarığı onu 1986- 1992 - ci illərdə Nabran Kənd Sovetinin sədri vəzifəsini icra etməsinə səbəb olub. Hər bir sahədə öz sözünü deməyi bacaran və buna kifayət qədər potensialı və biliyi olan Mariya xanım Bakıya gəlmiş və burada 2003 - cü ildə özünün yaradıcısı və təsisçisi olduğu "Mariya" adlı aptek açmışdır. Bunun davamı olaraq öz zəhməti və işgüzarlığı sayəsində "Mariya" Tibb Mərkəzi, daha sonra isə "Zirvə" AZ Tibb Mərkəzini yaradıb və rəhbərlik edir. Klinikada kompüter diaqnostikası, UZİ, laboratoriya ilə təchiz edilmiş qnikoloji şöbə, stomatoloq, nevropatoloq - psixoterapevt - həkim xidmətləri fəaliyyət göstərir.

Mariya Təhməzova işindəki uğurlarına görə bir çox fəxri fərman və diplomlarla təltif olunmuşdur. Kilinikada aparılan uğurlu müalicə nəticəsində neçə-neçə xəstələr şəfasını tapmış, öz sağlam həyatlarına qayıtmışlar.Mariya xanım olduqca vətənpərvər, xalqını, millətini sevən, dəyərli Azərbaycan qadınıdır. Son dərəcə sadə və mülayim Mariya xanım gözəl ana və mehriban nənədir.





## VƏKİLOV SƏMƏD YUSİF OĞLU

*AZ SSRİ xalq şairi , AMEA-nın akademiki, AZ SSRİ-nin əməkdar incəsənət xadimi*



**Səməd Vurğun müasir dünya və sovet ədəbiyyatının iftixarıdır.**

*Lui Araqon*

Sovet poezyasının görkəmli nümayəndəsi, Azərbaycan SSR-i xalq şairi Vəkilov Səməd Yusif oğlu (Məmməd Vurğun) 1906 - cı il martın 21 - də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. Azərbaycan şairi, Azərbaycan SSR Xalq şairi (1956), Azərbaycan EA akademiki (1945), Fəxri e. d. (1956), Azərbaycan SSR Əməkdar İncəsənət xadimi (1943), SSRİ Dövlət mükafatı laureatı (1941, 1942). 1918 - ci ildə Qazax Müəllimlər Seminariyasına daxil olmuş, seminariyanı bitirdikdən sonra (1924) Qazax, Quba və Gəncədə müəllimlik etmişdir. 1929 - 1931 - ci illərdə II Moskva Dövlət Universitetini, sonra Azərbaycan Dövlət Elmi - Tədqiqat İnstitutunu və V. İ. Lenin adına APİ (indiki APU) - nin aspiranturasında oxumuşdur (1931 - 1933) Azərbaycan Yazıçılar İttifaqının (Birliyinin) məsul katibi (1934 - 1937), sədri (1941 - 1948), Azərbaycan Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan SSR EA - nın vitse prezidenti (1954 - 1956) olmuşdur.

Yaradıcılığa 20 - ci illərin əvvələrində başlamışdır. Şerləri 1924 - cü ildən dərc edilmişdir. Səməd Vurğun ədəbiyyat və incəsənət sahəsindəki xidmətlərinə görə iki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri və medalları ilə təltif edilmiş, həm "Vaqif", həm "Fərhad və Şirin" piyesləri üçün Dövlət mükafatı laureatı adınî almışdır.

Səməd Vurğun dünya şöhrətli dahi bir şair olaraq, yalnız Azərbaycan xalqının deyil, bütün xalqların sevimli yazıçı-şairidir.Rus, Ukrayna, İngilis dillərinə tərcümə olunmuş əsərləri, şeirləri zəngin məzmunu, aktuallığı ilə zamanın hər dövründəoxucular tərəfindən alqışla qarşılanır. Həyata, təbiətə, gözəlliyə vurğun olan ölməz,mübariz şairin qələminin bəhrəsi olan əsərlərini oxuyarkən, tamaşa edərkən insanda Allaha, haqqa məhəbbət eşqi, ruh yüksəkliyi yaranır, şairi əbədi olaraq ürəklərdə yaşadır və yaşadacaqdır!

Qüdrətli və nəcib insan Səməd Vurğun yaradıcılığının ən coşqun bir dövründə -1956-cı il may ayının 27-də vəfat etmişdir.

Səməd Vurğunun yaradıcılığı müasir Azərbaycan şerinin inkişafında mühüm rol oynamış, Azərbaycan poeziyasında özünəməxsus yer tutmuşdur.

Sənin vüsətli şerin xalqlarımızın yaratdığı ən gözəl poeziya kəhkəşanında ulduz kimi şəfəq saçır. Müxtəlif millətlərdən ibarət olan milyonlarla sovet adamı sənin poezianı sevir. Mən çoxdan bəri sənin şeirlərinin məftunuyam. İstedadının yüksək inkişaf səviyyəsində olduğunu söyləyərkən, özümü bəxtiyar sanıram.

***Sənin dostun Aleksandr Fadeyev***

## VERDİYEVA ZEMFİRA NADİR QIZI

*AMEA-nın müxbir üzvü,*
*pedoqogi elmlər doktoru, professor*



**Ağıllı adamlar qızıl kimidir,**
**Haraya getsələr olar hörmətli.**
*S.Şirazi*

Yer kürəsi bərqərar olandan bu günə qədər dünyanın ən müqəddəs, ən zərif və ən gözəl varlıqları olan qadınlarımız dövrümüzün hər zamanında özünəməxsus bacarıqları, bilikləri, istedadları, mədəniyyətləri, qeyrətləri, xeyirxahlıqları ilə həmişə fərqləniblər.

Qadın həm də müqəddəs anadır. Peyğəmbərimiz Məhəmməd (s): "Cənnət anaların ayağı altındadır" deməklə bir daha qadınların müqəddəsliyini vurğulamışdır.

Müqəddəs ana, istedadlı pedaqoq, tanınmış elm xadimi, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Respublikası Qadınlar Cəmiyyətinin sədri, xanım - xatınlığı ilə özünə hörmət qazanan Zemfira Nadir qızı Verdiyeva 1935 - ci il noyabr ayının 19 - da Gürcüstan Rnspublikasının Tiflis şəhərində ziyalı ailəsində anadan olmuşdur.

Orta təhsilini Bakı şəhər 189 saylı məktəbində almış, APXD İnstitutunun ingilis - fransız dili fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. İlk əmək fəaliyyətinə təhsil aldığı institutda başlamış və 1973 - 1995 - ci illərdə APXD institutunun rektoru vəzifəsini icra etmişdir. 1965 - ci ildə pedoqoji elmlər namizədi, 1972 - ci ildə isə professor fəxri elmi adlarına layiq görülmüşdür.

Görkəmli alim Zemfira xanımın rəhbərliyi altında 10 - a qədər elmlər namizədi yetişmiş və bir çox namizədlik, doktorluq dissertasiyalarına appanentlik edərək rəy vermişdir. Zemfira xanımın Azərbaycanda və xarici ölkələrdə 190 - a qədər kitabı, monoqrafiyası, dərsliyi, dərs vəsaiti dərc olunmuşdur. 1955 - ci ildən bu günə qədər 1076 məqaləsi dərc olunmuşdur. Zemfira xanım dünyanın 60 ölkəsində işgüzar səfərlərdə olmuş və Azərbaycanı öz elmi məqalələri ilə layiqincə təmsil etmişdir. 1989-2010 - cu ilə qədər Azərbaycan Respublikası Qadınlar Cəmiyyətinin sədri olmuşdur. Zemfira xanım həm də xeyriyyəçi bir xanım kimi tanınmışdır.

1998 - 1999 - cu illərdə İngiltərənin Kembric Universitetində "İlin qadını", 2000 - ci ildə isə "Əsrin qadını" adlarına layiq görülmüşdür. Dövlətimiz tərəfindən Zemfira xanımın işgüzar fəaliyyəti yüksək qiymətləndirilmiş, onu "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.





Dünyada ictimai xidmətlərinə görə müxtəlif ölkələr tərəfindən 22 mükafata layiq görülmüşdür. "Bütün dünyada sülh" federasiyası tərəfindən səfir diplomları ilə mükafatlandırılmış, onun tərcümeyi - halı 1998 - ci ildə Nyu - Yorkda Beynəlxalq Tərcümeyi - Hal Soraq kitabına daxil edilmiş, xarici dillər üzrə ilk elmlər doktoru kimi Azərbaycan Ensklopediyasına daxil edilmiş, haqqında "Azərbaycan film" kinostudiyasında film çəkilmişdir.

Zemfira xanım vətəninə, dövlətinə, millətinə, dininə, dilinə bağlı bir ziyalıdır. Onun 20 yanvar faciəsində öz həyatını təhlükəyə ataraq Rusiyanın törətdiyi o dəhşətli faciəni radio vasitəsi ilə bütün dünyaya çatdıraraq, öz haqq səsini ucaltması buna bariz sübutdur.

Zemfira Nadir qızı Verdiyeva 2010-cu ildə vəfat etmişdir.



## VAHABZADƏ BƏXTİYAR

*Əməkdar incəsənət xadimi,*
*"Xalq şairi", SSRİ dövlət mükafatı laureatı*



*Kitablar olmasaydı mən səfalət və alçaqlıq içində qərq olardım.*

*M.Qorki*

Vahabzadə Bəxtiyar Mahmud oğlu 1925 - ci ildə Şəkidə anadan olub. 1934 - cü ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. 1942 - ci ildə orta məktəbi bitirib Bakı Dövlət Universitetinin filologiya fakultəsinə daxil olmuş, 1947 - ci ildə həmin fakultəni bitirib universitetin nəzdində aspiranturaya qəbul olunub. 1951 - ci ildə "S. Vurğunun lirikası" mövzusunda namizədlik, 1964 - cü ildə isə S. Vurğunun həyat və yaradıcılığı mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Bədii yaradıcılığa ikinci Dünya müharibəsi illərində başlamış, 1945 - ci ildə Yazıçılar İttifaqının üzvülüyünə qəbul olunmuşdur. Məhsuldar bədii yaradıcılıqla yanaşı, B. Vahabzadə 40 ildən artıq Bakı Dövlət Universitetində dərs demiş, 1990 - cı ildən təqaüdə çıxmışdır. 1980 - cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

O, 70 - dən artıq şer kitabının, 2 monoqrafiyanan, 11 elmi publisistik kitabın və yüzlərlə məqalənin müəllifidir. Aəzərbaycan Dövlət Akademik Teatrının səhnəsində onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri tamaşaya qoyulmuşdur. O, tarixi və müasir mövzuda 20 - dən artıq irihəcmli poemanın müəllifidir.

1974 - cü ildə Əməkdar İncəsənət xadimi, 1975 - ci ildə Respublika, 1984 - cü ildə SSRİ Dövlət Mükafatı laureatı adlarına layiq görülmüşdür. 1985 - ci ildə "Xalq şairi" adı verilmiş, 1995 - ci ildə isə Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Onun bütün əsərlərində dünyaya fəlsəfi baxış əsas yer tutur. Bədii, elmi - publisistik yaradıcılığı ictimai - siyasi fəaliyyətinə üzvi surətdə əlaqələndirilən Vahabzadə 5 dəfə Azərbaycan Ali Sovetinə millət vəkili seçilmişdir (1980 - 2000).

O, hələ 60 - cı illərdən başlanan milli azadlıq hərakatının öncülərindən biri olmuşdur. Yaradıcılığı boyu xalqın istək və arzularını tərənnüm edən, bu arzuların həyata keçməsinə çalışan vətəndaş şair üçün xalqın mənafeyi onun şəxsi mənafeyinə çevrilmişdir.





## VƏLİYEV TOFİQ TALIŞ OĞLU

*Tarix elmləri doktoru, professor, "Şöhrət" ordenli əməkdar müəllim*



**Çalışın alim ilə cahil arasında fərq qoyasınız. Alimlər həyatın yol göstərənləridir.**

*Zərdüşt*

Elmin inkişafı - Ölkənin inkişafı deməkdir. Hər bir dövlətin gələcəyi, zənginləşməsi onun elm sahəsində, təhsildə və maariflənmədə əldə etdiyi uğurlarla və nailiyyətlərlə möhkəm bağlıdır. Bu bağlılığın kökü isə ziyalılardan bəhrələnir.

Həqiqətən də ömrünü, yaradıcılıq qabiliyyətini və fəaliyyətini Vətənə həsr edən alim həyatı mənalı və məsuliyyətli olduğu qədər də dəyərlidir. Tarix elmləri doktoru, professor Tofiq Vəliyev məhz belə ziyalılarımızdan olaraq bir salnaməyə bənzər ömür həsr etmişdir Azərbaycana. 1934-cü il 7 May tarixində Azərbaycanın dilbər Qarabağ guşəsində, Ağdam rayonunun Kürdlər kəndində xeyirxah və mötəbər bir ailədə dünyaya gəlmişdir Tofiq Vəliyev. O, hələ uşaq çağlarından mərhumiyyətlərlə üzləşərək, çalışmış və valideynlərinin adına, hörmətinə layiq olmaq üçün bütün varlığı ilə təhsilə - elmə yiyələnmişdir. Belə ki, Ağdamda nüfuzlu bir ziyalı kimi tanınan, haqsevər insan, xeyriyyəçi şəxs olan rus dili müəllimi - görkəmli pedaqoq o dövrün ədalətsizliyinin qurbanı olanlar cərgəsində həbs edilən Talış Fərzalı oğlu Vəliyev həbs edilərək, Sibirə sürgün edilir. Elə o gündən həyatda nifrətin gözünə dik baxmağa qadirliyi örnək tutan Tofiq Vəliyev bu günə qədər hər zaman və hər yerdə haqq söyləməyi və həqiqət tərəfdarı olmağı özünə bir yol seçir. Odur ki, Uca Tanrımız onun nurlu yollarla inkişaf etməsi üçün zirvələrə doğru yoluna işıq saçmış və yenə saçmaqdadır. İbtidai təhsili doğma kənddə, orta təhsili isə (7 illik məktəbdə) Əlimədədli kəndində alan Tofiq Vəliyev 1948-ci ildə Ağdam Pedaqoji Texnikumuna daxil olur. 1951-ci ildən pedaqoji təhsili başa vuraraq Yevlax rayonu Qoyunbinəsi kəndində müəllim kimi ilk əmək fəaliyyətinə başlayır. O, təhsilini davam etdirərək, APİ-yə (Pedaqoji Universitetə) qəbul olunur və I kursu başa vurduqdan sonra ADU (Bakı Dövlət Universitetinin)nun Tarix fakultəsində ali təhsil alır. tələbə ikən Stalin təqaüdü alan T.Vəliyev Universitetdən

elmli ixtisasçı kimi AMEA-nın Tarix İnstitutuna göndərilir. Çalışdığı 32 il müddətində kiçik elmi işçi vəzifəsindən aparıcı elmi işçi vəzifəsinədək yüksələn T.Vəliyev elmi işlər yzərində çalışmış və tədqiqatlar apararaq, nailiyyətlərə çatmışdır. Kapitalizm dövründə Azərbaycan sənaye tarixinin tədqiqi ilə məşğul olan alimin müdafiə etdiyi namizədlik və doktorluq dissertasiyaları da məhz bü mövzu ilə bağlıdır.

Tarix institutunda əyani aspiranturanı bitirən T.Vəliyev namizədlik dissertasiyasını 1966-cı ildə, doktorluk dissertasiyasını isə 1986-cı ildə müdafiə etmişdir. O, Tarix İnstitutunda elmi katib, doktorluq dissertasiyalarının müdafiə şurasının elmi katibi, baş elmi işçi, aparıcı elmi işçi vəzifələrnidə çalışmaqla yaradıcılıq fəaliyyəti ilə də məşğul olmuşdur. Professor T.Vəliyev "Azərbaycan tarixi"nin IV cildinin müəlliflərindən biri olamaqla yanaşı 4 monoqrafiyanın və onlarla sanballı-səviyyəli məqalələrin müəllifidir. ASİ-nin II-X cildlərində 30-a yaxın məqalənin müəllifi olan professorun elmi maraq dairəsini əhatə edən müxtəlif şaxəli mühüm məsələlərin təhlili və tədqiqi Vətənə, xalqa həsr edilmiş bir tarixdir. 1990-cı ildən BDU-da pedaqoji fəaliyyətlə məşğul olan alim 1993-cü ildən Tarix fakultəsinin "Slavyan ölkələri tarixi" kafedrasında müdir vəzifəsinə seçilmişdir. Orta məktəblər üçün "Azərbaycan tarixi" (V-XI siniflər üçün) dərsliklərin azərbaycan və rus dillərində nəşrinə rəhbərlik edən T. Vəliyev həmin dərsliklər üzrə dərs vəsaitlərinin və proqramların müəllifidir. 2004-cü ildə çapdan çıxan "XX əsr Azərbaycan tarixi" dərsliyi ali məktəblər üçün nəzərdə tutulmuşdur və əsrin tarixini əks etdirən ilk əsər hesab olunur. IX-X siniflər üçün "Ümumdünya" tarixi dərsliyinin (azərbaycan və rus dillərində), 190-dan artıq əsərin, 5 monoqrafiyanın, 25-dən çox (ali və orta məktəblər üçün) dərslik və dərs vəsaitinin müəllifidir T.Vəliyev. BDU Ağsaqqallar Şurasının, Universitet təhsil komissiyasının və müsabiqə komissiyasının, Ekspert komissiyasının üzvü olmaqla Universitetin ictimai həyatında fəal ziyalı kimi uğurla çalışır. Böyük nifuza malikdir. Azərbaycan Prezidentinin fərmanı ilə 2000-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülən Professor 2004-cü ildə humanitar elmlər sahəsində BDU üzrə "İlin alimi", 2007-ci ildə "İlin müəllimi" fəxri adı almışdır. Alim T.Vəliyev Nyu-York EA-nın həqiqi üzvü seçilmişdir (2004-cü il). XIX-XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatında kapitalizmin inkişafı məsələləri, müstəmləkə sistemi əleyhinə çevrilmiş üsyanlar, ölkəmizdə baş vermiş milil-azadlıq hərəkatı tarixi, siyasi partiyalar və siyasi təşkilatların fəaliyyəti, ayrı-ayrı şəxsiyyətlər haqqında, eləcə də bir çox mühüm məsələlər T.Vəliyevin çoxcəhətli elmi axtarışları içərisində xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizin ilk üzvi kimyaçı alimi M.Xanlarovun Almaniya həyatı, M.S.Tobçubaşov nəslinin düyünə salınmış





tarixinin ilk mənbələr əsasında öyrənilməsi və onların şəcərəsində tam aydınlıq yaradılması da onun xidməti hesab edilməlidir. O, 5 il Təhsil Nazirliyinin Elmi-Metodik Şurası Tarix bölməsinin sədri və üzvü olmuşdur. (1993-1998-ci illər). AMEA-nın Tarix İnstitutunun Elmi Şurasının və BDU Elmi Şurasınının üzvüdür. Alim 2002-2007-ci illərdə Tarix İnstitutu nəzdindəki doktorluq dissertasiyaları Müdafiə Şurasının sədr müavini və həmsədri olmuşdur.

"Tarix və onun problemləri" və "Dünyaya baxış" elmi jurnallaranın redaksiya heyəti üzvü, "Bakı Universiteti xəbərləri (humanitar seriya) jurnalının 2005-ci ildən redaktorudur. O, Respublika Prezidenti yanında Ali Attestasiya Komissiyasının " Tarix, teologiya, fəlsəfə, pedaqogika və psixologiya elmləri" üzrə Ekspert Şurasının sədri vəzifəsində (1995-2002-ci illərdə) və Ali Attestasiya Komissiyasının "Tarix və siyasi elmlər" üzrə Ekspert Şurasının sədri olmuşdur (2007-2011). 2009-cu il oktyabr tarixdə Respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə professor T.Vəliyev "Şöhrət" ordeni ilə təltif edilmişdir. Professor Ümumdünya və Ümumrespublika elmi konfrans və konqreslərdə ölkəmizin şərəfli alimi kimi layiqli təmsil etmişdir. Tarixçi kadrların yetişməsində böyük zəhməti olan alimin rəhbərliyi ilə 2 doktorluq, 8 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Hazırda 2 doktorant və 5 dissertantın elmi rəhbəri olan T.Vəliyev onlarla doktorluq və namizədlik dissertasiyasına opponent olmuşdur. Hal-hazırda ali məktəblər üçün nəzərdə tutulan və bir neçə ildir ki, üzərində çalışdığı "Kapitalizm dövründə (1800-1917) Slavyan ölkələrəi tarixi" kitabının redaktəsi başa çatmaq üzrədir. Ömrünü və bütün fəaliyyətini xalqımıza, Vətənimizə həsr edərək, uğurla çalışan alim, tarix elmləri doktoru, professor Tofiq Vəliyevə nailiyyətlər və xoşbəxt ömür arzulayırıq.

Ailəlidir. Həyat yoldaşı Pəri xanım Əşrəf qızı Respublikanın əməkdar müəllimi, qabaqcıl pedaqoq, şərəfli-fədakar anadır. Ziyalılar ailəsində boya-başa çatan ali təhsilli övladlar, elm yollarında üğürla çalışırlar:

Oğlu Vəliyev Toğrul BDU-nun hüquq fakultəsinin dekan müavini, 15 elmi əsərin müəllifidir.

Qızı Vəliyeva Xuraman AMEA-nın Tarix İnstitutunun baş elmi işçisi, 9 elmi əsərin müəllifidir.

Vəliyevlər ailəsində 2 nəvə böyüyür. Uğurlar olsun gözəl-nəcib insanlara.

## VƏLİYEV YAVƏR XANHÜSEYN OĞLU

*İqtisadçı alim*



**Ev ağsaqqalsız, el alimsiz olmasın.**

*Atalar sözü.*

Hər bir bilik öyrənən gənc tələbənin talehi müəllimdən asılıdır. Əsil müəllim adı, müəllim peşəsi çox müqəddəsdir. Daha dərin zəkaya xidmət edərək, öz savadını tələbələrə həvəslə, vicdanla öyrədən müəllimlərin əziyyətlərinin nəticəsi sonda öz bəhrəsini dövlət və cəmiyyətimizə bəxş edir. Gəncliyin, təhsilin, elmi-metodik biliklərin zənginləşdirilməsi istiqamətində yorulmadan çalışan Vəliyev Yavər Xanhüseyn oğlu 1942-ci ildə Beyləqan rayonunun Dünyamallar kəndində anadan olub. 1963-cü ildə elə bu kənddə orta təhsilini başa vuran Yavər Vəliyev orduda xidməti borcunu yerinə yetirdikdən sonra 1966-cı ildə D.Bünyadzadə adına Axərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. 1970-ci ildə həmin ali məktəbin iqtisadiyyat fakultəsini bitirmişdir.

Vəliyev Yavər 1970-ci ildə ilk əmək fəaliyyətinə təyinatla Azərbaycan Nazirlər Soveti yanında Dövlət Statistika Komitəsində iqtisadçı vəzifəsində işləməklə başlamışır.

1973-1991-ci illərdə AMEA-nın İqtisadiyyat İnstitutunun aspirantı olmuş və həmin institutda elmi işçi vəzifəsində çalışmışdır. Daim elmi axtarışlarda olan Y.Vəliyev 1986-cı ildə "Azərbaycan Respublikası ASK-ə kənd təsərrüfatı istehsalının yüksəldilməsi" problemləri mövzusunda dissertasiya müdafiə etmişdir və SSRİ Nazirlər Soveti Yanında Ali Attestasiya Komissiyası tərəfindən iqtisad elmləri namizədi alimlik dərəcəsi adını almışdır.

1991-ci ildə müsabiqə yolu ilə ADTU-nun "İqtisadiyyat və hüququn əsasları" kafedrasına müəllim vəzifəsinə seçilən Yavər Xanhüseynoğlu 1992-ci ildə həmin kafedraya baş müəllim, 2000-ci ildə müsabiqə yolu ilə dosent vəzifəsinə seçilmişdir.

Çalışdığı vəzfəni layiqincə yerinə yetirən, ziyalı bir insan olan Yavər





Vəliyevin elmli və bacarıqlı olması daima qiymətləndirilmiş və o, 2006-cı ildə "İqtisadiyyat və hüququn əsasları" kafedrasında müdir əvəzi, 2008-ci ildə müsabiqə yolu ilə həmin kafedranın müdiri vəzifəsinə seçilmişdir. Hal-hazırda həmin kafedranın müdiridir. Azərbaycan Dövlət Tibb Universiteti Elmi Şurasının üzvüdür. Yavər Vəliyev 1993-cü ildən Əczaçılıq Fakultəsi Həmkarlar Təşkilatının sədri, Azərbaycan İqtisadçılar İttifaqının üzvüdür.

1992-ci ildən YAP-ın üzvüdür.

Yavər Xanhüseyn oğlunun 120-dən artıq elmi məqalələri və tezisləri, o cümlədən 2 dərsliyi, 3 kollektiv monoqrafiyanın və 3 metodik vəsaitin müəllifidir. Bu məqalələrin və tezislərin bir hissəsi xarici ölkələrdə çap edilmişdi. Son 5 ildə 60-a yaxın məqalə, 1 dərslik, 2 metodik vəsait çap edilmişdir. Çap edilən əsərlərdə Azərbaycan Respublikasının qarşıya qoyduğu probemlər öz əksini tapmışdır. Belə ki, "Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Respublikası milli iqtisadiyyatının qurucusudur", "Azərbaycan Respublikasında maliyyə-büdcə, pul-kredit sistemi", "İqtisadi müstəqillik şəraitində iqtisadi sistemə münasibət onun formalaşması, idarə edilməsi", "Azərbaycanda aparılan iqtisadi-sosial islahatların həlli yolları", "Bazar iqtisadiyyatında iqtisadi inkişaf problemləri", "Azərbaycan Respublikasının iqtisadi əlaqələrində bazar münasibətləri", "Azərbaycanda milli iqtisadiyyatın formalaşması", "Aqrar münasibətlərin bazar tələblərinə uyğun təkmilləşdirilməsi", "Aqrar bölmədə sahibkarlıq fəaliyyətinin inkişafının iqtisadi səmərəliliyi", "Özəlləşdirmə və sahibkarlığın inkişafı", "Elmi-texniki əməkdaşlıq sferasında ölkələr arası qloballaşma problemlərinin bəzi məsələləri", Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında dövlət büdcəsinin rolu", "Azərbaycanın dünya iqtisadiyyatında rolu və dünya iqtisadiyyatında inteqrasiya əlaqələri", "Qloballaşan dünya və Azərbaycan", "Mülkiyyət formaları, sahib olma, istifadə etmə, sərəncam vermə və idarəetmə", "Səhiyyənin təşkili və maliyyələşdirilməsində tibbi və iqtisadi səmərəliliyin müəyyən edilməsi", "Bazar iqtisadiyyatı şəraitində səhiyyənin planlaşdırılması və sosial inkişafın bəzi məsələləri", "Səhiyyənin idarə edilməsi və maddi-texniki bazasının yaxşılaşdırılmasında islahatların rolu", "Səhiyyənin maliyyələşdirilməsində tibbi sığorta sisteminin bəzi məsələləri" problemlərinə həsr edilmişdir.

Bununla yanaşı Yavər Vəliyevin başçılığı ilə hazırlanan Tibb Universitetinin fəaliyyəti müsbət nəticə vermişdir.

1. Belə ki, "Tələbələr azad Sahibkarlıq fəaliyyətində (SİFE) 30

universitetlər arasında keçirilən çempionatın qalibi elan olunmuş və dünya çempionatında iştirak etmək hüququ qazanmışdır.

Azad sahibkarlıq fəaliyyətində iştirak edən tələbələr 2008-ci ildə ABŞ-ın Nyu-York şəhərində dünya birinciliyində iştirak edərək Azərbaycan bayrağını Nyu-Yorkda dalğalandırmaqla Universitetə priz gətirmişdilər.

2. Həmçinin (kafedranın hazırladığı kamanda) Universitetin tələbə komandası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birgə layihəsi olan, "Virtual Rinq" intellekt yarışmasında super finalın qaliblərinin 2-cisi olmuşdur.

3. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Ali Təhsil müəssisələrinin tələbələri arasında siyasi biliklər üzrə olimpiadada 30 universitetlər arasında qalib gələrək II yerə çıxmışlar və yüksək dərəcəli diploma layiq görülmüşlər.

Kafedrada hazırlanmış tələbə komandası, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Hüquqi dövlət əsasları" mövzusunda olimpiadada 30 Universitetlər içərisində qalib gələrək yüksək Diplomla təltif olunmuşdur.

Yavər Vəliyev "ALLİANS" xətti ilə keçirilən "İnsan kapitalı", "Dövlət Biznes" Birinci Beynəlxalq Konfransında I dərəcəli sertifikatla təltif edilmişdir.

Bu nailiyyətlərin hamısı kafedra müdiri Yavər Vəliyevin səyi və apardığı məqsədyönlü işinin nəticəsidir.

Ömrünü tutduğu vəzifəni ləyaqətlə yerinə yetirməyə, elmi tədqiqat işlərinə həsr edən alim Yavər Xanhüseyn oğluna həyatının hər sahəsində uğurlar arzu edirik!





## SƏFƏROV MƏTLƏB İBİŞ OĞLU

*Tibb elmləri doktoru, professor*



**Hikmətlə, biliklə, comardliklə sən,**
**Hər iki dünyada şahdan hakimsən!**

**X.Nasir.**

İnsan və zaman. Bu iki məvhum biri-biri ilə vəhdət təşkil edərək, dəyişdirir və gözəlləşdirir dünyanı. Yüksək mənəviyyatlı, ziyalı, alicənab şəxsiyyətlərin xidmətləri, uğurlu fəaliyyəti həyata məna verərək, gələn nəsilləri də işıqlı gələcəyə səsləyir. Belə ziyalılardan biri tibb elmləri doktoru, professor Səfərov Mətləb İbiş oğlu 1938-ci ilin aprel ayının 10-da Ağdam rayonunun Şelli kəndində kolxozçu ailəsində anadan olub. 1947-ci ildə Şelli-Qaradağlı kənd 7 illik orta mətəbində oxuyan M.Səfərov təhsilini eyni rayonun Şıxbabalı kənd orta məktəbində davam etdirərək 1956-cı ildə başa vurmuşdur. Elə həmin ildə Azərbaycan Neft-Kimya İnstitutunun (indiki ADNA) energetika fakultəsinə daxil olub. Bir il təhsil aldıqdan sonra sənədlərini geri götürərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-Profilaktika fakultəsinə qəbul olub.

Səfərov Mətləb İbiş oğlu 1963-cü ildə ali təhsilli cərrah kimi Azərbaycan Səhiyyə Nazirliyinin təyinatı ilə Ağdam Şəhər Xəstəxanasına göndərilib.

1964-ci ildən Azərbaycan EA-nın Fiziologiya bölməsində aspiranturaya daxil olan M.Səfərov 1967-ci ildə Akademik A.İ.Qarayevin rəhbərliyi altında müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alıb. Fiziologiya bölməsində kiçik elmi işçi vəzifəsində işləyən M.İ.Səfərov tutduğu vəzifəni layiqincə yerinə yetirməklə, pillə-pillə ucalmışdır. 1972-ci ildə müsabiqə yolu ilə Azərbaycan EA Fiziologiya İnstitutunda böyük elmi işçi vəzifəsinə layiq görülüb.

Daim elmi axtarışlara can atan, M.İ.Səfərov, üzərində çalışdığı doktorluq dissertasiyasının eksperimental hissəsini başa çatdırmaq məqsədilə 1969-1975-ci illərdə Leninqrad (indiki Sank-Peterburq) şəhərinə ezam olunub. Leninqrad Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən A.A.İxtomski adına Fiziologiya İnstitunda çalışıb.

M.İSəfərov 1990-cı ildə P.Lümumba adına Xalqlar Dostluğu Universitetində

(Moskva şəhəri) böyük müvəffəqiyyətlə müdafiə edib və tibb elmləri doktoru alimlik adını alıb. Ona 2007-ci ildə professor elmi adı verilib.

Mənsub olduğu xalqın kamillik zirvəsinə qədər ucalması, yüksək intizamı işinə məsuliyyətlə yanaşması ona hər yerdə baş ucalığı gətirmiş və onu tanıyanlar arasında xüsusi hörmət sahibi etmişdir. Professor M.İ.Səfərovun tədqiqatları fiziologiya, patofiziologiya, endokrinologiya, biokimya elminə xeyli yenilik gətirmiş, qiymətli araşdırmalardır. Bu tədqiqatlar onun qələmindən çıxmış, 3 tibbi-metodik tövsiyyədə, 5 monoqrafiyada və 250-yə qədər məqalə və tezisdə öz əksini tapıb. Əsərəlrinin 100-ə qədəri xarici ölkələrdə nəşr olunmuş jurnal və toplularda çıxıb.

Görkəmli professorun rəhbərliyi altında 11 nəfər dissertasiya işini yerinə yetirərək elmlər namizədi alimlik dərəcəsi alıb, bir nəfər elmlər doktoru dissertasiyasını tamamlayaraq Müdafiə Şurasına təqdim edib.

Hazırda Ali Attestasiya Komissiyasının baş ekspertidir. Uzun müddət müdafiə şuralarının üzvü olmuş M.İ.Səfərov bu gün də yüksək elmi məhsuldarlığı, elmi prinsipiallığı və ensiklopedik biliyi ilə fərqlənir. Eyni zamanda yüksək kvalifikasiyalı həkim kimi insanların sağlamlığı keşiyində durub. Həkimlik sahəsində vicdanla xidmət edən, Hippokrat andına həmişə sadiq qalan professor Səfərov Mətləb İbiş oğluna həyatın hər bir sahəsində uğurlar arzu edirik.







# YUSUBOV ƏLFRAT HÜSEYN OĞLU

***Azərbaycanın tanınmış maarifçisi, şərəfli müəllim***



**Ömür insana bir dəfə verilir və onu elə yaşamaq lazımdır ki, mənasız keçən illər üçün vicdan əzabı çəkməyəsən.**

*N.Ostrovski.*

Azərbaycanın tanınmış maarifçiləri sırasında xüsusi yeri olan, ömrünün 50 ilini pedaqoji fəaliyyətə həsr edərək, təltiflərə layiq görülən, xalqın və Dövlətimizin etimadına, rəğbətinə layiq şərəfli bir müəllim Əlfrat Yusubov ölkəmizin ən səfalı bir guşəsində Qəbələ rayonunun Bum kəndində 10 Avqust 1934-cü ildə dünyaya gəlmişdir. Orta təhsili Ağdaş şəhər 1 saylı orta məktəbdə alaraq, Ağdaş Pedaqoji Texnikumuna qəbul olunmuşdur. Pedaqoji təhsili "Qırmızı diplom"la başa vurmuş və hərbi xidmətdə uğurlar əldə etmişdir. Əlfrat Yusubov SSRİ KKMK-nın "Fəxri-fərman"ına və "Təşəkkürnamə"lərə layiq bir əsgər kimi o, dövrün Kommunist Partiya sıralarına qəbul olunmuşdur. Ə.Yusubov ali təhsilə (ADPİ-da) Pedaqoji Universitetin Kimya-biologiya fakültəsində yiyələnmişdir. Ali təhsilli müəllim kimi ilk fəaliyyətə Ağdaş rayon 8 saylı məktəbdə başlamışdır. Ə.Yusubov 1967-77-ci illərdə Ağdaş Pedaqoji Texnikumunda ixtisası üzrə kimya-biologiya müəllimi və eyni zamanda Partiya Təşkilat katibi vəzifəsində çalışmışdır. O, öz ixtisasını elmi araşdırmalar aparmaqla dərindən öyrənməyi bacaran bir müəllim kimi daim irəli çəkilmiş və əməyi dəyərləndirilmişdir. Ə.Yusubov 1977-ci ildən Ağdaş rayon Xalq Maarif şöbəsinə təyin olunur. Onun təhsil sahəsində səmərəli elmi-təcrübi fəaliyyətindən müəllimlər ordusu nümunə götürmüşdür. Əlfrat Yusubov uzun illər Ağdaş şəhər Məktəblərarası Tədris İstehsalat Kombinatının müdiri vəzifəsində çalışmışdır. Onun fəaliyyəti mütəmadi olaraq yüksək mükafata layiq olmuşdur. 1980-cı ildə "Məktəblərarası sosializm yarışı qalibi" döş nişanı ilə təltif olunan Ə.-Yusubovun yüksək məqamı haqda "Azərbaycanın tanınmış maarifçiləri" ensiklopedik kitabında ətraflı məlumat verilmişdir (2002) Əlfrat müəllim 1986-93-cü illərdə Bakı şəhəri 26 saylı orta Texniki Peşə Məktəbində Tədris işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır. O, daim məsul vəzifələr aparmaqla bərabər gənclərimizin maariflənməsi, yüksək elmə-biliklərə sahib olması yolunda fədakarlıqla çalışmışdır. 1993-2008-ci illərdə Ə.Yusubov Nərimanov rayonu 212 saylı məktəbdə tədris işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır.

Ali Kateqoriyalı müəllim qabaqcıl maarifçi, medallar, təşəkkürnamələr, mükafatlarla təltif olunmuş şərəfli müəllim hal-hazırda 212 saylı məktəbin ən hörmətli pedaqoqu olaraq, fəaliyyətini davam etdirir. 2002-ci il 12 Oktyabr tarixdə "Vektor" Beynəlxalq Elm Mərkəzinin keçirdiyi sorğuya əsasən "Azərbaycanın tanınmış Maarifçiləri" layihəsinin qalibi olmuş və kitabın tərtibində fəal iştirak etmişdir. Onun yüksək təşkilatçılığı, elmi səviyyəsi və kollektivdə,. Şagird-müəllim münasibətlərində əldə etdiyi nailiyyətlərlə bağlı bacarığı daima rəhbərlik tərəfindən qiymətləndirilərək mükafatlandırılmışdır.

Uzun müddət səmərəli fəaliyyətinə görə Ə.Yusubov Nərimanov rayonu RİH-nin başçısı İ.N.Abbasov tərəfindən "Fəxri-fərman"la təltif olunmuşdur. (07.09.2005) Onun məzunları xarici ölkələrdə olsalar belə, müəllimlərini unutmur və: Bizim bir ziyalı kimi formalaşmağımızda Əlfrat müəllimin əməyi əvəzsizdir"-deyirlər. Azərbaycanda yüzlərlə həkim, mühəndis, alim, müəllim, halal-sadə zəhmət adamları, iş adamları, yüksək vəzifəli şəxslər, yaradıcı şəxslər Ə.Yusubovun yetirmələridir. Onların hər birinin bu günündə Əlfrat müəllimin gözünün nuru, əlinin zəhməti vardır. Əlfrat müəllimin təltifləri çoxdur. Onun böyük təltifi xalqın ona olan sevgisidir. Lakin ən böyük təltifi və ən yüksək məqamı 2004-cü ildə Həcc ziyarətində olmasıdır və hacı adına layiq görülüb.

Ailəlidir Ə.Yusubov, 4 övlad 2 qız və 2 oğul atasıdır. Övladlar ali təhsillidirlər. 9 nəvə sahibidir. Nəvələrdən 2 qız nəvəsi Tibb Universitetinin tələbəsi, 2oğul nəvəsi isə İqtisad Universitetinin tələbələridir.

Əlfrat Yusubova və ziyalılar ailəsi olan bütün Yusubovlara uğurlar, nailiyyətlər arzulayırıq.





## ŞƏMKİRLİ MƏHƏRRƏM İSRAFİL OĞLU

*Yazıçı-publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü*



***Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.***

**Heydər Əliyev.**

Aqil insan öz zəkası, əməlləri ilə min bir çətinliklərə mətanətlə sinə gərərək yaşayır, mübarizə aparır, zaman-zaman illərin süzgəcindən keçərək, müdriklik zirvəsinə doğru yol alır.

Ömrün müdriklik çağını yaşayan, yüksək intellektual səviyyəyə malik olan Məhərrəm İsrafil oğlu Şəmkirli (Məmmədov) 1950-ci ildə Şəmkir rayonunun Zəyən -Cırdaxan kəndində ziyalı ailədə, Şəmkirli nəslində anadan olub. Orta təhsilini başa vurduqdan sonra Bakı Dövlət Universitetini və Jurnalist Sənətkarlığı İnstitutunu bitirmişdir.

Orta məktəbdə oxuduğu illərdə Məhərrəm Şəmkirli şeirə, sözə böyük dəyər vermiş, öz maraqlı mənsur şeirləri, hekayələri, lətifələri, atmacaları, publisist yazıları ilə müntəzəm olaraq yerli və Respublika mətbuatında çıxışlar etmişdir. Onun eyni zamanda televiziya və radioda da bədii yazıları səsləndirilmişdir.

1980-ci ildə görkəmli şair N.Xəzri "Kommunist" (indiki "Xalq" qəzeti) M.Şəmkirlinin mənsur şeirlərinə hörmət duyğularını belə ifadə etmişdir: "M.Şəmkirlinin mənsur şeirlərində isti hərarətli bir nəfəs duyulur. Bu həyatın öz nəfəsidir. O, bildiyi, duyduğu mövzunu, fikir və düşüncələri dillə ifadə etməyi bacarır. Əməyə, dostluğa, səadətə həsr etdiyi misraları həyəcanla səslənir".

M. Şəmkirlinin satirik hekayələri, mənzum felyetonları, publisistik yazıları, lətifələri və xalq-etika mövzusunda yazdığı əsərləri sevilərək oxunur və hər kəs bu aktual məsələlərlə bağlı mövzulardan nəticə çıxararaq, öz üzərində işləmək, haqq-ədalətlə çalışmağa cəhd edir.

2005-ci ildə "Şəmkir şairləri və aşıqları" almanaxı nəşr olunub. Almanaxda M.Şəmkirlinin onlarla mənsur şeirləri və hekayələri dərc olunmuşdur.

2007-ci ildə nəşr etdirdiyi "İçimi göynədən ağrılar" adlı mənsur şeirlər və hekayələr kitabında keçirdiyi hissləri, həyatda rastlaşdığı, amma razılaşmadığı məqamları qələmə alaraq, insanları qeyrətli, nəfsi tox, qəlbi açıq olmağa səsləyir.

Mənsur şeirlərində kədər, nisgil, qəm hisslərini biruzə verən M.Şəmkirli millətinin dərdinə şərik olaraq hamısının taleyini yaşamağı bacaran, ağlayan və yanan

şairdir. Vaxtı ilə bütün bunları yüksək qiymətləndirən Cəmil Əlibəyov və Əliba-la Hacızadə kimi şöhrətli yazıçılar onun yazılarını yüksək qiymətləndirib baş re-daktoru olduqları qəzetlərdə dərc etdiriblər.

"Novruz" və "Şəhriyar" qəzetlərinin yaradıcı müsabiqələrində M.Şəmkirlinin yazıları yüksək yerlər tutub. Qarabağ ağrısı ilə göynəyən müəllif 2008-ci ildə "Lə-tifələr, atmacalar" adlı kitabını nəşr etdirib. Kitabda yer alan duzlu, məzəli, eyni zamanda acı gülüş doğuran lətifələr, atmacalar zamanın bir çox həqiqətlərini nü-mayiş etdirir.

"Yaxşı gülüş qədər heç nə insanları bir-birinə yaxınlaşdırmır" deyən L.N.Tols-toy sanki belə kitabları nəzərdə tutmuşdur. Bir neçə kitabın müəllifi olan M.Şəm-kirlinin hal-hazırda 800-dən çox mənsur şeirlərdən ibarət olan növbəti kitabı çap olunmaq ərəfəsindədir.

2010-cu ildə "Kafkaz News" qəzetinin redaktoru olmuş M.Şəmkirli hal-hazırda "Sahibkarlıq və hüquq" qəzetinin redaktorudur.

"Tanrı günü 30 iyun sevgililər günü" kitabı da 20 Yanvar şəhidləri İlham və Fərizənin şərəfli ömür yolundan, ilahi sevgisindən bəhs edən hekayələri, mənsur şeirləri, publisist yazıları verilmişdir.

Yazdığı bütün əsərləri ilə oxucuların rəğbətini qazanan M.Şəmkirli Azərbay-can Yazıçılar və Jurnalistlər birliklərinin üzvüdür. Dünya Azərbaycanlıları Konqresinin və "Bura Vətəndir" ictimai birliklərinin ən fəal üzvlərindəndir.

Ailəlidir. İki ali təhsilli övladları, üç nəvəsi var.







*Ziyalı Günəş Yerə elə ziya göndərdi,*
*Səpildikcə çöllərə, laləzarə döndərdi.*
*Kibrit də: - Ziyalıyam - deyib, elə alışdı,*
*Ətrafı yandı tamam, bütün aləm qarışdı.*
*Ziyalı var, ziyası cəmiyyətə ziyadır,*
*Ziyalı var, ziyası hər millətə ziyandır.*

**Hikmət Ziya.**

# MÜƏLLİFDƏN



Dünya xalqları arasında Azərbaycan xalqının, ədəbiyyata xüsusi münasibət bəsləmiş bir xalq kimi yüksək qiyməti vardır. Keçmişimizdən ta bugünkü dövrümüzə qədər "Ziya" kimi Allah nemətinin Yer üzərindəki təcəssümü olan Azərbaycan ziyalılarına olan hörmət daim baş ucalığımızın günəşli rəmzi olub.

Bu rəmzi qoruyub saxlayan və bu ucalığı daim yüksək tutan Azərbaycan ziyalıları dünya mədəniy-yətinin ən gözəl təmsilçilərindən biridir. Bu mənada bu kitab gözəl mənəvi ucalığın rəmzidir.

Bir yazar kimi mən də Azərbaycanımızın sayılıb-seçilən ziyalılarının həyat və yaradıcılığını əks etdirən 2-ci kitabımı da oxuculara təqdim etməyi özümə borc bildim. Haqqında yazdığım hər bir şəxs akademik, alim, istər dünya şöhrətli məhşur sənətkar, istər yazıçı olsun istərsə də həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr edən müəllim, istər sağlamlığımızın keşiyində duran həkim və s. fərq etməz, əgər onların hər biri xalq qarşısında ziyalı zirvəsinə ucala biliblərsə çalışmışam bu kitabda əks etdirim.Onların hər biri ilə yaxından tanış olduqca, zəngin mənəviyyatlı iç dünyasına daxil olduqca mən də daxilən daha da zənginləşmiş, və bu işimdən xüsusi zövq almışam. Əlbəttə fəxarət yeri-miz olan ziyalılarımızın hamısını bir kitabda təqdim etəmk mümkün deyil. İnşal-lah bu ardıcıl davam edəcək. Bu mənada inanıram ki, təqdim olunan bu kitabı da dəyərli oxucu gözəl hisslərlə qarşılayaraq oxuyacaq və öz mənəvviyyatını zəngin-ləşdirəcəkdir.

Bu yolda Azərbaycan xalqına uğurlu yollar arzulayıram və uğurların rəmzi ki-mi oxuculara bu kitabın zənginliyini duymaq üçün onu oxumağı tövsiyə edirəm.

KİTABIN İÇİNDƏKİLƏR


ÖN SÖZ....4
ZİYALI ZİRVƏSİ....6
REDAKTORDAN....7
HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV....8
ZƏRİFƏ ƏZİZ QIZI ƏLİYEVA....9
İLHAM HEYDƏR OĞLU ƏLİYEV....10
MEHRİBAN ARİF QIZI ƏLİYEVA....11
İMANQULİYEVA AİDA NƏSİR QIZI....12
ABDULLAYEV KAMAL MEHMAN OĞLU....13
ABDİNOV ƏHMƏD ŞAHVƏLƏD OĞLU....15
ABBASBƏYLİ AĞALAR NƏRİMAN OĞLU....17
ABBASOV ZÖHHAK YAQUB OĞLU....19
ABDULLAYEV SADİQ KƏRİM OĞLU....20
ABUŞOV BABƏK MƏMMƏD OĞLU....21
ATAKİŞİYEVA OFELİYA HƏSƏN QIZI....23
BAĞIR ƏLİ OĞLU BAĞIROV....25
BÜNYADOV ZİYA MUSA OĞLU....27
BABAYEV ADİL MƏHƏMMƏD OĞLU....29
BABAYEV ƏLƏKBƏR MUSTAFA OĞLU....31
BAYRAMOV ELDOST ƏLÖVSƏT OĞLU....33
BAĞIROV ŞADİMAN....35
BABAYEV SEYRAN ƏLƏKBƏR OĞLU....36
BAĞIROVA SARIQIZ ABBAS QIZI....38
BƏHMƏNLİ ZEYNƏB USUB QIZI....39
BABANLI MƏHƏMMƏD BABA OĞLU....41
BABAYEV ƏLƏSGƏR ƏLƏKBƏR OĞLU....43
CƏLİLOV QURBAN NİZAMƏDDİN OĞLU....44
CƏLİLOV TACƏDDİN NİZAMƏDDİN OĞLU....46
BƏDİRCAHAN ƏMRULLAH QIZI....48
ƏZİZƏ XANIM CƏFƏRZADƏ....49
CARULLAZADƏ ÇİNGİZ CARULLA OĞLU....51
DÜNYAMİN NURQƏLƏM OĞLU....53
ELDAROV ÖMƏR HƏSƏN OĞLU....55
ƏKBƏROV CANƏLİ XANƏLİ OĞLU....56
ƏLİYEV ƏDALƏT BAYRAMƏLİ OĞLU....58
ƏLİYEV ƏLİHEYDƏR MƏHƏMMƏD OĞLU....60
ƏLİYEVA LEYLİ ƏLİHEYDƏR QIZI....62
ƏSGƏROV MƏMMƏDƏLİ SƏLİMXAN OĞLU....63
ƏSGƏROV CAVİD SƏLİMXAN OĞLU....65
ƏHMƏDOV TOFİQ RƏŞİD OĞLU....67
ƏLİYEVA LƏTİFƏ AĞAQASIM QIZI....69
ƏHMƏDOV SABİR MUSTAFA OĞLU....71
ƏHMƏDOV QƏDİR RAMAZAN OĞLU....72







ƏHMƏDOVA MƏLAHƏT QƏDİR QIZI....73
ƏHMƏDLİ SALATIN ALI QIZI....74
ƏLİYEVA DÜNYAXANIM YUNUS QIZI....76
GÖYÇAYLI ŞÖVQÜ YUSİFZİYA OĞLU....78
ƏLƏKBƏROV VAHİD YUSİFOVİÇ....80
ƏLİYEV BƏXTİYAR LÜTFƏLİ OĞLU....81
ƏLİYEV LÜTFƏLİ BƏXTİYAR OĞLU....82
ƏLİYEVA SƏDAQƏT TƏLƏT QIZI....83
HACIYEV FƏZLİ ƏMRULLAH OĞLU....85
HƏSƏNOV TAPDIQ GÜLƏHMƏD OĞLU....87
HÜSEYNOV HÜSEYN MƏHƏRRƏM OĞLU....90
HÜSEYNOV RAFİQ QURBAN OĞLU....92
HƏŞİMOV HACI HƏSƏN OĞLU....94
HACIYEV FƏRMAN MUSTAFA OĞLU....96
HÜSEYNOV ƏYYAM İXTİYAR OĞLU....98
HƏSƏNOV AYDIN RƏHİM OĞLU....100
HACIYEVA LALƏ OSMAN QIZI....102
HÜSEYNOVA RƏNA HÜSEYNAĞA QIZI....104
XUDİYEVA ŞURA MƏHƏMMƏD QIZI....105
İMANZADƏ SƏİDƏ ƏHMƏDNƏBİ QIZI....106
İSMAYILOV FİKRƏT İSMAYIL OĞLU....108
İMANLI MƏHƏMMƏD NAĞI OĞLU....110
HƏBİBOV İBRAHİM ƏBÜLFƏZ OĞLU....112
İSMAYILOV ƏLİF QULU OĞLU....113
EDİSON İBADZADƏ....115
İSMİXANOV MƏCİD ABDULLA OĞLU....117
İMAMİ ŞÖVKƏT (HÜSEYNOVA) ƏBÜLFƏZ QIZI....119
İSRAFİLOVA FİRUZƏ HÜSEYİN QIZI....120
KAZIMZADƏ ZƏKİ İSKƏNDƏR OĞLU....121
KAZIMZADƏ QUMRAL RƏNA ZƏKİ QIZI....123
KAZIMZADƏ AYDIN HƏSƏN OĞLU....125
KAZIMOV ARAZ NURƏDDİN OĞLU....128
QARAYEV SİYAVUŞ FƏRHAD OĞLU....130
QASIMLI MƏHƏRRƏM PAŞA OĞLU....133
ÜMMÜHƏBİBƏ MƏMMƏDTAĞI QIZI QƏLƏNDƏRLİ....135
QƏHRƏMANOVA MƏLAHƏT....137
QULİYEV AKİF ƏLƏKBƏR OĞLU....139
QULİYEV RAUF ƏLƏKBƏR OĞLU....141
QULUZADƏ CƏFƏR MÜSEYİB OĞLU....143
QASIMOVA LƏZİFƏ....146
QASIMOV AYDIN EYLAS OĞLU....148
QURBANOV ELŞAD MƏCNUN OĞLU....150
QULİYEVA MEHPARƏ....151
QƏHRƏMANOV ADİL....152
QASIMOVA FİDAN ƏKRƏM QIZI....153
QASIMOVA XURAMAN ƏKRƏM QIZI....156

QASIMOV ALIŞ MƏMİŞ OĞLU......158
MİRZƏCANZADƏ AZAD XƏLİL OĞLU......160
MƏRDANOV MİSİR CÜMAYİL OĞLU......162
MƏHƏRRƏMOV ABEL MƏHƏMMƏDƏLİ OĞLU......163
MƏMMƏDZADƏ ARİF MİKAYIL OĞLU......165
MUSAYEV ƏLİŞİR VEYS OĞLU......167
MƏMMƏDOV ƏLİBABA......169
MUXTAROV ABDULLA İBRAHİM OĞLU......170
MƏMMƏDƏLİYEV VASİM MƏMMƏDƏLİ OĞLU......172
MƏMMƏDOV PƏRVİZ ZİYA OĞLU......174
MÜSEYİBOV MÜSEYİB AĞABABA OĞLU......177
MEHDİYEV MƏHƏMMƏD FƏRMAN OĞLU......179
MUSTAFAYEV QARA TEYFUR OĞLU......182
MURADOV BABAXAN SULTAN OĞLU......184
MƏMMƏDOV FELİKS VƏLİ OĞLU......186
MƏMMƏDOV ƏZİZ VƏLİ OĞLU......187
MƏMMƏDZADƏ RƏFAEL BƏHRAM OĞLU......188
MİRZƏYEV MİRZƏ SƏMƏD OĞLU......190
MƏMMƏD NÜTVƏLİOĞLU MUSTAFAYEV......192
MƏMMƏDOV FƏXRƏDDİN NƏRİMAN OĞLU......194
MİRİYEV AKİF FƏRMAN OĞLU......195
MƏMMƏDOVA ŞƏRQİYYƏ BEHBUD QIZI......197
MUSTAFAYEVA ZƏMİNƏ QARA QIZI......199
NƏBİYEV BƏKİR ƏHMƏD OĞLU......200
NAMAZOVA ADİLƏ......203
NƏBİYEV AZAD MÖVLUD OĞLU......205
MUSAYEV PAŞA İSMAYIL OĞLU......207
RƏHİMOV HƏMİD ƏHMƏD OĞLU......209
RZAYEV ANAR RZA OĞLU......211
SÜLEYMANOVA ELMİRA TEYMUR QIZI......212
SALAHOV TAHİR TEYMUR OĞLU......214
SEYİDOV SƏMƏD İSMAYIL OĞLU......215
SÜLEYMANOV ƏLİ MAHMUD OĞLU......217
SUSANNA NƏCƏFQULU QIZI RƏHİMOVA (NADİROVA)......219
SADIQOV CAVANŞİR ŞÜKÜR OĞLU......220
TEYMURLU MƏHƏMMƏD ƏBDÜLƏZİZ OĞLU......221
TƏHMƏZOVA MARİYA KÜBAR QIZI......224
VƏKİLOV SƏMƏD YUSİF OĞLU......225
VERDİYEVA ZEMFİRA NADİR QIZI......227
VAHABZADƏ BƏXTİYAR......228
VƏLİYEV TOFİQ TALIŞ OĞLU......229
VƏLİYEV YAVƏR XANHÜSEYN OĞLU......232
SƏFƏROV MƏTLƏB İBİŞ OĞLU......235
YUSUBOV ƏLFRAT HÜSEYN OĞLU......237
ŞƏMKİRLİ MƏHƏRRƏM İSRAFİL OĞLU......239
MÜƏLLİFDƏN......241



**"Bayramoğlu"**
Nəşriyyat-poliqrafiya müəsisəsi

**Baş direktor: Səbuhi Aslan**

***Texniki redaktor:*** Sevinc Aslanova
***Dizayn:*** Sənan Bayramoğlu
***Operator:*** Esmira Fərəcova
***Korrektor:*** Şeyda Rafiqqızı

Bakı, Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı III mərtəbə,
"Elm və Zəka" qəzeti redaksiyası.
Tel: (012) 510-83-26, 418-82-88; (050) 678-63-68

Yığılmağa verilib:12.03.2011
Çapa imzalanıb: 16.10.2011
Şərti çap vərəqi 4. Fiziki çap vərəqi 16
Ofset çap üsulu. Əla növ kağız.
Sayı 100. Qiyməti müqavilə ilə

Az 2011
1670



*Nəzakət Ələkbərqızı Şəki şəhərində mötəbər bir ailədə anadan olmuşdur. «Qızıl qələm» media mükafatı laureatı, «Elm və Zəka» qəzetinin redaktoru, «İctimai fikir» jurnalının baş redaktoru, Dünya Azərbaycanlıları Konqresinin Qadınlar Şurasının sədr müavinidir.*

*Nəzakət xanım 4 kitabın müəllifi, onlarla kitabın redaktorudur. Hazırda 5-ci kitabı üzərində işləyir.*

*Nəzakət Ələkbərqızına yaradıcılıq işlərində yeni-yeni uğurlar arzulayırıq.*

920